Ceyhun Çingizoğlu

# BÖYÜK TÜRKLƏR

- 10615 -
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı - 2012

63.3-8
Ç 58

Redaktor: Vasif Musayev
Korrektor: Nurəddin Əliyev

Ceyhun Çingizoğlu "Böyük Türklər". səh 328 Bakı 2012-ci il.

*Əziz oxucu, Sizə təqdim edilən "Böyük Türklər" əsəri özündə Türk Dünyasının 77 böyük insaların həyatını əks etdirir. Sözü gedən insanların hər birinin həyatı günümüzdə də böyük maraq və tədqiqatların mövzusudur. Çünki bu insanların bəziləri dünyada, bəziləri isə Türk Dünyasında özünəməxsus iz qoymuşdur. Sizi əfrarəngiz və çox maraqlı faktlarla zəngin olan "Böyük Türklər" əsəri ilə baş-başa buraxırıq.*

© Çingizoğlu, 2012



# ÖN SÖZ

Əziz oxucu, bu adda, bu məzmunda çoxlu sayda kitablar nəşr olunub. Türkiyədə də, bizdə də, digər türk dilli ölkələrdə də. Ancaq həmin kitabların demək olar ki, hamısında üstünlük kitabın nəşr edildiyi ölkələrin insanlarına verilib. Məsələn, Türkiyədə bu adda nəşr olunan kitabların içindəki şəxsiyyətlərin doxsan faizini Osmanlılar təşkil etməkdədir. Ən fəna cəhəti isə odur ki, həmin bioqrafik oçerklər deletantlar tərəfindən yazılır və məzmunca sönük olurlar. Heç bir şəxsiyyətin tarixi rolu, istedadının qüdrəti lazımınca açılıb göstərilmir və təhlil olunmur. Türkiyədə çap olunan kitablar bu cəhətdən xüsusilə seçilir.

"Böyük Türklər" kitabında C.Çingizoğlu bu cəhətdən tamamilə seçilir və bütün şəxsiyyətlərə obyektiv yanaşır. Yəni, həm bütün türk dilli xalqların böyük nümayəndələri seçilmiş, həm də onların öz xalqlarının və dünya tarixindəki rolları dərindən təhlil olunmuşdur. Bu cəhətdən C.Çingizoğlunun əsəri cəsarətlə demək olar ki, kitab nəşri tariximizdə unikal hadisədir. Yazıçı-puplisist bütün şəxsiyyətlərə eyni dərəcədə ciddi, eyni dərəcədə rəğbətlə yanaşmışdır. Və onların hamısına öz xalqının oğulları kimi münasibət bəsləmişdir. Lakin, əlbəttə əksəriyyəti uzaq dövrlərdə yaşamış olan bu böyük simalar haqda bioqrafik məlumatların azlığı da kitaba öz təsirini göstərmişdir. Ona görə də bütün bioqrafik oçerkləri eyni dərəcədə dərin və güclü bir qələmin nümunəsi hesab etmək düzgün olmazdı.

C.Çingizoğlu, haqlarında yüzlərlə söz deyilmiş şəxsiyyətlərə yalnız özünəməxsus formada qiymət vermiş, onların fəaliyyətlərini və ya yaradıcılıqlarını təhlil etmişdir.

Təbii ki, Azərbaycan xalqının şəxsiyyətləri daha dərin, daha ehtirasla qələmə alınmışdır. Kitabın uğurlu alınmasında C.Çingizoğlunun uzun illər türk tarixinin araşdırılması ilə məşğul olması və bu sahəyə aid çoxlu sayda puplisistik yazılar, oçerklər, esselər yazması mühüm rol oynamışdır. Azərbaycanda özünü türkşünas, türk tarixinin bilicisi hesab edənlər çoxdur. Belələrinin bəziləri həqiqətən də bu sahənin bilicisidir. Lakin onların heç birinin qələmi C.Çingizoğlunun qələmi qədər ehtiraslı deyil. Quru sözləri ordan-burdan yığıb döşəmək elə bir hünər deyil. Ceyhunun oçerklərində obrazlı deyimlər, ehtiraslı, mənalı ifadələr bütün bioqrafiyalarda özünü göstərir. Bu kitab, təkcə həvəskarlar üçün deyil, türkoloqlar və tələbələr üçün deyil, müəllimlər üçün də dəyərli bir vasitə olacaqdır. Sadəcə onu oxumaq hər növ oxucuya böyük zövq verəcəkdir.

Kitabı oxuyub qurtarandan sonra türk xalqlarının son 2500 il ərzində yetişdirmiş olduqları bu şəxsiyyətlərin öz əməlləri ilə bütün türk dilli xalqların necə bir-birlərinə yaxınlaşdırdığının şahidi olacağıq. Kitabda yer alan şəxsiyyətlərin çoxunu, - Attila, İbn Sina, Fərabi, Zərdüşt, Çingiz Xan və başqalarını özbək, qazax, qırğız olmasından asılı olmayaraq hamı özününki hesab edir. Attilanı isə hətta bütün keçmiş SSRİ ərazisində yaşayan türk xalqlarının hamısı özününki hesab edir. Bir daha qeyd edirik ki, kitabın nədən danışması əsas deyil, əsas olan onun necə danışmasıdır.

Bir də kitabda Zərdüşt, Ü.Hacıbəyov, M.Maqomayev, Q.Səid, M.Auezov, M.Şəfi, B.Manço kimi şəxsiyyətlərin adları ilk dəfə olaraq türk böyükləri kimi bir kitabda toplanıb. Doğrudan da axı bütün Avropanın ədəbiyyat aləminə vəlvələ salan M.Şəfi və ya Q.Səidi unutmaq o cümlədən də dahilərin arasında belə, seçilən Üzeyir bəy kimi dahini unutmaq ən azı günah deyilmi?





Elə bilirik ki, kiçik tirajla və necə çətin bir şəraitdə nəşr olunan bu kitabın qədir bilən oxucular üçün necə zövq və sevinc mənbəyi olacağına şübhə etməməyə heç bir haqqımız yoxdur.

**H.QAFAROV**
*Pedoqoji Elmlər Namizədi.*
*Dossent*

## MÜƏLLİFDƏN

Əziz oxucu, bu kitab bütün mənalarda qeyri-adidir. Burada yer alan bütün bioqrafiyalar, onların sahibləri kimi bir-birinə bənzəməsələr də öz forma və məzmunlarına görə də bir-birindən seçilirlər. Bu məzmunda çoxlu sayda kitab nəşr olunsa da, əlinizdəki kitabın sözü gedən kitabların hamısından fərqli olduğunu və seçildiyini görəcəksiniz. Bunun səbəbi isə bizim bu mövzuda yazılmış bütün başqa kitablardan fərqli olaraq bu böyük şəxsiyyətlər haqda boş söz, məzmunsuz fikir qələmə almamağımızdır. Kitabda yer alan 77 Türk Böyüyünun hər birinin özünəməxsus böyüklüyünü xüsusi bir formada əks etdirməyə çalışmışıq.

Dəyərli oxucu, səni təəccübləndirə bilər ki, müxtəlif türk xalqlarına məxsus olan böyük insanlar ki, kitabımızda əbədiyyətə qovuşur, demək olar ki, böyük əksəriyyəti çoxdan yaşamış və dünyamızı tərk etmişlər.

Ancaq neyləməli, bütün böyüklər gec-tez tarixin sərvətinə çevrilir və Tanrının bu qanunu dəyişməzdir. Hətta almanlar, ingilislər və fransızlar kimi böyük və ləyaqətli millətlərin belə, günümüzdə gözədəyən, dünyanı heyrətə salan oğulları dünənə nisbətən qat-qat azdır. Bəlkə də bu ona görədir ki, biz müasirlərimizə obyektiv qiymət verə bilmirik, onları olduqları kimi görə bilmirik. Axı tarix belə nümunələrlə zəngindir. Məsələn, axı kim deyə bilərdi ki, yazdıqları yaşadığı zamanda heç kim tərəfindən anlaşılmayan və oxunmayan Frans Kafkanın, bir zaman gələcək yazmış olduğu "Qəsr" əsəri XX əsrin ən böyük ədəbi nümunəsi hesab ediləcək?

Kitabda ilk dəfədir ki, bütün türkdilli xalqların nümayəndələrinə yer ayrılmışdır. Ancaq hələ çox belə görkəmli insanlar





kənarda qaldı. Müxtəlif səbəblərdən onların hamısını toplayıb kitaba salmaq imkanımız olmadı. Həm texniki, həm də çəkdiyimiz maddi çətinliklər təəssüf ki, buna imkan vermədi. Lakin çalışacağıq ki, kitabın gələcək nəşrlərində bu kimi çatışmamazlıqların yerini dolduraq.

Siz oxucular kitabla tanış olduqdan sonra açıq-aşkar görəcəksiniz ki, biz necə şablonlardan qaçmışıq. Şan-şöhrətləri böyük olsa da, mahiyyətcə buqələmun olan şair, yazıçı və siyasətçilər bizim süzgəcimizdən keçə bilməzdilər. Axı necə ola bilər ki, bütün varlığını, bütün istedadını sovet rejiminə, onun əsarət və köləlik mahiyyətinə həsr edənlər, həmin rejimin antipodu olan müasir Azərbaycan Respublikasında da eyni qiymət və şərəfə layiq görülsün? Şübhəsiz ki, həyatın özü həmin adamların hələ də Bakı meydanlarını bəzəyən heykəllərini aşıracaqdır. Doğrudan da gülməli deyilmi, Leninin heykəli aşırılsa da, Lenin və Leninizmin məddahı olanların heykəlləri hələ də əlini uzadıb bizlərə yol göstərməkdədir. Bizim kitabımızda təbii ki, belələrinə yer ola bilməzdi.

Kitabı qələmə almağa başladığımız andan etibarən biz çalışmışıq ki, bütün rejimlər üçün qiymətli olan M.Fətəli Axundov, Mirzə Şəfilər haqda nəsə standart basmaqəlib sözlər işlətməyək. Onların böyüklüyünü və gözəlliyini aydın şəkildə ifadə edək. Bir də kitabda yer alan böyüklərimizi yaşadıqları dövrdən asılı olaraq qədimdən cavana düzdük. Bundan başqa sayqı dəyər böyüklərimizi üç bölgəyə ayıraraq qələmə aldıq. Belə ki, kitabın birinci bölməsində Azərbaycandan olan böyüklərimizə, ikinci bölməsində Anadoludan olan böyüklərimizə, üçüncü bölmədə isə Orta Asiyadan çıxmış böyüklərimizə yer verdik. Bununla yanaşı, Rusiya ərazisində yaşamış və orada yetişmiş bəzi Türk Böyüklərini də Orta Asiya bölməsinə daxil etdik.

Əziz oxucu, hər halda sənin şüurun küçələrdə vüyllənən kütlə nümayəndələrindən az və ya çox dərəcədə yüksəkdir ki,

sən bu kitabı əldə edib evdə ləzzətlə oxuyursan. Oxuduqca da daha yaxşı anlayırsan və görürsən ki, mənsub olduğumuz millətimizin də göydə parlayan və daim işiq saçan oğulları var. Milliyyətçiliyin və millətsevərliyin mahiyyəti də elə bundadır.

Son olaraq əlinizdəki kitabın ərsəyə gəlməsində bizə köməyi və dəstəyi olmuş bütün insanlara öz minnətdarlığımızı bildiririk.



# AZƏRBAYCANIN BÖYÜK TÜRKLƏRİ

## ZƏRDÜŞT
*e.ə. VII - VI əsrlər*

"İndi sözə başlayıram, düşüncəli, müdrik adamların yadda saxlamalı olduğu sözləri eşitmək istəyənlərə Əhuraya sitayişdən, Bəhmənə duadan söz açır, bu sözləri başa düşüb sevinən, doğruluğa və işıqlığa çata biləcək adamlara danışıram"

***"Avesta" (30-cu qat)***

"Ululardan ulu Hörmüz! Gündüz sənin üzündür, günəş odlu gözündür, yaz sənin nəfəsindir, hər ocaq, hər tonqal, hər məşəl sənin övladındır! Mərhətəmt eylə mənə, duamı yerə salma, məni məğlub eləmə!"

***Zərdüştün duası***

Eramızdan əvvəl VII əsrin əvvəllərində artıq dünyada ilk ehramlar ucaldılmış, ilk dini və dünyəvi əsatirlər yaradılmışdı. Bütün bunları yaradan Şumerlər isə özlərinin möhtəşəm tarixlərini və sivilizasiyalarını gil lövhəciklərə köçürdərək artıq çoxdan tarix səhnəsini tərk etmişdilər. Anadolu hetləri də yalnız qonşu xalqların xatirələrində yaşayırdılar. Hetlərin, İtalıyanın şimalına köçən övladları isə burada "tuskilər" adı altında tamamilə yeni bir sivilizasiya yaratsalar da, əcdadları kimi yenə nənəyə "nənə", oğlana "oğlan", akkaya (atalığa) "akka" deyirdilər.

Bu, artıq o zaman idi ki, ulu Türk ocaqlarından biri olan Elam, assur aslanlarının zərbələri altında xarabazara dönüb tüstülənirdi. Ancaq bu, beş əsrdən bəri Şərqi tapdaq altında qoyan assuriyalıların son parıltıları idi. Belə bir zamanda Tanrıdan başqa heç kimə bəlli deyildi ki, cəmi on ildən sonra





elamların qan qardaşları olan midiyalılar onlara elə bir divan tutacaq ki, tarix boyu heç kimin yadından çıxmayacaqdır.

Dünya böyük sarsıntı və dəyişiklik ərəfəsində idi. Belə ki, dünyanın gözlərini Ağbatanda yenicə doğmağa başlayan yeni imperiya günəşinin şəfəqləri qamaşdırmaqda idi. Qədim Midiyada isə tamamilə fərqli, başqa bir Günəş doğmaqda idi. Bu Günəş ordu, silah, güc günəşi deyil, idrak və zəka Günəşi idi.

Bu Günəşin adı isə Zərdüşt idi. Bu insan kimdir? Əslən haralıdır? Rus-sovet şərqşünaslarından başqa dünyanın əksər tədqiqatçılarının, o cümlədən də etibarlı və tutarlı mənbə hesab etdiyimiz ingilis şərqşünası Caksonun fikrincə, bu qıdim peyğəmbər, Azərbaycanda - Savalan dağları ətrafında dünyaya gəlib. Onun usaqlıq və gənclik illəri də məhz bu ərazidə keçib.

Rəvayətə görə Zərdüşt, iyirmi yaşına çatanda tənhalığa çəkilmiş və on il ərzində ozünün dini dünyagörüşünü formalaşdıraraq gil lövhəciklərə yazmışdır. Yalnız bundan sonra o, yenidən insanların arasına qayıtmışdır. Dərhal da öz həmvətənləri arasında özünün yeni dini dünyagörüşünü yaymağa çalışmışdır. Ancaq vətənində məqsədinə çata bilməyən Zərdüşt, təxminən otuz yaşına çatanda doğma vətənini tərk etməyə məcbur olmuşdur. Tale onun yolunu Bəlx şəhərinə ( indiki Əfqanıstanın şimalında qədim Baktriyanın paytaxtı ) salana qədər, olduğu bütün ölkələrdə öz dinini təbliğ etməyə çalışsa da, müvəffəqiyyət ondan üz döndərib. Nəhayət, Bəlx şəhərində tale onun üzünə gülmüşdür. Düzdür, burada da onun işləri o qədər də asan getməmişdir. Belə ki, ilk vaxtlarda burada da Zərdüşt böyük narazılıqla qarşılaşmışdır. Ancaq sonradan onun gətirdiyi yeni din, vətənində də yayılmağa başlamış və elə öz xalqının dilində bu yeni dinin qanunları öküz dəriləri üzərinə yazılmışdır. Bəs yeni dinin orijinalı hansı dildə olub? Günümüzdə əldə olan "Avesta" parçaları elə Avesta dilindədir ( İran dilləri qrupuna daxil olan xüsusi bir dildir). Bu dilə

"Avesta"dan başqa heç bir yerdə rast gəlinmir. Hələ Səsani İmperiyası zamanından bu dil, ölü dil hesab edilirdi. Qədim Atropatendə öküz dərilərinə üzü köçürülən qədim nüsxə Makedoniyalı İsgəndərin, Persopolu(İstəxri ) zəbt etməsindən sonra yandırılaraq məhv edilib. Ancaq qədim parslar "Avesta"nın bəzi nüsxələrini qoruyub saxlaya bilmişlər. Bununla yanaşı onlar kitabı orta fars dilinə də tərcümə ediblər. Ərəb Xilafətinin İranı işğal etməsindən sonra isə onlar bu kitabı özləri ilə Hindistana apardılar. Hazırda əldə olan "Avesta" məhz həmin parçalardan ibarətdir. Bütün bunları söyləməkdə məqsədimiz, "Avesta"nın yaradıcısının kitabı məhz öz ana dilində, yəni Azərbaycan dilində yazması fikrini təsdiq etməkdir. Belə ki, "Avesta"da olan fəsillər "qat"lar adlanır. Bu söz çübhəsiz ki, üst-üstə yığılan öküz dərilərinin qatları deməkdir və təmiz türk kəlməsidir. Başqa bir fakt isə "Avesta"da göydən xəbər gətirən və göyə müraciət edilən zaman sorğuya cavab verən mələkənin adı Soruşdur. Nəhayət, bizdən min il əvvəl yaşamış fars şairi Firdovsi, "Avesta" qəhramanlarının tarixini təsvir edərkən Zərdüşt dövründə turanlıların hər yerdə türk dilində danışdıqlarını qeyd edib. "Avesta"nın orijinalının hansı dildə yazılması və Zərdüştün hansı millətə mənsub olması haqda çox yazılıb. Xüsusən də Avropada! Məşhur linqvist-şərqşünas Maks Müllerin ""Avesta"da turan elementləri" məqaləsi də sözü gedən əsərin ilkin variantından qalan Turançılıq izlərinin tədqiqinə həsr edilib. Sözlərimizə daha bir əsaslı arqument odur ki, tarix boyu farslar heç bir dərin fəlsəfi və dini dünyagörüş yarada bilməyiblər. Belə ki, Zərdüşt başda olmaqla bütün ərəb və fars dilli fəlsəfi dünyagörüşün yaradıcıları milliyyətcə məhz türklərdir. Bu kimi mütəfəkkirlərə misal olaraq, Fərabini, İbn Sinanı, N.Tüsini, Bəhmənyarı, Birunini göstərmək olar. Yuxarıda qeyd etdik ki, Ərəb Xilafətinin İranı işğal etməsindən sonra qədim parslar "Avesta"nın qalıqlarını özləri ilə Hindistana apardılar.





Burada da onlar "boş oturmayaraq" bu qədim türk əsərini farslaşdırmaqla məşğul olublar. Onlar əsərdə adı keçən toponimləri də özləri bildikləri kimi dəyişdiriblər. Məsələn, qədim Azərbaycan şəhəri olan "Gəzən", birdən birə "Avesta"da dəyişdirilərək "Caeçasta" olub. Bütün bunları bir kənara qoyub, qayıdaq Zərdüştə və onun dininə.

Zərdüştün dünyagörüşünə görə kainat iki qüvvənin - xeyir allahı Hörmüz və şər allahı Əhrimənin hökmüylə idarə olunur. Biri işıq allahı, o biri isə zülmət allahıdır. Hörmüz dünyanı yaradanda bütün xeyirxah canlıları və onların xeyirxah əməllərini yaradıb. Əhrimən isə əksinə. Hörmüz həyatı, istini, xeyirli bitkiləri, çəmənlikləri, çayları yaradıb. Əhrimən isə ölümü, yırtıcı heyvanları, zəhərli bitkiləri, tufanı, soyuğu, xəstəlikləri yaradıb. Bu iki qüdrətli yaradıcı arasında mübarizə uzun illər davam edir və sonda xeyir allahının və onun pərilərinin qələbəsi ilə başa çatır. Lakin Əhrimən də tam məğlub olmur və özünün şər əməlləri ilə bəzən insanlara təsir edir. Zərdüşt daim əkinçi əməyini və oturaq maldarlığı tərif edib, güclü hakimiyyətə əsaslanan siyasi birliyə tərəfdar çıxıb. Eyni zamanda Zərdüşt, daim çoxallahlılığı inkar edərək, Hörmüzə arxalanan təkallahlılığı təbliğ edib.

Zərdüşt haqda olan yazının sonunda onu demək istərdik ki, Türk Millətinin tarixini saxtalaşdıran (xüsusən də fasrlaşdıran) və ya buna cəhd edənlər bilməlidirlər ki, Zərdüşt milliyyətcə türk, onun kitabı olan "Avesta" isə məhz türk dilində yazılmış əsərdir. Maraqlananlar üçün deyə bilərik ki, sözü gedən əsərin kiçik də olsa bəzi nüsxələrini fars dilindən tərcümə etmiş olan İsmayıl Şəmsin tərcüməsindən oxuya bilərlər. Bu zaman görəcəksiniz ki, əsərdə nə qədər Türk motivləri vardır.

## BABƏK
### *195 - 838*

> *"Qırx il qul kimi yaşamaqdansa, bir gün azad yaşamaq yaxşıdır".*
>
> *Babək*

Azadlıq, müstəqillik, məfkurə dönməzliyi rəmzi olan Babək, (əsl adı Həsən olub) Cənibi Azərbaycanın Qaradağ vilayətinin Bilalabad kəndində dünyaya gəlmişdir. O, gəncliyində sarban olmuş, daha sonra isə ticarətlə məşğul olmuşdur. 816-cı ildə Xürrəmilər hərəkatının başçısı və Bəzz qalasının sahibi olan xırda feodal, Cavidan İbn Səhl öldürüldükdən sonra Babək, ərəblərə qarşı üsyan qaldırmış və xilafətə qarşı mübarizəyə başlamışdır. Təəssüflər olsun ki, bu Böyük Türk haqda olan məlumatlar yalnız ərəb mənbələrində qalmışdır. Bu mənbələrdən əldə edilən məlumatlardan belə məlum olur ki, Babək, fiziki cəhətdən fövqəladə dərəcədə qüvvətli bir insan, azadlığı və əyilməzliyi həyatda hər şeydən üstün tutan qeyri-adi natiq və igid şəxsiyyətdir. Onun iradəsi, gücü və ruhi əzəməti hətta düşmənləri tərəfindən heyrətlə qarşılanıb. Lakin Babəkin sərkərdəlik məharətini, taktiki və strateji planlarını və onların geniş təsvirini təəssüflər olsun ki, müəyyən etmək mümkün deyildir. Belə ki, Babəkin pis silahlanmış, təcrubəsiz ordusu, neçə illik döyüş təcrübəsi olan və dövrün ən mükəmməl silahları ilə silahlanmış ərəb ordusuna necə qalib gəlməsi hələ də müəmma olaraq qalmaqdadır.





Məhz buna görə də Babəkin döyüş və qələbələrini yalnız sadalamaqla kifayətlənməli oluruq.

Ucu-bucağı olmayan bir imperiya - sərvəti, orduları, ehtiyatları tükənməz bir dövlətlə iyirmi illik mübarizənin səbəbini yalnız idellara bağlamaq düzgün olmazdı. Çünki ərəblərin də idealları var idi və kafirlərlə döyüşdə ölmək onlara cənnət ved edirdi. Xürrəmilərin isə ölümdən sonra belə bir xoş həyata inamları yox idi. Babək, tanınmış və təcrübəli ərəb sərkərdələrindən olan Yəhya İbn Müaz, İsa İbn Məhəmməd, Züreyq İbn Əli, Əhməd İbn Cüneyd, Məhəmməd Ət-Tusi, Buğa Əl-Kəbiri və başqalarını dəfələrlə məğlubiyyətə uğramışdır. Təxmini hesablamalara görə Babək, ərəb xilafətinə qarşı apardığı döyüşlərdə yarım milyon ərəb döyüşcüsünü məhv etmişdir. Elə bu rəqəm özü-özlüyündə çox şeydən xəbər verir.

Mənbələrin məlumatlarından belə məlum olur ki, Babəkin əsas müttəfiqlərindən biri məhz elə təbiət özü olmuşdur. Belə ki, ətrafı daha yaxşı tanıyan Babək və onun sərkərdələri dağlar arası yollarda asanlıqla pusqu qurur, ərəb qoşununun ərzaq ehtiyatını ələ keçirərək onları çətin vəziyyətlərə salırdılar. Təsadüfi deyildir ki, ərəb xilafətinin başına keçən xəlifə Mötəsim, xürrəmilərlə neçə illərdən bəri aparılan mübarizənin taktikasını dərhal dəyişmişdir. Belə ki, o, Bizans ilə sülh müqaviləsi bağlayaraq bütün gücünü Babəkə qarşı mübarizəyə yönəltmişdir. Bundan sonra o, orduya rəhbərliyi təcrübəli və sınaqdan çıxmış, İslamı qəbul etmiş türk sərkərdələrinə həvalə etdi.

Babəkin başlatmış olduğu mübarizənin məğlub olmasının digər bir səbəbi isə onun ən sadiq və təcrübəli sərkərdələri olan Tərxan, Müaviyyə və başqalarının həlak olması, alban və erməni knyazlarının isə sonradan ona qarşı satqınlıq etmələri idi. Ümumiyyətlə isə qüvvələr qeyri-bərabər olduqda zəif tərəf gec-tez məğlub olmağa məhkumdur. Babəkin də qaldırdığı üsyan bundan artıq duruş gətirə bilməzdi. Belə ki, onun

ətrafında birləşən insanları, ümumiyyətlə isə o dövrdə Azərbaycanın bütün əhalisini vahid və yekdil ideologiya birləşdirmirdi. Belə ki, bu dövrdə Azərbaycan əhalisinin bir hissəsi xristian, bir hissəsi Zərdüşt dininə, bir hissəsi isə İslama sitayiş edirdi ki, bu da əhalinin vahid ideologiya ətrafında birləşdirilməsinə mane olurdu. Bütün bu inancları isə xürrəmilik içində əridib yox etmək mümkün deyildi. Bunun qarşılığında isə ərəblərdə bu sahədə hər şey qaydasında idi. Belə ki, bütün ərəblər Məhəmmədin vəd etdiyi cənnətə düşmək arzusu ilə ölmək üçün dünyanın bir başından digər başına məmnuniyyətlə gedirdilər.

Bu və ya bu kimi səbəblərdən dolayı ərəbləri Azərbaycan ərazisindən tam olaraq silib atmaq mümkün olmadı. Belə ki, yeni qurulmuş olan xilafətin istənilən qədər gücü var idi və üsyanları yatıtrmaq üçün yerlərə daim yeni-yeni qüvvələr göndərilirdi. Bu isə təbii olaraq xalqın mübarizə əzmini qırırdı. Və nəhayət, üsyanın bütün ağırlığı və uğuru yalnız Babəkin çiyinləri üzərində idi. Düzdür, o zaman Babək gənc, güclü və möhkəm iradəyə sahib idi. Ancaq nə qədər olmasa da tək idi. Onun Tərxan kimi sərkərdələri daha çox olmalı idi ki, bu da o zaman mümkün olmadı. Nə qədər ki, Tərxan kimi sərkərdələr sağ idi, xürrəmilər məğlubiyyət nə olduğunu bilmirdilər. Elə ki, onlar vəfat etdilər, Babək mübarizə meydanında tək qaldı. Sizi inandırırıq ki, əgər Babəkin yanında daha on dənə Tərxan olsaydı, xilafət Azərbaycanda daha böyük çətinliklərlə qarşılaşardı.

Tərslikdən xəlifə Mötəsim, özündən əvvəlki xəlifələrdən daha hiyləgər çıxdı və heç bir gücə baş əyməyən Türk oğlu Babəki, digər bir türk sərkərdəsi olan Afşinlə üz-üzə qoydu. Babəkdən fərqli olaraq, Afşin həm hiyləgər, həm də siyasətçi idi. Düzdür, mənbələr Afşinin, Babəkə birləşmək təklifi verdiyini göstərməkdədir. Belə ki, Afşin də İslamı üzdə qəbul edənlərdən idi, və babaları Göy Türklər kimi Göy Tanrı inancını daşımaqda idi. O, Babəkə birləşərək xəlifəyə qarşı çıxmaq təklifini





versə də, Babəkin kompromisə getməmək kimi tərsliyi buna imkan verməmişdir. Ümumiyyətlə isə bu iki insan xasiyyət və xarakter etibarı ilə də tamamilə başqa-başqa insanlar idilər. Məqsədləri də xarakterləri kimi tam başqa olduğundan, çətin ki, bu iki türk sərkərdəsi birləşə biləydi.

Belə bir vəziyyətdə mübarizənin mənasızlığını anlayan Babək, ən azından özünü və ailəsini xilas edə bilərdi. Belə ki, xəlifə onun canına toxunulmayacağı haqda zəmanət də göndərmişdi. Ancaq Ustad Əlisa Nicat demişkən: "Babək xüsusi materialdan hazırlanmışdı və əyilməzlik, satılmazlıq, sarsılmazlıq abidəsi idi".

Babək əsir düşdükdən sonra Afşin onu İraqa aparmamışdan əvvəl son arzusunun nə olduğunu soruşmuşdur. Bunun qarşılığnda Babək cavab vermişdir ki, mən öz şəhərimə baxmaq istərdim. 837-ci il sentyabrın 15-də Babək sonuncu dəfə Bəzz qalasının qalıqlarına baxdıqdan sonra xilafətin paytaxtı Samirə şəhərinə aparılır. Bu Böyük Türk, Samirə şəhərində xəlifə Mötəsimin əmri ilə doğranmışdır. Onun edam zamanı göstərdiyi dözüm və iradə isə tarixi mənbələrdə heyranlıqla təsvir olunmuşdur. Ümumiyyətlə isə Babəkin bir şəxsiyyət kimi varlığı, sərkərdəlik qabiliyyəti, ölümü dünya azadlıq mübarizəsi tarixində unikal və müstəsna hadisədir.

10615

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

## BƏHMƏNYAR ƏBÜLHƏSƏN
***993 - 1066***

Böyük Azərbaycan filosofu. Qərbdə Aristotelin, Şərqdə isə İbn Sinanın davamçısı hesab edilir. Həyatı haqda məlumat demək olar ki, yox dərəcəsindədir. Bu da təbii ki, təəccüblüdür. Bu böyük filosofun əsərlərinin üzü dəfələrlə köçürülsə də, tərcümə edlilsə də, bu əsərləri yaradan insan haqda yazmaq heç kimin ağlına gəlməyib. Onun haqda olan yalnız kiçik bir əhvalat günümüzə qədər gəlib çatıb. Rəvayətə görə günlərin birində Şərqin böyük dühası İbn Sina dəmirçixanada oturarkən Bəhmənyar buraya gəlir və dəmirçidən od istəyir. Bunun qarşılığında dəmirçi Bəhmənyara deyir: "xəkəndaz gətir ki, sənə od verə bilim". Bundan sonra Bəhmənyar yerə əyilərək ovcunun içini torpaqla doldurur və üzünü dəmirçiyə tutaraq deyir: "budur mənim xəkəndazım". Bu hadisənin təsadüfi şahidi olan İbn Sina bu əhvalatdan sonra Bəhmənyarı özünə şagirdliyə götürür. Bundan sonra Şərqin bu iki mütəfəkkirinin taleyi bir-birinə bağlanmış olur. Bəhmənyarın yaratmış olduğu əsərlərin tərcümələri və əlyazmaları günümüzdə dünyanın məşhur muzey və kitabxanalarının incisi hesab edilir. Onun əsərlərinə misal olaraq "Təhsil kitabı"nı, "Gözəllik və səadət kitabı"nı, "Məntiqə dair zinət kibı"nı, "Musiqi kitabı"nı, "Metafizika elminə aid traktat"nı, "Mövcudatın mərtəbələri" əsərlərini göstərmək olar.

Ümimiyyətlə götürdükdə Məhəmməd Füzuli, Şərqin bir çox şairləri üçün tilsim rolunu oynayıbsa, Aristotel də ərəb dilli filosoflar üçün eyni tilsim rolunu oynayıb. Belə ki, bütün bu filosoflar Aristotelin fəlsəfəsindən və dünyagörüşündən kənara





çıxa bilməyiblər. Təbii ki, bu kimi fatklar Azərbacan və Azərbaycan fəlsəfəsi üçün böyük fəxrdir. Çünki Aristotelin fəlsəfəsinə nəinki hansısa şərhi yazmaq, hətta onu başa düşmək belə, insanda böyük məharət və zəka tələb edir. Bu həm də ona görə fəxr edilməli olan fakttır ki, Azərbaycan kimi kiçik bir ölkədə də Aristotelin davamçıları və ardıcılları olub.

Bəhmənyar yazır ki, hər bir şeyin səbəbi və nəticəsi var, bədən əqlin sayəsində mövcud olur, mövcudat zəruri və mümkün olandır. Hadisələrin səbəbi ilə tanış olduqda hər şeyin zərurətdən yarandığını görmək olar. Nəyin ki, mahiyyəti var, deməli o nəticədir. Hərəkət zamana görə deyil, zaman hərəkətə görə müəyyən olunur və s. Orta əsrlərdə Bəhmənyarın daha çox maraq doğuran əsəri "Gözəllik və səadət traktatı"dır. Bu əsərində o həyata yaxınlaşır, mücərrəd deyil, konkrekt məsələlərdən söhbət açır. Sözü gedən əsərdə müəllif həyatı daha çox işıqlandırır və insanın mənəvi dünyasına daha çox nüfuz edir. Azərbaycanda Bəhmənyarın yaradıcılığı və fəlsəfəsi ilə daha çox filosoflar - Ə.Zəkuyev və Z.Məmmədov məşğul olmuşlar.

## NİZAMİ GƏNCƏVİ
*1141 - 1209*

Azərbaycan şairi və mütəfəkkiri. Gəncə şəhərində sənətkar ailəsində anadan olmuş, mükəmməl şəkildə təhsil almışdır. Nizami, Yunan fəlsəfəsini və Şərq əsatirlərini dərindən öyrənmişdir. O, öz yaradıcılığına lirik şair kimi başlamışdır. Bundan başqa böyük epik poemalarla bərabər, çoxlu sayda qəzəl, qəsidə, rübailər yazmışdır. Nizami Gəncəvinin bütün əsərləri özünün incə lirizmi və orijinallığı ilə seçilir. Bu əsərlərin çox hissəsi fars dilində, çox az bir qismi isə Azərbaycan türkcəsində nəşr edilmişdir. Dünya ədəbiyyatında isə Nizami, əsasən məsnəvi janrında yazdığı "Xəmsə"si ilə məşhurdur. Onun ilk məsnəvisi "Məxzənül əsrar" yəni, "Sirlər xəzinəsi" adlanır. 37 yaşında bitirmiş olduğu poemada ayrı-ayrı hekayə, rəvayət və pritçalar şəklində humanist mənalı əhvalatlar qələmə alınmışdır. Nizami Gəncəvinin ikinci böyük məsnəvisi "Xosrov və Şirin"dir. Bu əsər farsların Sasani hökmdarlarından olan II Xosrov Pərvizin əməllərini mədh edir. Tarixdə işğalçı, riyakar və hiyləgər hökmdar kimi tanıdığımız Xosrov Pərvizi, Nizami Gəncəvi az qala ideal şah kimi təsvur edir və Firdovsi ilə başlanan fars millətçi ideologoyasının təməl daşlarını qoyanlardan biri kimi çıxış edir. Əsərin ikinci qəhramanı isə Alban prensesası Şirindir. Guya eyş-işrətə qurşanan Xosrov Pərviz, məhz bu qadına aşiq olduqdan sonra ədalətli bir hökmdara çevrilir. Nizami Gəncəvi "Xosrov və Şirin"i bitirdiyi ildə Azərbaycan və İran ərazsində hökmdarlıq edən Eldəgizlər sülaləsinin alicənab nümayəndələrindən biri olan Qızıl Arslan şairin görüşünə gəlib onunla xeyli söhbətdən sonra ayrılarkən şairə böyük bir kənd bağışlayır.





Şair də bundan sonra ruhlanaraq Şirvanşah Axsitandan aldığı sifarişlə "Leyli və Məcnun" məsnəvisini yaradır. Ərəb əfsanəsini qələmə alan Nizami, bu poeması ilə məhəbbətin böyük tərənnümçüsü kimi çıxış edib öz iki obrazını - Məcnunu və onun sevgilisi Leylini dillərdə və poeziyada zərb-məsəl kimi məhəbbətdə sədaqət rəmzinə çevirə bilmişdir. Təsadüfi deyildir ki, Nizamidən sonra bu poemanın təsiri ilə Şərqdə onlarla yazılı və şifahi "Leyli və Məcnun" dastanları yaranmışdır.

Türk dilli xalqın oğlu olan, öz xalqı içində yaşayan və nəhayət, Türk sülalərindən biri olan Eldəgizlərdən yüksək hörmət və izzət görən Nizami Gəncəvi, nədənsə riyakar fars-sasani hökmdarlarının cazibəsindən qurtula bilmirdi. Buna görə də onun növbəti "Yeddi gözəl" poeması da fars-sasani sərkərdəsi Bəhram Çubinə həsr olunmuşdur. Real tarixi hadisələri mifoloji dildə qələmə alan şair, Bəhramı, yunan miflərinin qəhramanları səviyyəsinə qaldırmağa çalışmışdır. Əsərdə ən maraqlı və realist obraz Bəhramın vəziri Rast Rövşəndir. Nizami, bu zülmkar, riyakar və hiyləgər obrazda fars millətinə xarakterik olan bütün mənfi obrazlar ümumiləşdirilə bilmişdir.

Nizami Gəncəvinin şah əsəri isə şübhəsiz ki, "İqbalnamə" və "Şərəfnamə" adlı iki hissədən ibarət olan "İsgəndərnamə" poemasıdır. Adından da bilindiyi kimi əsər Makedoniyalı İsgəndərin şərəfləndirilməsindən və əməllərindən bəhs edir. "Şərəfnamə"də İsgəndərin etdiyi müharibələrdən bəhs edilir. "İqbalnamə"də isə ictimai-siyasi, fəlsəfi məsələlərdən danışılır. İnsanlarda, xüsusilə də hökmdarlarda daim daha çox müsbət keyfiyyətlər görmək istəyən şair, heç şübhəsiz ki, poemada İsgəndəri özünün ideal hökmdarı kimi təsvir etmişdir. Belə ki, Nizaminin mövqeyinə görə İsgəndər dünyanı xöşbəxt etmək məqsədilə fəth edir. Demək olar ki, öz hərbi qüdrəti ilə dünyanın bütün hökmdarlarına qalib gələn

İsgəndər, əsərdə həm də dünyanın ən müdrik mütəfəkkiri kimi təsvir edilir. Bəs böyük şair nəyə görə tarixi fatktları az da olsa təhrif etmişdir?

Məsələ burasındadır ki, İsgəndər, dünyada aristotelləri məğlub edəcək dərəcədə müdrik, öz adiliyi və ədalətli hökmranlığı ilə fərqlənən bir hökmdar olmuşdur. Nizami isə belə bir hökmdar arzusunda olmuşdur. İsgəndər də bu obraza uyğun hökmdar idi. Əvvələn məlum olur ki, şair qədim Yunan fəlsəfəsi və elmi ilə mükəmməl tanış olmuşdur. Bu faktın özü də o dövr üçün qeyri-adi hadisə idi. Çünki indinin özündə belə çox az şair və ədib tapılar ki, Antik Yunanıstanın böyük fəlsəfi irsinə bu dərəcədə nüfuz etmiş olsun. Nizami isə həmin fəlsəfəni mənimsəyib yeni fikirlər və müddəalar şəklində əks etdirmişdir.

Nizaminin fars dilində yazıb-yaratmasına gəldikdə isə, əgər o, həqiqətəndə Gəncə şəhərindən və özü də türk olubsa, (şübhəsiz ki, bu belədir) onda ona heç cür haqq qazandırmaq olmur. Nizami Gəncəvi heç olmasa, bir məsnəvisini Azərbaycan türkcəsində yaratmalıydı. Bax onda İran Prezidenti onun türbəsini ziyarət edən zaman "böyük fars şairi" sözünü yaza bilməzdi!





## NƏSİRƏDDİN TUSİ
***1201 - 1274***

*"Mümkün olmayan şeyləri arzu etmə"*

*"Nalayiq həyat keçrmə ki, nalayiq ölüm də ona əlavə edilməsin"*

*"Sənin şəxsiyyətindən xaricdə olan şeylərlə qürrələnməyə adət etmə"*

**N.Tusi**

Azərbaycanın ensiklopedik savada sahib olan mütəfəkkirlərindən biridir. Həmədan və ya Tus şəhərində anadan olması ehtimal edilir. İlk təhsilini atası Məhəmməddən almışdır. Daha sonra isə şəhərin böyük alimlərindən dərs alıb. Əsərləri ilə tanışlıqdan sonra asanlıqla görmək olar ki, Tusi dövrünün bütün elmləri ilə sərbəst şəkildə məşğul olmaq iqtidarında olub. Həyatının müəyyən dönəmindən sonra hansısa səbəbdənsə ( deyilənlərə görə xəstələnən Sohestan şahzadəsini sağaltmaq üçün oğurlanıb aparılıb) ismaililərin yanına gedib. Bir müddətdən sonra isə Ələmut qalasında fəxri dustaq kimi qalmalı olur. Bu qalada keçən iyirmi illik tənha və sakit həyatı ərzində nücum, fəlsəfə, məntiq, ədəbiyyatşünaslıq və başqa elmlərə dair çoxlu əsərlər yazmışdır. Daha sonra isə Nəsirəddin Tusi, vilayətin hökmdarı Rüknəddinin vəziri vəzifəsinə təyin edilib. Bundan sonra dövlət işlərində yaxından və fəal iştirak edir.

Həmin dövrdə bütün Asiya qitəsi daxil olmaqla, Mərkəzi Avropanı bütövlükdə işğal edən tatar-monqollar, nəhayət, Azərbaycana da gəlib çatırlar. Bu böyük imperiyadan payına Azərbaycan və İran düşən Hülakü xan, özünün paytaxtı Təbriz olan dövlətini yaradır. Bütün orta əsr hökmdarları kimi elm və sənətə böyük maraq göstərən Hülakü xan, Nəsirəddin Tusini öz sarayına gətirir. Burada isə Hülakü xan onun məsləhəti ilə Bağdada (Tusi şiə idi və sünnü olan Abbasi xəlifələrindən xoşu gəlmirdi) hücum edir. 1258-ci ildə Bağdada hücum edən Hülakü xan, bu hücumla beş yüz illik Abbasilər xənadanının varlığına son qoyur.

Məşhur tarixçi Rəşidəddin yazır ki, cavanlığında Tusi Bağdada təhsil almaq üçün getmək istəyəndə ərəb canişini buna icazə verməyib. Ərəb canişin guya ona deyib ki: "sənə olmaz". Nəsirəddin Tusi "niyə" sualını verdikdə isə, canişin cavab verib ki: "sənin buynuzun var".

Bağdadı fəth edən tatar xanlarının biri ilə Abbasilər sarayına daxil olan Nəsirəddin Tusini görüb köhnə tanış kimi salamlaşan həmin ərəb canişin - yanındakı kimdir? - deyə soruşduqda, Nəsirəddin - Mənim buynuzumdur - cavabını vermişdir. Bu böyük alimlə bağlı maraqlı bir əhvalat da vardır. Belə ki, Astranomiya elminə böyük marağı olan Nəsirəddin, bu elmlə daha dərindən məşğul olmaq məqsədilə günlərin birində Hülakü xandan rəsədxananın tikintisi üçün vəsait ayrılmasını xahiş edir. Bu zaman isə Hülakü xan ondan, rəsədxananın faydasının nə olacağını soruşub. Bundan sonra Tusi tapşırır ki, xandan başqa heç kimin bilməyəcəyi və heç kimə məlumat vermədən şəhərin hündür bir yerində mis teşti aşağı diyirlətsinlər. Hülakü xanın əmriylə Tusinin bu istəyi yerinə yetirilir. Bu zaman isə yaranan səs-küydən şəhər camaatı qorxuya düşərək evlərindən bayıra qaçırlar. Məsələnin mahiyyətini bilən hökmdarla Tusi isə heç nəyə əhəmiyyət vermədən





yaranmış mənzərəyə baxaraq gülürlər. Bu zaman Tusi, Hülakü xana deyir: "Rəsədxana belə şey üçün lazımdır. Belə ki, heç kimin bilmədiyi və anlamadığı bir çox şeyi sən əvvəlcədən biləcəksən və heç bir narahatçılıq keçirməyəcəksən". Beləliklə də Nəsirəddin Tusi, nəinki Marağa rəsədxanasını yaratmağa müvəffəq olur, o, həm də akademiya sayıla biləcək bir elmi mərkəzin əsasını qoymuş olur. Bundan sonra isə Çindən Bağdada qədər dünyanın bir çox tanınmış astranomları Marağaya gəlmişdir.

Bir müddətdən sonra isə Nəsirəddin Tusi yenidən Bağdad şəhərinə qayıtmiş və oarada xəstələnərək vəfat emişdir. Onun nəşi "Came məscidi"ndə torpağa tapşırılmışdır. Məhəmməd Tusinin çox böyük nəsli olub və onun nəslinin bəzi nümayəndələri hələ də Azərbaycanda yaşamaqdadırlar.

Tusinin 76-ya qədər əsəri günümüzə qədər gəlib çatmışdır. Onun əsərləri Azərbaycanda, Avropa ölkələrində, bəzi Şərq ölkələrində dəfələrlə tərcümə edilərək nəşr edilmişdir. Tusi eyni zamanda triqonametriyanın da banisi sayılır. Onun riyaziyyata və həndəsəyə aid əsərləri Avropa elmi dairələrində yüksək qiymətləndirilmişdir. Onun ulduz kataloqu və astranomiayaya aid olan "Zil Elxani" əsəri isə bu gün də öz elmi dəyərini itirməmişdir. Əlbəttə ki, bu böyük Azərbaycan mütəfəkkirinin ən məşhur əsəri onun mənəvi və əxlaqi məsələləri izah edən "Əxlaqi Nasiri" əsəridir. Alim bu kitabında əxlaqın klasifikasiyasını vermiş, insanın bir varlıq kimi mahiyyətini və yaşayış tərzinin təhlilini vermişdir. Əsərdə geniş həyat prinsipləri tarixdən gətirilmiş sitatlarla əsaslandırılmış və həyati ümumiləşmələr çıxarılmışdır. Əsər dilimizdə və latın qrafikası ilə nəşr edilib.

## İMADƏDDİN NƏSİMİ ( Seyid Əli )
**1369 - 1417**

*Həqq əyan oldu, gəlin həqqi görün!*
*Həqqi batildən seçin, fərqi görün!*
*Bədrimin üzündəki şəqqi görün!*
*Aləmə sığmaz Ənəlhəqqi görün!*

Nəsimi

Azərbaycanın şairi və filosofu 1369-cu ildə Şamaxı şəhərində dünyaya gəlib. O, ilk təhsilini də elə bu şəhərdə alıb. Osmanlı türkləri və türkmənlər bu şairin onlardan olmasını iddia etsələr də, Nəsiminin şer dili Azərbaycan türkcəsinə daha yaxındır. Nəsimi ilk şerlərini "Hüseyni" təxəllüsü ilə yazmışdır. Ancaq sonradan Fəzlullah Nəimi və onun yaratmış olduğu Hürufilik təlimi ilə yaxından tanış olduqdan sonra, Nəsimi təxəllüsünü qəbul etmiş və bu təriqəti mədh edən şerlər yazmağa başlamışdır. Onun yaşadığı dövr, Azərbaycan üçün çox ağır və sarsıntılı dövrlərdəndir. Belə ki, Orta Asiya türklərini birləşdirərək mərkəzləşmiş dövlət yaradan Əmir Teymurun, daim Azərbaycana daxil olmaq ehtimalı var idi. Bu səbəbdən də alim ve mütəfəkkirlər sərbəst və azad bir şəkildə yazıb-yarada bilmirdilər. Bu və bu kimi səbəblərdən dolayı şair tez-tez yaşadığı yerləri dəyişməli olurdu. Onun daimi olaraq bir yerdə qərar tuta bilməməsinin səbəblərindən biri də, yazdığı şerlərin o dövrün ruhaniləri tərəfindən küfr adlandırılması idi. Ruhanilərin təzyiqi və təhriki ilə o dövrün hökmdarları onun şerlərinin oxunması və nəşri qəti qadağan edilirdi.





Bu kimi səbəblərdən dolayı vətənində qərar tuta bilməyən İmadəddin Nəsimi, uzun bir müddət Təbriz və Anadolu şəhərlərində yaşamışdır. Nəsimi bu yerlərdə də təqib və təzyiqlərdən yaxa qurtara bilməyib. Belə ki, böyük şair sözü gedən yerlərdə də yazdığı şerlərinə görə həbsxanalara atılaraq, müxtəlif işgəncələrə məruz qalmışdır. Yazdığı və Hürufiliyi təbliğ edən şerləri küfr hesab edildiyindən dolayı, xalq arasında da çətinliklə yayılıb. Onun şerləri öz zamanında demək olar ki, bütün dərvişlərin dilinin əzbəri olub. Dərvişlərin də daimi yaşayış yerləri olmadığından, getdikləri bütün ölkələrə İmadəddin Nəsiminin şerlərini də apanblar. Ancaq bütün çətinliklərə, həbslərə, təqib və təzyiqlərə baxmayaraq, Nəsimi öz şerləri ilə demək olar ki, bütün Şərqi fəth edə bilib.

Anadoluda da qərar tuta bilməyən şair, nəhayət, Suriyanın Hələb şəhərinə gəlir. Burada həbs olunan Nəsimi, Misir sultanının əmri ilə elə Hələb şəhərində edam olunur. Qəbri hazırda bu şəhərdədir və turistlərin üzünə daim açıqdır.

Nəsimi öz şerlərində daim zülmü, haqsızlığı, yalanı və riyakarlığı lənətləyib. Bütün şerlərində hakimlərin, alçaqları yüksəldib, alicənablara qarşı isə biganə olduqlarını göstərən Nəsiminin əsərləri kədər motivləri ilə zəngindir. Dini və Allahı Hürufilik qiyafəsində təbliğ edən Nəsiminin ən böyük düşmənləri də elə ruhanilər olub. Bu düşmənçiliyin başqa bir səbəbi də Nəsiminin öz şerlərində ruhanilərin riyakar və yalançı olduqlarını göstərməsidir.

Bütün bunlarla yanaşı hesab edirik ki, Nsiminin böyüklüyü və özünəməxsusluğu onun doğma türk dilində yazıb-yaratmasıdır. O, bununla dilimizin bütün Şərqə yayılmasına böyük təkan vermiş, həm də dilimizdə də böyük əsərlərin yaradıla biləcəyini sübut etmişdir. Bu cəhətinə görə Nəsimi, hətta Nizamini də üstələmişdir. Nəsiminin çoxlu janrda yaratdığı poeziya nümunələrində həyat, insan və onun kainatdakı yeri, insanın yaradılış səbəbi, insanın dünyaya gəlməsində məqsədi kimi dərin və maraqlı fikirlər yer almaqdadır.

## MƏHƏMMƏD FÜZULİ
***1498 - 1556***

> *"Əslim Türk, ana dilim türk dilidir. Ərəb dilini elmi mübahisələr zamanı, fars dilini isə arzu etdiyim zaman işlədirəm. Uşaqlıqda yazdığım şerlərin hamısı ana dilim olan türk dilindədir"*
>
> Məhəmməd Füzuli

Sağlığında nə qədər böyük insan olmalısan ki, vəfatından sonra bütöv dövlətlər və millətlər sənə sahib çıxmağa, səni özlərindən saymağa çalışsınlar. Məhəmməd füzuli də məhz bu cür böyük insanlardandır. Belə ki, Azərbaycan türkləri onu özündən, indiki Türkiyə ədəbiyyatında Osmanlı Dövləti zamanında yaşadığı və yaşadığı bölgənin Osmanlı ərazisi olduğu üçün o, Osmanlı şairi hesab edilir, İraq ədəbiyyatında isə ərəb şairi kimi baxılmaqdadır. Ancaq nə olursa olsun, Füzuli bütövlükdə Türk Dünyasına məxsus olan böyük türk şairidir.

Türk Dünyasının böyük şair və mütəfəkkirlərindən biri. Əsl adı Məhəmməd bin Süleymandır. Əslən türklərin Bayat boyundandır. Təzkirəçilərin məlumatlarına görə, Füzulinin atası XV əsrin sonlarında Azərbaycanın Ərəş mahalından Bağdada köçür və Məhəmməd Füzuli burada dünyaya gəlir. O, ilk təhsilini Hillah şəhərində müftü olan atasından, daha sonra isə Rəhmətullah adında bir müəllimdən almışdır. Daha sonrakı təhsili haqda isə dəqiq məlumatlar yoxdur. Füzulinin böyüklüyü ondadır ki, fars və ərəb dili ilə yanaşı, eyni zamanda türk





dilində də şerlər yazmış və daim milliyyətcə türk olmasını bildirmişdir. Bu da onu bəzi farsca yazan şairlərimizdən kəskin şəkildə fərqləndirir.

Məhəmməd Füzuli bütün həyatını İraqda yaşamışdır. Bütün həyatı boyu yoxsulluq və ona laqeyd olan cəmiyyətin arasında keçmişdir. Füzuli, anadilli şerin yaradıcılarından biri, böyük qəzəl ustadı, alleqorik poemaların müəllifi, dərin və səmimi eşq şairidir. Onun anadan olduğu yer haqda ədəbiyyat tarixində mübahisəli fikirlər mövcuddur. Ancaq fars dilində yazmış olduğu "Divan"ının müqəddiməsində şair belə yazmaqdadır:

***Ey Füzuli, məskənimçün Kərbəladır şerimin***
***Hörməti var hər yerdə, xalq ona müştəğidir.***
***Nə qızıldır, nə gümüşdür, nə ləli, nə mirvaridir.***
***Sadə torpağıdırsa, lakin Kərbəla torpağıdır.***

Tanrı Məhəmmədə böyük istedad vermişdir. Belə ki, o, riyaziyyat, nücum, məntiq, fəlsəfə və bir çox başqa elmlərə yiyələnərək, Xaqani, Nizami, Nəsimi, Həbibi şeri ənənələri üzərində tərbiyə almışdır. Şairin öz təxəllüsünü "Füzuli" götürməsi də maraqlıdır. Şairə görə sehrli qüvvə olan "söz" hər şeydən üstündür və "fəzl" + "füzul" "söz"lərin cəmidir. Məhəmməd Füzuli dövrünün qabaqcıl ziyalılarından olduğu üçün bəzi təzkirələrdə onun adını "Molla Füzuli", "Molla Məhəmməd", "Mövlana Füzuli" kimi də yazırlar.

Məhəmməd Füzuli orta əsr klassik şer formalarında qələmini sınayaraq, türk, fars və ərəb dillərində "Divan" yaratmışdır. Şairin lirikası əsasən üç dildə yazdığı yaradıcılığının şahı sayılan "qəzəl"lərindən ibarətdir. M.Füzulinin lirikası əsasən iki istiqamətdədir.

1. **Dünyəvi məhəbbət.**
2. **Sufi məhəbbət.**

Orta əsr ədəbiyyatında ənənəvi sufi, panteist görüşlər Füzulinin də yaradıcılığına təsir göstərmiş və o, məhəbbəti geniş mənada götürmüşdür: həyata, dünyaya və insana məhəbbət. Şair daim qəzəllərində insanı dünyanın əşrəfi və ya ən şərəflisi kimi tərənnüm edri və özünü zəmanəsinin ən böyük aşiqi adlandırır.

Məndə Məcnundan füzun aşiqlik istedadı var.
Aşiqi-sadiq mənəm, Məcnunun ancaq adı var.

Şair belə bir qənaətə gəlir ki, aşiq özü ilahi aləmdən gəlib. Məhəmməd Füzuli eyni zamanda məsnəvi ustadıdır. Bu formada yazdığı "Leyli və Məcnun" və digər poemaları ona böyük şöhrət qazandırmışdır. Alleqorik əsərləri olan "Bəngü-badə", "Söhbətül-əsmar" da onun məhşurlaşmasında əhəmiyyətli rol oynayan əsərlərdəndir.

M.Füzulinin qarşısında duran bəlkə də ən mühüm vəzifə anadilli şerimizin forma və məzmun cəhətdən təkmilləşdirilməsi idi. Məlum olduğu kimi orta əsrlərdə ərəb dili "elm dili", fars dili isə "şer" dili kimi qəbul olunmuşdu. Məhz bu səbəbdəndir ki, sözü gedən dövrdə bütün böyük elmi əsərlər ərəb dilində, böyük ədəbiyyat nümunələri isə məhz fars dilində yazılmışdır. Bu görüşü ortadan qaldırmaq, türk dilində də böyük şer nümunələrinin yaradıla bilinəcəyini sübut etməyə çalışan Füzuli, bir sıra əsərlərini məhz ana dilində yaratmışdır.

Məhəmməd Füzulinin ədəbiyyat tarixində olan xidmətlərindən biri də onun nəsri ilə bağlıdır. Belə ki, böyük şairin nəsr əsərləri janr etibarilə müxtəlifdir. Məsələn, Füzulinin ana dilində bir neçə məktubu vardır ki, dövrün ziyalılarından olan Bəyazid Çələbiyə ünvanlanıb. Bundan başqa şair, "Divan" və poemalarındakı müqəddiməni də nəsrlə yazmışdır.

Romantizm ədəbi cərəyanının ölməz, həmişəyaşar nümayəndəsi olan Məhəmməd Füzulinin izi, ədəbiyyatımızda qoymuş olduğu dəsti-xətt hələ də görünməkdədir. Belə ki,





özündən sonra bir çox böyük şairləri öz təsiri altına salan Füzuli yaradıcılığı özünün təkrarolunmazlığı ilə daim seçilmişdir. Ölümündən beş əsr keçməsinə baxmayaraq, əruzun şahı, "məhəbbət" və "qəlb" şairi olan Məhəmməd Füzuli, Türk Dünyası ədəbiyyatının zirvəsindəki mövqeyini hələ də saxlamaqdadır.

## ŞAH İSMAYIL XƏTAİ
### *1487 - 1524*

Azərbaycanın böyük oğlu, şeyx, sərkərdə, dövlət xadimi, şair və sənətin böyük hamisi. Bu, Böyük Türk 1487-ci il 17 iyul tarixində Cənubi Azərbaycanın Ərdəbil şəhərində dünyaya gəlmişdir. İsmayılın ulu babası olan şeyx Səfi əd-Din ana vətəni olan Ərdəbildə Səfəviyyə adlı sufi təriqətinin əsasını qoymuş və özünü yeddinci imam Musa Kazımın varisi elan etmişdi. Bu təriqət yarandığı dövrdə onun üzvləri əsasən sünnilərdən ibarət olsa da, zaman keçdikcə təriqət tam olaraq şiə məzhəbinin təsiri altına düşmüşdür. Şah İsmayılın babası olan şeyx Cüneydin zamanından etibarən isə təriqət hərbi əməliyyatlara başlamışdır. Bundan sonra bir çox hərbi uğurlar qazanan təriqətin nüfuzu sürətlə artmağa başlamışdır.

Şah İsmayılın atası şeyx Heydərin təriqətə rəhbərlik etməyə başladığı dövrdən etibarən təriqət üzvləri başlarına on iki imamın rəmzi olan on iki qırmızı çalmadan ibarət qırmızı papaq qoymağa başlamışlar. Bundan sonra isə onlar qızılbaşlar adlandırılmağa başlanmışdır. Dar mənada isə qızılbaşlar dedikdə təriqətin əsasını təşkil edən türk-Azərbaycan tayfaları nəzərdə tutulur.

Şeyx Səfiəddinin varisləri olan səfəvilər şiə şüarları altında sürətlə hakimiyyətə doğru irəliləməkdə idilər. Səfəvilərin Ədəbildə olan malikanələri sürətlə möhkəmlənib inkişaf edirdi. Bundan sonra isə böyük şeyxin varisləri bütün Azərbaycanı birləşdirmək arzusuna düşürlər. Ancaq bu yolda səfəvilərin ən böyük rəqibləri olan Ağqoyunlu və Qaraqoyunlu dövlətləri hələ ayaqda idilər. Ağqoyunlu Dövlətinin banisi, müdrik siyasətçi və





sərkərdə olan Uzun Həsən öz hakimiyyətini möhkəmləndirmək və Qaraqoyunluları neytrallaşdırmaq üçün Səfəvilərlə ittifaqa girmişdi. O, əvvəlcə bacısı olan Xədicə bəyimi şeyx Cüneydə, daha sonra isə qızı Aləmşahbəyimi şeyx Heydərə ərə verir. Bundan sonra Səfəvilər, müvəqqəti olaraq Azərbaycanı ələ keçirmək planlarını dayandırırlar.

Dağıstan və Şirvan üzərinə yürüşlər zamanı İsmayılın babası şeyx Cüneyd və atası şeyx Heydər həlak olurlar. Son döyüşdə Uzun Həsənin oğlu Sulan Yaqub, Səfəvilərin güclənməsindən ehtiyat edərək Şirvanşah Fərrux Yasarın tərəfinə keçir. Şeyx Heydərin vəfatından sonra İsmayılın dayısı, eyni zamanda da Ağqoyunlu sultanı olan Yaqub, Ərdəbili tutaraq, bacısı Aləmşahbəyimi və onun azyaşlı oğlanları olan Sultan Əlini, İbrahimi, İsmaylı əsir alır. Bu zaman İsmayılın hələ iki yaşı var idi. Sultan Yaqubun 1490-cı ildə hakimiyyətə gələn oğlu Baysunqur, bir il keçməmiş əmisi oğlu Rüstəm tərəfindən hakimiyyətdən uzaqlaşdırılır. Bundan sonra Şirvanşah Fərrux Yasarın qızı ilə evli olan Baysunqur qaynatasından kömək istəyir. Bunun qarşılığında isə Rüstəm, şeyx Heydərin oğullarını əsirlikdən azad edir və Ərdəbili onlara qaytarır. Sultan Əli burada təriqətin şeyxliyini etməyə başlayır. O, qacar, qaramanlı və şamlı tayfaları ilə birlikdə Rüstəm şah tərəfindən döyüşlərə qatılır.

Qatılmış olduğu döyüşlərdə Sultan Əli böyük qəhrəmanlıqlar və fədakarlıqlar namayiş etdirir ki, bu da xalq arasında tezliklə onun nüfuzunun artmasına səbəb olur. Bundan ehtiyatlanan Rüstəm şah, ciddi cəhdlə Sultan Əlini ortadan götürməyə qərar verir. İki tərəf arasında baş verən döyüşdə dörd min ağqoyunlu əsgərinə qarşı cəmi yeddi yüz qızılbaş döyüşür. Döyüşdə Sultan Əli həlak olur. Bu zaman yeddi yaşı olan İsmayıl isə Hüseyin Lələ və bir neçə etibarlı qızılbaş sərkərdəsi tərəfindən gizlədilir. Sultan Əli ölümündən əvvəl İsmayılı özünün varisi elan edir.

Hüseyin Lələ və digər qızılbaşlar təqiblərdən yaxa qurtarmaq üçün Gilan hakimi Mirzə Əlinin sarayına gəlirlər. Mirzə Əli təqribən altı il İsmayılı təqiblərdən qoruyub saxlaya bilmişdir. Ağqoyunlu hökmdarları dəfələrlə ondan İsmayılı təhvil verməsini istəsələr də, Mirzə Əli, İsmayılın gələcəkdə böyük hökmdar olacağına inandığından özünü təhlükəyə qoymaq bahasına olsa da bundan imtina etmişdir. Şah İsmayıl bütün bu dövr ərzində döyüş sənətinə yiyələnir və tanınmış alimlərdən dərslər alır.

İsmayıl, 1499-cu ildə 13 yaşı olarkən Gilanı tərk etmək məcburiyyətində qalır. O, qışı Astarada keçirir və sonra Ərzincana doğru hərəkətə başlayır. Yol boyu onun qoşununa çoxlu sayda mürid qoşulur və Ərzincana çatanda məlum olur ki, Şah İsmayılın ixtiyarında 7 minlik bir ordu var. Qızılbaş sərkərdələri ilə müzakirələrdən sonra qərara alınır ki, ilk yürüş Şirvana edilsin. Şah İsmayıl, 1500-cü ildə Kürü keçərək heç bir müqavimətlə rastlaşmadan Şamaxı şəhərinə daxil olur. Şirvanşah Fərrux Yasar Gülüstan qalası yaxınlığında Cəbani adlanan yerdə Şah İsmayılla üz-üzə gəlir. Qızılbaş qoşununa İsmayılın ən sadiq sərkərdələri rəhbərlik edirdilər. Hansı ki, bu sərkərdələr uzun zaman onu Ağqoyunlu hökmdarlarının əlinə düşməkdən qorumuşdular. Onlar ömürlərinin sonuna kimi də İsmayıla sadiq oldular və heç bir zaman onun yanından ayrılmadılar. Sat üstünlüyünə baxmayaraq bu döyüşdə Şirvanşah ordusu ağır məğlubiyyətə uğramışdır. Farrux Yasar özü də döyüşdə həlak olur. Şirvanşah qoşunundan qalanlar Gülüstan qalasına sığınırlar.

Bundan sonra İsmayıl bir çox parlaq qələbələr qazanır ki, bu da onun tezliklə Yaxın Şərq və Avropada tanınmasına şərait yaradır. İsmayıl qoşunundan kiçik bir dəstəni Gülüstan qalasını mühasirini davam etdirmək üçün burada saxlayaraq Bakı üzərinə yürüş edir və bu şəhəri də alır. Burada o, eşidir ki,





Azərbaycan hökmdarı Əlvənd Mirzə, Ağqoyunlu üzərinə yürüşə hazırlaşır. Bu xəbərdən sonra İsmayıl, bütün Şirvanşah xəzinəsini də özü ilə birlikdə götürərək Naxçıvana tərəf hərəkət edir. 1501-ci ildə iki qoşun Şərur düzündə üz-üzə gəlir. İsmayılın yeddi minlik qoşunu burada Əlvənd Mirzənin otuz minlik qoşununu məğlub edir. Beləliklə də Təbrizə gedən yol açılmış olur. 1501-ci ildə İsmayıl Təbrizə daxil olaraq özünü şah elan edir və öz adına pul kəsdirir. Şiəlik dövlət məzhəbinə çevrilir. Azərbaycan türkcəsi isə Səfəvilərin rəsmi dövlət dili elan olunur. Ümumiyyətlə isə Səfəvilər zamanında Heratdan Bağdada qədər olan böyük bir ərazidə Azərbaycan türkcəsi hakim dil idi.

Bir il keçdikdən sonra Şah İsmayıl, Ağqoyunlu padşahı olan Muradla mübarizəyə girişir. Onlar arasında döyüş Həmədan şəhəri yaxınlığında 1503-cü ildə baş tutur. Əvvəlki iki döyüşdə olduğu kimi, bu döyüşdə də Səfəvilər qalib gəlirlər. Bununla da Ağqoyunlu Dövləti tarix səhnəsindən silinmiş olur. Şah İsmayılın ordusu Muradı təqib edə-edə Şiraz, İsfahan və Qum şəhərilərini də ələ keçirir. 1508-ci ildə Şah İsmayıl, İraq, Ermənistan, Diyarbəkir, habelə Ön Asiyanın bir çox şəhərlərini hakimiyyəti altına alır.

Qısa müddət ərzində Şah İsmayıl, Orta Asiyadan Osmanlı Dövləti sərhədlərinə qədər uzanan imperiya qura bilir. Bu zaman isə onun Osmanlı ilə münasibətləri normal olduğundan, yeganə rəqibi, güclü özbək dövləti qurmuş olan Şeybani xan idi. Şeybani xanın ordusunun Səfəvilər üçün mühüm əhəmiyyət daşıyan İsfahan şəhərini tutmasından sonra bu iki dövlət arasında müharibə qaçılmaz oldu. İki güclü rəqib 1510-cu ilin dekabrın ikisində Mahmudi kəndi yaxınlığında üz-üzə gəlir. Bu döyüşdə Şah İsmayıl parlaq qələbə qazanır, Şeybani xanın özü isə öldürülür. Bu döyüşdən sonra Herat, Bəlx və Mərv şəhərləri də Səfəvilərin nəzarəti altına keçmişdir.

Şiə məzhəbli Səfəvi Dövlətinin qısa zaman ərzində böyük uğurlar əldə etməsi, sünnü məzhəb Osmanlı taxtını ələ keçirən Yavuz Sultan Səlimi narahat etməyə başlamışdı. Bundan başqa isə İsmayılın müridləri Anadolunun bəzi ərazilərində fəal şəkildə şiə təbliğatı ilə məşğul olurdular. 1512-ci ildə taxta çıxan Səlimin ilk işi Şah İsmayıl və onun dövlətini aradan götürmək istəyi oldu. O, ilk olaraq dövlətinin təhlükəsizliyi məqsədilə Osmanlı ərazisində yaşayan 40 min şiə məzhəb insanı edam etdirir. Bundan sonra isə özünün 200 minlik ordusu ilə Azərbaycan sərhədlərinə doğru hərəkətə başlayır. Bu iki türk nəhəngi arasındakı döyüş isə 1514-cü il avqustun 26-da Çaldıran düzündə baş tutur. Həm say baxımından, həm də Fransadan alınan topların sayəsində üstün olan Osmanlı ordusu, üç günlük döyüşdən sonra Səfəvi ordusunu məğlub edə bilir. Şah İsmayılı təqib edən Sultan Səlim, Xoy, Mərənd və Təbriz şəhərlərini tutur. Ancaq Təbrizdə çox qala bilməyən Səlim, tezliklə buranı tərk edir. Səlim özü birlikdə Şah İsmayılın taxtını, tacını və əsasını da İstanbula aparır. Hazırda bu əşyalar İstanbulda Topqapı muzeyində sərgilənməkdədir. 1515-ci ildə iki dövlət arasında sülh müqaviləsi imzalanır. Müqavilənin şərtlərinə görə Anadolu ərazisi bütövlükdə Osmanlının nəzarətinə keçmişdir. Ancaq hələ bundan sonra uzun illər Azərbaycan Türkləri Osmanlı ordularına qarşı mübarizə aparmalı oldular. Belə ki, Səfəvilər, Asiyada Osmanlı qarşısında öz müstəqilliyini qoruyub saxlayan yeganə dövlət idi.

Çaldıran döyüşündən sonra Şirvan və Gürcüstan üzərinə edilən yürüşləri çıxmaq şərtilə Şah İsmayıl elə bir böyük müharibəyə girişmir. Belə ki, o, bundan sonra qurmuş olduğu dövlətin möhkəmləndirilməsi işi ilə məşğul olmuşdur. Bundan başqa o, bütün vaxtını ov etməklə, balıq tutmaqla keçirib. Belə ov zamanlarının birində Şah İsmayıl, Şahdağ ətəklərində istisoyuğa düşərək sətəlcəm xəstəliyinə tutulur. Böyük türk olan





Şah İsmayıl, çox keçmir ki, elə bu xəstəlikdən də 1524-cü ildə 37 yaşında vəfat edir. Onu Ərdabildə babalarının turbəsində dəfn ediblər.

Şah İsmayılın Rüstəm Mirzə (gənc yaşlarında vəfat edib), Təhmasib, Sam Mirzə, Alxas Mirzə, Bəhman Mirzə adlı beş oğlu və Xanım, Pərixan xanım, Mehribanu, Firəngiz və Şahzeynəb adlı beş qızı olub. Şah İsmayıl çox nadir dühaya sahib bir insan olmuşdur. Belə ki, o, sərkərdə və böyük dövlət xadimi olmaqla yanaşı, eyni zamanda böyük şair idi. Belə ki, o, bizlərə qədər gəlib çatan "Dəhnamə" adlı gözəl şerlər toplusu yaratmışdır. Bundan başqa onun şahlığı zamanında Şərqin bir çox şair, sənətkar və mütəfəkkirləri paytaxt Təbrizə gətirilmiş və burada onların yaradıcılığı üçün bütün lazım olan şərait yaradılmışdır.

Şah İsmayıl Xətainin yazmış olduğu şerlərin əlyazmaları günümüzdə dünyanın bir çox məşhur muzeylərində və kitabxanalarında saxlanılmaqdadır. İsmayıl bir şəxsiyyət kimi də Azərbaycan türkləri arasında daim populyar olmuşdur.Belə ki, onun haqqında dastanlar yazılmış, rəvayətlər qoşulmuş, bir çox muğamlar və təsniflər onun adı ilə adlandırılmışdır. Təsadüfi deyil ki, Müslüm Maqomayev özünün şedevri olan operasını "Şah İsmayıl" adlandırmış, Ustad Əlisa Nicat "Qızılbaşlar" tarixi romanını və Fərman Kərimzadə "Çaldıran döyüşü" əsərini məhz bu Böyük Türkə həsr etmişlər.Bu isə o deməkdir ki, Azərbaycan Türkləri var olduqca Böyük Türk olan Şah İsmayıl da daim xalqı birlikdə yaşayacaqdır.

Şah İsmayıl haqda olan yazımızın sonuna gəldikdən sonra onunla Osmanlı sultanı olan Səlim arasında olan maraqlı məktublaşmalardan birini diqqətinizə çatdırmaq istərdik. Belə ki, Şah İsmayıl, hər şeylə yanaşı, eyni zamanda özünün qeyri-adi fiziki gücü ilə də məşhur idi. Hətta deyilənlərə görə o, qılıncı ilə topun lüləsini kəsirmiş. Bu xəbər Osmanlı

sultanına da çatır və o, məktub yazaraq İsmayıldan qılıncını ona göndərməyi xahiş edir. Şah İsmayıl onun istəyini yerinə yetirərək qılıncını ona göndərir. Saray əyanlarını da yığaraq topun lüləsini kəsəcəyini elan edən Səlim, bunu edə bilmədiksə isə pərt olur. Bundan sonra başqa bir məktub yazaraq, Şah İsmayılı günahlandırır və İsmayılın ona öz qılıncını yox, başqa qılınc göndərdiyini bildirir. Bunun qarşılığında isə İsmayıl ona məktub yazaraq bildirir ki: "Qılınc həmin qılıncdır, qol həmin qol deyil".





## NADİR ŞAH
### *1688 - 1747*

***"Nadir Şah Qafqaz dağlarının bütün xalqlarını boyun əydirdi. O, keçilməz dağ çaylarında iki yüz min türk əsgərini itirdi, ancaq bütün Qafqaz xalqlarını diz çökdürə bildi"***

Türk Dünyasının böyük sərkərdələrindən və dövlət xadimlərindən biri. Nadir Şah Əfşar, 1688-ci il oktyabrın 22-də Xorasandakı Dərəgöz adlanan yerdə dünyaya gəlmişdir. Nadir Şah, Türklərin Əfşar boyunun Qırxlı qoluna mənsubdur. Atası yaşadığı obanın çobanı olmuşdur. Nadir, uşaq yaşlarından atasının yardımçısı olmuş, ona işlərində kömək etmişdir. Daha sonralar isə atasını əvəz etmişdir. Günlərin birində artıq yeniyetmə olan Nadir, sürüdən yeddi yüz qoyunu götürərək Məşhədə gedir və onları burada satır. Bundan sonra isə bir neçə sələmçinin karvanlarını soydu. Tezliklə əldə etdiyi sərvətlə başına dəstə toplamışdır. Artıq onun sorağı hər yerə yayılmışdı. Nadirin ölkə çapında tanınmağa başladığı dövrdə, Azərbaycan Səfəvi Dövləti özünün ağır və acınacaqlı günlərini yaşamaqda idi. Səfəvilərin o dönəmki vəziyyəti o qədər acınacaqlı idi ki, hər-hansı bir gücün hücumu bu dövləti məhv etməyə yetərli idi.

Düzdür ölkəyə Hüseyn adlı şah rəhbərlik edirdi, ancaq ölkənin hər bir güşəsində bir bəy ağalıq etməkdəydi. Dövlətin bu vəziyyətindən yararlanan Xalacların Qılzay qolundan olan

Türklər, Gülnabad döyüşündə qızılbaşları məğlub etdilər. Üsyançılara o zaman keçmiş Səfəvi təbəəsi olan Mir Mahmud rəhbərlik edirdi. Gülnabad qəsəbəsindən sonra o, Xorasanı və İsfahanı da aldı. Ancaq İsfahan mühasirəsi zamanı Hüseyn Şah, Mir Mahmudla danışıqlara getməyə qərar verdi. Çünki şəhər əhalisi acından şəhərdəki itləri yeməyə başlamışdılar.

Danışıqların sonundan Hüseyn Şah, ailəsi ilə birlikdə 1722-ci il noyabrın 23-də Mir Mahmudun qərargahına gələrək təslim olma aktını imzaladı. Bu hadisə bölgədə yaşayan Türklərin necə bir acınacaqlı durumda olmasının sübutudur. Hüseyn Şah özü, öz əlləri ilə şahlıq tacını Mir Mahmudun başına qoydu. Mir Mahmud faktiki olaraq şah olsa da, şahzadə Təhmasib sağ olduğu müddətdə onun şahlığı qeyri-qanuni sayılmaqda idi. Həmin dönəmlərdə şahzadə Təhmasib, Qəzvində oturmaqda idi. Bu səbəbdən də Mir Mahmud, ən yaxın köməkçisi Əmənulla xanı səkkiz minlik qoşunla Qəzvin üzərinə, daha doğrusu isə şahzadə Təhməsabin üzərinə göndərdi. Əmənulla xan, Qəzvin üzərinə qəfil hücum etdi. Müdafiəyəyə hazır olmayan şəhər əhalisi döyüşsüz şəhəri təslim etməli oldu. Bundan sonra Qəzvinin müxtəlif karvansaraylarında yerləşən Əmənulla xanın əsgərləri, görünməmiş soyğunçuluğa başladılar. Onların bu azğınlığı şəhər əhalisini hövsələdən çıxardı və əhali sui-qəsd hazırladı. Qəzvin əhalisi qəfil hücumla Əmənulla xanın dörd min əsgərini qılıncdan keçirdi. Qalan ordu mənsubları isə qaçmaqla canlarını qurtara bildilər. Bunu eşidən Mir Mahmud, şəhərin adlı-sanlı insanlarını və şahın qohum-əqrabasını qonaqlığa dəvət etdi və hamısını bu qonaqlıqda qılıncdan keçirtdi. Şahın yalnız xəstə olan oğlu Mirzə Səfiyə və körpə uşaqlarına aman verildi. Bununla da sakitləşməyən Mir Mahmud, daha üç min qızılbaş əsgərini qılıncdan keçirtdi. Bu xəbər qısa bir zaman içində ölkənin hər yerinə yayıldı və yerli əhalini özündən çıxardı. Belə qarışıq





günlərin birində Səfəvi taxt-tacının varisi olan Mirzə Səfi, gecə ikən İsfahan şəhərindən Bəxtiyari boyunun yanına qaçdı. Onun bu hərəkəti Mir Mahmudu həddən artıq əsəbləşdirdi və o, iki-üç körpəni çıxmaq şərtilə şahın bütün nəslini qırdırdı.

Belə bir dönəmdə siyasət meydanına Mir Mahmudun yaxın qohumu olan Əşrəf xan çıxdı. Əşrəf xan, ətrafına topladığı güclü qoşunla İsfahana hücum edərək şəhəri aldı. Mir Mahmud isə İsfahandan qaçdı. Mir Mamuddan fərqli olaraq Əşrəf xan, daha hiyləgər idi. Belə ki, o, şahlıq tacını Sultan Hüseynin başına qoymağa cəhd etsə də, Hüseyin bunun hiylə olduğunu anlayıb tac qoymaqdan imtina etdi.

Belə bir vəziyyətdə Səfəvilərin düşdüyü ağır vəziyyətdən istifadə edən Osmanlılar, bir hücumla Tiflis, Gəncə və Təbrizə qədər olan əraziləri aldılar. Səfəvi Dövləti özünün ağır günlərini yaşamaqda idi. Belə ki, bu dönəmdə, yəni 1725-ci ildə Osmanlılar Həmədandan Tiflisə qədər olan əraziləri, ruslar isə Xəzərin şimalını ələ keçirmiş durumda idilər. Artıq Sultan Hüseynin yoxluğunda şah hesab edilən Təhmasibin əlində isə yalnız Mazandaran ərazisi qalmışdı. Səfəvilərin artıq zəif olduğunu düşünən Osmanlılar, Qəzvin üzərinə yürüşə çıxdılar. Ancaq Osmanlı da daha əvvəlki Osmanlı deyildi. Belə ki, Əşrəf xan, 1725-1747-ci illərdə iki dəfə yetmiş minlik Osmanlı ordusunu məğlub etməyi bacardı.

Ön Asiya ərazisində baş verən bu qarışıqlıq zamanlarında gənc Nadir, gözdən iraq şəkildə yavaş-yavaş güc toplamaqda idi. Artıq onun əmrlərini qeydsiz-şərtsiz yerinə yetirə biləcək altı min Türk əsgəri var idi. Nadir, ağır günlərini yaşayan yurdunun xilası üçün Təbəristan vilayətinin Astarabad şəhərində olan Təhmasibin hüzuruna gələrək ona, işğalçıları Türk elindən qovaraq, yenidən Təhmasibi taxta oturdacağına and içdi. Şah Təhmasib, Nadiri bağrına basdı və ona öz adını verdi. Bundan sonra Nadir, hamı tərəfindən Təhmasib xan adlandırılmağa başlandı.

Nadirin ordusu ilə Qılyazların ilk toqquşması zamanı, Əşrəf xanın qoşunu məğlub edilir. Əşrəf xanın ordusu qaşmağa üz tutsa da, Nadir onları izləyərək böyük bir hissəsini məhv edə bildi. O, Qılzay sərkərdəsi olan Seyidəlinin, Bəndər-Abbasa çəkilən qoşununa dincəlmək üçün vaxt verməyərək qəfil hücumla demək olar ki, hamısının axırına çıxdı. Seyidəli isə Qəndəhara qaçaraq canını qurtara bildi. Nadirin ilk qələbəsindən sonra Qılzay ordusunda olan Türklər ona xəbər yolladılar ki, əgər onlara aman verilsə, Nadirin ordusunda döyüşməyə hazırdırlar. Nadirin razılığından sonra dəstə-dəstə əsgərlər gələrək onun ordusuna qatıldılar. Vəziyyəti belə görən Əşrəfxan ailə üzvlərini, ona sadiq olan əyanlarını və on minlik qoşunu ilə Qəndəhara çəkildi. Nəhayət, yeddi illik uzun ayrılıqdan sonra Şah Təhmasiblə Nadir təntənəli şəkildə Səfəvi Dövlətinin o zamankı paytaxtı olan İsfahana varid oldular. Ancaq sadə xalqın dilində Nadir daha çox hallanırdı və artıq xalq onu Türk Millətinin yeni qurtarıcısı hesab etməyə başlamışdı.

1730-cu ildə Nadir, əlində olan qüvvələrlə Qılyazlarla birdəfəlik qurtarmaq üçün Qəndəhar üzərinə yürüşə çıxdı. Nadirin bu hərəkətindən sonra, Şah Təhmasib də sarsılmış nüfuzunu bərpa etmək üçün Osmanlılara qarşı yürüşə çıxdı. Heç bir döyüş təcrübəsi olmayan Təhmasib, Osmanlılarla iki dəfə üz-üzə gəlsə də, hər iki döyüşdə onlara məğlub olmuşdur. Böyük bir səfərbərlikdən sonra toplanan ordu ilə bir dəfə də Osmanlı üzərinə yürüş edən Təhmasib, bu dəfə qalib gəlsə də, əslində itirdikləri qazandıqlarından çox idi. Belə ki, o, Osmanlılara tezliklə sülh sazişi təklif etdi ki, sazişin nəticələrinə görə Səfəvilər, Gürcüstanı, İrəvanı və Təbrizlə birlikdə bütün Azərbaycanı Osmanlılara güzəştə getməli oldular.

İki Türk dövləti arasında bağlanan bu müqavilə 1731-ci ildə imzalandı. Bundan sonra rüsvayçılıqla paytaxta qayıdan





Təhmasib, burada eyş-işrətlə məşğul olmağa başladı, hakimiyyətin idarəsini isə vəzirlərinə və xacələrinə tapşırdı. Bundan sonra Nadir, Təhmasibi dönük adlandıraraq onu taxt-tacdan məhrum etdi. Elə həmin 1731-ci ildə Nadir, Təhmasibin altı aylıq oğlu olan Abbası şah, özünü isə onun qəyyumu elan etdi. Təbii ki, Nadirin gücündən və nüfuzundan qorxaraq ona bu hərəkətindən dolayı heç kim narazılıq edə bilmədi. Vəziyyət bu dönəmdə elə idi ki, hamı onu haqlı hesab edirdi. Çünki həmin dönəmdə bütün ölkəni öz ətrafında toplaya biləcək güclü dövlət adamına və qətiyyətli sərkərdəyə ehtiyac var idi. Təhmasibi hakimiyyətdən uzaqlaşdırdıqdan sonra Nadir, ordunu toplayaraq, Osmalılara qarşı müharibəyə hazırlaşmağa başladı.

XVIII əsrdə artıq nəhəng Osmanlı Dövlətinin günəşi də qüruba enməkdə idi. Belə ki, artıq Osmanlıda Fateh Sultan Mehmet, Yavuz Sultan Səlim və Süleyman Qanuni kimi sultanlar yox idi. Nə də Osmanlı ordusunun döyünən ürəyi və vuran əli olan yeniçərilər mövcud idi. Buna görə də Nadir, 1733-cü və 1734-cü illər ərzində Osmanlı ordusunu Təbəristan, Gürcüstan və İraqda dörd dəfə məğlub etməyi bacardı. Axırıncı, dördüncü döyüşdə isə demək olar ki, Osmanlı ordusu tamamilə sıradan çıxdı.

Beləliklə də 1725-ci ildə öz yurdunu yadlardan təmizləyən Böyük Türk Nadir, təntənəli şəkildə İsfahana daxil oldu. Artıq onun yeni türk şahı olması həqiqət idi. Ölkədə əmin-amanlıq və əsayiş bərpa olunmuşdu. Ancaq fərsiz Səfəvi şahlarının bacarıqsızlığı sayəsində dövlətin xəzinəsi demək olar ki, boşalmışdı. Bu arada Səfəvi Dövlətin varisi olan Abbas xəstələnərək ölür. Bundan sonra Nadir, qədim türk ədatlərinə uyğun olaraq 1736-cı ilin fevral ayında Azərbaycanın Muğan düzündə qurultay çağırdı. Qurultayda iştirak edən ölkənin öndə gedən xanları, bəylərbəyləri və ağsaqqalları Nadiri, Azərbaycan türklərinin yeni şahı seçdilər.

Şah seçildikdən azacıq keçdikdən sonra Nadirin dəliqanlı bir türk və qorxmaz sərkərdə olması bütün dünyaya bəlli oldu. Belə ki, o, sayseçmə türk əsgələri ilə ordusunu yenidən təftiş edərək böyük Hindistanın fəthinə yollandı. Bu o zamanlar ağlasığmaz bir hərəkət kimi görünürdü. Ancaq ölkənin israfsızcasına eyş-işrətə xərclənmiş xəzinəsini dolduqmaq lazım idi və güclü dövlət ola bilmək üçün bu hər şeydən önəmli idi. Heç bir hərbi texnikası, uzun döyüş ənənəsi və təcrübəsi olmayan tamamilə yeni bir qoşunla min kilometrlərlə uzanan yolları keçərək sonsuz və qədim xanədanlığı fəth etmək üçün Tanrının nə qədər böyük vergisinə və döyüşçülük qabiliyyətinə malik olmaq lazım idi ki, bu yürüşə qərar verə biləsən. Ancaq ona da Nadir Şah deyərlər... Bəli, Tanrı bu dəfə də sözünü tutmuşdu və Nadir Şah, Tanrının Türk millətinə göndərdiyi növbəti qurtarıcı idi.

Nadir Şahın ordusu qarşılarına çıxan bütün ölkələri fəth edə-edə Qəndəhar və Pişəvəri keçib 1738-ci ildə Lahoru tutdu. Burada o, Baburların yadigarlarından olan Məhəmmədi, Qarnalada ağır məğlubiyyətə uğradaraq 1739-ci ildə Dehliyə daxil ola bildi. Bundan sonra isə Nadir Şah, Dəmir qapı Dərbənddən Kəşmir və Dehliyə qədər uzanan böyük bir məmləkətin sahibi hesab edilirdi. Nadir Şah artıq, yeni Türk şahı kimi hamının çəkindiyi bir sərkərdə idi. Belə ki, onun ucsuz-bucaqsız bu əraziləri ələ keçirməsinə qonşuları, Rusiya, Osmanlı və nə də Asiya qitəsindəki hər-hansı bir dövlət etiraz edə bilmədi. Nadir Şah, Hindistan yürüşündən sonra ökəsinə yüzlərlə dəvəyə yüklənmiş ləl-cəvahiratla döndü.

Ölkəyə qayıtdıqdan sonra Nadir, xalqı üç illik vergidən azad etmişdir. O, ölkəni Dərbənd, Xorasan və paytaxt Şiraz olmaqla üç bəylərbəyliyə böldü. Ölkənin idarə edilməsinə hərbçilər cavabdeh idilər. Türk yurdunun belə gözəl, azad və firavan günlərinin birində baş vermiş bir hadisə Nadir Şahın insanlara olan inamını sarsıtdı. Belə ki, 1741-ci ildə baş verən faciəli





hadisə onsuz da xaraktercə sərt olan Nadir Şahı daha da sərtləşdirdi. Belə ki, onun oğlu Rzaqulu düşmənlərlə əlbir olaraq Nadirə qarşı sui-qəsd hazırlamğa girişmişdi. Ancaq qəsdin üstü açılır və Nadir Şah bütün qəsd iştirakçılarını cəzalandırır.

1741-ci ildə Nadir Şah Drbəndə gəlir. Buraya o, dağlılar tərəfindən öldürülən qardaşının intiqamını almaq üçün gəlmişdi. Bu xalqlar Qafqaz dağlarının əlçatmaz qayalıqlarında yaşamaqda idilər. Buna görə də böyük qoşunla onlarla döyüşmək mümkünsüz idi. Ancaq Nadir Şah artıq əlinə qılınc almışdı və onu heç bir qüvvə saxlaya bilməzdi. O, Tanrı yasasını pozanları cəzalandırmaq üçün Qafqaz dağlarına və ətrafına yürüşə çıxdı. Nadir Şahın düşərgəsində olan Leon rahibi Daminan öz məktubunda belə yazırdı: "Nadir Şah Qafqaz dağlarının bütün xalqlarını boyun əydirdi. O, keçilməz dağ çaylarında iki yüz min türk əsgərini itirdi, ancaq bütün Qafqaz xalqlarını diz çökdürə bildi".

Nadir Şah qanunlara həddən artıq bağlı olan bir hökmdar olub. Satqınları və qanunları pozanları isə dərhal ölüm cəzasına məhkum etmişdir. Onun sərt qanunlar tərəfdarı olması, o zamanlar başıpozuq və özbaşına yaşayan bəzi türk tayfalarında narazılığa səbəb olurdu. Belə ki, bu cür tayfalar tez-tez ona qarşı üsyanlar qaldırırdılar. Bəxtiyari boyu da belələrindən idi. Onların Nadirə qarşı baş qaldırmaları cəmi on beş gün çəkdi və qan su yerinə axsa da, Nadir şah qanunları pozanları və ona qarşı gələnlərin aqibətinin necə olacağını hamıya göstərə bildi. Nadir Şah, ölkəsindəki türklərlə, Osmanlı türkləri arasında olan fərqləri görürdü və bu iki qardaş xalq arasında olan bütün fərqlərin aradan qaldırılmasına çalışırdı. İki türk xalqının ən fərqli yönləri isə birinin şiə, digərinin sünnü məzhəbində olması idi. Məhz bu məzhəb fərqini aradan qaldırmaq üçün Nadir şah, hətta İslamın Cəfəri məzhəbini də qəbul edərək, Osmanlıları da bu məzhəbə dəvət etmişdir. Nadir bu

hərəkəti ilə şiə və sünnüləri birləşdirməyə çalışmışdır. Ancaq onun bu hərəkəti və dəvəti Osmanlı Dövləti və onun ruhaniləri tərəfindən rədd edilmişdir. Nadiri hətta öz vətənində də anlamadılar. Belələrindən biri də Saystan vilayətinin bəyi olan Fətəli xan idi. Fətəli xan yüz minlik ordu toplayaraq, Nadir Şaha qarşı yürüşə başladı. Fətəli xan ordusuna çox güvənirdi və hətta özünə Səfi şah ünvanı verərək adına pul da kəsdirməyə başladı. Bu arada isə Nadir Şah, erməni üsyançılarına yardım etdiyinə görə qraf Arutyun Şarilyanı tonqalda yandırtdı. Nadirin əsas istəyi rüşvətin və satqınlığın qarşını almaq idi. Bu isə yüzlərlə dövlət vəzifəsi tutan insanın cəzalandırılması demək idi. Nadirin bu cür prinsipiallığı qardaşının da xoşuna gəlmirdi. Belə ki, qardaşı Əliqulu xan da ona qarşı baş qaldırdı. Ancaq onunla əlbir olanlar bu niyyətlərini gizli olaraq həyata keçirməyə qərar verdilər. Bu işdə onların ən böyük yardımçısı isə şahın özəl alayının rəhbəri Saleh bəy Əfşar oldu. Belə ki, sui-qəsdçilər onu da ələ ala bilmişdilər.

Bu zaman isə Nadir Şah, Seystan xanı Fətəli xanın baş qaldırdığı üsyanı yatırtmağa gedirdi. Yolda ona sui-qəsd ediləcəyindən xəbər tutan Nadir Şah, bütün sui-qəsdçiləri gecə yanına çağırır. Onlara özünə qarşı sui-qəsd hazırladığını söyləyən Nadir bildirir ki, indi yatmağa gedir, ancaq səhər açılan kimi hamınızı edam etdirəcəm. Təbii ki, bundan sonra sui-qəsdçilər hərəkətə keçməli idilər. Əks təqdirdə səhər açılan kimi Nadir hamısını edam etdirəcəkdi. Və 1747-ci il iyunun iyirmisində Xorasan vilayətinin Xoşab adlanan yerində gecə yatmağa gedən Böyük Türk olan Nadir Şah, sui-qəsdçilər tərəfindən xaincəsinə öldürülür. Deyilənlərə görə Nadir, fiziki cəhətdən o qədər güclü insan olmuşdur ki, səkkiz qılınc zərbəsindən sonra vəfat etmişdir.

Ümumiyyətlə isə insan bir şeyi anlamaqda çətinlik çəkir. Belə ki, bu qədər ağıllı və tədbirli bir hökmdar, ona qarşı





sui-qəsd ediləcəyindən və sui-qəsdi kimlərin hazırlamasını xəbardar olur. Bundan sonra isə onları çağırıb xəbərdarlıq edir ki, "səhər açılan kimi hamınızı edam etdirəcəm". Axı Tanrı o anda nəyə görə bu böyük və ağıllı hökmdarın ağlına elə o andaca sui-qəsdçiləri edam etdirmək fikrini gətirməyib? İnsanın, hələ Asiyanın böyük bir hissəsinin hökmdarının öz həyatına bu qədər etinasız olması insanda təəccüb doğurmaya bilmir.

Nadir Şahın vəfatından sonra isə Türk Millətinin bütün gələcək uğursuzluqlarının və bədbəxtliklərinin təməli qoyulmuş oldu. Belə ki, bu Böyük Türk, vaxtsız vəfat etməsəydi kim bilir dünyanın indiki siyasi xəritəsi necə olacaqdı?? İndi bizlərə dövlətçilik və demokratiya öyrətməyə çalışanlar görəsən o zaman bunu edə biləcəkdilərmi??

## CAVAD XAN
*? - 1804*

Azərbaycan türkünün yetişdirmiş olduğu ən böyük və ən igid oğullarından biri də Gəncə xanı Cavad xandır. Adının çəkilməsi uzun illər qadağan edilsə də, nəhayət, Azərbaycan müstəqillik əldə etdikdən sonra yenidən milli qəhraman kimi adı dillərdə dastan oldu. Böyük bir rus ordusu ilə rəşadətlə döyüşən və Gəncəni təslim etməkdənsə, döyüşərək ölməyi üstün tutan bir gəncəli haqda yazmağı özümüzə borc bildik.

Cavad xan, qədim Ziyadoğulları nəslinin nümayəndələrindəndir. Onun nəsli artıq bir neçə neçə yüz il idi ki, doğma Gəncə şəhərinin hakimləri idilər. Şirvanşahlar Dövlətinin süqut etməsindən sonra Gəncə xanlığı, Şəki xanlığı ilə birlikdə Azərbaycanın Gürcüstanla olan qərb sərhədlərini qorumaqda idilər. Cavad xan taxta çıxdığı zaman Qazax, Şəmkir, Şəmsəddin və Borçalı mahalı Gəncə xanlığının tərkib hissələri idilər.

Azərbaycan ərazisində hökmdarlıq edən xanlıqların əlbir olmamasını və daim bir-birləri ilə çəkişmədə olduqlarını bilən Kartli-Kaxet çarlığı daim Gəncə xanlığını narahat edir, daim şəhər sakinlərini səksəkədə saxlayırdı. Gürcülərin bütün xasiyyətlərinə yaxından bələd olan Cavad xan, onlarla təkbaşına bacara bilərdi. Ancaq Qarabağın namərd xanı İbrahimxəlil xan, gürcülərlə müttəfiq idi və buna imkan vermirdi. Bu axmaq xan anlamırdı ki, Gəncədən sonra növbə ona da gələ bilər.

Cavad xan vaxtilə Ağa Məhəmməd şah Qacarın müzəffər Tiflis yürüşündə iştirak etmiş və bu zaman bir çox gürcü əsilzadələrini məğlub edərək özü ilə əsir götürərək Gəncəyə gətirmişdi. Şəki və Qarabağ xanlıqları, o cümlədən də Gürcüstan





tərəfdən təklənən Cavad xan, onlarla olan məsələni və münaqişəni həll etmək üçün gürcü əsirlərini geri qaytardı. Ancaq bundan sonra da düşmənləri ondan əl çəkmədilər. Lakin bu zaman nəinki Gəncə, hətta bütün Zaqafqaziyaya göz dikmiş olan Rusiya, heç kimin gözləmədiyi bir zamanda peyda oldu. Bu, yeni düşmən daha güclü və daha israrlı idi. Satqın və namərdlər olmasaydı, şah Qacarın yardımı ilə mir müddət rusların qarşısını almaq olardı. Ancaq təəssüflər olsun ki, Qacarın vaxtsız vəfatı buna mane oldu... Artıq bir-biri ilə yola getməyən kiçik Azərbaycan xanlıqlarını sıradan çıxarıb bütün Azərbaycana sahib olmaq Rusiya üçün an məsələsi idi. Və Rusiya da, Cavad xan da bunun fərqində idilər. Ruslar tələsir, Cavad xan isə vaxt qazanaraq bir az da güclənmək niyyətində idi. Bu vaxtı isə Cavad xana Tanrı özü verdi.

Belə ki, 1796-cı ildə rus çarıçası II Yekaterinanın ölümü Cavad xana az da olsa vaxt qazandırdı. Gəncə xanlığı yaranmış sakitlikdən istifadə edərək qüvvə toplamağa başladı. Lakin, bütün bunlara baxmayaraq bir quduz it acgözlüklə və quduzluqla Gəncəyə baxmaqda idi. Bu, ruslaşmış gürcü Aznavur Sisianov (Sitsilişvili) idi. 1801-ci ildə I Pavelin öldürülməsindən sonra Sisianov özünün çoxdankı arzusuna çatmış oldu. I Pavelin yerinə rus taxtına I Aleksandr gətirildi.

İndi bir tərəfdə saysız-hesabsız top, tüfəngi və resursu ilə Rusiya və onun yeni çarı I Aleksandr, digər tərəfdə isə məhdud sayda qüvvəyə sahib olan Gəncə, gəncəlilər və onların qəhraman xanı Cavad xan dururdu. Cavad xanın iki yolu var idi. Belə ki, o ya təslim olmalı, ya da sonu ölüm olan müharibəyə atılmalı idi.

Ümumiyyətlə isə rusların Azərbaycana gəlişi zamanı onlara daha çox Gəncə, Dərbənd və Lənkəranda müqavimət göstərilib. Məsələn, Lənkəran xanlığını təslim etmək üçün ruslara əvvəlcə iyirmi min döyüşkən lənkəranlını qırmaq lazım

gəlmişdi. Ancaq onlardan əvvəl belə bir qəhramanlıq nümunəsini gəncəlilər və Gəncə xanı göstərmişdi.

1804-cü ilin güclü bir ordu ilə Azərbaycana yaxınlaşan Sisianov, Cavad xana belə bir məktub yolladı: "Əgər təslim olmaq istəmirsinizsə, onda İzmail, Oçakov, Varşava və başqa şəhərlərin başına gələn fəlakətlərə hazır olun. Əgər sabah günortaya kimi cavab gəlməsə, qiyamət qopacaq. Gəncənin üzərindən tufan kimi keçməklə, sözümə necə əməl etməyimin şahidi olacaqsız".

Ailə üzvləri və yaxınları ilə məsləhətləşən Cavad xan, Sisianova belə bir cavab məktubu yollamışdır: "Əgər sən mənimlə müharibəyə başlamaq istəyirsənsə, mən hazıram. Döyüş istəyirsənsə, döyüşək. Sənin təklifini qəbul etməyəcəyim təqdirdə mənə bədbəxtlik vəd edirsən. Amma mən inanıram ki, bədbəxtlik sənin özünü təqib edib Peterburqdan bura gətirmişdir".

Aznavur belə bir cavab gözləmirdi. O, xoşluqla heçnə alınmayacağını hiss edib, bu dəfə Cavad xana hədə-qorxu məktubları göndərməyə başladı. Belə bir zamanda Cavad xanı daha çox İran şahı Fətəli şahın mövqeyi narahat edirdi. Belə ki, Fətəli şah azacıq da olsa Cavad xana yardım etsəydi, xan, rusların cənuba gedən yolunu kəsə bilərdi. Ancaq İranın bu axmaq şahı bunu başa düşəcək halda deyildi. Bu səbəbdən də Cavad xan, böyük rus imperiyası ilə mübarizədə meydanında tək qaldı. Bu arada isə Dağıstan polku da yardıma gələrək Sisianovun əmrinə keçdi. Yalnız bundan sonra o, Gəncə üzərinə yürüş edərək bu şəhəri mühasirəyə aldı.

Bundan sonrası, yəni Gəncə və gəncəlilərin, o cümlədən də Cavad xanın başına gələnlər hamıya bəllidir. Belə ki, Gəncə şəhərinin Tiflis qapısını açan Gəncə erməniləri rusları içəri buraxdılar. Və çox keçmədi ki, şəhər təslim oldu. Cavad xanın da əsas səhvi, məhz erməniləri döyüşdən əvvəl hamılıqla şəhərdən çıxarmaması olmuşdur.





Gəncə uğrunda gedən döyüşlərdə Cavad xan və oğlu Hüseynqulu xan şəhid oldular. Xanın böyük oğlu olan Uğurlu xan isə digər qardaşlarını da götürərək qala divarlarını aşaraq qurtula bildilər. Gəncənin müdafiəsi zamanı təxminən 4000-ə yaxın gəncəli həlak olmuş, 20 minə yaxın uşaq, qadın və kişi isə ruslar tərəfindən əsir götürülmüşdür.

Gəncənin ruslar tərəfindən işğalından sonra şovinist rusların bütün Yaxın Şərq ölkələrinə yolu açılmış oldu. Yaşı min illərlə ölçülən Gəncənin adı isə əvvəlcə Yelizavetpol, bolşeviklərin Azərbaycanı yenidən işğalından sonra isə Kirovabad adlandırılmağa başlandı. Yalnız 1989-cu ildə Cavad xanın yadigarı olan qədim Gəncənin doğma adı özünə qaytarıldı.

Təəssüflər olsun ki, Cavad xanın ruslara qarşı çıxdığı zamanda xalqımız yekdil bir ruha sahib olaraq ruslarla döyüşmədi. Bu azmış kimi düşmənə yardım edənlər də oldu. Bunun nəticəsidir ki, XIX əsrdə şanlı tariximizə cəmi bir qəhrəmanın adı yazıldı ki, bu da Cavad xandır.

## MİRZƏ ŞƏFİ VAZEH
### *1806 - 1852*

*Düzlüklə alçaqlıq çarpışan zaman,*
*Alçaqlıq nədənsə qazanır hər an.*
*Çünki alçaqlarçün ən alçaq işlər,*
*Alçaqlıq deyildir, hünərdir, hünər.*

*M.Ş.Vazeh*

*"O, insanların ən müdriki idi və qətiyyən Avropa təsirinə məruz qalmamışdı".*

*Bodenştedt*

Azərbaycan şairi və mütəfəkkiri. Qədim Gəncə şəhərində bənna ailəsində dünyaya gəlib. Mirzə Şəfi ərəb və fars dillərində mükəmməl təhsil alıb. Ancaq valideynlərini erkən itirməsi, onun həyatın acı həqiqətləri ilə üz-üzə qoyub. Belə ki, qohumları onu, valideynlərindən qalan mirasdan məhrim ediblər və Mirzə Şəfiyə valideynlərinin vəfatından sonra heç nə çatmayıb. Uzun illər Gəncədəki Şah Abbas məscidinin hücrələrində yaşayıb. Bu zaman güzəranını ərəb və fars dillərində dərs deməklə təmin edib. XIX əsrin 30-cu illərində Gəncənin dəvlətli şəxslərindən olan İbrahim xanın qızına özəl dərs deməyə başlamışdır. Bu dönəmdə ruhanilərlə onun arasında yaranan mübahisələr səbəbindən Şah Abbas məscidini tərk edərək, keçmiş müəllimi və tərbiyəçisi Hacı Abdullanın qohumlarının birinin evində yaşamağa başlayıb. İbrahim xanın qızı Züleyxaya dərs keçən Mirzə Şəfi, qəza aşiq





olmuş, onun ərə veriləcəyini eşidəndə isə onu qaçırmışdır. Ancaq xanın göndərdiyi adamlar onları yarı yolda haqlamış və sevən gəncləri bir-birindən ayırmşlar. Bu hadisədən sonra Gəncədə yaşamağın mümkün olmadığını görən Mirzə Şəfi, Tiflis şəhərinə köçüb və burada qəza məktəbində dərs deməyə başlamışdır. 1840-cı ilin ortalarından Tiflisdə türk, ərəb və fars dillərində çoxlu sayda şerlər yazmış və bunun nəticəsində bu şəhərdə məşhurlaşmışdır. Bu məşhurluq ona çoxlu sayda tələbə qazandırmışdır ki, bu tələbələrin arasında avropalı gənclər də olub. Onun fəlsəfə sahəsindəki əsərləri və söhbətləri isə daha çox maraq doğurmağa başlamışdır. Mirzə Şəfinin avropalı tələbələri arasında o zamanlar hələ məşhur olmayan alman səyyahı və alimi Fridrix Bodenştedt də var idi. Mirzə Şəfi ilə onun arasında çox səmimi və qarşılıqlı hörmətə əsaslanan münasibətlər mövcud olmuşdur. Bu səmimiyyətdən istifadə edən Bodenştedt, müəllimi olan bütün söhbətlərini öz gündəliklərinə yazmışdır.

Bu iki şəxs arasında gedən söhbətlərin əsasını Mirzə Şəfinin öz tələbəsinə oxuduğu şerlər tuturdu. Sonralar Bodenştedt "Şərqdə 1001 gün" kitabında belə yazırdı: "O, insanların ən müdriki idi və qətiyyən Avropa təsirinə məruz qalmamışdı".

Həmin günlərdə qırx yaşına qədəm qoyan Mirzə Şəfinin həyatında ikinci xöşbəxt hadisə baş verdi. Belə ki, o, Tiflisdə öz gözəlliyi ilə ad çıxarmış Hafizə adlı bir qıza vurulur. Ancaq qızın atası, öz gözəl qızını kasıb şairə verməkdən imtina edir. Bu dönəmdə artıq onun tələbəsi Bodenstedt vətəni Almaniyaya qayıtmışdı. O, vətəninə qayıtdıqdan sonra Mirzə Şəfidən məktub alır. Müəllimi məktubunda uzun əzab-əziyyətlərdən və çətinliklərdən sonra nəhayət ki, Hafizə ilə evləndiyini yazırdı. Bodenştedt 1852-ci ildə Berlində özünün "Şərqdə 1001 gün" adlı ən məşhur kitabını nəşr etdirir. O, kitabda böyük bir hissəni müəllimi etdiyi söhbətlərə, müəlliminin dünyagörüşünə,

şerlərinin tərcüməsinə və fəlsəfi baxışlarına həsr edir. Bodenştedt daha sonra Mirzə Şəfi ilə xudahafizləşərkən, müəlliminin ona hədiyyə olaraq verdiyi şer toplusunu "Mirzə Şəfi nəğmələri" adı altında çap etdirir. O, kitabın ön səhifəsində Mirzə Şəfinin portreti olan kitabın bir nüsxəsini də müəlliminə göndərməyi unutmayır. Ancaq bu zaman Mirzə Şəfi artıq çoxdan Tiflisin müsəlmanlar qəbristanlığında yatırdı. Avropada isə onun şerlərinin fantastik və başgicəlləndirici şöhrəti hələ davam edirdi. Mirzə Şəfinin çoxdan öldüyünü, övladının və qohum-əqrabasının olmadığını bilən Bodenştedt, 70-ci illərdə qəflətən elan edir ki, bəs Mirzə Şəfi şerlərinin müəllifi onun özüdür. Nədənsə heç kim onun bu iddiasına qarşı çıxmır. Bununla da Şərqin böyük dühalarından olan Mirzə Şəfi XX əsrin 30-cu illərinə kimi unuduldu. Bundan sonra Azərbaycan ədəbiyyatçıları Ə.Ə.Seyidzadə və Mikayıl Rəfilinin səyləri nəticəsində Bodenştedt versiyası ifşa edildi və Mirzə Şəfinin şerləri öz sahibinə qaytarıldı. Mirzə Şəfinin şerləri həyat fəlsəfəsi aşıb-daşır. Burada əfsanəvi Şərq aləmi, Qafqaz çöllərinin ətri, gənc gözəllərin ətri poeziya dilində əbədiləşib. Mirzə Şəfi haqda yazının sonuna gələrkən onu da deyək ki, ləyaqətli alman xalqı artıq Mirzə Şəfinin şerlərini Bodenştedtin imzasıyla çapının dayandırılması ilə bağlı öz qərarını verib.

***Şikayətmi edim, gülümmü bilməm,***
***Dünyanın yarısı dərrakədən kəm,***
***Edir utanmadan, eyləmədən ar,***
***Min bir axmağın sözünü təkrar.***
***Yox, səni mədh edim, qoy ey yaradan,***
***Ki, tutmuş dünyanı bu qədər nadan.***
***Etməsəydin bizə bu mərhəməti,***
***Olmazdı əqlin də qədri, qiyməti.***





***Şirin, acı hiss kimi***
***Şərab hər qəlbə girər,***
***O bizim ruhumuza***
***Sevinc, kədər gətirər.***
***Qorxmadan deyirəm mən:***
***- Şərab yağışa bənzər, -***
***Palçıq olacaqdır o,***
***Palçığa yağsa əgər,***
***Amma bizim bu yağış -***
***Göyün qüdrətilə, bax,***
***Tarlaya yağsa əgər,***
***Dönüb sünbül olacaq.***

* * * * * * * * * * * * *

## MİRZƏ FƏTƏLİ AXUNDOV
### *1812 - 1878*

Azərbaycan dramaturqu, filosofu və yazıçısı. O, 1812-ci ildə Nuxa (indiki Şəki) şəhərində dünyaya gəlmişdir. Atası Mirzə Məmmədtağının əcdadı əslən Cənubi Azərbaycandandır. Daha dəqiq isə Təbriz şəhərinin Xəmnə qəsəbəsindən. Ata tərəfdən Fətəli, əyalət hakimləri nəslinə mənsub idi. Babası Hacı Əhməd, onun vəfatından sonra isə atası Mirzə Məmmədtağı uzun illər Xəmnə qəsəbəsinin və ona yaxın olan bir sıra kəndlərin hakimi olmuşdur. XIX əsrin ilk onilliyində Mirzə Məmmədtağı ilə Cənubi Azərbaycanın hakim dairələri arasında narazılıq baş vermişdir. Bunun nəticəsində də Mirzə Məmmədtağı vəzifəsindən azad edilmiş və 12 min tümən məbləğində olan var-dövləti müsadirə edilmişdir. Bundan sonra Mirzə Məmmədtağının iqtisadi və mənəvi durumu kəskin şəkildə pisləşir. O, ilk ailəsini Xəmnə qəsəbəsində qoyaraq, Şəki şəhərinə gəlir və burada ticarətlə məşğul olmağa başlyır. 1811-ci ildə burada Mirzə Məmmədtağı, Şəki xanlarının himayəsi altında yaşayan Axund Ələsgərin qardaşı qızı olan Nanə ilə ailə həyatı qurmuş, bir ildən sonra isə ilk övladları olan Fətəli dünyaya gəlmişdir.

Bir müdət sonra isə Mirzə Məmmədtağı yenidən İrana qayıtmalı olub və qayıdarkən ailəsini də özü ilə birlikdə aparıb. Burada Mirzə Məmmədtağının birinci arvadı ilə yola getməyən Nanə xanım, ərinin icazəsi ilə balaca Fətəlini də fötürüb Cənubi Azərbaycanın Qaradağ vilayətinin Horand kəndində yaşayan əmisi Hacı Ələsgərin yanına köçür. Fətəli Xamnədə təxminən dörd il yaşayıb və ilk təhsilini də buradakı mollaxanada alıb. Axund Ələsgər, Fətəlini oğulluğa götürərək onun təlim-tərbiyəsi və təhsili ilə şəxsən məşğul olur. Axund Ələsgər, Fətəliyə ərəb və fars dillərini mükəmməl şəkilsə öyrədir. Mirzə Fətəli on üç yaşınadək Horand kəndində, daha sonra isə Unküt elinin Vəlibəyli obasında yaşayır. 1825-ci ildə Hacı Ələsgər Gəncəyə köçür. Gəncənin ruslar tərəfindən işğalından sonra isə Şəkiyə gəlir. Bütün bu dönəmlərdə Hacı Ələsgər, Fətəlinin qayğısını əsla unutmur. Fətəli də bunun qarşılığında, yəni Axund Ələsgərə hörmət əlaməti olaraq böyüdükdən sonra Axundov soyadını götürmüşdür.

1832-ci ildə atalığı Hacı Ələsgər Məkkə ziyarətinə gedərkən Fətəlini özüylə Gəncəyə gətirib. Fətəli, Gəncədə axund Molla Hüseyndən məntiq və başqa elmləri, şair Mirzə Şəfidən isə nəstəliq xəttini öyrənmişdir. Lakin bir müddətdən sonra ruhani olmağa hazırlaşan Mirzə Fətəli, müəllimi Mirzə Şəfinin təsiri ilə bu fikrindən vaz keçir. Şəkiyə qayıtdıqdan sonra Fətəli bu fikrini, yəni, ruhani olmayacağını qət etdiyini Axund Ələsgərə bildirir. Axund onun bu fikrinə hörmətlə yanaşır və Fətəlini Nuxada olan rus dili məktəbinə qoyur. Fətəli bu məktəbdə bir il oxuyur.

1834-cü ildə Axund Ələsgər Fətəlini Tiflis şəhərinə gətirərək baron Rozendən xahiş edərək onu dövlət dəftərxanasında tərcüməçi vəzifəsinə düzəldir.

1836-cı ildən etbarən Fətəli eyni zamanda Tiflis qəza məktəbində türk və fars dillərindən dərs deməyə başlayır. 1840-cı illərdə isə birdəfəlik Tiflisə köçən müəllimi Mirzə Şəfinin xeyrinə müllimlik vəzifəsindən imtina edir.

Mirzə Fətəli 1842-ci ildə Axund Hacı Ələsgərin qızı Tubu xanımla ailə həyatı qurmuşdur. Gözəl bir ailə başçısı olsa da, ailə qurmağı o qədər də uğurlu olamışdır. Belə ki, onun on üç övladından yalnız ikisi - oğlu Rəşid və qızı Nisə uzun müddət yaşaya bilmişdir. Oğlu Rəşid, Tiflisdə klassik gimnaziyanı

bitirdikdən sonra Belçikada universitet təhsili almış və burada yol mühəndisi ixtisasına yiyələnmişdir. Qızının təlim-tərbiyəsi və təhsili ilə şəxsən özü məşğul olmuş və ona ərəb və fars dillərini mükəmməl şəkildə öyrədərək, Nisə xanıma dövrünə görə müasir ruhda tərbiyə vermişdir. Qalan övladlarını isə Mirzə Fətəli uşaq və gənclik illərindəcə itirmişdir.

Dövlət qulluğunda gələcək dramaturq və filosofun rütbəsi gün keçdikcə artırdı. Tiflisdə yaşayan bir çox rus və Avropa ziyalıları ilə dotluq münasibətləri quran Mirzə Fətəli, dünya mədəniyyəti, ədəbiyyatl və fəlsəfəsi ilə yaxından tanış olmaq imkanı əldə etmişdir. Fətəli ilk bədii əsərini də Puşkinin ölümünə həsr edir və bu əsər rus dilinə tərcümə olunaraq nəsr şəklində nəşr edilir. Çünki poemanın dili qəliz və bəlağətli idi. Ümumiyyətlə o dövrdə Tiflis şəhərinin bütövlükdə Zaqaqafqaziyanın siyasi və mədəni mərkəzi olması bir çox ziyalılar kimi, Mirzə Fətəlinin də dünyagörüşünün formalaşmasına çox mühüm təsir göstərmişdir. Təbii ki, mühitdən əlavə hər şey insanın özündən, onun iradəsindən və istedadından asılıdır. Çünki münbit şəraitin olmasına baxmayaraq insanlar çox zaman bunun fərqində olmadan ortabab olmaqdan kənara çıxa bilmirlər. Böyük alman filosofu Fridriz Nitşe isə ortababları "bazar milçəyi"nə bənzədir. Həyasız və tez çoxalan..!

Mirzə Fətəlinin 1851-ci ildə yazmış olduğu ilk əsərini möcüzə hesab etmək olar. ( "Zəmanədən şikayət" əsəri ) Öz həyatiliyi və realizmi ilə bu əsər nəinki Şərqdə, eyni zamanda Qərb ədəbiyyatında da böyük hadisə idi. Mirzə Fətəli 1856-cı ilə qədər bir-birinin ardında 6 dram əsəri yazaraq, nəinki Azərbaycanda, bütövlükdə Şərqdə dramaturgiyanın banisinə çevrilir. Bundan sonra daha bir dahiyanə əsəri olan "Aldanmış Kəvakib" hekayəsini yazaraq yeni nəsrimizin ilk nümunəsini yaratmış olur.





Ömrünün sonrakı iyirmi ilində Axundov, daha çox elmi, fəlsəfi və publisistik əsərlər yazmışdır. Onun yazmış olduğu "Kəmalüddövlə məktubları" əsəri həm dini fanatizmə, həm də Yaxın Şərqin bütün ölkələrində hökm sürən despotizmə qarşı yönəlmişdir. O, bu əsərini kəskin tənqidi dildə yazmışdır. Əsərlə tanış olanlar yəqin ki, Axindovun bu əsərdə dinə və onun hökmlərinə necə ittihamlarla çıxış etdiyini bilirlər.

Ümumiyyətlə Mirzə Fətəli Axundov bir mütəfəkkir kimi materialist dünya görüşə sahib idi. Onun bu inancı bizlərdə təəssüf doğurur. Ancaq Mirzə Fətəlini də anlamaq çətin deyil. Belə ki, o, öz zamanında İslam dini hökmranlığının və dövlətin xüsusən də İranın şəriət üsulu ilə idarə olunmasının necə böyük fəsadlar törətdiyinin canlı şahidi idi. Əks təqdirdə Mirzə Fətəli Axundov kimi sağlam və mütərəqqi bir düşüncə sahibinin tamamilə puç olan materializmə inanması başa düşülməzdi.

Mirzə Fətəli Axundovun Azərbaycan ədəbiyyatı və dili üçün etdiyi əsas mübarizə isə onun hələ öz zamanında hakimiyyət orqanlarını ərəb və fars əlifbasından imtinaya çağırmasıdır. Bu məqsədlə o, Osmanlı sultanına, İran şahına, rus çarına müxtəlif vaxtlarda məktublar yazmışdır. Ancaq təəssüflər olsun ki, onun bu istəyi öz sağlığında baş tutmamışdır.

Mirzə Fətəli Axundov 1877-ci ilin sonunda ağır ürək xəstəliyinə məruz qalmış, bunun nəticəsində də vəziyyəti getdikcə pisləşmiş və nəhayət 1878-ci ilin martın 10-da vəfat etmişdir. Öz vəsiyyətinə əsasən Tiflisdə müsəlman qəbristanlığında, sabiq müəllimi və dostu Mirzə Şəfi Vazehin qəbri yaxınlığında dəfn edilmişdir.

## SƏMƏD BƏY MEHMANDAROV
***1857 - 1931***

Görkəmli dövlət xadimi, hərbçi və ziyalı. Səməd bəy Mehmandarov 1857-ci ildə Lənkəran şəhərində, əslən Qarabağdan olan Sadiq bəyin ailəsində dünyaya gəlmişdir. Təhsil alması üçün atası onu Bakı gimnaziyasına göndərmişdir. Səməd bəy, gimnaziyanı əla qiymətlərlə bitirir. Hərbi işə böyük marağı olduğundan Peterbuqra gedərək burada topçuluq məktəbinə daxil olur. 1875-ci ildə topçuluq məktəbini bitirdikdən sonra Sibirdəki hərbi hissələrin birinə göndərilir.

Rusiya ilə Yaponiya arasında 1904-1905ci illərdə baş verən müharibə, Mehmandarovun həyatında əhəmiyyətli rol oynamışdır. Belə ki, məhz bu müharibədə Mehmandarovun hərbi dühası üzə çıxmış və böyük qəhramanlıqlar göstərmişdir. Bu qəhramanlığından dolayı çar hökuməti tərəfindən Mehmandarov, general-mayor rütbəsi almış və qızıl qılınc mükafatı ilə təltif edilmişdir. Bundan sonra isə onun hərbi sahədə olan yüksəlişi davam etmişdir. Belə ki, Mehmahdarov 1908-ci ildə general-leytinant rütbəsi alır. Bundan sonra isə birinci dünya müharibəsində göstərdiyi şücaətlərə və yüksək sərkərdəlik qabiliyyətinə görə bir neçə dəfə qızıl silahla, müxtəlif orden və medallarla təltif edilmişdir. Çar Rusiyanın mükafatları ilə yanaşı, Mahmandarov, Fransa, İngiltərə və Rumıniya hökumətlərinin də ən yüksək mükafatlarını layiq görülmüşdür. 1915-ci ildə Mehmandarov korpus komandiri vəzifəsinə təyin edilir. Artıq onu bütün Rusiyada artilleriyanın allahı adlandırmağa başlamışdılar.

1917-ci ildə baş verən bolşevik çevrilişindən və çarın hakimiyyətdən uzaqlaşdırılmasından sonra Mehmandarov da





hərbi xidmətdən ayrılmışdır. Bundan sonra o, vətəni Azərbaycana gəlmişdir. Burada o, yeni qurulmuş olan Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında yaxından iştirak etmişdir. Onun hərbi dühasından istifadə edən yeni Azərbaycan hökuməti, Mehmandarovu 1918-ci il dekabrın 25-də hərbi nazir vəzifəsinə təyin etmişdir. Bundan sonra Mehmandarov, Zəngəzurda 1919-cu ildə erməni quldur dəstələrini, daha sonra isə Muğanda hökumətə qarşı baş qaldıran dəstəni darmadağın etmişdir.

Məhz onun gərgin əməyi sayəsində 1920-ci ildə artıq AXC-nin qırx minlik nizami ordusu yaradıldı. General Mehmandarovun sayəsində Azərbaycan hökumətinin yeni yaradılmış ordusu, ermənilərə qarşı apardığı Əsgəran döyüşündə də qalib gəlmişdir.

1919-cu ilin yazında Azərbaycan ərazisinə ingilis gərbi qüvvələri daxil olmuşdur. Səməd bəy Mehmandarov, bu dövrdə Azərbaycanın baş naziri olan Nəsib bəy Yusifbəyliyə açıq məktub yazmışdır. O, məktubunda ingilis hərbçilərinin talançılıq və kəşfiyyat işləri məşğul olduqlarını göstərmiş və bütün bunlara etiraz əlaməti olaraq birinci dünya müharibəsi zamanı ingilis hökumətinin ona verdiyi orden və medalların onlara qaytarılmasını istəmişdir. AXC-nin ağır günlərində daxili və xarici düşmənlərin əhatəsində olan yeni dövləti təhdid edən qüvvələrdən biri də o zaman Qafqaza yaxınlaşan Denikinin rəhbərlik etdiyi ordu idi. AXC hökuməti bu təhlükədən bərk narahat olsa da, Mehmandarovun hərbi dühasına və sərkərdəlik qabiliyyətinə yaxşı bələd olan Denikin, bu Türk generalı ilə döyüş meydanında üz-üzə gəlməkdən ehtiyatlanaraq Azərbaycan sərhədlərindən uzaqlaşmışdır.

1920-ci il aprelin 28-də bolşeviklərin Azərbaycanı işğal etmsindən sonra S.Mehmandarov, vətəninin və xalqının həyatına biganə qalmayaraq, hərbi fəaliyyətini davam etdirmiş və

Nəriman Nərimanovun zəmanəti əsasında Azərbaycanda yaradılmış olan hərbi komandirlər məktəbində 1921-ci ildən 1928-ci ilədək müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur.

General Səməd bəy Mehmandarov, 1924-1927-ci illərdə Azərbaycanda hərbi sahədə aparılan islahatlarda fəal iştirak etmiş, öz təcrübəsini və hərbi biliklərini gənc nəsillə bölüşmüşdür. S.Mehmandarov, səhhətində yaranan priblemlərdən dolayı, 1928-ci ildə hərbidən ayrılmışdır. Bunda sonra isə ona dövlət tərəfindən təqaüd kəsilmişdir.

General-polkovnik Mehmandarov dövrünün görkəmli hərbçilərindən olmaqla yanaşı, eyni zamanda böyük vətənpərvər və gözəl ziyalı olmuşdur. O, Azərbaycan türkcəsi ilə yanaşı, Osmanlı türkcəsini və fars dilini də mükəmməl şəkildə bilmişdir. Mehmandarov, təqaüddə olduğu dönəmlərdə, yəni ömrünün son üç ilində əsasən İslam tarixi və fəlsəfə ilə məşğul olmuşdur.

Böyük Türk, Səməd bəy Mehmandarov 1931-ci ildə yetmiş dörd yaşında vəfat etmişdir.





## MİRZƏ ƏLƏKBƏR SABİR
### *1862 - 1911*

*Görmə! - Baş üstə, yumarım gözlərim.*
*Dinmə! - Mütiəm, kəsərəm sözlərim.*
*Bir söz eşitmə! - Qulağım bağlarım.*
*Gülmə! - Pəkey, şamu səhər ağlaram.*
*Qanma! - Bacarmaram! Məni məzur tut.*

**"Hophopnamə"**

Mirzə Ələkbər Sabir Tahirzadə Şirvani 30 may 1862-ci ildə Şamaxı şəhərində dünyaya gəlmişdir. Sabir yaradıcılığı nəinki Azərbaycanda, eyni zamanda Yaxın və Orta Şərqin bir çox ölkələrində də maraqla qarşılanmışdır. Belə ki, Mirzə Ələkbər Sabir, Azərbaycan ədəbiyyatında tənqidi realizmin yaradıcılarından biri, bədii fikirdə demokratik ideyaların və milli oyanışın ən fədakar nümayəndəsi hesab edilir. Onun atası, Hacı Zeynalabdin dindar insan olmuşdur. Hacı Zeynalabdin cavan yaşlarından müsəlmanlığın sünni məzhəbindən (Şamaxılıların 90 faizi sünnidir) imtina edərək, şiə məzhəbinə keçmişdir. Bu səbəbdən dolayı onunla, Şamaxının ziyalı insanlarından biri olan Hacı Tahir arasında uzun müddətli ixtilaf yaranır. Mirzə Ələkbər Sabirin atası 50-60 yaşlarında oğul-uşaq sahibi olmuşdur. O, həddən artıq dindar insan olduğundan dükanına gələn dərvişlərlə münasibət qururmuş.

Dükanına gələn dərvişərin ona qədər təsiri olmuşdur ki, o, hətta oğlu Sabiri yalnız dindar bir insan kimi görməyə başlayır.

Bütün bu kimi səbəblərdən dolayı Sabirin əyninə dərviş paltarı geyindirib mollaxanaya gətirirlər. Təbii ki, mollaxanada Sabirin, Qurani-Kərim və Sədi Şirazinin "Gülüstan"ından başqa bir şey oxumaq imkanları məhdud olur. O zamanlar Azərbaycanın hər yerində olduğu kimi Şamaxı mollaxanalarında da dünyəvi elmlər tədris edilmirdi. Belə bir vəziyyət Sabiri qane edə bilməzdi. Hələ 10-11 yaşlarında yazmış olduğu "Tutdum orucu irəmazanda" şeri ilə o, dövrünü dərk etməyə çalışmışdır.

İllər ötür və Şamaxıda Seyid Əzim Şirvaninin sayəsində yeni üsullu məktəb açılır. Bundan sonra Sabir bu məktəbin ən sevimli şagirdinə çevrilir və şəxsən Şirvani tərəfdən çox sevilir. Sabir boş vaxtalrında atasının dükanında ona kömək edərmiş. Bu zamanlarda o, gizlin olaraq ilk şerlərini yazmağa başlayır. Rəvayətə görə onun şerlərini görən atası, şerləri onun əlindən alaraq hamısını məhv etmişdir. Sözü gedən hadisə Sabirə çox pis təsir edir və o, ömrünün sonuna qədər bunu unutmur. Atasının bütün cəhdlərinə baxmayaraq, Sabir, şerə və ədəbiyyata olan marağını itirmir. Bu arada Sabir Xorasan və Kərbəlaya səfərlər edir, geri qayıtdıqdan sonra isə öz qohumu Billurnisə xanımla ailə həyatı qurur. Bu nigahdan onun dünyaya səkkiz qızı, bir oğlu gəlir. Ailə üzvlərinin çoxluğu da Sabirin güzəranına öz mənfi təsirini göstərir. 1902-ci ildə Şamaxı şəhərində baş vermiş zəlzələ, onsuz da ağır həyat tərzi keçirən şairin həyatını bir az da çətinləşdirir. Ailənin dolanışığını təmin etmək üçün Sabir, bir müddət sabun bişirib satmağa məcbur olur. Bununla əlaqədar dostu Abdulla Şaiqlə (Talıbzadə) görüşdüyü zaman ona belə demişdi: "Bir çox batini kirləri təmizləmək əlimizdən gəlmir. Zahiri kirləri təmizləmək üçün sabun bişirirəm".

Sabir yaradıcılğının əsas məqsədi cəmiyyətdə olan nöqsan və qüsurları tənqid etmək və onların aradan qaldırılmasına





çalışmaq idi. XX əsr Azərbaycan həyatını və Azərbaycan cəmiyyətindəki eybəcərlikləri hədəf olan "Molla Nəsrəddin" kimi, Sabir də bu eybəcərlikləri ifşa etməyi əsas götürmüşdür. Sabir zahirən cəmiyyətə və oradakı eybəcərliklərə gülsə də, daxilən ürəyi daim ağlamışdır. Bu səbəbdən də onun təxəlüslərindən biri "Ağlayan-Güləyən" olmuşdur.

Mirzə Ələkbər Sabir 1905-ci il inqilabının cəmiyyətə gətirdiyi müsbət dəyişiklikləri daim şerlərində alqışlamışdır. Onun şerləri dövrünün bir çox qəzetlərində, o cümlədən də "Molla Nəsrəddin" jurnalında dərc edilmişdir. Sabir yaradıcılığı dövrün ruhaniləri tərəfindən daim hücuma məruq qalmış, hətta onun yazdıqlarını sadə xalqın oxuya bilməməsi üçün ruhanilər onun şerlərini "küfr" adlandırmışlar. Bu kimi hallar Sabirin vaxtında məşhurlaşmasına və onun yaradıcılığının daha da pöhrələnməsinə maneçilik törətmişdir.

Şairin cəmiyyətdə sevilməməsi, bir tərəfdən iqtisadi keçimsizlik, digər tərəfdən normal qidalanmamaq onun bədənində bir çox xəstəliklərə yol açmışdır. Belə ki, mirzə Əlkəbər Sabir qara ciyər xəstəliyindən əziyyət çəkmişdir. Dostu, Cəlil Məmmədquluzadə onun müalicə etdirmək üçün Tiflisə aparsa da, orada həkimlər artıq gec olduğunu söyləyiblər. Bəlkə də gec olmazdı. Əsas amil maddi tərəf idi ki, buna bu Böyük Türkün imkanı çatmırdı. Vətənə dönən Sabir, 1911-ci ildə qara ciyər xəstəliyindən vəfat etmişdir.

Onun ən böyük arzusu olan əsərlərinin külliyyat halında nəşri şairin vəfatından il yarım sonra həyata keçmişdir. Təəssüf ki, şair özü bunu görməmişdir. Onun da qeyd edək ki, Sabirin bütün şerlərinin bir araya yığılmasında və çapa hazırlanmasında Abbas Səhhət və Mahmudbəy Mahmudbəyovum böyük xidmətləri olmuşdur. Onun şerlər kitabı olan "Hophopnamə" isə ilk dəfə olaraq məhz xalqdan toplanan ianələr hesabına nəşr edilə bilmişdir.

Sabirin xəstəlik dönəmində Həsən Bəy Zərdabi ilə Abbas Səhhət, onun xəstəliyini müalicə etdirmək üçün Qarabağ bəylərindən yardım istəmək məqsədilə Qarabağa yollanırlar. Həsən Bəyin gəldiyini eşidən Qarabağ bəyləri qonaqların görüşünə tələsirlər. Bir müddət ordan-burdan söhbət edən Həsən Bəy, gəlişinin əsl məqsədini söylədikdə, bəylər bir-birinin ardınca qalxaraq məclisi tərk edirlər. Kor-peşman geri dönən Zərdabi, qayıdan zaman bir erməni ilə rastlaşır. Hal-əhval tutduqdan sonra ermənin hardan gəldiyini soruşan, Zərdabi bu cavabı alır: "Mən neçə illərdir ki, ulağın üstündə kəndə su daşıyıb satıram. Bu minvalla bir az pul yığmışdım. Özümün övladım zadım yoxdur. Ona görə yığdığm pulları aparıb erməni xalqının fonduna köçürdüm ki, bəlkə gələcəkdə hansısa erməni övladı bu puldan faydalanıb təhsil ala. Bundan sonra da erməni xalqına xeyir verə". Daha sonralar Zərdabi xatirələrində yazırdı: "90 yaşlı erməni Mkrtıçın, erməni xalqının gələcəyini düşündüyü qədər, bütün Qarabağ bəyləri Azərbaycan türklərinin gələcəyi haqda düşünmürlər".





## ƏLİ BƏY HÜSEYNZADƏ

***1864 - 1941***

Türkçülük ideologiyasının yaradanlardan biri, siyasətçi, yazıçı, həkim və nəhayət Böyük Türk. 1864-cü ildə Salyan şəhərində müəllim ailəsində anadan olmuşdur. Atası Tiflisdə bir şiə məktəbində Azərbaycan türkcəsindən və şəriətdən dərs keçirdi. Əli bəy, çox kiçik yaşlarından Tiflisə aparılır və orada o zamanın Qafqaz Müsəlmanları Şeyxülislamı olan babası Şeyx Əhməd Salyaninin himayəsində yaşayır. Şeyxin nəzarəti altında da təsil almağa başlamışdır. Şeyx Əhməd, din adamı olsa da, Azərbaycan ədəbiyyatı və tarixi ilə yaxından maraqlanan insan olmuş və onun Mirzə Fətəli Axundovla yaxın münasibətləri və dostluğu məvcud idi. Hələ uşaq yaşlarından bu kimi insanların arasında olması, Əli bəyin ədəbiyyata maraq göstərməsinə səbəb olmuşdur. Əli bəy Hüseynzadə ilk olaraq atasının işlədiyi məktəbi bitirmişdir. 1875-1884-cü illərdə Tiflis orta məktəbində təhsilini davam etdirib. 1884-cü ildə orta məktəbi bitirən Əli bəy Hüseynzadə, Rusiyanın paytaxtı Peterburq şəhərinə gedərək, burada Hərbi Tibb Akademiyasında oxumağa başlayıb. Eyni zamanada da Peterburq Universitetində Şərq Dilləri Fakultəsində sərbəst dinləyici olaraq dərslərə qatılmışdır. Məhz burada Şərqin böyük alim və filosoflarının əsərləri ilə tanış olmuşdur.

Əli bəy Hüseynzadə 1889-cu ildə Tibb Akademiyasını bitirərək İstanbula gəlmişdir. Burada da dərhal Yusif Akçura ilə tanış olur. Yusif Akçura xatirələrində yazdığına görə: "Əli bəy Hüseynzadə özü ilə birlikdə İstanbula, Avropa mədəniyyətini də gətirdi. O, İstanbulda şimal günəşi kimi doğdu. Alman, rus, ingilis və şərq ədəbiyyatını dərindən oxumuş və öyrənmişdi".

Əli bəy Hüseynzadə İsanbulda oxuduğu Tibb fakultəsini bitirdikdən sonra yüzbaşı olaraq məzun olmuşdur. Bundan sonra isə 1897-ci ildə qəfil başlayan Osmanlı-Yunan müharibəsinə qatılmışdır. 1900-cü ildə dəri xəstəlikləri mütəxəssisi kimi fəaliyyətə başlamışdır. Ancaq bu dönəmdə polis tərəfindən daim təqib edilən Əli bəy Hüseynzadə məcburən vətəni Azərbaycana qayıtmışdır.

Əli bəyin Azərbaycana qayıtdığı zamanlarda, ölkəsində də bir çox irəli görüşlü ziyalılar var idi. Bu dönəmdə çar Rusiyası Yaponlara məğlub olmuş və həm daxilən, həm də xaricən çox zəifləmiş vəziyyətdə idi. Bundan istifadə edən Rusiyada yaşayan qeyri-millətlər, öz haqq və hüquqlarını tələb etməyə başlamışdılar. Ölkənin hər yerində ixtişaşlar və üsyanlar qalxmaqda idi. Belə bir vəziyyətdə Rusiya hökuməti imperiya daxilindəki xalqlara bəzi azadlıqlar verməyə məcbur olmuşdur.

Yaranmış siyasi vəziyyətdən istifadə edən Əli bəy Hüseynzadə, məşhur Azərbaycan ziyalıları, o cümlədən də Əhməd bəy Ağoğlu ilə birlikdə məşhur Azərbaycan xeyriyyəçisi olan Hacı Zeynalabdin Tağıyevin maliyyə dəstəyi ilə Bakıda "Həyat" adlı qəzet nəşr etdirməyə başlamışdır. İlk nömrəsi 1905-ci ildə çıxan bu qəzetdə Əli bəy Hüseynzadə, "Türklər kimdir və kimlərdən ibarətdir", "Bizə hansı elmlər lazımdır", "Yazımız, dilimiz və birinci ilimiz" kimi məqalələrini oxuculara təqdim etmişdir. Onun bu yazılarında "Türkləşmək, İslamlaşmaq və Avropalaşmaq" kimi ideyalar müdafiə olunurdu. Bundan başqa sözü gedən yazılarda Türklərin harada yaşamalarından asılı olmayaraq, bütöv bir millət olması göstərilir və bu bütövlüyə necə nail olmağın yolları açıqlanmışdır.

"Həyat" qəzeti 1906-cı ildə öz fəaliyyətini dayandırmış, bundan sonra isə Hüseynzadə yenə də Hacı Zeynalabdinin maddi dəstəyi ilə "Füyuzat" adlı jurnal nəşr etdirməyə başlamışdır. Jurnalın nəşrinə 1907-ci ilin dekabr ayına qədər davam





edilmişdir. Sözü gedən jurnal, Əli bəy Hüseynzadənin siyasi, fəlsəfi görüşlərini anlamaq və ədəbiyyata olan baxışını, yazı üslubunu öyrənmək üçün çox önəmli mənbə hesab edilir. "Füyuzat" ətrafında toplanan ziyalı və yazarlar Azərbaycan ədəbiyyatında özlərinə məxsus yol açmış olsalar də, yazılarında işlətmiş olduqları dil üslubu, Osmanlı türkcəsinə daha yaxın olduğundan, Azəri Türklərinin böyük bir qismi üçün anlaşılmaz olmuşlar və beləliklə də onlar istədiklərinə tam şəkildə nail ola bilməmişlər. "Füyuzat" qəzeti bağlandıqdan sonra Əli bəy Hüseynzadə, Bakıda "Səadət" məktəbində müəllimlik etməyə başlamışdır. Eyni zamanda da rus və Azəri Türkcəsində bəzi məqalələr yazmışdır.

1908-ci ildə Türkiyədə II Məşrutiyyətin elan olunmasından sonra köhnə dostlarının da olduğu "İttihad və Tərəqqi" partiyasının fəaliyyətində yaxından iştirak edə bilmək üçün 1909-cu ildə yenidən İstanbula gəlmişdir.Burada partiyanın mərkəzi aparatında çalışmağa başlayır. 1914-1918-ci illər arasında baş verən birinci dünya müharibəsi zamanı, Yusiz Akçura ilə birlikdə Avropanın müxtəlif yerlərində "Turan heyyəti" adlı bir qrupda türkçülük fəaliyyəti ilə məşğul olmuşdur. O zamanlar düzənlənmiş olan bir çox ölkələrarası toplantılarda daim Azərbaycan Türklərinin və ümumiyyətlə Türklüyün haqq və mənfəətlərini müdafiə etmişdir. Klassik latın, yunan, ingilis, fransız, alman, italyan, rus, ərəb və fars dillərini bilən Əli bəy Hüseynzadənin, Şərq və Qərb ölkələrində rahatlıqla münasibətlər qurmasına və bu bölgələrin insanlarını asanlıqla anlaya bilməsinə şərait yaradan amillərdən olmuşdur.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin elan olunmasından sonra, Əli bəy Hüseynzadə, yeni qurulmuş olan respublikaya imkanları daxilində xidmət etmək üçün yenidən Bakıya qayıdır. Bolşeviklərin, Azərbaycanı işğal etməsindən sonra Əli bəy, İstanbula dönmüşdür. 1926-cı ildə İstanbulda

tibb professorluğu müdafiə etmişdir. Eyni il sonuncu dəfə vətəni Bakıya gələn Əli bəy, burada dünya şərqşünaslarının toplantısında iştirak etmişdir. Əli bəy Hüseynzadə 1931-ci ildə təqaüdə çıxsa da, 1933-cü ilə qədər dərs keçməyə davam etmişdir. Tibbə dair mövzularla yanaşı, Əli bəy Hüseynzadə, Adam Smidt, Höte, Heyne kimi alman filosof və yazıçılarının, eyni zamanda rus ədəbiyyatından Çexovun şerlərini türk dilinə tərcümə etmişdir.

Əli bəy Hüseynzadənin ilk şeri 1904-cü ildə Misirin paytaxtı Qahirə şəhərində çıxan "Türk" qəzetində çap edilmişdir. Bu şerində Əli bəy macarlara müraciət etmiş və onların soy etibarilə türk olduqlarını bildirmişdir. Buradan da belə nəticə çıxarmaq olar ki, Əli bəy Hüseynzadə türkçülük və Turançılıq ideyasına hələ gənc yaşlarında yiyələnmişdir. Sonralar Əli bəy, Hüseynzadə soyadı ilə yanaşı "Turan" soyadını da qəbul etmişdir. Türkçülük ideyasının müəlliflərindən biri olan Yusif Akçuranın yazdığı kimi: "Əli bəy Hüseynzadə, mərkəzi Türkiyə olmaqla Türkçülük, Bütün Türkçülük və hətta Pan-Turanizm ideyasını ilk açıqlayan insandır"

Tibb prifessoru olan Əli bəy Hüseynzadə siyasət adamı olması ilə yanaşı, eyni zamanda yazıçı və publisistdir. Onun qələmindən şer və hekayələr, elmi və tənqidi məqalələr çıxmışdır. Böyük Türk olan Əli bəy Hüseynzadə, 1941-ci ildə İstanbul şəhərində vəfat etmişdir. Əsərlərinə sovet dönəmində qoyulan qadağa, Sovet İttifaqı dağıldıqdan sonra götürülmüşdür. Onun əsərlərinə misal olaraq, "Siyasəti Füyuzat" (At oynatmaq siyasəti), "Qırmızı qaranlıqlar içərisində yaşıl işıqlar", "Qərbin iki dastanında türk", "Vəba və mikrobu", "Ensiklopedik Tibb Kitabı" kimi əsərlərini göstərə bilərik.





## ƏLİMƏRDAN BƏY TOPÇUBAŞOV
**1865 - 1934**

***"Xalqımızın müstəqil yaşaya biləcəyinə, hər hansı yolla olursa olsun müstəqillik əldə edəcəyinə inanırdıq... Belə dəyərli xöşbəxtliyin qarşısında biz heç vaxt geri çəkilməmişik və çəkilməyəcəyik də, çünki biz bu səadətə bərabər olan heç nə tanımırıq".***

**Ə.Topçubaşov**

XX əsrdə Türk Dünyasının yetişdirmiş olduğu böyük siyasət adamlarından biri. Əlimərdan bəy Topçubaşov, 1865-ci ildə Tiflis şəhərində qulluçqu ailəsində dünyaya gəlmişdir. İlk təhsilini də burada almışdır. 1884-cü ildə gimnaziyanı bitirərək Peterburq Universitetinin tarix-filolofiya fakultəsinə daxil olmuşdur. Ancaq, birinci semestrdən sonra o, fakultəsini dəyişərək hüquq təhsili almağa başlamışdır. 1888-ci ildə hüquq fakultəsini müvəffəqiyyətlə bitirərək hüquq elmləri namizədi elmi adı almışdır. Bundan sonra Peterburq Universitetinin elmi şurası Topçubaşovun hüquq kafedrasında saxlanılması və professor vəzifəsi alması üçün hazırlanması qərarı qəbul etmişdir. Lakin, 1889-cu ildə çarın verdiyi qanuna əsasən qeyri-xristian olan Topçubaşovun bu vəzifəni tutması mümkün olmamışdır.

Əlimərdan bəy, bu hadisədən sonra Tiflis şəhərinə qayıdaraq burada məhkəmədə vəkil vəzifəsində çalışmağa

başlamışdır. Bundan başqa o, pedoqoji fəaliyyətlə də məşğul olaraq Tiflis geodeziya məktəbində hüquqdan dərs demişdir. Tobçubaşov 1896-cı ildə Bakıya gəlir. Burada da o, vəkilliklə məşğul olaraq, bir sıra mürəkkəb məhkəmə işlərini udmuşdur. Onun bu uğurları Bakı əhalisi arasında nüfuzunu artırmış və xalq arasında ona dərin sevgi hissləri oyanmışdır. Topçubaşov, 1897-1917-ci illər ərzində "Kaspi" qəzetinin yaradıcılarından və bu qəzetin redaktorlarından biri olmuşdur. Əlimərdan bəy, öz yazılarında Rusiyada mövcud rejimi daim pisləmiş və xalqlar arasında qoyulan ayrı seçkiliyi ifşa etmişdir.

Böyük mütəfəkkir olan Topçubaşov jurnalistliklə məşğul olduğu andan etibarən eyni zamanda Bakının və bütövlükdə Azərbaycanın ictimai siyasi həyatına qədəm qoymuşdur. O, ömrünün sonuna qədər də dövrün siyasi həyatında əhəmiyyətli rolu olmuş və daim proseslərin önündə getmişdir. 1905-1907-ci illərdə baş verən inqilabdan sonra isə bir çox azərbaycanlı ziyalı kimi Əlimərdan bəy, Azərbaycanın azadlıq mübarizəsinə qoşulmuşdur. Siyasi fəaliyyəti dövründə Bakı Dumasının üzvü seçilmiş, sonralar dumanın sədri olmuş, Rusiya müsəlmanlarının vahid təşkilatı olan "İttifaqi Müslimin"in yaradıcılarından biri olmuşdur. Əlimərdan bəy, sözü gedən təşkilatın proqramını hazırlamış, Nijni-Novqorod və Sankt Peterburqda keçirilən I-IV qurultaylarda ittifaqın sədrliyini etmişdir. (deyilənlərə görə ittifaqın üzvləri gəlib sədrlik etmək üçün Topçubaşova xahişlər edirlərmiş)

Rusiya Dumasına keçirilən seçkilərə də qatılan Topçubaşov Dumaya üzv seçilmişdir. Burada o, ayrıca müsəlman fraksiyası yaradaraq fraksiyanın rəhbərliyini etmişdir. Dumanın fəaliyyəti uzun olmasa da Topçubaşov burada qəbul edilən bir çox qərarların hazılanmasında və qəbul edilməsinə fəal iştirak etmişdir. Əlimərdan bəy Topçubaşovun siyasi və ictimai fəaliyyəti 1917-ci il fevral inqilabından sonra və oktyabr çevrilişindən





sonra daha da genişlənmiş, o, Azərbaycanın dövlət müstəqilliyi uğrunda mübarizəyə var qüvvəsi ilə qoşulmuşdur.

1917-ci ilin mart ayının 5-də Bakıda İctimai təşkilatların Şurası və onun İcraiyyə Komitəsi yaradılır. Bir çox Azərbaycan ziyalısı kimi, Topçubaşov da Komitənin tərkibinə daxil olmuşdur. İyul ayında isə Topçubaşov, komitənin sədri seçilmişdir.

1917-ci il martın 29-da Bakıda Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsi təşkil edilir. Onun tərkibinə isə M.Ə.Rəsulzadə, M.Hacınski, Ə.Topçubaşov və başqaları seçilmişdir. Təşkilatın gərgin əməyi sayəsində 1927-ci il aprelin 15-20-si arasında Bakıda Ümumqafqaz müsəlmanlarının qurultayı keçirilir. Qurultayın sədri isə təbii ki, Topçubaşov idi.

Ə.Topçubaşov 1918-ci il 30 mart və 1 apreldə Bakıda bolşevik və daşnakların sovet hakimiyyətini müdafiə adı altında Azərbaycan Türklərinə qarşı törətdikləri kütləvi qırğına qarşı çıxanlardan biri olmuş və Çaparidzenin rəhbərlik etdiyi heyyəti qəbul edənlərdən biri olmuşdur. 1918-ci il mayın 28-də Azərbaycan Türklərinin tarixində şanlı bir səhifə açıldı. Belə ki, bu zaman Şərqdə ilk dəfə olaraq müstəqil və demokratik Türk Cümhuriyyəti qurulmuşdu. Topçubaşov da bu hadisəni sevinclə qarşılayanlardan və bu yolda var qüvvəsi ilə çalışanlardan biri olmuşdur. Belə ki, o, Fətəli xan Xoyskinin yaratmış olduğu hökumətdə əvvəlcə portfelsiz nazir, daha sonra isə xarici işlər naziri vəzifəsini daşımışdır. Azərbaycan hökuməti Osmanlı Dövləti və onun vasitəsilə Avropa ölkələri ilə diplomatik əlaqələr yaratmaq məqsədilə Ə.Topçubaşovu fövqaladə səlahiyyətli nazir kimi İstanbul şəhərinə göndərmişdir.

1918-ci il avqustun 23-də Gəncədən yola düşən Topçubaşov, Tiflis-Batum marşrutu ilə hərəkət edərək, çox böyük çətinliklərdən sonra sentyabrın axırlarında İstanbula çatmışdır. Topçubaşov İstanbula gəlməsindən qısa bir zaman sonra Osmanlı sultanı, bir neçə nazir və diplomatla görüşə bilmişdir.

Topçubaşov onlara Azərbaycanda mövcud olan ictimai-siyasi vəziyyət haqda məlumat vermiş və bir çox məsələlər ətrafında fikir mübadiləsi aparmışdır. O, burada Mondros müqaviləsinin Azərbaycanla bağlı hissəsinə dair Türkiyə Xarici İşlər Nazirliyinə etiraz notası vermişdir. Topçubaşov notasında Azərbaycanın işğalını asanlaşdıran bir müqaviləni pisləyir və Azərbaycana məxsus olan dəmir yollarının başqa dövlətə güzəştə gedilməsinin beynəlxalq hüquqa zidd olduğunu göstərmişdir. 1918-ci ilin dekabrında çox ağır şərtlər altında olsa da, Azərbaycan parlamenti fəaliyyətə başlaya bilir. Məhəmməd Əmin Rəsulzadə dövlət rəhbəri kimi parlamentdə çıxış edir və açılış münasibətilə parlament ezvlərini təbrik edir. Rəsulzadə, yeni yaradılmış olan Azərbaycan parlamentinə sədr və onun müavinlərinin seçilməsi təklifi çıxış etmişdir. Onun bu təklifi yekdilliklə qəbul edilmiş və Azərbaycanın ilk parlamentinin ilk sədri də o zaman hələ də İstanbulda olan Ə.Topçubaşov seçilmişdir.

Dekabr ayının 28-də isə parlament Paris sülh konfransına gedəcək olan nümayəndə heyyətinin tərkibini seçir. Heyyətin sədri Topçubaşov seçilir. Onun müavini vəzifəsinə isə Hacınski seçilmişdir. 1919-cu il yanvarın 20-də Paris sülh konfransında iştirak edəcək Azərbaycandan olan nümayəndə heyyəti İstanbula gəlmişdir. Lakin Fransa hökuməti onların Fransaya gələ bilmələri üçün viza vermir. Bu zaman isə Topçubaşov Türkiyə, İran, ABŞ, Rusiya, Böyük Britaniya və Fransa diplomatları ilə durmadan görüşlər keçirir, onlara Azərbaycanda mövcud olan ictimai-siyasi vəziyyət haqqında məlumatlar verir və yenicə qurulmuş olan bu türk Cümhuriyyətinin tanınmasına çalışırdı. Parisə getmək üçün təkcə Azərbaycan nümayəndələri deyil, eyni zamanda Kuban, Dağlılar İttifaqı, Ukrayna və Gürcüstan nümayəndələrinə də viza verilməmişdi. Bütün bu nümayəndə heyyətləri səylərini birləşdirərək eyni mövqedən çıxış etməyə başladılar. Bütün nümayəndə heyyətlərinin üzvləri tərəfindən





memorandum imzalandı və İstanbulda Böyük Britaniya ali komissarı olan Vebbə təqdim edildi. Gərgin keçən görüşlərdən və mübarizədən sonra nəhayət, 1919-cu il aprelin 22-də Azərbaycan nümayəndə heyyəti Topçubaşovun rəbərliyi altında Parisə yola düşə bilir. Mayın əvvəllərində Parisə gələn Azərbaycan nümayəndə heyəti burada Polşa, Gürcüstan, İran, ABŞ və s. ölkələrin nümayəndələri ilə görüşmüş və müxtəlif məsələləri müzakirə etmişlər. Belə bir dönəmdə Azərbaycan siyasətçilərinin ən böyük uğurlarından biri də Topçubaşovun ABŞ prezidenti Vudro Vilsonla görüşü olmuşdur.

ABŞ prezidenti görüşü zamanı Topçubaşov, yeni yaradılmış olan Azərbaycan Cümhuriyyətinə ABŞ-ın birinci şəxsindən dəstək almışdır. Topçubaşovun Paris sülh konfransında bir neçə dildə məruzəetməsi isə o zaman bütün zaldakıları heyrətə gətirmişdir. Çünki o zamanlar Avropada heç kim düşünə bilməzdi ki, uzaq bir şərq ölkəsində bir neçə dili mükəmməl şəkildə bilən nəhəng bir siyasətçi çıxsın. Topçubaşovun məhz bu kimi şəxsi keyfiyyətləri də yeni qurulmuş Azərbaycan Cümhuriyyətinin az da olsa diplomatik uğurlar qazanmasında mühüm rol oynamışdır. Bundan sonra isə Azərbaycan Cümhuriyyəti Paris sülh konfransında iştirak edən dövlətlər tərəfindən de-fakto tanındı. Bu kimi uğurlar məhz Topçubaşovun yorulmaz əməyinin və gərgin diplomatik fəaliyyətinin nəticəsi idi. Əldə edlmiş qələbə münasibətilə Azərbaycan respublikasının baş naziri Nəsib bəy Yusifbəyova belə yazırdı: "Siyasət qədər çox elastik və dəyişkən heç nə yoxdur... bizim azad və müstəqil yaşamaq ümidlərimizin möhkəmləndiyi bir dövr başlanır. Biz heç vaxt ümidimizi itirmirdik... Ona görə də belə hərəkət edirdik ki, xalqımızın müstəqil yaşaya biləcəyinə, hər hansı yolla olursa olsun müstəqillik əldə edəcəyinə inanırdıq... Belə dəyərli xöşbəxtliyin qarşısında biz heç vaxt geri çəkilməmişik və çəkilməyəcəyik də, çünki biz bu səadətə bərabər olan heç nə

tanımırıq". Azərbaycanın bolşeviklər tərəfindən işğalından sonra isə Topçubaşov vətənə qayıtmamış və ömrünün sonuna qədər Parisdə yaşamışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli xadimi Ə,Topçubaşov 1920-1934-cü illərdə Parisdə yaşamış, ictimai-siyasi fəaliyyətini burada davam etdirmiş, Azərbaycan tarixi, coğrafiyası, ədəbiyyatı, AXC-nin yaranması haqda qəzet və jurnallara məqalələr yazmışdır. O, daim Parisdə siyasətçilərlə görüşmüş, onlardan Azərbaycanın işğaldan azad edilməsi üçün yardımlar istəmişdir.

Qoca Şərqin, xüsusilə də Türk Dünyasının tarixində ən şərəfli dövrlərdən olan AXC-ni yaradanlardan biri və Böyük Türk olan Əlimərdan bəy Topçubaşov 1934-cü il noyabrın 5-də Parisin Sen-Deni rayonunda yaşadığı evdə vəfat etmişdir. O, Müqəddəs Kloud qəbristanlığında dəfn edilmişdir.





## MİRZƏ CƏLİL MƏMMƏDQULUZADƏ
### *1869 - 1932*

***"Dünyada hər bir kəs üçün sözdən böyük yadigar yoxdur"***

**Cəlil Məmmədquluzadə**

Mirzə Cəlil Məmmədquluzadə 22 fevral 1869-cu ildə Azərbaycanın qədim bölgələrindən biri olan Naxçıvan şəhərində dünyaya gəlmişdir. Atası Məmmədqulu Məşədi Hüseynqulu oğlu savadlı insan olmasa da, övladlarının, xüsusən də Cəlilin təhsil alması üçün əlindən gələn hər şeyi etmişdir. Atasının bu davranışı Cəlilin dünyagörüşünün formalaşmasına, onun elmə maraq göstərməsinə, sonradan böyük ədib kimi formalaşmasına öz müsbət təsirini göstərmişdir. Məmmədqulu kişi Naxçıvandakı duz mədənində gözətçi işləyib. Eyni zamanda ailəsinin keçimini təmin etmək üçün Şahab məhəlləsində baqqal mağazası da işlədib. Cəlil Məmmədquluzadə ilk təhsilini mollaxanada alımışdır. Burada o, ərəb və fars dillərini mükəmməl şəkildə öyrənmiş, eyni zamanda Şərqin bir çox mütəfəkkirlərinin əsərləri ilə tanış ola bilmişdir.

Bundan sonra Cəlil ibtidai təhsilini Naxçıvan üç sinifli məktəbində alıb. Burada o, dünyəvi elmlərlə tanış olmuşdur. Cəlil Məmmədquluzadə 1882-1887-ci illər ərzində Qori Müəllimlər Seminariyasında təhsilini davam etdirib. Məhz bu illər Cəlilin dünyagörüşünün formalaşmasına böyük təsir edib.

Qori Seminariyasında təhsilini başa vuran Cəlil Məmmədquluzadə, 1887-1897-ci illərdə Naxçıvanda pedoqoji fəaliyyətlə məşğul olmuşdur. Bu zaman o, Uluxanlı və Baş Noraşen kənd orta məktəblərində müəllim vəzifəsində çalışmışdır. Bədii yaradıcılığa da məhz Baş Noraşen kəndində başlayan Cəlil, burada ilk ədəbi əsəri olan "Çay dəstgahı" dramını yazmışdır. Daha sonra isə Cəlil, Nehrəm kənd orta məktəbində müəllimlik etməyə başlayıb. Burada çalışdığı illərdə "Kişmiş oyunu" pyesini və "Danabaş kəndinin əhvalatları" povestini yazıb. Bu əsərləri Cəlil ədəbiyyatımızda yeni və özünəmxsus cığır aça bilmişdir.

Nehrəm kəndində müəllim işləyərkən Cəlil Məmmədquluzadə Həlimə Nağı qızı ilə ailə həyatı qurmuşdur. Bu nigahdan onların ilk övladı olan Münəvvər Məmmədquluzadə dünyaya gəlmişdir. Ancaq təəssüf ki, nigah uğurlu alınmayıb. Belə ki, əcəl Həlimə xanımı vaxtından tez Cəlildən almışdır. Həlimə xanımın 1897-ci ildə vəfat etməsindən sonra Cəlil Məmmədquluzadə də Nehrəm kəndindəki pedoqoji fəaliyyətini dayandırmışdır.

Cəlil Məmmədquluzadə 1901- ci ildə ikinci dəfə Nazlı xanım Kəngərli ilə ailə həyatı qurub. Cəlilin bu ailə izdivacı da uzun sürməmiş, Nazlı xanım 1904-cü ildə Tiflis şəhərində vəfat etmişdir.

Mirzə Cəlil 1903-cü ilin dekabr ayından Qafqazın mədəni və siyasi mərkəzi olan Tiflis şəhərində yaşayıb-yaratmağa başlayıb. Məhz burada o, ilk dəfə dövrü mətbuatda ilk çıxışlarını edərək dövrün ziyalıları arasında özünəməxsus yerini almağa başlamışdır.

"Molla Nəsrəddin" jurnalı Cəlil Məmmədquluzadənin ən böyük əsəridir. Sözü gedən jurnalın ilk nömrəsi məhz onun baş redaktorluğu altında 1906-cı ilin aprelində Tiflis şəhərində nəşr edilmişdir. Jurnal Qafqazın, eyni zamanda Şərqin bir çox





xalqlarının oyanışında öz mühüm və əvəzedilməz rolunu oynayıb. Məhz bu səbəbdəndir ki, xalqın oyanmasını və açıq gözlü olmasını istəməyən o dövrün ruhani elitası, daim Cəlil yaradıcılığına və onun rəhbərliyi ilə nəşr edilən "Molla Nəsrəddin" jurnalına təzyiqlər etmişlər. Hətta, "Cəlil və "Molla Nəsrəddin"də küfr yazır" söyləyərək, xalqın geniş təbəqəsinin jurnalla və orada yazılanlarla tanış olmasına maneçilik törədiblər. Sözümüzün bu yerində onu da demək istərdik ki, bu cür vəziyyət təkcə bizdə olmayıb. Belə ki, Osmanlı sultanları da uzun illər eyni siyasəti yürüdərək, Osmanlı türklərinin oyanışına, elm və təhsilə meyl etməsinə dövlət səviyyəsində maneçilik törədiblər. Bütün bunların kökündə isə Osmanlı üləmasının "çap maşını kafir icadıdır" fitvası durub. Sözü çox uzatmadan qayıdaq Cəlil Məmmədquluzadə yaradıcılığına və "Molla Nəsrəddin" jurnalına. Dövrün çətinliklərini və cəmiyyətdə hökm sürən cəhaləti nəzərə alsaq görərik ki, Mirzə Cəlil necə böyük bir yükün altında olmuş, bu yükü və məsuliyyəti necə böyük məharətlə daşıya bilmişdir. "Molla Nəsrəddin" 1917-ci ilə qədər Tiflisdə, 1921-ci ilə qədər Təbriz şəhərində və nəhayət 1922-1931-ci illər arasında Bakı şəhərində işiq üzü görüb.

Cəlil Məmmədquluzadə 1907-ci ildə Qarabağın məşhur xanlarından olan Əhmədbəy Cavanşirin qızı olan Həmidə xanım Məmmədquluzadə ilə ailə həyatı qurmuşdur. Onun bu nikahdan Midhət və Ənvər Məmmdquluzadə adlı iki övladı dünyaya gəlmişdir. Midhət Məmmədquluzadə Texniki Universiteti bitirərək mühəndis ixtisasına yiyələnmişfit. Ənvər Məmmədquluzadə isə Tibb Universitetini bitirmiş, ikinci dünya müharibəsi zamanı Sovet qoşununun tərkibində İrana yollanmış və oradan qayıtmamışdır. O, gələcək həyatını İranla bağlayaraq orada yaşamışdır. Hazırda Cəlil Məmmədquluzadənin nəvələrindən Midhət Cavanşiri Polşada, Məhin Dadipur və

Midhət Şəcəri Fransada, İrena Süleymani isə İranda yaşamaqdadırlar.

XX əsrin əvvəllərindən etibarən Cəlil bədii yaradıcılığa daha çox vaxt ayırmışdır. Bu illər ərzində o, "Usta Zeynal", "Dəllək", İranda hürriyyət", Fatma xala", "Qurbanəli bəy", "Nigarançılıq", "Quzu" hekayələrini yazmışdır. Cəlil Məmmədquluzadə 1909-cu ildə özünün şedevri olan "Ölüləri" yaratmışdır. Əsər müəllifə böyük şöhrət gətirmiş və bununla da Cəlil, Azərbaycan ədəbiyyatında öz əbədi yerini almışdır. "Ölülər" günümüzdə də öz aktuallığını itirməyib. Məhz bu səbəbdən özünü ziyalı adlandıran bəzi tanışlarımıza və xüsusən də orta məktəblərdə Azərbaycan Türkünün övladlarına dərs deyən bəzi müəllimlərə məsləhət görərdik ki, sözü gedən əsəri dönə-dönə oxusunlar.

Azərbaycanın bolşevklər tətəfindən işğal edilməsindən sonra yaranan siyasi-ictimai rejim bütün ədəbiyyat insanları kimi Cəlil Məmmədquluzadənin də yaradıcılığına bu və ya digər dərəcədə öz təsirini göstərmişdir. Əvvəlcə bolşeviklərə inanan yazıçı, sonradan onların necə riyakar, yalançı və qaniçən olduqlarını görmüş və demək olar ki, yeni siyasi rejimdən küsmüşdür. Bu illər ərzində Cəlil Məmmədquluzadənin elə də böyük əsərlərinin yaranmamasının səbəblərindən biri də məhz budur. Başqa cür ola da bilməzdi. Çünki Mirzə Cəlil kimi bir mütəfəkkir sovet hakimiyyətinin çürük bir ideologiya üzərində qurulmasını görməyə bilməzdi. Cəlil Məmmədquluzadə bu illər ərzində dərin elmi və bədii yaradıcılıqla məşğul olmamaqla bir növ rejimə bu yolla öz etirazını bildirmişdir.

Yeni siyasi rejim çox keçmədən bu böyük Azərbaycan ədibinii "yaddan çıxarmadı". Belə ki, 1931-ci ildən etibarən Azərbaycan ədəbiyyatında və Azərbaycan Türkünün maariflənməsində əvəzsiz xidmətləri olmuş "Molla Nəsrəddin" jurnalının nəşri üçün ayrılan dövlət vəsaiti kəsilir. Bundan başqa jurnala





gələn müxtəlif ianələrin də qarşısına sədd çəkilir. Bundan sonra isə Cəlil Məmmədquluzadə jurnalı qapamağa və bu şedevrindən ayrılmağa məcbur olur. Ölkəmizdə qurulan bolşevik hökuməti yazarın yaradıcılığını bəyənməməyə başlayır və müxtəlif iclas və toplantılarda Mirzə Cəlilə qarşı müxtəlif çıxışlar edilir ona müxtəlif ittihamlar atırlar. (Əlbəttə ki, sapı özümüzdən olan baltaların əli ilə. Bu işdə bizim tayımız-bərabərimiz yoxdur. Hətta deyərdik ki, bu istedad yalnız bizdə inkişaf edərək özünün kuliminasiya nöqtəsinə çatıb).

"Molla Nəsrədiin" jurnalı bağlandıqdan və Mirzə Cəlilin jurnalından ayrılmasından sonra ailənin onsuz da yaxşı olmayan maddi durumu bir az da pişləşir. Bu da ədibin səhhətinə və xüsusən də ruh halına öz mənfi təsirini göstərir. Təsadüfi deyil ki, böyük Azərbaycan ədibi və "Böyük Türklər" əsərinə daxil etdiyimiz Cəlil Məmmədquluzadə, jurnalın bağlanmasından sonra cəmi bir il yaşaya bilmişdir. Bu Böyük Türk 1932-ci il 4 yanvarda əbədi olaraq həyata göz yummuşdur.

## FƏTƏLİ XAN XOYSKİ
### *1875 - 1920*

*"Bizim də həyatda yaşamağa, bizim də də azad yaşamağa hüququmuz vardır. Heç bir zirehli qevvə, heç bir texniki qurğu, heç bir qüvvə və onların havadarları tarixin təbii axarına mane ola bilmədilər"*

**Fətəli xan Xoyski**

XX əsrdə Azərbaycan Türkləri arasından çıxmış böyük dövlət adamlarından biri. Fətəli xan İsgəndər oğlu Xoyski 1875-ci il dekabrın 7-də Şəki şəhərində anadan olmuşdur. Atası rus ordusunun general-leytenantı olub. Fətəli Xanın əsli Cənubi Azərbaycanın Xoy şəhərindəndir. Ulu babası Xoy şəhərinin xanı Cəfərquludur. 1803-1806-cı illərdə baş verən İran-Rusiya müharibələri zamanı Cəfərqulu xan rus ordusuna qoşulmuşdur. Bundan sonra Cəfərqulu xan, rus çarı I Aleksandr tərəfindən mükafatla təltif edilmişdir. O, 1807-ci ildə Şəki xanı təyin edilmiş və general-leytenant rütbəsinə layiq görülmüşdür. Cəfərqulu Xan, 1810-cu ildə vəfat etmişdir. Bundan sonra xanlığın idarəsi onun oğlu İsmayılın əlinə keçmişdir. 1819-cu ildə İsmayılın da vəfat etməsindən sonra Şəki Xanlığı ləğv edilir və bu xanlıq Rusiyanın tərkibinə qatılır.

Bu nəsildən ümumiyyətlə görkəmli sərkərdələr, dövlət xadimləri və ziyalılar çıxmışdır. Bunlardan biri, bəlkə də birincisi Fətəli xan Xoyskidir. O, əvvəlcə Gəncə klassik gimnaziyasını,





daha sonra isə 1901-ci ildəMoskva Universiteinin hüquq fakültəsini bitirmişdir. Təhsilini tamamladıqdan sonra Fətəli xan Xoyski, Gəncə, Suxumi, Batumi və Kutaisidə dairə məhkəmələrində müxtəlif vəzifələrdə işləmişdir. Daha sonra isə dairə məhkəməsində prokuror müavini təyin edilmişdir. Onun bu vəzifəyə təyin edilməsi, ictima-siyasi fəaliyyətində yeni mərhələ açmışdır. Xoyski, Yelizavetpol (Gəncə) quberniyasından II Dövlət dumasına deputat seçilmişdir. Fətəli xan, Dumanın iclaslarındakı çıxışları zamanı, daim çar Rusiyasının ucqarlardakı siyasi ayrıseçkiliyini ifşa etmiş və hökuməti daim tənqid atəşinə tutmuşdur. Fətəli xan, burada kadet partiyasının üzvü olmuşdur. Bununla yanaşı, o, Dumadakı müsəlman fraksiyasının da üzvü olub. Fətəli xan Xoyski, rus hökumətindən əsarətdə saxladığı xalqlara məhəlli muxtariyyat verilməsini tələb edirdi.

1917-ci ildə Rusiyada baş verən Fevral inqilabından sonra bütün ölkədə bir hakimiyyətsizlik və özbaşnalıq baş qaldırdı. Bu hadisədən sonra Fətəli xan, martın 27-də Bakıda yaranmış Milli Müsəlman Şurasının Müvəqqəti İcraiyyə Komitəsinin üzvü seçilmişdir. Bu dönəmdə heç bir partiyanın üzvü olmasa da, Müsavat partiyasının birinci qurultayında iştirak etmiş, burada Azərbaycana muxtariyyat şüarını qızğın müdafiəçilərindən biri olmuşdur. Fətəli xan, 1917-ci ilin dekabrında yaranan Zaqafqaziya Federativ Respublikası hökumətinin ədliyyə naziri vəzifəsində çalışmışdır.

Nəhayət 1918-ci ilin şərəfli 28 may günü... Şərqin tarixində tamamilə yeni bir səhifə açılır. Belə ki, məhz 28 may 1918-ci ildə nəinki türk və müsəlman dünyasında, eyni zamanda bütün şərqdə ilk dəfə olaraq Azərbaycanda respublika qurluşlu hökumət və dövlət yaranmışdır. Azərbaycan Türklərinin ilk müstəqil hökumətini qurmaq işi də Fətləi xan Xoyskiyə tapşırılır. Fətəli xan, hökumətdə həm nazirlər şurasının sədri,

həm də daxili işlər naziri vəzifəsini icra etmişdir. 1918-ci ilin 17 iyununda Azərbaycan Milli Şurasının göstərişinə əsasə Fətəli xan Xoyskinin rəhbərliyi ilə ikinci hökumət kabinəsi təşkil olunmuşdur.

1918-ci il sentyabrın 15-də Bakı, Sentrokaspi diktaturasına tabe olan qüvvələrdən təmizlənir. Bununla əlaqədar Fətəli xan Xoyski çıxış edərək demişdir: "Bizim də həyatda yaşamağa, bizim də də azad yaşamağa hüququmuz vardır. Heç bir zirehli qevvə, heç bir texniki qurğu, heç bir qüvvə və onların havadarları tarixin təbii axarına mane ola bilmədilər. Bakının əlli minlik qoşun və texnika ilə birlikdə kiçik bir qüvvənin həmləsi qarşısında süqutu başqasının fəlakəti üzərində öz xoşbəxtliyini qurmaq istəyənlərə ibrət dərsi olmalıdır".

Fətəli xan Xoyski, AXC dövründə Bakıda yaradılmış olan Universitetin yaradılmasında da yaxından iştirak etmiş və universitetin yaradılamsının ideya müəlliflərindən biri olmuşdur. Fətəli xan, 1918-ci il dekabrın 26-da təşkil etdiyi III Azərbaycan hökuməti kabinəsində də nazirlər şurasının sədri və eyni zamanda da xarici işlər naziri vəzifələrini icra etmişdir. Məhz onun baş nazirliyi dönəmində Azərbaycanın dövlət orqanlarının təməli qoyulmuşdur. Müstəmləkə rəmzi olan Yelizavetpol şəhəri və quberniyasının adı yenidən dəyişdirilərək Gəncə şəhəri və Gəncə quberniyası adlandırılması, Qaryagin qəzasının Cəbrayıl qəzası adı ilə əvəz edilməsi, çoxpartiyalı parlament sisteminin yaradılması, Azərbaycan Respublikasının pul və poçt markalarının buraxılması, ana dilində məktəb və seminariyaların açılması və digər mütərəqqi tədbirlər Xoyskinin rəhbərlik etdiyi hökumət kabinələri dövründə həyata keçirilməyə başlanmışdı. Fətəli xan Xoyskinin rəhbərlik etdiyi hökumət, 1919-cu ilin mart ayında istefaya göndərildi.

Bundan sonra isə Azərbaycanın yeni hökumətinin təşkil edilməsi Nəsib bəy Yusifbəyliyə həvalə edilmişdir. Fətəli xan





Xoyski, yeni qurulmuş olan hökumətdə də xarici işlər naziri vəzifəsini icra etmişdir. Məhz onun bu sahədəki fəaliyyəti nəticəsində Azərbaycanın, xarici dövlətlər tərəfindən və beynəlxalq aləmdə tanınmasında bir çox irəliləyişlər əldə edilmişdir.

1920-ci il yanvarın 2-də RSFSR xarici işlər üzrə xalq komissarı G.V.Çiçerin, ağ qvardiya generalı və bolşeviklərə qarşı ciddi müqavimət göstərən general Denikinə qarşı vahid cəbhə yaratmaq üçün Xoyskiyə nota ilə müraciət etmişdir. Həmin ayın 19-da Xoyskinin Çiçerinə verdiyi cavabda göstərilirdi ki, Azərbaycan Respublikası, Sovet Rusiyasının daxili işlərinə qarışmır və bu kimi məsələlərdə bitərəf mövqe tutur.

Çiçerinin 23 yanvar tarixli ikinci notasında yenə həmin məsələyə qayıdaraq, Azərbaycanı RSFSR ilə əməkdaşlığa dəvət edir və yazırdı ki, bir həmişə bir səma altında, bir yerdə yaşamışıq və yenə də bir yerdə yaşamalıyıq. Bunun qarşısında Xoyski fevralın 1-də Çiçerinə Azərbaycan hökumətinin rəsmi mövqeyini bildirərək onun təklifini rədd etmişdir.

1920-ci il fevralın 27-də Çiçerinin üçüncü notası və martın 7-də Xoyskinin cavabı yenə də eyni məsələyə həsr olunmuşdur. Martın axırında Çiçerin sonuncu notasını göndərmiş, aprelin 27-də Xoyski, Azərbaycan parlamentində cavab notasını oxuyarkən bolşeviklərin XI ordusunun Bakıya yaxınlaşdığı xəbərini almışdır.

Bu hadisədən sonra Fətəli xan Xoyski ailəsini də götürərək Tiflis şəhərinə getmişdir. 1920-ci ilin iyunun 19-da muzdlu erməni qatili tərəfindən burada kürəyindən vurularaq öldürülmüşdür. Bu Böyük Türk, digər böyüyümüz olan Mirzə Fətəli Axundovun yanında dəfn edilmişdir.

İnsan bir şeyi başa düşə bilmir. Bu qədər ağıl və zəka sahibi axı nəyə görə həmin dönəmdə ermənilərin qarışqa kimi qaynaşdığı Tiflisə getməli idi? Axı Fətəli xan kimi insan bu millətin xarakterinə və xainliyənə bələd insan idi və AXC dövründə

daim onlarla mübarizə aparmışdı... Ən azından Türkiyə və ya İrana getmək olardı. Hansı ki Fətəli xanın əsli də məhz Cənibi Azərbaycanın Xoy şəhərindən olub. Bu insan, onun ağlı, zəkası, qabiliyyəti, liderlik xarakter və xüsusiyyətləri Azərbaycan və Azərbaycan Türkləri üçün hələ nə qədər işlər görə bilərdi. Heyf... Çox heyf...

Bu Böyük Türk haqda olan yazının sonunda onunla əlaqəli olan və hamını heyrətə salacaq olan bir faktı demək istərdik. Belə ki, Fətəli Xan Xoyski, Azərbaycan Xalq Cümhuriyyətinin baş naziri olduğu dönəmlərdə də çox sadə həyat tərzi sürüb. Belə ki, o, hətta çox zaman cib xərcliyini də atasından istəyirmiş. Növbəti dəfə atasından pul istədiyi zaman atası ona yazdığı məktubda belə deyibmiş: "Ay oğul, mən səni birtəhər borc-xərc oxutdum. Sonra sən Gəncədə və başqa yerlərdə məhkəmələrdə işlədin. Bir çox mühüm vəzifələrdə çalışdın. Həmin vaxtlarda da məndən cib xərcliyi istəyirdin. İndi isə bir ölkənin baş nazirisən. Padşah kimi bir şeysən, ancaq yenə də məndən pul istəyirsən. Sənə aid olan torpaqları satıb pulunu sənə göndərirəm". Sözün bitdiyi yerdir...





## ŞEYX MƏHƏMMƏD XİYABANİ

### *1879 - 1920*

> ***"Xalqın şərəfinin birinci şərti onun müstəqilliyidir"***
>
> ***Ş.M.Xiyabani***

Cənubi Azərbaycan Türklərinin inqilab və müstəqillik tarixində görkəmli yer tutan böyük alim, mətəfəkkir, siyyasətçi və dövlət xadimi. Şeyx Məhəmməd Xiyabani, 1879-cu ildə Təbriz şəhəri yaxınlığında yerləşən Xəmnə qəsəbəsində anadan olmuşdur. İlk təhsilini Xəmnədə alan Xiyabani, məktəbi bitirdikdən sonra Maxaçqalada ticarətlə məşğul olan atası, Hacı Əbdülhəmidin yanına getmiş, az müddətdən sonra isə yenidən Təbrizə qayıtmışdır. Təbrizə qayıtdıqdan sonra Xiyabani, din elmlərini öyrənməyə başlamışdır. O, Təbrizin ən görkəmli din alimi olan Əngəcinin yanında din elmlrinə yiyələndikdən sonra onun ən istedadlı tələbəsi kimi müctəhidlik dərəcəsinə yüksəlmişdir. Bundan əlavə Xiyabani, nücum və hesab elmlərinə məşhur münəccim Mirzə Əbdüləlinin yanında yiyələndikdən sonra kəlam, İslam fəlsəfəsi, ədəbiyyat sahələri üzrə məşhur alim olmuşdur. Şeyx Məhəmməd Xiyabani eyni zamanda gözəl və bəlağətli nitq sahibi idi. Məhz buna görə də o, tezliklə Təbriz əhalisinin hüsn-rəğbətini qazanır. Daha sonra isə Təbrizin məşhur ruhanilərindən olan Siqətülislamın tövsiyəsi ilə Xiyaban məhəlləsində Hacı Kərim xan məscidində imam və vaiz vəzifəsində çalışmışdır.

Xiyabani daim öz çıxışlarında insan hüquq və azadlıqlarından danışmış, bunanla da Təbiz əhalisinin dünyagürüşünün inkişaf etməsinə xidmət edirdi. O, ona həvalə edilmiş minbərdən azadlıq və demokratiyanı yaymaq üçün istifadə etmişdir. 1907-1911-ci illər arasında İranda şah rejimi əleyhinə olan mübarizdə də faəl iştirak edən Xiyabani, eyni zamanda bu mübarizədə Cənubi Azərbaycandan olan mücahidlərə qoşulmuşdur. Belə bir vəziyyətdə İranda fəaliyyət göstərən Sosial Demokrat partiyası Xiyabaninin yüksək elm və siyasi xadim olduğunu görərək, onu Azərbaycan əyalət əncüməninə üzv seçmişdir.

Şeyx Məhəmməd Xiyabani, Azərbaycan tarixinin ən ağır günlərində inqilabi və siyasi fəaliyyətə başlamışdır. Bu səbəbdən də, siyasi fəaliyyəti dövründə həm İran daxilində olan düşmənlərə, həm də xarici düşmənlərə, xüsusən də İngiltərə, Almaniya, Rusiya əleyhinə də mübarizə aparmalı olmuşdur. O, Cənubi Azərbaycan və bütövlükdə İran tarixində ilk dəfə Demokrat Firqəsini və demokratik rejimi yaratmışdır. Onun demokratik ideyalara, insan haqq və hüquqlarına qarşı nə dərəcədə bağlı olmasını hətta düşmənləri də dana bilməmişdir.

İrandakı məşrutə rejimi mövcud olandan ona bir neçə zərbə endirilmişdir. Birincisi 1907-ci ildə məşrutə qanunu imzalandıqdan sonra Qacar nəslindən Müzəffərəddin şahın yerinə keçmiş olan Məhəmmədəli Mirzə, çar Rusiyasının köməyi və dəstəyi ilə məşrutəni aradan qaldırmağa çalışmışdır. İkincisi, çar Rusiyası ilə İngiltərə arasında 1907-ci ildə müqavilə imzalandı ki, bu müqaviləyə görə İran iki nüfuz dairəsinə bölündü. Belə ki, bu müqavilədən sonra İranın şimalına Rusiya, cənubuna isə İngiltərə nəzarət edəcəkdi. Üçüncüsü, İranda yerləşdirilmiş olan rus-kazak ordusunun rəhbəri Lyaxov, İran məclisini top atəşinə tutdu. Dördüncüsü, Məhəmməd Mirzə və bir çox daxili və xarici qüvvələrin təsiri ilə rus kazakları





Təbrizdə ümumi qətliam həyata keçirdilər. Beşincisi, Rusiya tərəfi 1907-ci ildə bağlanmış olan müqaviləni İran hökumətinə qəbul etdirmək üçün ultimatum verdi.

Bu hadisələrdn sonra Şeyx Məhəmməd Xiyabani, Tehranın Səbzə meydanında böyük bir mitinq təşkil edərək, müqavilə bağlayan dövlətləri və onu qəbul edən İran hökuməti rəhbərlərini kəskin şəkildə tənqid edir. Bu çıxışlardan sonra Tehranın polis rəsisi olan Yeprem, Xiyabanini həbs etmək istəsə də, onu tapa bilməmişdir. Belə ki, Xiyabani gizli şəkildə Tehrandan Məşhədə, oradan Aşqabada və Bakı yolu ilə Maxaçqalaya getmiş, orada az müddət qaldıqdan sonra Təbriz şəhərinə gəlir.

Xiyabani ikinci məclis üzvlüyü dönəmində Tehranda yaradılmış İran Demokrat Partiyasının üzvü olmuşdur. O, Təbrizə qayıtdıqdan sonra isə Təbriz şəhərində Cənubi Azərbaycan Demokrat Partiyasını yaratmış və gizli siyasi fəaliyyətlə məşğul olmuşdur. 1917-ci ildə Rusiyada baş verən bolşevik çevrilişindən sonra sözü gedən partiya açıq fəaliyyətə keçmiş, elə həmin ilin aprel ayının 9-da "Təcəddüd" qəzetinin ilk nüsxəsini nəşr etmişdir. İranda yaranmış siyasi böhrandan sonra üçüncü məclisə seçkilər başlayır. Bu zaman isə törədilən təxribat nəticəsində üçüncü məclisə Cənubi Azərbaycandan heç kim seçilə bilmir. Çar rejiminin devrilməsindən sonra, İranda olan rus-kazak qoşunu bu ölkəni tərk edir və onun yerini İngilis qoşunları tutur. Almaniya ilə I dünya müharibəsində müttəfiq olan Osmanlı qoşunları isə şimal qərbdən ölkəyə daxil olur. Yaranmış boşluqdan istifadə edən erməni silahlı dəstələri bu zaman Urmiya şəhərində qətliamlar törədərək, yüzlərlə dinc Azərbaycan türkünü qətlə yetirmişlər.

1919-ci ilin avqustunda Xiyabani və silahdaşları olan İsmayıl Növbəri, Hacı Məhəmmədəli Badamçı, Osmanlı qoşunları tərəfindən həbs edilir. Osmanlı əsgərləri Təbrizi tərk etdikləri zaman isə həbs olunanları da özləri ilə apardılar.

1919-cu ildə İran ilə İngiltərə arasında imzalanan növbəti müqavilə Cənubi Azərbaycan Türklərinin səbrini daşdırır. Bundan sonra isə Təbriz küçələrində aramsız mitinqlər başlayır və Azərbaycanın müstəqilliyi tələbi ilə çıxışlar edilir. Mitinqlərin təşkilatçısı olan Demokrat Firqəsi rəhbərləri əyalətin bundan sonra Azadistan adlandırılması təklifi çıxış edirlər və təklif hamı tərəfindən qəbul edilir.

Təbrizdəki mitinqlər bir müddətdən sonra Cənubi Azərbaycanın digər şəhərləri olan Zəncan, Marağa, Xoy və Ərdəbilə də yayıldı. 1920-ci il iyunun 22-də Azərbaycan Demokrat Firqəsi, ümumi səsvermə yolu ilə milli hökumətin yaradılması haqda qərar qəbul edir. Şeyx Məhəmməd Xiyabani isə milli hökumətin sədri seçilir. Bu, Cənubi Azərbaycan tarixində yaranmış olan ilk milli demokratik hökumət idi. Milli hökumətin qərarı ilə bundan sonra bütün sənədlərdə Azərbaycan yerinə, Azadistan yazılmağa başlandı. Təbii ki, belə bir dönəmdə yeni qurulmuş olan milli hökumətin əleyhinə fəaliyyət göstərənlər də az deyildi. Bunlardan bəziləri həmişəki kimi sapı özümüzdən olan baltalar, bəziləri isə İngiltərə və Almaniyanın xüsusi xidmət orqanlarının əməkdaşları idilər.

Şeyx Məhəmməd Xiyabani, Cənubi Azərbaycan milli hökumətinin sədri seçildikdən sonra dərhal islahatlar keçirməyə başlamışdır. Bu sahədə onun ilk işi Milli Qvardiya yaratmaq oldu. Daha sonra məşhur azərbaycanlı ziyalı, Əbülqasım Füyüzatı maarif naziri təyin edir. Qadınların təhsil ala bilmələr üçün iki qadın məktəbi açdırır və bu məktəbllərdə təhsilin türk dilində aparılması haqda göstəriş verir. Məktəblərdəki müəllim çatışmamazlığını aradan qaldırmaq üçün isə Təbrizə bir çox müəllim dəvət edir. Bundan sonra isə fars əsilli maliyyə rəisi Tehrana göndərilir və onun yerinə milliyyətçə türk olan bir şəxs təyin edilir. Bütün idarə yazışmaları, mitinqlərdəki çıxışlar və nəşriyyat türk dilində fəaliyyət göstərməyə başlayır. Xiyabani,





Türk Millətinin və Türk torpaqlarının aşiqi idi və bütün həyatını bu müqəddəs amala həsr etmişdir. Bu, Böyük Türk bu amal uğrunda da vəfa etmişdir.

Şeyx Məhəmməd Xiyabaninin vəfatını onun ən yaxın dostu olan Hacı Şeyx Həsənəli Miyanəçinin nəvəsi belə nəql etmişdir: "Şah, Cənubi Azərbaycan milli hökumətini ortadan qaldırmaq üçün Bağır xan Salarmillinin oğlu, Mirzə Hüseyn xan Haşiminin rəhbərliyi ilə ordunu Təbriz üzərinə yollamışdır. Ona, Xiyabaninin ölüsünü, ya da dirisini Tehrana gətirmək əmri verilir. Xiyabaninin iqamətgahı yaxınlığına gələn ordu hissələrini görən Xiyabani gizlənməyə məcbur olmuş və evinə gəlmişdir. Xiyabaninin yaxın dostlarından olan Sərtibzadə: "mən gəlməyincə evdən çıxma" deyərək getsədə geri qayıtmamışdır. Xiyabani dörd saat evdə gözlədikdən sonra evdən çıxmağa məcbur olmuş və Miyanəçinin evinə gəlmişdir. Burada o, Miyanəçiyə belə deyib: "Sərtibzadə məni dörd saat evdə gözləməyə məcbur etdi. Əgər mən bu qədər vaxt onu gözləməsəydim indi şəhərdən çıxmış olardım. O, gəlməyincə isə evimin damına çıxdım, xanımım tüfəngimi və patronlarımı mənə tulladı, mən də sizə gəldim".

Bundan sonra isə Miyanəçi, Xiyabaniyə xitabən onun əfv olunması üçün İran hökumətinə müraciət etməsi üçün Xiyabanidən icazə istəyib. Xiyabani isə qarşılığında: "Sən ondan üstün insansan. Ona görə də əfv diləmək üçün onun ayaqlarına getmək sənə yaraşmaz. Əgər sizi narahat edirəmsə gedə bilərəm" deyib. Xiyabanin bu sözündən sonra babam onu qucaqlayıb öpdü və sonra oturdu. Daha sonra isə Xiyabani onu və milli hökuməti satanlar haqda danışdı. Bir-bir onların adlarını çəkdi və onlarla birlikdə olduqlarından dolayı öz təəssüfünü bildirdi. Daha sonra isə Həzrəti Əlinin bir kəlamını xatırlatdı: "Yaxşılıq etdiyin adamın şərrindən özünü qoru". Həmin gecə Xiyabani bizdə qaldı və zirzəmidə yatdı. Səhəri gün isə İran

ordusu evimizi mühasirəyə aldı, onlar pəncərədən Xiyabanini görmüşdülər. Özünü silahı ilə müdafiə etmək imkanı olsa da, bizim evdə atəş açılmasın deyə silaha əl atmadı. Ancaq bunun qarşılığında ona atəş açmışdılar və o, yaralı halda yerə yıxılmışdı. Gələn kazakların rəisi İsmayıl, zirzəmiyə daxil oldu və Xiyabanini orada qılınc ilə şəhid etdi".

Onun nəşi, Təbrizin Seyid Həmzə qəbristanlığında dəfn edilmişdir. Xiyabaninin rəhbərlik etdiyi Cənubi Azərbaycan Milli Hökuməti çox qısa bir zaman ərzində ortadan qaldırılsa da, onun bir çox siyasi, tarixi və milli mənada əhəmiyyəti olmuşdur. Belə ki, bu milli hökumət türk tarixinin qızıl səhifələrindən birini yazaraq, gələcək nəsillərə əqidə, vətən, millət və bayraq uğrunda ölməyin şərəf olmasını öyrətdi.

Şeyx Məhəmməd Xiyabani xalqla, dövlət rəhbərinin arasında olan münasibətlər haqda belə deyidi: "Biz xalqla diplomatik dillə yox, açıq danışmalı, heç nəyi ondan gizlətməməliyik. Biz dostla düşməni tanıtmalıyıq, çünki yalançı dost düşməndən daha pisdir. Bir sıra dostlar özlərini azadlıq, demokratiya tərəfdarı kimi göstərsələr də, əslində onlar düşməndirlər və beləlləri fürsət tapdıqda arxadan xəncər vurarlar".





## MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ
**1884 - 1955**

*"İnsanlara hürriyyət, millətlərə istiqlal"*
*M.Ə.Rəsulzadə*
*Sən bizimsən, bizimsən durduqca bədəndə Can,*
*Yaşa-yaşa çox yaşa ey şanlı Azərbaycan!*

Keçən əsrin əvvəlləri bütün dünya üçün qarışıq və bütün dünya xalqları üçün keşməkeşli dövr hesab edilir. Belə ki, bütün dünyanı başına alan demokratik dəyərlər, müstəmləkə altında olan xalqlarda azad olmaq istəyi yaratmışdı. Yaranmış olan belə bir vəziyyətdən təbii ki, Azərbaycan Türkləri də istifadə edərək müstəqillik qazanmaq üçün çarpışırdılar. Azərbaycan Türkləri bu yolda çoxlu sayda şəhid və qurbanlar versələr də, qurduqları cümhuriyyətin ömrü çox qısa olsa da şanlı bir tarix yaza bildilər.

Azərbaycan Milli Qurtuluş hərakatının ən görkəmli xadimi və Şərqdə ilk demokratik cümhuriyyətin banisi. Dövlət xadimi, siyasətçi və yazar. Azərbaycan Milli İstiqlal Hərəkatının yalnız Türk Dünyasında deyil, bütün İslam aləmində ilk respublika olan Azərbaycan demokratik Respublikasının banisi, sonralar ömür yolu zəngin və keşməkeşli hadisələrlə zəngin olmuşdur. Məhəmməd Əmin Hacı Molla Ələkbər oğlu Rəsulzadə 31 yanvar 1884-cü ildə Bakının Novxanı kəndində dünyaya gəlmişdir. İlk təhsilini C.M.Qənizadənin açdığı və müdürlüyünü etdiyi

müsəlman-rus məktəbində almışdır. Rəsulzadə hələ gənc yaşlarından etibarən inqilabi hərəkata qoşulmuşdur. Belə ki, o, İrandakı şahlıq rejimini silkələyən inqilablara rəğbət bəsləmiş və bu hərəkatların fədailəri ilə görüşmüşdür. Məhəmməd Əmin 1910-cu ildə İranda yaranmış olan Demokrat Partiyasını yaradanlardan biri olmuşdur. Bundan sonra isə Bakıda qurulmuş olan Müsavat partiyasına daxil olmuş və tezliklə partiyanın liderinə çevrilmişdir. 1917-ci ildə Müsavat partiyasının Bakıda keçirilən birinci qurultayında Rəsulzadə, partiyanın MK-nin sədri seçilir.

26 may 1918-ci ildə Gürcüstan, Zaqafqaziya seymindən çıxdığını elan edərək, birtərəfli şəkildə müstəqillik aktını qəbul etdi. May ayının 28-də Azərbaycan nümayəndə heyyəti də öz iclasını keçirərək, Azərbaycanın istiqlal bəyamnaməsini qəbul etdilər. Bu zaman isə M.Ə.Rəsulzadə Milli Şuranın sədri seçildi. AXC elan olunduqdan sonra dünyada tayı-bərabəri olmayan demokratik rejim yaradılsa da, təəssüflər olsun ki, bundan sui-istifadə edənlər də oldu. Əsas da erməni siyasətçiləri və rus bolşevizminə meyl edənlər...

Zamanına çox mütərəqqi qanunlar qəbul edən AXC parlameti və hökuməti bu qanunların icarısını həyata keçirə bilmədi. Buna həm xarici, həm də daxili düşmənlər imkan vermədilər. Və çox keçmədi ki, bolşevik "sunami"si Azərbaycanı da öz "dalğa"ları arasına alaraq boğdu.

1920-ci ildə bolşevik Rusiyasının Azərbaycanı işğal etməsindən sonra Rəsulzadə, Lahıc kəndində gizlənsə də, onu burada həbs edirlər. Rəsulzadəyə can borcu olan Stalin bunu eşidəndə şəxsən həbsxanaya gələrək Rəsulzadəni həbsxanadan azad etdiri və özü ilə birlikdə Moskvaya aparır. Stalin Moskvada Rəsulzadəni yüksək vəzifəyə təyin edir. 1922-ci ildə elmi tədqiqat adı ilə əvvəlcə Peterburqa, buradan isə dostlarının köməyi ilə Finlandiyaya gedir. Beləliklə də Rəsulzadənin





mühacirət həyatı başlamış olur. 1923-1946-cı illər ərzində Məhəmməd Əmin Rəsulzadə, müxtəlif Avropa ölkələrində yaşayıb yaratmışdır. Belə ölkələrə misal olaraq Rumıniyanı, Almaniyanı, Polşanı göstərmək olar. Sözü gedn ölkələrdə Rəsulzadə, türk, rus, ingilis, polyak, fransız, alman dillərində məqalələr yazaraq müztəlif qəzet və jurnallarda çap etdirir. Deyilənlərə görə Rəsulzadə, ikinci Dünya Müharibəsinin başlanmasınan sonra, Adolf Hitlerin yüksək səviyyəli məmurlarının biri ilə görüşərək yüzlərlə Azərbaycan oğlunu güllələnməkdən xilas etmişdir. O zaman Almaniya hökumətinin rəsmilərindən Azərbaycan üçün müstəqillik istəyən Rəsulzadə, əvvəlcə "hə" cavabı alsa da, ancaq sonradan almanların bundan imtina etməsi nəticəsində məyus olmuşdur. Belə ki, Hitler hökuməti Rəsulzadəyə ən yaxşı halda muxtariyyat vəd etmişdir ki, bu da təbii ki, Rəsulzadəni qane etməmişdir.

1947-ci ildə qardaş Türkiyəyə köçən Məhəmməd Əmin Rəsulzadə, ömrünün sonuna kimi də qardaş ölkədə yaşamışdı. Burada yaşadığı illlərdə də Rəsulzadə, boş oturmayaraq daim Azərbaycanın istiqlalı üçün çalışmış və bu mövzuda çoxlu sayda məqalələr yazaraq Türkiyənin müxtəlif mətbuat orqanlarında çap etdirmişdir.

Böyük Türk olan Məhəmməd Əmin Rəsulzadə, 1955-ci il mart ayının 6-da axşam saat 23:10-da şəkər xəstəliyindən müalicəaldığı Ankara Universitetinin tibb fakultəsinin klinikasında üç dəfə "Azərbaycan... Azərbaycan... Azərbaycan..." deyərək ruhunu Tanrıya təslim etmişdir.

M.Ə.Rəsulzadə, siyasi xadim və dövlət adaçı olmaqla yanaşı, eyni zamanda publisist olmuşdur. Onun kitab şəklində şıxan əsərlərinə misal olaraq aşağıdakıları göstərmək olar. "Azərbaycan Cümhuriyyəti", "Çağdaş Azərbaycan Tarixi", "Stalinlə ixtilal xatirələri", "Qafqaz problemi ilə əlaqədar olaraq panturanizm", "Əsrimizin Səyavuşu", "Millət və bolşevizm" və s.

## ÜZEYİR HACIBƏYOV
### *1885 - 1948*

Azərbabaycanın dövlət himninin müəllifi, Şərqdə ilk operanın müəllifi, Azərbaycan Xalq Cümhuriyyəti dönəmində rəsmi dəvlət qəzeti olan "Azərbaycan" qəzetinin baş redaktoru və nəhayət Türk Dünyasının BÖYÜK İNSANI! Azərbaycan mədəniyyətinin və xüsusilə musuqisinin döyünən ürəyi və günəşi.

Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyov 18 sentyabr 1885-ci ildə Ağcabədidə kənd mirzəsi ailəsində anadan olub. Atası, Əbdülhüseyn Hacıbəyli Şuşanın maarifpərvər ziyalılarından olub, ağcabədili Kərbəlayı Ələkbər bəyin qızı Şirin xanımla evlənmişdir. Əbdülhüseyn Hacıbəyli haqda demək olar ki heç bir məlumat yoxdur və təxminən 1901-ci ildə vəfat etmişdir. Lakin, bu insanın necə ürəyi, necə mənəvi enerjisi olub ki, onları bu qədər kompakt şəkildə öz oğluna bağışlayıb. Axı köksüz ağac olmaz. Necə deyərlər: "ot öz kökü üstə bitər". Üzeyir bəyin uşaqlığı və gəncliyinin ilk illəri Şuşada keçmişdir. Üzeyir Hacıbəyov ilk təhsilini Şuşada, Nikolayevski adına rus-tatar məktəbində almışdır.Üzeyir bəy ibtidai təhsilini bitirdikdən sonra Zaqafqaziya Müəllimlər Seminariysına daxil olmuşdur. Buradakı tələbəlik illəri gələcək dahinin həyatına öz müsbət təsirini gösərmişdir. Elə ilk yaradıcılığına da o, burada başlamışdır

1904-cü ildə Üzeyir Hacıbəyli Qori müəllimlər seminarıyasını bitirib, Şuşa şəhəri yaxınlığındakı Cəbrayıl uyezdinin Hadrut kənd məktəbində müəllim vəzifəsində çalışmışdır. Bu illər ərzində müəllimliklə yanaşı, dövrünün mətbuat orqanları ilə də daim əlaqə saxlayır, bu qəzetlərə məqalələr yazırdı.





Bu kimi qəzetlərə misal olaraq "Kaspi"ni misal göstərə bilərik. Üzeyir bəy sözü gedən qəzetdə "U" təxəllüsü ilə məqalələr yazmışdır.

Üzeyir Hacıbəyovun övladı olmayıb. Gürünür taleh bu böyük insanın bütün fövqəlbəşər istedad və enerjisini heç kimə ötürülməsinə imkan verməyib ki, hamısı "Arşın mal alan", "O, olmasın bu olsun", "Şah Abbas və Xurşudbanu", "Koroğolu", "Sevgili canan", "Birinci fantaziya", "Aşıqsayağı" kimi əvəzi olmayan, ağlasığmaz dərəcədə gözəlliklə çağlayan əsərlər üçün saxlayıb.

Ü.Hacəbəyov, gənc yaşlarında təxminən 1905-ci ildə Hadruttan Bakıya gəlir. Üzeyir paytaxta gəlməyə bilməzdi. Bu taleyin çağırışı idi. Böyük balıqlar böyük dənizlərdə olur. Bakıya gələn Üzeyir, öz qüdrətli və hərtərəfli istedadı, ətrafdakıların hamısından bir neçə baş yüksək olması nəticəsində hələ iyirmi yaşından adının yanında "Bəy" müraciəti əmələ gəlib. Və Üzeyir bəy indiyə qədər bəy adlanan minlərlə böyük türk oğullarının yəqin ki, ən yüksək nümayəndəsidir.

Onun əsərləri keçən əsrin 30-40-cı illərində Orta Asiya ölkələrində tamaşaya qoyulanda özbək ziyalıları və başqa türk dilli qardaşlarımız, hətta taciklər də onun böyüklüyünə mat qalıb, Üzeyir bəyə "Ağa" deyə ürkək-ürkək müraciət ediblər.

Bakıda yaşadığı zaman Üzeyir bəy, çoxlu sayda qəzetlərlə əməkdaşlıq etmiş, redaktor olmuş, saysız-hesabsız publisist yazılar dərc etdirmişdir. Eyni zamanda cazibədar "Leyli və Məcnun" operasını yazmışdır ki, bir fransız müsiqişünasının (təəssüf ki, adını unutmuşuq) dediyi kimi : "Əsər, Qərblə Şərq musiqisinin sintezindən ibarətdir". Özü də Üzeyir bəy bu əsəri neçə yaşında yazmışdır? Cəmi iyirmi yaşında. Bu yaşda hətta Bethoven belə, heç bir məşhur şedevrini yaratmamışdı. "Leyli və Məcnun"un içində kiçik qızıl zəncirlər kimi nə qədər musiqi inciləri vardır ki, hələ də heç kim tərəfindən layiqincə qiymətləndirilməyib.

Üzeyir bəy haqda yazmaq həm asan, həm də çətindir. Hər ikisi də ona görə ki, söz çoxdur. Və bütün epitetlər bu fövqəlinsana yaraşır. Əgər Üzeyir bəy Avropanın hər hansı bir ölkəsində olsaydı, heç şübhəsiz onun yaradıcılığını tədqiq edən institut, hətta akademiyalar yaradılardı. Bizdə isə yalnız doğulduğu gündə yad edilir.

Üzeyir Hacıbəyovun nə qədər əsərləri vardır ki, bu gün heç cür ifa edilmir. Bu əsərlər hətta çap da edilmir. Onun bir-birindən gözəl dörd kontatası vardır ki, qətiyyən heç kim tərəfindən yada salınmır. Nə olsun ki, bu kontatalar Stalin haqdadır. Mövzunun axı musiqiyə dəxli yoxdur. Onun mətnini dəyişməyə nə var ki? Amma şou biznes əhlinin və yüzlərlə ucuz, bayağı manısların xiridarı və maraqlısı olan yüzlərlə məmur ordusu Üzeyir Hacıbəyovun "Şah Abbas və Xurşudbanu" kimi operasını tamaşaya qoyulması haqda düşünə bilərmi?

Üzeyir Hacıbəyov bütün varlığı ilə öz xalqına, öz ölkəsinə, öz dilinə, öz musiqisinə bağlı olan bir dahi idi. O, cəmi 23 ay mövcud olan Azərbaycan Xalq Cümhuriyyətinin ideologiyasını, siyasətini müəyyən edənlərdən biri olmuşdur. Məhz bu səbəbdən də o, qanlı Sovet illərində məhv olmalı idi. Lakin burada da bəxt onun üzünə azacıq da olsa gülmüşdür. Əvvəlcə N.Nərimanov, sonra M.Bağırov daha sonra isə böyük cəllad İosif Stalin onu labüd ölümün caynağından xilas etmişdir. Ümumiyyətlə isə, bütün dahilər haqda yazılmamış qanun olan səfalət həyatı Üzeyir Hacıbəyov üçün də keçərli olmalı idi. Ancaq M.Bağırovun ona olan böyük hörməti və yenə də Bağırovun onu daim qoruması sayəsində Üzeyir bəy normaldan bir az yüksək səviyyədə yaşaya bilmişdir. Ona Bakının gözəl bir yerində ev verilməsi duputat seçilməsi, rektor təyin edilməsi məhz Bağırovun şəxsi təşəbbüsü ilə baş tutmuşdur. Ancaq mənfur mühit istər-istəməz onun da qanını zəhərlədi.





Və nadan sürü onun müalicəsini erməni həkimə tapşırdı. Erməni də öz "milli missiya"sını yerinə yetirdi. Bunun nəticəsində Böyük Türk olan Üzeyir bəy Hacıbəyov cəmi altmış üç il yaşaya bildi.

Ustad Əlisa Nicat yazır ki, "bir vaxt gələcəkvə bütün kainat təbii olaraq məhv olacaq və insan təəssüf edir ki, həmin vaxt Üzeyir bəyin əsərləri də məhv olacaq".

Bu doğurdan da belədir. Bunu dərk etmək üçün isə azərbaycanlı olmamaq lazımdır. Biz isə beləyik.

## MÜSLÜM MAQOMAYEV
### *1885 - 1937*

Azərbaycan bəstəkarı. Əslən azərbaycanlı olmasa da, Qori Seminariyasında oxuduğu illərdə Üzeyir bəy Hacıbəyovla tanışlığı və yaxınlığı nəticəsində onda da musiqiyə həvəs oyanmış, daha sonralar isə Üzeyir Hacıbəyov opera və operettalarının vurğunu kimi ömürlük onun təsiri altında qalmışdır. Bu təsir, hərtərəfli heyranlıq və aludəçiliyə çevrilmiş və Müslüm, Üzeyir bəyin baldızı ilə ailə həyatı quraraq ömürlük eyni yaşda olduğu ustadı ilə həm də yaxın qohum olmaq statusu qazanmışdır. Onun Üzeyir bəylə eyni eyni ildə, eyni ayda, eyni gündə (15.09.1885) dünyaya gəlməsi də qəribə oxşarlığın bir növ təsdiqidir. Sonralar Müslüm xatirələrində əvvəlcə Üzeyir bəyin operalarına oxşar bir şey yazmaq istədiyini yazırdı. Ancaq özünü Üzeyir bəyə bənzətmənin nəticəsi olaraq ortaya və Azərbaycan musiqisinə dahiyanə "Şah İsmayıl" operasını bəxş etmişdir. İlk dəfə 1919-cu ildə tamaşaya qoyulan bu möhtəşəm musiqi əsəri, üzərində Müslüm Maqomayev sonralar dönə-dönə işləmiş və onu daha da kamilləşdirmişdir.

Bir pərdəsi istisna olmaqla operanın bütün musiqi nömrələri Avropa üslubunda yazılmış ariya, ariyoza, duet, xor və orkestr parçalarından ibarətdir. Tamamilə və hədsiz dərəcədə milli ruhda, muğamlar əsasında yazılmış bu opera təbii ki, Azərbaycan səhnəsindən kənara çıxa bilməmişdir. Bu, əlbəttə böyük sənətkar üçün özündən asılı olmayan bir faciədir. Hətta bu böyük fitri istedadın keçən əsrin otuzuncu illərində yaratmış olduğu "Nərgiz" operası da beləcə Azərbaycan sərhədlərini adlaya bilməmişdir.





Musiqi ictimaiyyətimizin kütbeyinliyi nəticəsində əsər ümumiyyətlə yalnız bir dəfə yazıldığı keçən əsrin otuzuncu illərində tamaşaya qoyulmuşdur. Belə bir məqamda Tolstoyun məşhur kəlamını xatırlamamaq mümkün deyildir: "hər bir böyük sənətkar, bir cür bədbəxtdir".

"Nərgiz" operası sosialist kəndi mövzusunda yazılsa da, onun liberettosunu yüngülcə və asanlıqla dəyişib günümüzdə hər il tamaşaya qoymaq olar. Lakin, bu cür incə, bu cür yüksək və yüksək ruh tələb edən musiqi nömrələrini dərk etmək, onlardan zövq almaq iqtidarında olmayan bir xalq və onun cılız elitası bütün bu məsələlərə təbii ki, biganədir.

Yaxşı ki, "Şah İsmayıl" operası "Ərəbzəngi" səhnəsinə görə hələ də səhnəmizdə yaşayır və insanlar hələ də bu opera zamanı gedib ona baxırlar. Müslüm Maqomayevi əlbəttə xoşbəxt sənətkar adlandırmaq olar. Və o, klassik Azərbaycan musiqisinin iki nömrəli dahisi kimi əlbəttə bizim bu kitabımızda yer tutmasına haqqı vardır.

Ümumiyyətlə, Ustad Əlisa Nicat demişkən: "Kiçik xalqın böyük sənətkarı olmaq da bir növ bədbəxtlikdir. Kiçik xalq yalnız özü kimi kiçikləri anlayır və onları alqışlayır".

## SEYİD CƏFƏR PİŞƏVƏRİ
### *1892 - 1947*

Seyid Cəfər Pişəvəri, 21 Azər hərəkatının başçısı, Azərbaycan Demokrat Firqəsinin yaradıcısı, Azərbaycan Türklərinin milli demokratik hərakatının öndərlərindən biri. İranda yaşayan Azərbaycan Türklərinin azadlığı yolunda çarpışan insanlardan biri olan Pişəvəri, bütün həyatını bu müqəddəs amala həsr etmişdir. O, daim İran inqilabı və xalq azadlıq ideyalarını təbliğ etmiş, yazar kimi də özündən sonra çox dəyərli irs qoymuşdur.

Seyid Cəfər Pişəvəri, Xalxal mahalının Zeyvə kəndində yoxsul kəndli ailəsində anadan olmuş və ilk təhsilini də həmin kənddə almışdır. XIX əsrin axırlarında bir çox İran kəndliləri kimi İranda mövcud olan rejim və ehtiyacsızlıq üzündən Pişəvərinin də ailəsi 1905-ci ildə Bakıya gəlmişdir. Seyid Cəfər, gəldikləri Bülbülə kəndində təhsilini davam etdirməklə yanaşı, eyni zamanda əmək fəaliyyəti ilə də məşğul olmuşdur. Pişəvəri 1913-1917-ci illər arasında Xırdalan qəsəbəsində müəllimlik etmişdir. Zəngin mütaliəsi sayəsində ictimai və siyasi elmləri öyrənmiş və siyasi fəaliyyətə başlamışdır. Bütün bunlarla yanaşı Bakıda nəşr olunan "Açıq söz" qəzetinə yazılar yazmışdır. Yazılarında daim İranda mövcud olan istibdad rejimini ifşa etmiş, İran əsarətində yaşayan xalqların azadlıq yollarını araşdırmışdır.

Ancaq bütün bunlarla yanaşı, Pişəvəri özünə daha böyük meydan axtarmaqda idi. O, Bakıda siyasi fəaliyyətlə məşğul olan Nəriman Nərimanov kimi inqilabçılarla daim əlaqədə olmuşdur. Bir müddət sonra Pişəvəri, İranda yaranan Ədalət





firqəsinin mərkəzi komitəsinin orqanı olan "Hürriyyət" qəzetinin redaktoru olur. Sözü gedən qezətdə o, İrandakı şahlıq rejiminin artıq çürüdüyünü, əsarət altında olan xalqların haqlarını müdafiə edir. Pişəvəri, 1919-1920-ci illər ərzində "Hürriyyət" qəzetinin redaktoru olmaqla yanaşı, eyni zamanda İran Ədalət Firqəsi mərkəzi komitəsinin xarici bölməsinin katibi seçilmişdir.

İrandakı siyasi vəziyyət və orada azadlıq hərəkatının güclənməsi ilə əlaqədar Seyid Cəfər Pişəvəri, 1920-ci ildə İrana qayıdır. O, Gilan əyaltində inqilabi hərəkatının lideri olan Kiçik Xanla tanış olur. İyun ayında Gilanda yaranmış inqilabi dövlətin xarici işlər naziri təyin edilir. Daha sonra isə Seyid Cəfər Pişəvəri, İrandakı bütün inqilabi qüvvələri birləşdirmək üçün İran Kommunist Firqəsinin yaranmasında yaxından iştirak edir, firqənin 1920-ci ilin iyun ayında Ənzəli şəhərində keçirilən I qurultayında mərkəzi komitənin üzvü və ideoloji işlər üzrə katibi seçilir.

1921-ci ildən etibarən Pişəvəri, İran Həmkarlar İttifaqının orqanı olan "Həqiqət" qəzetinin redaktoru olur. Eyni zamanda 1923-cü ilə qədər bir çox digər qəzetlərə məqalələr yazan Pişəvəri, bütün həyatını İran Türklərinin azadlığına həsr etmişdir. 1922-ci ildə hökumətin təzyiqləri nəticəsində Pişəvərinin redaktor olduğu "Həqiqət" qəzeti fəaliyyətini dayandırmalı olur. Bundan sonra Pişəvəri İsfahan şəhərində gizli siyasi fəaliyyət göstərmişdir.

Rza şahın hakimiyyətə gəlməsindən sonra İranda siyasi azadlıqlar bir az da məhdudlaşdırılır. Belə bir çətin vəziyyətdə Pişəvəri doqquz il fəaliyyət göstərir. 1930-cu ildə isə Pişəvəri həbs edilir və on bir il məhbəs həyatı yaşayır. Qəsri-Qacar adlanan həbsxanada həyatının on bir ilini keçirən Pişəvəri, əqidəsindən dönmür.

Pişəvəri, 1941-ci ildə həbsxanadan çıxaraq Tehrana gəlir. Burada o, İran Xalq Partiyasının yaranmasında fəal iştirak edir.

Seyid Cəfər Pişəvəri, 1943-cü il may ayının 23-də özünün "Azər" qəzetini İran ictimaiyyətinə təqdim edir. Qəzetin əsas məqsədi isə Rza şah rejimini ifşa etməkdən ibarət olmuşdur. 1944-cü ildə Pişəvəri, Azərbaycandan XIV Şura məclisinə seçilmiş olsa da, Rza şahın göstərişi ilə onun namizədliyi ləğv edilmişdir. Belə bir vəziyyətdə Pişəvəri, İranda nəşr olunan 44 qəzeti birləşdirərək "Cəbheyi-azadi" (Azadlıq cəbhəsi) yaratmışdır.

Bu qəzetlər vasitəsilə Pişəvəri, İran rejimi altında əzilən xalqları birliyə və azadlıq uğrunda mübarizəyə səsləmişdir. II dünya müharibəsi bitdikdən sonra bütün dünyada olduğu kimi İranda da azadlıq hərəkatı güclənir. Belə bir şəraitdə Azərbaycan Türklərinin azadlıq hərakatına rəhbərlik edəcək siyasi liderə böyük ehtiyac hiss olunmaqda idi. Ehtiyacdan və siyasi şəraitin münbitliyindən Seyid Cəfər Pişəvəri, 1945-ci ilin sentyabr ayının 3-də İran Azərbaycanın bütün sinif və təbəqələrini birləşdirə biləcək Azərbaycan Demokrat Firqəsini yaradır.

Bu hərəkət, Pişəvərinin uzaqgörən siyasətçi olmasının sübutu idi. Pişəvərinin təşkilatçılıq fəaliyyəti, rəhbərlik istedadı və geniş dünyagörüşü sayəsində Azərbaycan Demokrat Firqəsi, qısa zaman ərzində Azərbaycanın bütün təbəqələrdən olan insanlarını öz ətrafında birləşdirə bilmişdir. Partiyanın 1945-ci ilin oktyabr ayında keçirilən I qurultayında sözü gedən partiyanın sədri seçilmişdir. ADF-nin orqanı olan "Azərbaycan" qəzeti vasitəsilə Azərbaycan Türkləri qarşısında duran vəzifələr və 21 Azər hərəkatının hazırlanması taktikası Pişəvərinin rəhbərliyi altında həyata keçirilir.

1945-ci dekabr ayının 12-də 21 Azər hərəkatının qələbəsi ilə əlaqədar fəaliyyətə başlamış olan Azərbaycan Milli Məclisinin qərarı ilə Pişəvəri, Azərbaycan Milli Hökumətinin baş naziri təyin edilmişdir. Məhz həmin hökumətin qərarı ilə Azərbaycanın milli muxtariyyat hüququnu bərpa edərək





Azərbaycan Türklərinin öz ana dillərində danışmaları, yazıb-oxumaları üçün şərait yaratdı. Bununla da məktəblərdə ana dilində dərslərin keçirilməsi təmin edilmiş oldu. Yeni yaranmış milli hökumət qısa zaman ərzində torpaq islahatı apardı, kişilərlə qadınların hüquqlarının bərabər olması haqda qanun qəbul etdi. Ölkədə əmin-amanlıq bərpa edildi və geniş miqyaslı abadlıq işlərinə start verildi. Bu zaman ərzində Cənubi Azərbaycanda həyata keçirilmiş olan demokratik islahatları hətta yeni hökumətin düşmənlərini də heyrətə salmışdı.

Qısa zaman ərzində Cənubi Azərbaycanda qurulmuş olan milli hökumətin uğurları və apardığı islahatlar İran sərvətlərinin sahibi olan İngiltərə və ABŞ kimi dövlətləri narahat etməyə başlayır. Odur ki, yerli İran hökuməti ilə birləşən Avropa nəhənglri və ABŞ, tezliklə Cənubi Azərbaycanda qurulmuş olan dövləti qan içində boğduar. Təbii ki, bu işdə Sovet İttifaqı rəhbərliyinin də az rolu olmamışdır. Hərçənd ki, Stalin, işin əvvəlində Cənubi Azərbaycanın müstəqilliyinin tərəfdarı olmuşdur. Ancaq Ruzvelt və Çörçill, Sovet İttifaqının sərhədləri yaxınlığında başqa (Türkiyədən başqa) bir ikinci Türk Cümhuriyyətinin varlığının Sovet İttifaqı üçün təhlükə olmasıma inandıra bildilər. Yalnız bunda sonra Stalin, Cənubi Azərbaycanın müstəqilliyinin tapdanmasına göz yummuşdur.

Cəmi bir il yaşayan Cənubi Azərbaycan milli hökuməti, müstəqilliyini itirdikdən sonra, 1946-cı ilin dekabr ayında onun yaradıcıları və bir çox Cənubi Azərbaycan Türkü, Pişəvəri ilə birlikdə Sovet İttifaqına, daha dəqiq desək Şimali Azərbaycana mühacirət etdilər. Azərbaycana gəlmiş olan mühacirlərin ölkəmizin otuz dörd rayonunda yerləşdirilməsinə isə o zaman şəxsən Mircəfər Bağırov və Seyid Cəfər Pişəvəri rəhbərlik etmişlər. Bütün bu işlərlə əlaqədar Pişəvəri tez-tez Azərbaycanın müxtəlif bölgələrinə səfərlər etmişdir. Yenə də belə səfərlərin birində Gəncə şəhərindən qayıdan Seyid Cəfər

Pişəvəri, erməni sürücüsü tərəfindən 1947-ci il mayın 11-də Yevlax şəhəri yaxınlığındakı körpüdə müəmmalı avtomobil qəzasında həlak olmuşdur. Pişəvərinin məzarı Bakıdakı Fəxri Xiyabandadır. Bu zaman Pişəvərinin sürücüsünün niyə məhz erməni olması isə təəccüblüdür.

Seyid Cəfər Pişəvəri, Azərbaycan türklərinin XX əsrdə yetişdirmiş olduğu böyük inqilabçı, ictimai və dövlət xadimi, yüksək səviyyəli publisit və jurnalist olmuşdur.





## MİRCƏFƏR BAĞIROV
### *1896 - 1953*

Sağlığında xalq arasında ona bəziləri kişi, bəziləri ağa, bəziləri isə seyid deyirmiş. Azərbaycanın böyük siyasi xadimi. Azərbaycan türklərini bütövlükdə Sibirə sürgün edilməkdən qurtaran insan. 1896-cı ildə Qubada dünyaya gəlmiş, 1920-ci ildə Azərbaycan Sovet Respublikasının Fövqaladə Komitəsinin sədri və daxili işlər nazizi, 1933-cü ildən 1953cü ilə qədər isə KPb Mərkəzi Komitəinin birinci katibi olmuşdur.

Nazırda haqqında çoxlu sayda kitablar, əsərlər yazılsa da, siyasi fəaliyyətinin Azərbaycan respublikası və Azərbaycan xalqı üçün nə dərəcədə əhəmiyyətli rol oynadığı layiqincə aydınlaşdırılıb, təhlil olunmamışdır.

Onun demək olar ki, bütün siyasi fəaliyyəti Ustad Əlisa Nicatın üç trelogiyasında - üç romanında tarixi-bədii əksini tapmışdır. Mircəfər Bağırov dünyanı sarsıdan millətləri bir növ dəli edən illərdə siyasi fəaliyyətə başlamış və belə bir dövrdə bütöv xalqların tapdaq altında qalacağını dərk edib, millətini və ölkəsini tapdaqlar altında qalmaqdan qorumağa çalışmışdır. Bu gün qətiyyətlə demək olar ki, o, bu işin öhdəsindən müvəffəqiyyətlə gələ bilmişdir.

Nəriman Nərimanov və ondan başqa demək olar ki, heç bir sahibi olmayan Azərbaycan Respublikasının Mircəfər Bağırovsuz necə ağır sınaqlara, qorxunc fəlakətlərə və itkilərə məruz qala biləcəyini təsəvvür etmək o qədər də çətin deyildir. Təsəvvür edin ki, yaxın on, on iki il ərzində Azərbaycana yeddi, səkkiz təsadüfi adam başçılıq etmişdir. Və yalnız əvvəlcə Nərimanovun, daha sonra Mircəfər Bağırovun sayəsində ölkəmiz ərazi itkilərindən demək olar ki, yan keçə bilmişdir.

Mircəfər Bağırovun həyatı heç də həmişə qara buludlarsız və qayğısız keçməmişdir. Demokl qılıncı daim onun başı üstündən asılmış, həyatı daim tükdən asılı olmuşdur. Bu Demokl qılıncı isə Siyasi Büro üzvü olan erməni Anastas Mikoyan və daha çox isə İosif Stalin olmuşdur. Təsəvvür edin ki, keçən əsrin 20-30-cu illərində bütün Sovet Respublikaları içərisində yalnız Azərbaycanın rəhbəri siyasi represiyalardan kənarda qala bilmişdir.

Bu böyük insan və Böyük Türk üçün ölkəsindən və millətindən əziz heç nə olmamışdır. Bu cəhətdən o, o dövrdə Azərbaycanda fəaliyyət göstərən bütün bolşevik rəhbərlərdən fərqlənmişdir. Onun yaşadığı dövr, elə bir dövr idi ki, Sovet imperiyasının tərkibində olan bütün respublikaların ərazilərinin sərhədləri çox şərti olaraq müəyyən olunurdu və saysız-hesabsız erməni, gürcü və rus siyasətçiləri və akademikləri Azərbaycanın özləri sərhəd olan səfalı bölgələrinə əl uzadır və bunu etməkdən qətiyyən çəkinmirdilər. Bu məsələ dönə-dönə, dəfələrlə imperiya paytaxtı olan Moskvada, Siyasi Büroda müzakirəyə çıxarılır və yalnız Mircəfər Bağırovun sərt, barışmaz, qətiyyətli mövqeyi sayəsində nəticəsiz qalırdı. Mircəfər Bağırov Stalinə təsir edə biləcək gücə və ya sehrə sahib olan bir fövqəlinsan deyildi. Lakin, onun bir nəfər hami - mələyi var idi ki, bu mələk də təbii ki, Bağırovun xeyrinə bütün işləri görməkdə idi. Bu insan əvvəllər Gürcüstan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi sonra isə SSRİ Daxili İşlər Naziri Lavrenti Pavloviç Beriya idi.

Mircəfər Bağırovun gənclik illərində ona göstərdiyi himayədarlıq və mehribanlığı unutmayan bu qəribə gürcü, ömrünün sonuna kimi Bağırova arxa durmaqdan, onu qorumaqdan və təhlükə mərkəzindən uzaqlaşdırmaqdan çəkinməmişdir. Stalinin qəfil ölümündən sonra ilk aylar büün hakimiyyət əlində olan Lavrenti Beriya, bəlkə də ömründə ilk dəfə səhvə yol verərək, partiya rəhbərliyinin dılğır və kinli Nikita Xruşovun əlinə keçməsinə göz yimdu və ya imkan verdi. Bununla da həm özünün, həm də Mircəfər Bağırovun sonunu gətirmiş oldu.





Hazırda Azərbaycan hökuməti Mircəfər Bağırovun əsl siyasi və mənəvi qiymətini verməkdən imtina edir və bu da aydındır. Buna baxmayaraq, heç şübhə yoxdur ki, gün gələcək hətta səhvləri və günahları belə, obyektiv və zəruri olan Mircəfər Bağırovun Bakıda, heç olmasa dünyaya gəldiyi Qubada' əzəmətli heykəlini görmək bizlərə nəsib olacaqdır. Bununla da Azərbaycanın keçən əsrin iyirminci, otuzuncu və qırxıncı illərini əhatə edən geniş bir dövrün tarixi yenidən və daha obyektiv yazılacaqdır. Çünki həqiqəti örtmək olar, gizlətmək olar, hətta basdırmaq da olar. Ancaq, onu məhv etmək olmaz.

## MƏHƏMMƏD ƏSƏD BƏY (QURBAN SƏİD)
### *1905 - 1940*

Əsil adı Məhəmməd Əsəd bəydir. Ancaq dünya ədəbiyyatında, eləcə də ölkəmizdə bu böyük yazıçı Qurban Səid təxəllüsü ilə tanınır. "Böyük Türklər"ə daxil etməyimizin əsas səbələrdindən biri, bu insanın əsərlərinin Amerika, Rusiya, eləcədə bir çox Avropa ölkələrində, xüsusən də Almaniya, Avstrya və İtaliya kimi rəhən azad və dünya fəlsəfəsinə böyük əsərlər təqdim etmiş nəhənglərin vətənində dəfələrlə çap olunmasıdır. Təsəvvür edin ki, necə gözəl və maraqlı əsərlər yaratmalısan ki, adlarını çəkdiyimiz ölkələrdə hələ sağlığında dəfələrlə nəşr olunasan.

Bir neçə il öncə televiziyalardan birində Avropa ədəbiyyatçılarının XX əsrdə yazılmış olan ən böyük əsərlərinin və bu əsərləri yaradanların milli kimliyi, vətənlərinin siyahısının hazırlandığını söyləyəndə bütün diqqətimizlə dinləməyə başladıq. Çünki bu kimi şeylər bizlər üçün çox maraqlı və cəlbedicidir. Ustad Əlisa Nicatın sayəsində artıq demək olar ki, 8-9 ildir Avropa əsəbiyyatını və bu ədəbiyyatı yaradan insanların həyatını, onların yaratmış olduğu əsərləri oxuyurub öyrənirik. Məhz Ustadın sayəsində Avropa ədəbiyyatının korifeyləri hesab edilən böyük Frans Kafkanı, Ceyms Coysu, Nitşeni elə bir zamanda öyrəndik ki, o zamanlarda bu insanları demək olar ki Azərbaycanda heç kim tanımırdı. Sözü çox uzatmadan qayıdaq mətləbə. Həmin sözünü etdiyimiz siyahı açıqlananda birinci yerdə sevimli Kafkanın "Qəsr" romanı, ikinci isə Coysun "Dublinlilər"i idi. Həmin xəbər çarxında böyük əsərlər yarada bilməyən xalqların və ölkələrin də adı çəkilirdi. Bu siyahıda isə





cəmi dörd ölkə var idi. Bəs hansı ölkələr idi bunlar? İnanmazsınız bu siyahıda Azərbaycan, Somali, Qvineya və adını unutduğumuz başqa bir Afrika ölkəsi var idi. Buradan belə şıxır ki, bizim XX əsr ədəbiyyatımız heç kimdə, xüsusən də Avropada maraq doğurmayıb. (Yalandan özümüzü tərifləməklə deyil ki).

Bütün bunları deməkdə məqsədimiz, həmin siyahıda Qurban Səidin adının salına bilməsi idi. Ancaq təəssüf ki, avropalılar həmişə olduğu kimi bu dəfə də biz Türklərə ikili standartla yanaşıblar. Məhəmməd Əsəd bəyin mənsub olduğumuz millətin üzvü olasından dolayı yox, həqiqətən də böyük və möhtəşəm əsərlər yaratmasından dolayı bu siyahıya düşməsi bizcə ədalətli olardı. Sözü çox uzatmadan qayıdaq bu Böyük Türkə...

Məhəmməd Əsəd bəy, özünün yazdığına görə 20 oktyabr 1905-ci ildə anası Surizdən Bakıya dönərkən Ukrayna ilə Rusiya arasında yerləşən çöldə - elə qatarda ikən dünyaya gəlib. Nəsəbi etibarilə bəy nəslinə mənsub olması Azərbaycanın bolşeviklər tərəfindən işğalından sonra vətənini tərk etməsinə səbəb olmuşdur. Onun ailəsi əvvəlcə Almaniya, daha sonra isə Avstrya və İtalliyada yaşamışdır. Əsəd bəyi Azərbaycan mühacir ədəbiyyatının ən böyük nümayəndəsi adlandırsaq yəqin ki, yanılmarıq. Çünki məhz onun əsərləri sayəsində XX əsr Avropasında ölkəmizdə baş verənlər, xüsusən də bolşevik yırtıcılığı Avropa oxucusuna təqdim edilib.

Bir publisit kimi Məhəmməd Əsəd bəy, bütün yaradıcılığı boyu bolşevikləri və bolşevizmi qamçılayıb. Məhz bu səbəbdən də bu böyük mütəfəkkiri, ədibi, vətənpərvər insanı Sovet dönəmində təəssüflər olsun ki, insanlarımıza tanıtmayıblar. Azərbaycan oxucuları onu ölkəmiz yenidən müstəqilliyinə qovuşdan sonra tanıyıb. Yaradıcılğı haqda olan faktların azlığı və əsərlərini bir neçə təxəllüslə yazması, onun haqda bir sıra mübahisələrə səbəb olmuşdur. Hətta bəziləri Qurvan Səidin yazdığı əsərlərin tamamilə başqa birinə aid olmasını iddia

etsələr də, bunun qarşısı vaxtında alındı və bu böyük mütəfəkkirin əsərləri öz adına çıxılmağa başlandı.

Məhəmməd Əsəd bəy, yazıçı, publisit, tarixçi, politoloq kimi hələ sağlığında Avropa ölkələri və ABŞ-da məşhur idi. Əsərləri böyük tirajlarla alman, italyan, fransız, türk, rus, polyak dillərində çap edilib. Ən az nəşr olunduğu dil isə, nə qədər qəribə olsa da, məhz onun ana dilidir. Ümumiyyətlə isə onun əsərləri dünyanın on yeddi dilinə tərcümə edilmişdir. Məhz bu kimi səbəblərdən dolayı yuxarıda da qeyd etdik ki, Məhəmməd Əsəd bəy və onun əsərləri XX əsrin böyük əsərləri arasına salına bilərdi. Ancaq təəssüf...

Məhəmməd Əsəd bəyin valideynləri haqda məlumat çox azdır və demək olar ki, yox dərəcəsindədir. Valideynləri haqda məlumatı yalnız əsərlərindən almaq mümkündür. Ancaq orası bəllidir ki, atası namuslu müsəlman-türk olmuşdur. Eyni zamanda atasının imkanlı olması bəlli olur. Anasının milliyətcə rus və ya xristianlaşmış yəhudi olması ehtimal olunur. Bunu, Almaniyaya köç etmələrindən sonra bəzi əsərlərini Leo Nossumbaum kimi yəhudi təxəllüsü ilə yazmasından da anlamaq olur. Məhz bu təxəllüsü Adolf Hitlerin rəhbərlik etdiyi NASİST partiyasının Almaniyada hakiməyyətə gəlməsindən sonra ona bir sıra problemlər yaşatmışdır. Belə ki, bilindiyi ki, Hitlerin və silahdaşlarının yəhudiləri yer üzündən silmək planları olub və bu planın nəticəsi olaraq Leo Nossumbaum, yəni Məhəmməd Əsəd bəy Almaniyada yazıb-yarada bilməzdi.

XX əsrin əvvəllərində Şaumyanın rəhbərlik etdiyi daşnaklar Bakıda hakimiiyəti ələ keçirdikdən sonra Qurban Səid, atası ilə birlikdə bir müddət Türküstan və İranda yaşayıb. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra Bakıya qayıdan Məhəmməd Əsəd bəy və atası, bu dəfə bolşeviklərin Azərbaycanı işğal etməsindən sonra birdəfəlik vətənini tərk etmişdir. Onlar əvvəlcə Gürcüstana, bolşeviklərin bu ölkəni də zəbt





etməsindən sonra əvvəl Türkiyəyə, daha sonra isə Almaniyaya köçüblər. Hələ uşaq yaşlarından rus və alman dillərini mükəmməl şəkildə bilən Məhəmməd Əsəd bəy üçün Aalmaniyada yeni və daha geniş imkanlar açılır.

Məhəmməd Əsəd bəy, həyatının bu dönəmlərini Əsəd Bəy təxəllüsü ilə çap etdirdiyi "Şərqdə neft və qan" və "Altunsaç" romanlarında dəqiq təsvir etmişdir. Sözü gedən romanlarla tanış olduqda Əsəd bəyin Türküstan və İranda olan yer adlarını dəqiqliklə verməsindən, XX əsrin əvvəllərində oralardakı ictimai-siyasi durumu olduğu kimi təsvir etməsindən, sonradan İstanbula gəlmələrivə xəlifənin İstanbulu tərk etməsindən sonra onların da Türkiyədən çıxmalarından bəlli olur ki, hər iki roman avtobioqrafik xarakter daşıyır.

Almaniyaya gəldikdən sonra Əsəd bəyin həyatı o qədər də yaxşı keçməmişdir. Belə ki, o dövrdə Almaniya cəmiyyətində Qafqaz əsilli mühacirlərə o qədər də yaxşı baxılmırdı. Məhz bu səbəbdən Əsəd bəy, Leo Nossumbaum təxəllüsün götürür ki, bu da ona cəmiyyətdə yüksək təbəqələrlə tanışlığa kömək edir. Lakin 1933-cü ildə Hitlerin hakimiyyətə gəlməsi hər şeyi dəyişir. Bundan qısa bir müddət sonra Əsəd Bəy Avstriyaya köçməyə məcbur olur. Bu ölkənin də Almaniayaya birləşdirilməsindən sonra Məhəmməd Əsəd bəy İtaliyaya köç edir. Məşhur ingilis yazıçısı Con Ueyn, "dahi" adlandırdığı bu insanın İtaliyada da həyatının uğurlu keçmədiyini yazmaqdadır. Beləliklə, XX əsrin 30-cu illəri Əsəd bəy üçün keşməkeşli olmuşdur.

Ancaq bütün bunlara baxmayaraq, Məhəmməd Əsəd bəy, bir an da olsun yaradıcılıq işlərinə ara vermir. Belə ki, bütün çətinliklərə və iztirablara baxmayaraq o, mühacirətdə olduğu 12 ildə 14 tarixi və 2 bədii roman nəşr etdirə bilmişdir.

Əsəd bəy, 1935-ci ildə ABŞ-a gəlməli olur. Buraya gələndə o, artıq "İkinci Nokolay" kitabının müəllifi kimi

məşhurlaşmıdı. Bundan başqa "Stalin" romanı da müəllifə ABŞ-da məşhurluq gətirmişdir. Onun ABŞ-da daha bir əsəri olan "Rusiya yol ayrıcında" əsəri müəllifin ABŞ ictimaiyyətində özünəməxsus yer tutmasına səbəb olur.

Bütün bunlarla yanaşı, Əsəd bəyin əsərləri arasında bizcə ən maraqlısı və onun yaradıcılığının şedevri hesab etdiyimiz "Əli və Nino"nun yerini heç nə verə bilməz. Əsərin əsas mövzusu Əli və Nino adlı iki gəncin məhəbbətindən bəhs etsə də, burada yüksək təbəqədən olan bir türk gəncinin vətəninin azadlığı və müstəqilliyi uğrunda döyüşməsi və bu yolda şəhid olması, fikrimizcə müasir Azərbaycanın gəncliyi üçün bir həyat örnəyi olmalıdır. Təəssüflər olsun ki, nə Məhəmməd Əsəd bəyin həyatı, nə də onun zəngin yaradıcılığı hələ də dərsliklərə salınmamaqdadır. Halbuki, Azərbaycanın indiki durumunda "Əli və Nino" əsəri neçə-neçə gənc və yeniyetməmizdə vətənpərvərlik hissinin oyanmasına səbəb ola bilər, vətən üçün ölməyin şərəf olması duyğusunu oyada bilərdi. Bunun əvəzində isə təəssüflər olsun ki, hələ də məktəblərdə, yetişməkdə olan nəslə sovet rejimini və limur gözlü Lenini mədh edənlərin əsərləri oxudulur və təbliğ edilir...

1936-ci ildə Əsəd bəy, İtaliyaya köçür. Onun məqsədi burada Mussolinin şəxsi bioqrafı olmaq idi. Bunun üçün o, İtaliyada özünə arxa axtarmalı olur ki, bunu da tezliklə tapır. Bu adam, Mussoliniyə yaxın şəxslərdən hesab edilən Cavanni Centalo olur. Lakin onun yəhudi olması ilə əlaqədar yaranan şübhələr yenidən baş qaldırır. Bu məsələdə Almaniya və İtaliyada yaşayan həmyerlilərimizin də az əməkləri olmayıb.

Ömrünün sonlarına yaxın Məhəmməd Əsəd bəy ağır xəstəliyə düçar olur. Xəstəliyinin adı isə Raynoud olub ki, bu xəstəlik ağırlaşdığı təqdirdə qanqrenaya çevrilir. O zamanlar tibb elmi bu xəstəliyin qarşısında aciz idi. Xəstəliyi günü-gündən artan Məhəmməd Əsəd bəyin 1939-cu ilin əvvəlində Neapol





hospitalında sol ayağının bir neçə barmağını kəsirlər. Bu Böyük Türk elə bu xəstəlikdən də 1940-cı ildə vəfat edib. Qəbri Neapol yaxınlığında yerləşən Pozitano şəhərindədir. Deyilənlərə görə Qurban Səidi üzü Kəbəyə yox, Azərbaycana doğru olaraq dəfn ediblər. Onun haqqında Almaniyada film də çəkilib.

## SEYİD MƏHƏMMƏD HÜSEYN BEHCƏT TƏBRİZİ (ŞƏHRİYAR)

***1906 - 1988***

XX əsr Türk Dünyasının yetişdirmiş olduğu ən böyük şairlərindən biri. İranda dünyaya gəlmiş və orada yaşamışdır. Doğum tarixi haqda müxtəlif rəqəmlər söylənməkdədir. Belə ki, bəzi mənbələrdə onun 1904-cü ildə, bəzilərində isə 1906-cı ildə dünyaya gəlməsi yazılmaqdadır. Ancaq o dəqiqdir ki, bu böyük türk şairi Cənubi Azərbaycanın paytaxtı Təbrizdə dünyaya gəlmişdir.

Tam adı Doktor Seyid Məhəmməd Hüseyn Behcət Təbrizidir. Bunlarda Məhəmməd Hüseyn şairin kiçiklik adı, Behcət Təbrizi soyadı, Seyid peyğmbərin nəslindən olmasından dolayı, Dokdor ləqəbi isə tibb fakultəsində oxuduğundan dolayı ona edilən müraciət formalarından biridir. Behcət eyni zamanda onun ilk təxəllüsü, Şəhriyar isə daha sonrakı təxəllüsüdür. Ancaq bu Böyük Türk bütün dünyada Şəhriyar kimi tanınmaqdadır.

Şəhriyarın atası Təbrizin məşhur vəkillərindən olan, ağlı və kamalı ilə şöhrət tapmış Hacı Mir Ağa, anası isə Kövkəb xanımdır. Şəhriyarın uşaqlıq illəri Təbrizdə məşritiyyət illərinə tuş gəlmişdir. Onun təhsili ilə də bağlı olan məlumatlar qarışıqdır. Belə ki, Şəhriyar ilk təhsilini elə atasından almışdır. Hələ uşaq yaşlarından şerə və ədəbiyyata maraq göstərən Şəhriyar, tezliklə Qurani-Kərim, bundan başqa isə Sədinin "Gülüstan" əsərini oxumağa başlamış və ərəb, fars dillərinə yiyələnmişdir. Daha sonra isə altı yaşı olduğu zaman Molla İbrahimdən "Gülüstan" əsərini və Hafizin yazmış olduğu əsərləri öyrənməyə başlamışdır.





Şəhriyar ilk rəsmi təhsilinə isə Təbrizdə olan Mədrəseyi-Müttəhidədə başlamışdır. Yay tətili zamanı isə Qayışquşaqda olan Molla İbrahimdən özəl dərslər almışdır. Orta təhsilini Füyuzat məktəbində almışdır. Burada onun təhsili doqquzuncu sinifə qədər davam etmişdir. Bundan başqa o, Təbrizdə ərəb dili və ədəbiyyatını öyrənmiş, daha sonra isə 1923-cü ildə tibb fakultəsinə daxil olmuşdur. Ancaq maddi çətinliklər ucbatından bu fakultəni bitirə bilməmişdir.

Şəhriyarın sevgilisinin adının Süreyya olduğu bilinməkdədir. Belə ki, Şəhriyar 1973-cü ildə Tehran radiosunda çıxışı zamanı, Süreyya ilə son dəfə Behcətabadda görüşəcəklərini ancaq Süreyyanın gəlmədiyini, səhəri gün isə fakultəni bitirməyə iki-üç ay qalmış Tehrandan sürgün edildiyini söyləmişdir. O, "Behcətabad xatirəsi" adlı şerini bu görüşə həsr etdiyini bildirmişdir.

Şəhriyar təhsilini bitirdikdən sonra dövlət məmuru kimi əmək fəaliyyətinə 1932-ci ildə başlamışdır. Daha sonra isə Tehrandan sürgün edilmişdir. Yalnız 1935-ci ildə yenidən Tehrana qayıda bilən Şəhriyar, burada Ziraət Bankında işləməyə başlamışdır.

Şəhriyarın həyatında baş verən önəmli hadisələrdən biri də onun atasının vəfatıdır. Belə ki, atasının vəfatından və Tehrana qayıtmasından sonra onun böhranlı günləri başlamışdır. Bu dönəmdə böyük şair bütün tanışlarından və dostlarından ayrılmış vəziyyətdə olur. Bu aralar isə ruh çağırma seanslarına qatılır, Allahı dərkə meyl edir və hətta deyilənlərə görə Zəhəbiyyə məzhəbini də qəbul edir. Heç cür ruhi rahatlıq tapa bilməyən Şəhriyar 1937-ci ildə dörd aylıq Təbriz səyahətinə çıxmışdır. Onun bu bitkin ruh halı uzun müddət davam etmişdir.

Böyük şair anasının da vəfat etməsindən sonra uzun müddətli böhran yaşayır, bu arad isə bərk xəstələnir. Belə bir vəziyyətdə Şəhriyar, qəfil, heç bir səbəb olmadan Tehranı tərk edərək, 1953-cü ilin ortalarında vətəni Təbrizə köçür. O, Təbrizdə

də Ziraət Bankında işləməyə başlayır və elə bu işindən də təqaüdə çıxır. Şəhriyar, özünün ən mühüm əsəri olan "Heydərbabaya salam" əsərini Təbrizdə yazaraq tamamlayır və 1953-cü ildə çapa verir. Deyilənlərə görə çapa getməzdən əvvəl İran şahına məlumat verilir ki, Şəhriyar, "Heydərbabaya salam" əsərini Türk dilində yazmışdır. Şah buna belə reaksiya veirb. "Türk dilində olduğu üçün nəşr etmək olmaz, ancaq Şəhriyar yazdığı üçün nəşr etməməmək də olmaz".

Şəhriyar davamlı olaraq Təbrizdə yaşamağa başladıqdan sonra ibtidai sinif müəllimi olan və özündən 35 yaş kiçik Əzizə adlı bir xanımla ailə həyatı qurur. Onun bu evlilikdən dörd övladı dünyaya gəlmişdir. Şəhriyar 1964-cü ildə Xoşginaba gedir və burada ikinci "Heydərbabaya salam"ı yazaraq nəşr etdirir. 1976-cı ildə Tehrandakı qonaqlıqların birində şairin xanımı Əzizə ürəyində keçirdiyi narahatçılıqdan dolayı vəfat edir.

Şairin Türk dilində yazmış olduğu şerlərin böyük bir qismi Yəhta Şeyda tərəfindən Tehranda nəşr etdirilmişdir. 1984-cü ildə isə Şəhriyarın 80 illik yubileyi Təbriz universitetində təntənəli şəkildə qeyd edilir.

Ömrünün son illərini yaşlılıqdan dolayı xəstəliklə keçirən bu böyük şair və Böyük Türk, sentyabrın 18-i 1988-ci ildə Təbriz şəhərində vəfat etmişdir. Şəhriyarın ruhuna hörmət əlaməti olaraq həmin bütün Təbriz mağazaları bağlı olmuş və bütün şəhər qara geyinmişdir.

Şəhriyar ana dili olan Türk dilindən başqa ərəb, fars və fransız dillərini də mükəmməl şəkildə bilmişdir. O, eyni zamanda hələ gənc yaşlarından etibarən musiqiyə də böyük maraq göstərmişdir. Belə ki, o, tarda çox gözəl ifa edirmiş. Onun ən sevimli məşğuliyyətlərindən biri də gözəl xətti ilə Qurani-Kərim ayələrini yazaraq dostlarına hədiyyə etməsi olmuşdur. Şəhriyar ustad bir şair olması ilə yanaşı, seyid olmasından dolayı da xalq arasında hədsiz dərəcədə sevilmişdir.





Şəhriyar təqaüdə çıxdıqdan sonra daim maddi çətinliklər içində yaşamışdır. Hətta 1976-cı ildə Tehran qəzetlərinin birinə verdiyi müsahibədə əynindəki paltarının iyirmi ildir ki, geyindiyini söyləmişdir. Ümumiyyətlə isə Şəhriyar, təkcə Azərbaycan Türklərinin deyil, eyni zamanda bütün Türk Dünyasının ən böyük şairlərindən biridir. Bu böyük şairin yazmış olduğu əsərlərə misal olaraq aşağıdakıları göstərə bilərik. "Heydərbabaya salam", "Türkün dili", "El bülbülü", "Getmə Tərsa balası", "Türk övladı qeyrət vaxtıdır", "Türkiyəyə xəyali səfər", "Naz etmisən" və s.

## NƏRİMAN NƏRİMANOV
### *1870 - 1925*

Azərbaycanın böyük siyasi və ədəbi siması. Nəriman Nərimanov Tiflisdə anadan olmuş, ilk təhsilini də burada aldıqdan sonra, milyonçu H.Z.Tağıyevin ayırdığı təqaüdlə Odessa Universitetinin tibb fakultəsini bitirmişdir. Daha sonra ədəbi yaradıcılığa başlayaraq, dram əsərləri, povest və hekayələr yazmışdır. Eyni zamanda Rusiya inqilabının təsiri ilə "Hümmət" sosial-demokrat partiyasını yaradaraq bolşevizmə meyl etmişdir. Ucqarlarda yaşayan əksər milli azadlıq hərəkatı liderlərindən biri kimi, Leninin inqilabdan əvvəl Rusiyanın məzlum xalqlarına vəd etdiyi siyasi azadlıq ideyalarına inanıb onları müdafiə etmiş, dəfələrlə Leninlə görüşərək Azərbaycanın bir nömrəli siyasi lideri kimi tanınmışdır. Və bu durum da Aprel çevrilişindən sonra Azərbaycanın sahibsiz qalaraq parça-parça olaraq bölünməsindən xilas etmişdir.

Nəriman Nərimanovun Azərbaycan tarixi üçün əvəzsiz xidmətini və mövqeyini hələ də çox az insan başa düşür və hətta keçən əsrin iyirminci illərində Zəngəzurun ermənilərə verilməsində onu günahkar sayanlar da vardır. Lakin belələri başa düşmürlər və ya başa düşmək istəmirlər ki, həmin dövrdə Nərimanovdan başqa Azərbaycanın ərazi bütövlüyünün qarantı olan bir nəfər də yox idi. Ə.Qarayevlər və başqaları o dövrün ən öndə gedən bolşevikləri idilər ki, onlar da Azərbaycanın hansı şəkildə mövcud olmasına laqeyd idilər. Məhz Nərimanovun inadlı müqaviməti nəticəsində Stalinin iştirakı ilə keçirilən məşhur Mərkəzi Komitənin yığıncağından sonra Dağlıq Qarabağ ərazisi Azərbaycanın tərkibində qalmışdır.





Nəriman Nərimanov faciələr yaradan faciəvi şəxsiyyətdir. Və bütün böyük şəxsiyyətlər kimi o da haradasa sadəlöhv olub yaramaz gürcü bolşeviki Orcenekidzeni özünə dost bilmiş və onun tərəfindən də zəhərlənərək demək olar ki, mübarizə meydanında şəhid olmuşdur.

Stalin təbii ki, belə bir milli fiquru sevə bilməzdi. Üstəlik Nərimanovonun əleyhinə Leninə, cəsarətinə və siyasi praqmatizminə görə misli olmayan bir məktub yazmışdır.

Lenin, Azərbaycanda hökumət başçısı - Xalq Kommisarları Sovetinin sədri olan Nərimanovu, Kirov və quduz Azərbaycan bolşeviklərinin təqibindən qurtarmaq məqsədilə Moskvaya - SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədri vəzifəsinə yüksəltmişdir. Nərimanov, burada işlədiyi az bir müddət ərzində Volqaboyu, Ural ətrafı və Orta Asiyanın demək olar ki, bütün xalqlarına muxtariyyat verilməsinin əsas təşəbbüskarçısı və icraçısı olmuşdur. Təsadüfi deyildir ki, Azərbaycanda Nərimanovun adının çəkilməsinin qadağan olduğu dövrlərdə sözü gedən bölgələrdə onun adını daşıyan küçələr, sovxozlar, hətta rayonlar olmuşdur.

Nəriman Nərimanov da Mircəfər Bağırov kimi, Şah İsmayıl Xətai kimi, Mirzə Fətəli Axundov kimi, Qurban Səid kimi, Üzeyir bəy kimi Azərbaycan üçün bəxtin hədiyyəsidir.

Biz hərə dəfə yolumuz düşdüyü zaman Nərimaovun əzəmətli heykəlini məmnuniyyətlə seyr edirik. Beləcə Üzeyir Hacıbəyovun gözəl abidəsinə baxmaqdan doymadığımız kimi. Və inanırıq ki, adlarını çəkdiyimiz dahilərimizin yerdə qalan ikisinin də abidəsini görmək və ləzzətlə seyr etmək bizlərə qismət olacaqdır.

Nərimanovun böyüklüyü, bütün türk xalqlarının liderləri içində əzəməti ondan ibarətdir ki, o, hələ keçən əsrin onuncu illərindən sonra Rusiya İmperiyasını bürüməyə gələn bolşevik "sunami"sini görmüş və sinəsini qabağa verərək xalqını bu

"sunami"dən mümkün qədər az zərərlə xilas olmasına çalışmış və demək olar ki, buna nail olmuşdur.

Əgər özbəklər və ya türkmənlər bizim qədər torpaq və ərazi itkilərinə məruz qalmayıblarsa, səbəbi ondadır ki, onların ermənilər, gürcülər, ruslar və farslar qədər azğın, yırtıcı və arxalı düşmənləri olmamışdır.

Nərimanov nəinki Türk Dünyasında, ümumiyyətlə bütün dünyada böyük ədəbi orsi olan nadir siyasi xadimlərdən biridir. Onun yazmış olduğu dram əsərləri daim teatr səhnələrimizi bəzəyib və günümüzdə də bəzəməkdədir.





## RƏŞİD BEHBUDOV
### *1915 - 1989*

Bəzən elə olur ki, hansısa xalqın övladı bötüvlükdə bir xalqı təmsil etməli olur. Belə övlad, hansı peşənin sahibi olursa olsun, onun taleyinə böyük bir xalqı təmsil etmək və bu xalq üçün ölmək yazılır. Azərbaycanın belə övladları çox olmuşdur. Belələrindən biri də SSRİ xalq artisti, Sosialist Əməyi Qəhramanı, Rəşid Məcid oğlu Behbudovdur. O, 1 dekabr 1915-ci ildə Tiflis şəhərində dünyaya gəlmişdir. Onun atası olan Məcid, əslən Şuşa şəhərindən olub, dövrünün məşhur və tanınmış xanəndələrindən olub. Anası Firuzə xanım Vəkilova isə, rus dili və ədəbiyyatı müəllimməsi olmaqla yanaşı, müxtəlif özfəaliyyət dərnəklərində aktrisa kimi fəaliyyət göstərib. Görünür Rəşidin müğənni və aktyor kimi yetişməsində də gen qanunları öz rolunu oynamışdır.

Rəşid Behbudov, orta məktəbi bitirdikdən sonra dəmir yolu texnikumuna daxil olmuşdur. Burada təhsil almaqla yanaşı o, texnikumda fəaliyyət göstərən dərnəkdə müğənni kimi iştirak etmişdir. Müharibə illərinə qədər bir çox müsabiqələrdə iştirak edən Rəşid, 1941-ci ildə Moskvada keçiriləcək olan növbəti müsabiqədə iştirak etmək üçün paytaxta yola düşür. Qatarda gedərkən eşidir ki, II Dünya Müharibəsi başlayıb və müsabiqə təxirə salınıb. Bundan sonra Rəşid geri qayıtmışdır. Müharibə illərində o, müxtəlif otkestrlərin tərkibində cəbhədə əsgərlər üçün çoxlu sayda konsertlər verir.

Keçən əsrin əllinci illərinin əvvəllərindən etibarən isə Rəşidin xarici ölkələrə qastrol səfərləri başlamışdır. Belə ölkələrə misal olaraq Bolqarıstanı, İtaliyanı, Macarıstanı, Hindistanı və

Çini göstərmək olar. Onun Hindistan səfərləri isə daha dramatik keçirmiş. Belə ki, Rəşidin səfərə çıxdığı qatar, Hindistan şəhərlərindən keçdikcə böyük bir izdiham qatarın qarşısını kəsirmiş və Rəşidin qatardan çıxıb onların qarşısında canlı ifa etməsindən sonra insanlar qatarın yolunu açırlarmış. Bundan başqa Behbudov, SSRİ-nin müxtəlif regionlarında konsert proqramları ilə çıxış etmişdir. Rəşid eyni zamanda sağlığında Suriya, Misir, İordaniya, İraq kimi ərəb ölkələrində, İran və qardaş Türkiyədə, o cümlədən də Finlandiya, Polşa və bir çox Latın Amerikası ölkələrində konsertlər vermişdir.

Öz dövründə yumşaq və ürəyəyatımlı səsi ilə Rəşid Behbudov SSRİ və bütün dünyada məşhur bir müğənniyə çevrilir. Onun qafqazlı olması və Türkiyə insanına bənzəməsi isə ona başqa və daha böyük şöhrət gətirirdi. 1955-ci ildə böyük sənətkarın qızı olan Rəşidə xanım dünyaya gəlir ki, hazırda o, da atasının işini davam etdirməkdədir. Rəşid, Azərbaycanda milli operanın və musiqili komediyanın yaranmasında, onların inkişaf etdirilməsində böyük zəhmətlər çəkmişdir. R.Behbudovun repertuarında üstünlük həmişə Azərbaycan xalq mahnılarına və Azərbaycan bəstəkarlarının musiqilərinə verilib. Bununla yanaşı o, bir çox kinofilmlərə də çəkilib.

Böyük sənətkar və Böyük Türk olan Rəşid Behbudov, 9 iyun 1989-cu ildə vəfat etmişdir. Onun yaradıcılığının pik nöqtəsi SSRİ-nin çökməyə başladığı 80-ci illərin sonu ilə üst-üstə düşür. Behbudov, eyni zamanda siyasətlə də məşğul olmuş və müəyyən dövrlərdə SSRİ ali sovetinin deputatı kimi fəaliyyət göstərmişdir. Məhz siyasətin birbaşa içində olması, onu mənsub olduğu xalqın acınacaqlı vəziyyəti ilə dərindən maraqlanmağa sövq etmişdir. Belə ki, deyilənlərə görə Rəşid xaricə etdiyi qostrol səfərləri zamanı Azərbaycanda olan ictimai-siyasi vəziyyəti lentə aldıraraq getdiyi ölkələrə apararaq, SSRİ haqda olan həqiqətləri oralardakı insanlara





çatdırırmış. Təbii ki, bu da "xalqlar həbsxanası"nın rəhbərliyini narahat etməyə bilməzdi.

Belə ki, müalicə aldığı dövrlərdə çox ciddi nəzarət altında saxlanılan Rəşid Behbudova demək olar ki, heç kimlə görüşməyə icazə verilməyib. Onu sərbəst şəkildə yalnız xanımı ziyarət edirmiş. Ancaq xəstə olduğu zamanlarda bir an da olsun yanından ayrılmayan xanımı da onun ölümünün qarşısını ala bilməmişdir. Öz həkiminin onu müayinə edib getməsindən az sonra olan bir neçə ağ xalatli insan gələrək Rəşidi müayinə edəcəklərini bildirdikdə, xanımı buna etiraz etsə də, gələnlər ona qulaq asmayaraq, Rəşidin palatasına daxil olmuşlar. Xanımına içəri girməyi qadağan edən bu adamlar onu çöldə gözləməyə məcbur etmişlər. Yəqin ki, xanımının bu zaman çöldə keçirdiyi 10-15 dəqiqə həyatının ən ağır dəqiqələri olmuşdur. Və birdən Rəşidin dəhşətli səsi: "POMOQİTEEE"!

Yalnız sonralar məlum oldu ki, həmin bu ağ xalatlı adamlar Rusiya xüsusi xidmət orqanlarının əməkdaşları imiş və Rəşidi öldürmək əmrini alaraq onun müalicə olunduğu xəstəxanaya gəliblərmiş. Təbii ki, başlarında yenə də həmişəki kimi bir erməni dururmuş...

## HEYDƏR ƏLİYEV
## *1923 - 2003*

> *"Azərbaycan dünyaya günəş kimi doğacaqdır"*
>
> **H.Əliyev**

Azərbaycanın dövlət xadimi. 1923-cü il may ayının 10-da Naxçıvanda anadan olmuşdur. Uzun illər sovet hakimiyyəti dövründə kəşfiyyat sistemində yüksək bacarıq və sədaqətlə xidmət etmiş, Yaxın Şərq, hətta uzaq kapitalist ölkələrində rezident və kəşfiyyatçı kimi xidmət göstərib bir sıra məxfi, o cümlədən də parlaq və uğurlu əməliyyatlar həyata keçirmişdir.

Aydındır ki, H.Əliyevin kəşfiyyatda çalışdığı illərdə sovet əks kəşfiyyatında mövqe sahibi olmaq, yer tutmaq ağlasığmaz dərəcədə çətin bir iş idi. Eyni zamanda, qeyri-rus, yəni başqa millətə mənsub olan insanlar üçün bu yüz qat çətin bir iş idi. Ancaq H.Əliyevin güclü iradəsi və qətiyyəti rus çekist bosslarının onunla hesablaşmağa və onu sıralarına qəbul etməyə, ən məxfi planlaını və əməliyyatlarını həyata keçirmək işində iştirak etməyə məcbur etmişdir.

Təsadüfi deyildir ki, Sovet Xüsusi Xidmət orqanlarına uzun illər rəhbərlik etmiş olan Andropov ömrünün axırına kimi H.Əliyevə olan rəğbətini gizlətməmişdir.

Hər şeydən əlavə böyük zəhmətkeş olan H.Əliyev, inadla, uzun illər öz ağıl və iradəsinin hesabına sıravi əməkdaşdan general-mayor rütbəsinə qədər yüksələ bilmişdir. Keçən əsrin





60-cı illərinin sonlarında, daha dəqiq isə 1969-cu ildə Azərbaycan iqtisadiyyatı demək olar ki, bərbad vəziyyətə düşmüşdü. Pambıqçılıq tamamilə yox olmaq təhlükəsi ilə üzüzə qalmış, tərəvəzçilik, üzümçlük və heyvandarlıq bərbad vəziyyətə düşmüşdü. Sənayə sahələri də eləcə. Bu zaman Azərbaycana sərt, qətiyyətli və hər cür korrupsiyaya yad olan bir insan lazım olduğunu görən və başa düşən SSRİ Siyasi Bürosu və onun baş katibi Leonid İliç Brejnev və SSRİ Dövlət Təhlükəsizlik Komitəsi üçün H.Əliyevin Azərbaycanı dirçəltmək üçün yeganə xilas yolu olduğunu görüb onu respublika partiya komitəsinə rəhbər təyin etdilər. Bununla da, Heydər Əliyev indiyə qədər uzun illər gizlində qalan siyasi və praktiki keyfiyyətlərini əməli surətdə nümayiş etdirmək üçün meydan qazanmış oldu.

Azərbaycan, ümumiyyətlə çox mürəkkəb ölkədir. O cümlədən də Azərbaycan xalqı mürəkkəb xalqdır. Bəzən hakimiyyətdə olanlar, rejim və sistem bir söz deyir, xalq isə istədiyi və bacardığı kimi yaşayır. Bəli, bu söz birinci dəfə işlənsə də, Azərbaycan xalqı, xüsusən də onun yüksək sferası bütün rejimlərdə istədikləri kimi yaşamışdır. Onu bu təbii axardan döndərmək üçün konkret bir sistem və ideyanın gərəkli olduğu qədər də insan iradəsi də zəriridir. Bu iradə isə Heydər Əliyevdə mövcud idi.

Çox keçmədi ki, Azərbaycan sənaye və kənd təsərrüfatının bütün sahələrində ölkədə qabaqcıl mövqelərdən birini tutmağa nail oldu. Belə ki, bütün ölkədə pambıqçılıq vüsət götürdü. Tərəvəzçilik isə bütün Rusiyanın təlabatını ödəyəcək duruma gəldi.

Biz, Heydər Əliyevin siyasi dühasını təkcə təsərrüfat və sənaye sahələrindəki uğurlarla məhdudlaşdırsaq, əlbəttə, bu günah olardı. Yaşlı insanlar yəqin ki, xatırlayırlar. Keçən əsrin 70-80-ci illəri eyni zamanda Azərbaycan-Sovet mədəniyyətinin

- ədəbiyyatının və incəsənətinin yüksəliş illəri sayıla bilər. Məhz bu dövrdə, çoxlu sayda tarixi romanlar, dünya şöhrətli musiqi nümunələri, rəssamlıq əsərləri və onların yaradıcıları meydana çıxdı. Bu insanlara misal olaraq Yusif Səmədoğlu, Tahir Salahov, Toğrul Nərimanbəyov, Elçin, Tofiq Bakıxanov, Fərhad Bədəlbəylini göstərə bilərik. Akademik Milli Dram Teatrın yeni binası, Bakı metrosu, Yazıçı nəşriyyatı, Qərb və Şərq mətbəəsi, Kommunist nəşriyyatı, Naxçıvanski adına hərbi məktəb, Bakı Kondisonerlər zavodu və başqa çoxlu sayda yeni incəsənət, mədəniyyət, təhsil və sənaye müəssisələri H.Əliyevin milli və mədəni inkişaf sahəsində göstərmiş olduğu əməllərinin yalnız cüzi bir hissəsidir.

Lakin kommunist sisteminin xarakterik xüsusiyyətlərindən biri, bəlkə də birincisi olan dar ayaqda istedaddan istifadə edib sonra isə ondan imtina etmək və üz çevirməkdir. Bütün sahələrdə geridə qalmış olan bir respublikanı qısa zamanda Qırmızı Bayraqlar ölkəsinə çevirən və iradəsi, hünəri, prinsiplərə sədaqəti ilə heyrət doğuran və hətta büro üzvlüyü səviyyəsinə yüksələn bir şəxsiyyəti gərəksiz bir şəkildə, qüvvəsinin çiçəkləndiyi bir dövrdə mübarizədən kənarlaşdırmaq namərdliyin yüksək bir nümunəsi sayıla bilər.

Lakin bu səhifə hələ tam yazılmamışdı və onun siyasi dühası özünü ikinci dəfə göstərmək imkanı əldə edəcəkdi. Heydər Əliyev, Azərbaycan Respublikasında bir dəstə siyasi oyunlardan xəbərsiz, yalnız ani qazanc və məqsəd səviyyəsində düşünmək iqtidarında olan gəncin əlində xaos meydanına dönmüş ölkəsinin çağırışına gəldi.

Eyni zamanda onu da qeyd etməliyik ki, bu dönüş və bu gəlişin yolu hamar və rahat deyildi. Burada yeni siyasi uzaqgörənlik, iradə və qətiyyət lazım idi ki, xalq sənin illərlə xidmət etdiyin rejimin heç də kor-koranə əsgəri olmadığını görsün və buna inansın.





Beləliklə, Heydər Əlirza oğlu Əliyev böyük miqyaslı siyasətçi ikən yenə kiçik bir ölkədə dinclik və əsayiş bərqərar etdirən köhnə və doğma otağına gəldi. Bundan sonra respublikada baş verənlər hər kəsin gözləri qarşısındadır. Ermənilərin, Azərbaycan türkünün əzəli torpaqları olan Dağlıq Qarabağı müstəqil elan etmələri və üstəlik onların daha səkiz səfalı rayonumuzu ələ keçirib məskunlaşmaları...

Heydər Əliyev, böyük insanpərvər rəhbər kimi azərbaycan xalqının kənc övladlarının yenidən müharibə alovlarında qurban getməsini istəməyərək, müharibənin dayandırılmasına və sülh danışıqlarının başlanmasına nail oldu. Kəskin vasitələrə əl atmayan, sülh məramlarını isə uzun illər namərd və məkrli ermənilərin Rusiya, ABŞ və Fransa kimi arxalarına söykənib işğal edilmiş ərazilərin qaytarılmasını bir növ lətifəyə döndərdilər. Bu qədər böyük, güclü və qüdrətli dövlətlərin təzyiqlərinə qarşı kiçik Azərbaycan neyləyə bilər?

Artıq yaşı səksəni haqlamış olan bu böyük və dərin siyasətçi Azərbaycanın gənc zabitləri görüşü və çıxışı zamanı qəfil ürəyi narahat oldu. Bundan sonra isə H.Əliyev müalicə olunmaq üçün ABŞ-a aparıldı və elə orada müalicə aldığı Klivlent hospitalında vəfat etdi. Dünyanın nəhəng siyasətçiləri arasında özünəmxsus yeri olan Heydər Əliyev artıq vəfat etsə də, bayrağı tam təcrübəsiz, siyasətsiz və qətiyyətsiz insanlara deyil, öz ideyalarının ən layiqli davamçısı olan - oğlu İlham Əliyevə tövsiyyə etdi. Və tarix onun bu tövsiyyəsini qəbul etdi.

Respublika Prezidenti, cənab İlham Əliyev, mərhum atasının siyasətini inamla davam etdirərək qoyulmuş məqsədə doğru qətiyyətlə addımlayır. Eyni zamanda respublikanın paytaxtında, şəhər və kəndlərində təmir-bərpa işləri və müxtəlif sahələrdə olan yeniliklər göz oxşamaqdadır. Hazırda Bakımızın bütün köhnə və yeni binaları sanki üzə gülür. Ölkəmizin bu cür çiçəklənməsi, bu cür sürətlə inkişaf etməsi mərhum prezident Heydər Əliyevə ucaldılan abidələrin bəlkə də ən gözəlidir.

## ƏLİSA NİCAT
### *1936*

*Çox vaxtında düşdüm duyuq,*
*Bilmədim nədir buyuruq,*
*Təfəkkürün uca, soyuq*
*Zirvəsində oturmuşam*

*"Həyat yalnız toxların dəvət olunduğu ehsandır".*

Əlisa Nicat

Dünyanın bütün keçmişini və indisini, bütün tarixini və şəxsiyyətlərini, bütün ruhi və mənəvi sərvətlərini özündə ehtiva edən Azərbaycan filosofu və yazıçısı. Lerik rayonunun uzaq dağ kəndi olan Yuxarı Gədikdə məmur ailəsində dünyaya gəlmişdir. Atasının adı Qulamdır. Yeniyetmə və gənclik illəri Lənkəran şəhərində keçmiş və orta məktəbi də burada bitirmişdir. Orta məktəbi bitirdikdən sonra Bakı Dövlət Universitetinin biblioqrafiya fakultəsinə daxil olmuş və buranı müvəffəqiyyətlə bitirmişdir.

Ə.Nicat yaradıcılığa 16 yaşlarından başlamışdır. Gənclik illərindən etibarən, fəlsəfəyə meyl etmiş, ancaq bolşevik rejimində bu elmlə dərindən maraqlana bilməmişdir. Ancaq bununla belə, bütün qadağalara və məhrumiyyətlərə bamayaraq bu illər ərzində çətinliklə də olsa, F.Nitşe, A.Şopenhauer, F.Kafka, C.Coys, A.Kamyu, G.Lebon kimi dahilərin və mütəfəkkirlərin əsərlərini əldə edərək özünün beyin "süzgəc"indən keçirə bilmişdir. Bundan başqa ilk dəfə məhz o, bolşevizim zamanında Şemerlərin türk olmasını söyləmiş və buna görə təbii ki, ağır mənəvi işgəncələrə və iztirablara məruz tutulmuşdur. Həmin illərdə pantürkizmə meyl edən Əlisa Nicat, sonradan Türk Millətin müasir acınacaqlı, mənən düşmüş, bütün mənəvi dəyərlərdən uzaq olmasını dərk edərək bundan vaz keçmişdir.





Təəssüflər olsun ki, ölkəmizdə elə bir ab-hava yaranıb ki, sanki böyük insanların hamısı eyni bir bölgədən olmalıdır. Bu çox yalnış təfəkkür tərzidir və Əlisa Nicat da bunun canlı sübutudur. Belə ki, öz yaradıcılığı ilə o, bütün bölgəbazlıqdan və bölgəçilikdən, qohumbazlıqdan, tayfabazlıqdan yüksəkdə durmasını sübut edə bilmişdir. Bir insanın toplaya biləcəyi ən böyük mənəvi sərvətlərin dərinliyini və dəyərini toplamaq istedadı nəticəsində müasir Azərbaycan ədəbiyyatının və fəlsəfəsinin fövqündə durması onun böyüklüyünün nişanəsidir.

Onun yaşadığı ölkədə əhalinin 90 faizi demək olar ki, düşünmək və dərk etmək iqtidarında deyil. Günümüzdə sanki hamı düşünmək kimi ağır bir yükün altına girməkdən imtina etmiş durumdadır. Ona görə də bu ölkədə artıq neçə illərdir ki, şüurlara mənən yeni bir şeylər verilməməkdədir. Bunun nəticəsində artıq küçələrimizdə qulağı sırğalı, qırmızı şalvarlı erkəklər və beyni sərçə beyni qədər də işləmək iqtidarında olmayan dişilər peyda olmuşdur. Yalnız o, bütün bu illər ərzində gecə-gündüz yorulmadan çalışmış və demək olar ki, dünyanın bütün fəlsəfi şedevrlərini əxz etmişdir. O, bütün ömrünü kitaba, mütaliəyə və təfəkkürə həsr etmişdir. Xalqının uzunmüddətli yuxuya daldığı zamanlarda o, daim axtarışlarda olmuş, özü üçün nadir nüsxələr tapa bilmişdir. Bütün bunların nəticəsində günümzdə sakit və firavan həyat tərzi keçirir. Bütün günü çayxanalarda vaxtını öldürən xalqından fərqli olaraq, o, camaat arasında az olur, küçədə görünmür və demək

olar ki, gözəgörünmədən yaşayır. İllər ərzində mütaliə etməsi onu insanlardan uzaqlaşdırmışdır. Uzun illərdən sonra, yəni indi insanların arasına girsə belə, bir nəticə verməyəcəkdi. Çünki o, özünün təfəkkür, savad, zəka və yaşam tərzi ilə artıq ölkə insanlarından çox uzaqlardadır. Ə.Nicat, dərin təfəkkürü və təbii zəkası sayəsində demək olar ki, xalqını və ətrafındakı insanları bir neçə yüz il qabaqlamış durumdadır. Bütün bunları anladığından mümkün qədər insan gözündən uzaq bir yerdə yaşamağa çalışan Əlisa Nicat, demək olar ki, evdən çölə (yaradıcılıq işləri əlaqədar çıxması istisna olmaqla) çıxmır.

Təbiət çox az sayda insana sağlam düşüncə və təbii zəka bəxş edir. Belələrindən biri də məhz Əlisa Nicatdır. Belə ki, hələ sovet dövründə heç kimin maraqlanmadığı və heç kimin tanımadığı filosofları, yazıçıları, şairləri, incəsənət nümunələrini toplayaraq öz yaradcılığında onlardan bəhrələnməsi sayəsində böyük və dərin fəlsəfi əsərlər yarada bilmişdir. Ə.Nicat hələ gənc yaşlarından etibarən Nitşe, Şopenhauer, Kafka, Lebon, Veyninger,Qobino kimi nəhənglərin əsərləri ilə tanış olması nəticəsində onda dərin təfəkkür və hadisələrin mahiyyətinə varmaq qabiliyyəti aşılamışdır.

Əlisa Nicat, əldə etdiyi mənəvi sərvətlərin hamısını özünün zəka süzgəcindən keçirərək görüb-bildikləri ilə vəhdətdə yeni özünəməxsus bədii fəlsəfi formada - şer, hekayə, povest, roman, pritça, esse və publisistika və başqa formalarda böyük bir irs halında meydana qoymuşdur.

Günümüzdə Əlisa Nicat demək olar ki, firavan həyat yaşamaqdadır. Onun bu vəziyyətini görənlər və ona yaxşı bələd olmayanlar elə düşünürlər ki, həyatda onun bəxti gətirib. Ancaq əslində heç də belə deyildir. Yəni, həyatının heç bir dönəmində onun bəxti filan gətirməmişdir. Həyatının bəzi dönəmlərində Tanrıdan da küsən bu adam, çox keçməkeşli və mərhumiyyətli bir həyat tərzi keçirmişdir. Yaşadığı ölkədə





despotizm hakim olduğundan, o, uzun müddət yaradıcılıqla məşğul ola bilməmişdir. O, hələ gənclik illərindən özünə bir yol bəlirləmiş və bütün mərumiyyətlərə baxmayaraq bundan sonra daim bu yolla inamla getmişdir. Yol boyu o, bir çox kimsələrə də rast gəlmişdir. Hansı ki, bu kəslər də ondan əvvəl bu yolla getməyə qərar vermiş, lakin yolun müəyyən bir hissəsini qət etdikdən sonra yorularaq oturmuşdular. Onların artıq nə getməyə amanları var idi, nə də istəkləri. Çətinliklər onların gözünü qorxutmuş, var-dövlət hərisliyi onları yarı yolda qalmağa məcbur etmişdi. Bu çətin yol, onları əldən salmışdı. Rast gəldiyi insanlar ona, yolu axıra qədər gedə bilməyəcəyini başa salmağa çalışır, onu bu fikrindən daşındırmaq istəyir, ona vardövlət, şan-şöhrət təklif edirdilər. Bunun müqabilində isə o, bütün bunlara təbəssümlə cavab verir, sakit bir tərzdə sona qədər gedəcəyini bildirirdi. Bu zaman isə ona kinayə ilə gülürdülər. Çünki heç kim bu yolu axıra qədər gedə bilməmişdi. Ondan əvvəl gedənlərin də bir çoxu ya yorulub oturmuş, ya dəli olub çöllərə düşmüş, ya şan-şöhrətə, var-dövlətə aldanaraq yarı yoldan dönmüş, ya da sadəcə olaraq bu yol onları məhv etmişdi.

Bu illər ərzində yaratmış olduğu gözəl, dərin və bənzərsiz əsərlər isə lazımsız kağız parçası kimi bir kənara tullanmışdı. Tapdığı nadir inciləri təmənnasız olaraq xalqına vermək istəsə də, xalqı bu incilərdən imtina etmişdi. Rejim onun xalqının gözlərini kor etdiyindən, xalqı yaxşı ilə pisi ayıra bilməz vəziyyətə düşmüşdü. O, xalqı üçün hər şeyindən keçsə də, xalqı onun üçün heç nədən keçmək fikrinə düşməmişdi. Bütün bunlara baxmayaaq, o, ruhdan düşməmiş, nə vaxtsa zamanının gələcəyinə inanaraq daim gözəl əsərlərini yaratmaqda davam etmişdi. Ancaq çoxları kimi o, da həmin qaranlıq və dözülməz bolşevizm dövründə cəmi bir neçə şerlə və ya romanla xalq şairi və ya yazıçısı ola bilərdi ki, bu da onun həmin illərdə

bütün çətinliklərdən qurtulması demək olardı. Ancaq bundan sonra daim sifarişlə yazıb-yaratmaq lazım gələcəkdi ki, bunu da Əlisa Nicat heç bir zaman bacarmazdı.

Azərbaycan müstəqillik əldə etdikdən sonra bizlərin ən böyük qazancı təbii ki, azad söz oldu. Belə bir zamanda Ə.Nicat artıq azad bir şəkildə düşüncələrini öz oxucuları ilə bölüşə bilər, istədiyi mövzuda əsərlər yarada bilərdi. Necə ki, yaratdı da. Bolşevizm iflasa uğradıqdan sonra onun zamanı gəlmişdi. Söhbətlərinin birində Ə.Nicaın belə bir fraza işlətməsini eşitmişdim: "Düşünürəm ki, SSRİ dönəmində rejimin dağılmasını məndən çox istəyən ola bilməzdi. Və mənə elə gəlir ki, Tanrı bu "millətlər həbsxana"sını mənə görə dağıtdı". Onun zamanının gəldiyi üçün, cəmiyyətdə ona ehtiyac olduğu üçün artıq firavan yaşamağa başlamışdı. Ölkəsində hamı onun bəxtinin gətirməsindən danışırdı. Bütün danışılanlara cavab verməyən bu adam ömrünün sakit və firavan dövrünü yaşamaqda davam edir. O, eyni zamanda hamının ona qibtə etdiyini bilir. Dərin düşüncəsi, zəkası, mənitqi və ağlı sayəsində o, günümüzdə yaradıcılığının pik nöqtəsinə çatmışdır. Uzun illərdən sonra nəhayət ki, indi hamı ona tərəf can atır, hamı onun yanında olmaqdan qürur duyur. Ancaq artıq gec idi. Çünki o, ona tərəf gələnlərdən çox uzaqda və əlçatmaz yerlərdə idi.

Ölkəsində onu sevməyənlər və ona nifrət edənlər də az deyildir. Ona nifrət edənlərin bir qismi bu nifrəti paxıllıqdan, bir qismi isə onun kimi ola bilməməkdən dolayı etməkdədir. Əlisa Nicat günümüzdə ətrafına yığılan çoxlu sayda gəncin ondan nə isə öyrənməsinə qətiyyən mane olmur ki, bu da onu digər öndə gedənlərimizdən kəskin şəkildə fərqləndirməkdədir. Çünki belələrinin əksəriyyəti "burda mənəm, Bağdadda kor xəlifə" düşüncəsi ilə yaşamaqdadırlar. O, gənclərin ona ünvanladığı saysız-hesabsız suallara həmişə gülümsəyərək aramla cavab verir. Bunun canlı şahidlərindən biri də məhz bəndənizdir.





Özünün söylədiyinə görə bütün bildiklərini və uzun illər ərzində topladığı inciləri indi bir neçə gənclə paylaşmaq ona başqa ləzzət verir. Təbii ki, bu ləzzəti isə onun özündən başqa heç kim dada və duya bilməz.

Uzun illərin mütaliəsi, təcrübəsi və təfəkkürü onda sağlam düşüncə, dərin zəka, gözəl məntiq və düşünülmüş addım atmaq istedadı formalaşdırmışdır. Buna görə də onun heç kimə və heç nəyə, hətta bəxtə də ehtiyacı yoxdur.

Yaşının çoxluğuna və yorğun olmasına baxmayaraq, o, dayanmadan irəliləyir, yəni yazıb-yaratmaqda davam etməkdədir. Hər atdığı addım onu məqsədinə bir az da yaxınlaşdırır. Bu yolda sonadək getmək üçün o, dünyada olan hər şeydən imtina etmişdi. Ancaq, o da bir çoxları kimi çox asanlıqla var-dövlət sahibi ola bilər, ondan da asan bir yolla şan-şöhrətə çata bilərdi. Bütün bunlardan imtina etdiyinə görə çoxları onu başa düşmürdü. Bütün həyatı boyu qoruyub saxladığı yeganə şey isə təmiz adı idi.

Əlisa Nicat, getdiyi bu yolda hərdən oturub dincini də alır. Bu qədər düşünməsinin və bu qədər əzab-əziyyətə nədən qatlanmasının səbəbini isə özündən və onu anlayan bir neçə adamdan başqa heç kim bilmir. Çatdığı hər yerdə öz fikirlərini təbliğ edir, insanları işığa səsləyir. Bütün olduğu yerlərə əsərlərini daşıyır, xalqına zülmətdən qurtarma üçün bu əsərlərin öyrənilməsinin vacibliyini başa salmağa çalışır. Onun bütün səylərinə baxmayaraq, yaradılmış şərait xalqının onu başa düşməsinə mane olur.

Onun getdiyi yol isə qurtarmaq bilmir, o, isə yorulmaq bilmir. Elə-hey baş alıb gedir. Gecənin qaranlığında, səhərin istisində, qışın soyuğunda bu yolla getməkdədir. Sanki hansısa gizli, İlahi bir qüvvə dayanmağı ona qadağan edib. Əlisa Nicat artıq ömrünün qürub çağını yaşamaqdadır və yaşı ötməkdədir. Yaşı ötdükcə getdiyi yol da tədricən daralmaqdadır. Ancaq

o, bu əyri-üyrü və artıq daralmış yolla irəliləməkdən yorulmaq bilmir. Onu anlamasalar da, ona gülsələr də, nifrət etsələr də gedir. Getdiyi bu yol o qədər daralmışdı ki, artıq kənarlardan divarlar onu sıxmağa başlamışdı. Ancaq o, yorulmadan bu divarları külüngləyib özünə yol açmaqdadır.

Bir sözlə o, xalqı üçün bir intibahdır.

Onun getdiyi bu yolun çətinlikləri və qazandığı uğurlar isə onu yarımtanrı etmişdi.

Əlisa Nicatın yazmış olduğu əsərlərinə misal olaraq "Qızılbaşlar", "Gəncəli müdrik", "Qızıl fəlsəfə", "Müdriklik məbədi" "Dünya filosofları", "Dünya sərkərdələri", "100 böyük azərbaycanlı", "Sarsılmaz Mircəfər", "Ruhların söhbəti", "Qəbilə başçısı", "Mələklər və iblislər", Bülbül və gül", "Karvan" və "Ehram"ı göstərmək olar. Bundan başqa Əlisa Nicat dünya fəlsəfəsinin və ədəbiyyatının şedevrləri hesab edilən bir çox əsərləri də dilimzə tərcümə etmişdir. Məsələn, F.Nitşenin "Zərdüşt belə dedi", A.Kamyunun "Yad", C.Coysun "Dublinlilər". Bütün bunlarla yanaşı o, Platon, Aristotel, Kant və başqalarının əsərlərindən müəyyən hissələri tərcümə etmiş və onlara şərhlər yazmışdır.

Əlisa Nicat 1999-cu ildə Azərbaycan Elmlər Akademiyasının fəlsəfə və hüquq institutunun elmi şurası tərəfindən fəxri fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülmüşdür.

Böyük Türk olan Əlisa Nicat haqda yazının sonuna gəldikdən sonra onun şer və aforizmlərindən bəzi nümunələri sizlərin diqqətinə çatdırmağı özümüzə borc bilirik:

*"Ədalət qılıncı tez kütləşir"*
*"Üzün ehtiyat rəngi qırmızıdır"*
*"Kişi üçün pulsuzluq axtalanma kimi bir şeydir"*
*"Adilər qocalanda key, dahilər isə korifey olur"*
*"Ağlın milləti olmur"*





*"Düşmən dostdan səmimidir"*
*"Xeyirxahlıq fərdi, xəbislik kütləvidir"*
*"Kitablar faydasız olanda millət xammal olur"*
*"Kütlə fərdlərə dönə bilər, sürü isə yox"*
*"Bazar milli əxlaqın güzgüsüdür"*

* * * * * * *

*Ey İsgəndər, ey Attila, ey Sezar,*
*Hökm etməkdən gör necə tez doydunuz,*
*Necə oldu, hanı sizin nəsliniz?*
*Gör dünyanı kimlər üçün qoydunuz...*

*Gündüz günə, axşam aya baxıram*
*Göy dənizə, şır-şır çaya baxıram*
*HƏYAT adlı bir amansız oyuna,*
*TARİX adlı tamaşaya baxıram.*

* * * * * * *

*Ey uca göylərin tənha sakini,*
*Doğrudan sonsuzmuş sonsuz asiman.*
*Acı tüstü kimi necə boğmayır*
*Səni bu tükənməz üfunət, yalan...*

*Heç bir möcüzə olmur,*
*Yaxşı ki, möcüzə yoxdur,*
*Qəhraman türk xalqını*
*Onun şərqilərini*
*Möcüzə saymasaq əgər*
*Heç bir möcüzə olmur,*
*Olmayacaqmı görən?*

# ANADOLUNUN BÖYÜK TÜRKLƏRİ



## YUNUS ƏMRƏ
*1238 - 1328*

**Gelin ey kardeşlər gelin**
**Bu menzil uzağa benzer**
**Nazar kıldım şu dünyaya**
**Kurulmuş tuzağa benzer.**

**Yunus Əmrə**

Türk xalq şairlərinin mübahisəsiz lideri olan və Türkün İslama baxışını Türk dilinin bütün sadəlik və gözəlliyini ortaya qoyan Yunus Əmrə, insanlığı ilə də böyük insandır. Təxminən 700 ildir ki Türk Milləti tərəfindən dildən-dilə ötürülmüş, bir çox musiqilərə söz olmuş, bəzən isə atalar sözünə çevrilərək dolaşmış Yunus Əmrə, Türk mədəniyyətinin yaranmasında böyük rol oynamış könül insanıdır. Mənbələr, Yunus Əmrənin Anadoluya köç edib gələn boylardan birinə məxsus olmasını göstərirlər. Ancaq dünyaya gəlmə tarixi mübahisəli və müxtəlifdir. Belə ki, bəzi mənbələrdə onun 1238-ci ildə anadan olması göstərilsə də, bu rəqəm o qədər də dəqiq deyildir. Bu böyük şairin anadan olduğu yer və vaxt şübhəli olduğu kimi, vəfat etdiyi yer də mənbələrdə müxtəlif cür göstərilməkdədir. Belə ki, Türkiyənin müxtəlif bölgələrində yaşayan insanlar onun qəbrinin məhz həmin ərazidə olmasını iddia edilməkdədirlər. Sözü gedən yerlərin hamısında Yunus Əmrəyə aid

olması iddia edilən türbələr vardır. Bu kimi yerlərə misal olaraq Əskişəhər, Bursa, Ərzurum, Isparta, Afyon, Ordu, Sivas kimi şəhərləri göstərmək olar. Ancaq son illərdə aparılan tədqiqatlar Yunus Əmrənin məzarının Əskişəhərin Sarıkənd adlanan ərazisində olmasını göstərir. Burada 1970-ci ildə tapılan məzar onun məzarı kimi qəbul edilmiş və burada onun abidəsi ucaldılmırdır.

Yunus Əmrə sadə xalqın içindən çıxdığı üçün şerlərində daim sadə xalq ləhcəsindən istifadə etmişdir. Yunus Əmrə şerlərində əxlaq, hikmət, din, eşq kimi mövzulara toxunmuşdur. Onu digər şairlərdən fərqli edən və onlardan qabağa çıxaran özəlliklərdən biri də, şerlərində işlətmiş olduğu mövzuları şəxsi həyatında tətbiq etməsidir. Yunus Əmrə eyni zamanda bütün insanlığa xitab etmiş olan şairlərdəndir. Bu mənada o, Mövlanaya bənzəməkdədir. Onun Mövlana kimi məşhurlaşmamasının səbəbi isə, şerlərində işlətmiş olduğu Türk dilinin qərb bölgələrində fars dili qədər bilinməməsi və məşhur olmaması ilə əlaqədardır. Bu məsələdə o zamankı sarayın da təbii ki, müəyyən günahları vardır. Ümumiyyətlə isə Türk hökmdarlarının əksəriyyəti nədənsə çox hallarda fars dilinin sehri altında qalmış və bu səbəbdən də onların zamanında yazılmış olan böyük əsərlərin hamısı fars dilində yazılmışdır. Bu isə başa düşülən deyil. Türk dilini dövlət dili elan etmək üçün isə ya Şah İsmayıl, ya da Əmir Teymur olmaq lazımdır ki, bunlar da yüzilliklər ərzində Tanrı payı olaraq bir dəfə verilir.

Yunus Əmrənin yaradıcılığında insan sevgisi her şeyin önündə gəlməkdədir. Belə ki, şairə görə bütün insanların, din, məzhəb, irq, millət, rəng, mövqe, sinif fərqinə baxılmadan sevilməyə layiqdir. Madam insan ruh yönü ilə Allahdan gəlməkdədir, elə isə insanlar heç bir şəkildə bir-birlərindən ayrılmamalıdırlar. Yunus Əmrənin yaşadığı dövrə nəzər saldığımız zaman onun digər bir önəmli xüsusiyyəti də ortaya





çıxmış olur. Belə ki, o zamanlar Anadoluda bir hakimiyyətsizlik hökm sürür, şərqdə isə tatar-monqol qoşunları qarşılarına çıxan bütün ölkələri istila etməkdə idilər. Təbii ki, belə bir zamanda yaranmış boşluqdan istifadə edən İslam düşmənləri bir çox batil inanclar ortaya çıxarmışdılar. Yunus Əmrə isə öz növbəsində heç bir batil təriqətə baş qoşmamış və hətta, şerlərində bütün bunların Türk Millətinin bütövlüyünə və birliyinə ziyan gətirəcəyini bildirmişdir. Bununla da o, öz yaradıcılığı vasitəsilə ətrafındakı insanların imanının qorunub saxlanılmasında əhəmiyyətli rol oynamışdır. Bu baxımdan Yunus Əmrə, həm türk şerinin qurucusu, həm də milli birliyin qoruyucularından hesab edilməkdədir.

## MÖVLANA CƏLALƏDDİN RUMİ
***1207 - 1273***

*Gəl, yenə gəl,*
*Nə olursan ol,*
*İstər kafir ol, istər məcusi*
*İstər yüz kərə tövbə etmiş ol,*
*Ümidsizlik qapısı deyil bu qapı*
*Yüz kərə tövbəni pozmuş olsan yenə gəl!*
*Mövlana Cəlaləddin Rumi*

*"Maddiyyat aləminin günəşi çıxanda, mənəviyyat aləminin günəşi batır"*

*Şəms Təbrizi*

Böyük türk mütəfəkkiri, din adamı və şairi. Cəlaləddin Rumi 1207-ci ilin 30 sentyabrında Xorasan vilayətinin Bəlx şəhərində dünyaya gəlib. Atası, "Sultanul-Üləma" (alimlərin sultanı) adı ilə tanınmış olan Bəhaəddin Vələd, anası isə Bəlxin əmiri olan Rüknəddinin qızı Mominə Xatundur. Dövrün siyasi mənzərəsi tez-tez dəyişdiyəndən, xüsusilə də, Çingiz Xan ordularının ard-arda ətraf ölkələri zəbt etməsindən dolayı, Bəhaəddin Vələd, Bəlx şəhərindən köç etmək məcburiyyətində qalmışdır. Beləliklə də 1212-1213-cü illərdə ailə və bu ailənin yaxın dostları doğma diyarı tərk etmişlər.





Onların ilk dayanacağı isə Nişapur şəhəri olmuşdur. Burada Mövlananın atası zamanının tanınmış din adamı və alimi olan Fərudiddin Əttar ilə tanış olmuşdur. Dövrünün tanınmış alimi, hələ uşaq yaşlarında olan Cəlaləddinin böyük alim olacağını ilk gördüyü andan anlamışdır. Mövlananın ailəsi bir müddət sonra Nişapurdan Bağdada doğru, oradan da Kufə yolu ilə Məkkəyə hərəkət etmişdir. Ailə Həcc ziyarətini yerinə yetirdikdən sonra Sivas və Kayseri yolu ilə hərəkət edərək Karamana yerləşmişdir.

1222-ci ildə Karamana gələn Cəlaləddin və ailəsi burada yeddi il yaşamışdır. Mövlana Cəlaləddin Rumi burada Şərəfəddin Lalanın qızı Gövhər Xatun ilə ailə həyatı qurmuşdur. Bu izdivacdan Mövlananın Sultan Vələd və Əlaəddin Çələbi adında iki oğlu dünyaya gəlmişdir. Bir neçə ildən sonra Gövhər Xatun dünyadan köçüncə isə Mövlana, dul bir qadın olan Kərra Xatun ilə ailə qurmuşdur. Bu evlilikdən isə onların Müzəfərəddin və Əmir Alim Çələbi adında iki oğlu, Məleykə Xatun adlı qızı dünyaya gəlmişdir.

Onun dövründə Anadolu ərazisi Səlcuplu İmperiyasının tərkib hissəsi idi və bu ölkənin paytaxtı da Konya şəhəri idi. Səlcuqlu hökmdarı olan Əlaəddin Keyqubadın hakimiyyət illərinə təsadüf edən bu dövr Səlcuqlunun qızıl dövrlərindən hesab edilir. Dövlətin paytaxtı olan Konya şəhəri o zamanlar elm və sənət mərkəzinə çevrilmişdi ki, bu da şəhərə çoxlu sayda elm adamının toplaşmasına səbəb olmuşdu. Sultan Əlaəddin Keyqubad, Sultanül-Üləma olan Bəhaəddin Vələdi, Karamandan Konyaya dəvət etmişdir. Bu böyük alimin burada rahat yaşaya bilməsi üçün isə hər cür şərait yaratmışdır.

Bəhaəddin Vələd zamanın sultanının dəvətini qəbul etmiş və ailəsi ilə birlikdə 3 may 1228-ci ildə köçüb Konyaya gəlmişdir. Sultan Əlaəddin özü şəxsən bu böyük alimi qarşılamağa gəlmiş və onun bütün ailəsi ilə birlikdə Altunapa (İplikçi) mədrəsəsində yerləşdirmişdir.

Sultanül-Üləma Bəhaəddin Vələd, 12 yanvar 1231-ci ildə vəfat etmişdir. Onun nəşini Səlcuqlu sarayının Gül Baxçasında torpağa tapşırdılar. Atası vəfat etdikdən sonra onun müridləri və tələbələrinin hamısı Cəlaləddinin ətrafına toplaşdırlar. Onlar Cəlaləddini atasının tək varisi kimi qəbul edirdilər. Həqiqətən də Mövlana böyük din alimi olmuş, özünü atasının yanında çox yaxşı yetişdirmişdi. Məhz bu səbəbdən də atasından dərhal sonra xalqa vəəzlər verməyə başlamışdır.

Mövlana Cəlaləddin Rumi, 15 noyabr 1244-cü ildə Təbrizli Şəms ilə qarşılaşmışdır. Bu iki insanın dostluğu və bir-birlərinə qarşı olan Allah sevgisi haqda çoxlu sayda kitablar yazılmışdır. Tədqiqatçılar, o cümlədən də Avropalı tədqiqatçılar hələ də bu iki insanın münasibətlərini araşdırmaqdadırlar. Sözü gedən bu iki insan bir-biri rastlaşdıqdan sonra demək olar ki, ayrılmamışlar. Belə ki, Mövlana Şəmsdə "mütləq kamalın varlığını" şəmsin üzündə isə "Tanrı nurlarını" görmüşdü. Ancaq onların dostluğunu və bir-birinə qarşı olan sevgisindən sui-istifadə edib bəzi söz-söhbət yayanlar da olmuşdur. Çünki Mövlana zamanının böyük din adamı, Şəms Təbrizi isə sadə bir dərviş idi ki, bu iki insanın da sevgisi yalnış anlaşılmışdı. Hətta deyilənlərə görə Mövlana, Şəms Təbriziyə o dərəcədə bağlanıbmış ki, ailə və uşaqları da yadından çıxıbmış. Məsələn, Şəmslə görüşünə kimi ancaq din adamı olan Mövlana onunla görüşdükdən sonra şerlər yazmağa başlamışdır. Ona görə də demək olar ki, bütün Konya şəhəri, o cümlədən də Mövlananın ailəsi Şəmsi qısqanmağa başlamışdır. Bu kimi səbəblərdən dolayı qısa zamanda Konyada Şəmsin çoxlu sayda düşmənləri peyda olmuşdur. Ortaya çıxmış olan söz-söhbət və narazılıqlardan dolayı, Şəms bir ara Konyadan getmişdir. Bu ayrılıqdan sonra səhhətində ciddi problemlər yaşayan Mövlananın böyük oğlu Vələd yeddi nəfər dostu ilə birlikdə Şəmsi, Şam şəhərində yenidən axtarıb tapmış və onu yenidən





Konyaya qayıtmağa razı sala bilmişdilər. Ancaq bu iki insanın dostluğu və bir-birinə qarşı olan sevgiləri uzun sürməmişdir. Belə ki, Şəms Təbrizi 1247-ci ildə qəfil vəfat etmişdir. Bəzi tədqiqatçılar onu Mövlananı qısqanan insanlar tərəfindən öldürüldüyünü yazırlar. Hətta deyilənlərə görə Şəmsi öldürənlərin arasında Mövlananın ikinci oğlu Əlaəddin da olubmuş. Əlaəddin Şəmsi öldürən yeddi nəfərlik dəstəyə rəhbərlik edibmiş. Şəmsi öldürdükdən sonra onu bir su quyusuna atırlar. Daha sonra Mövlana oğlundan şübhələnsə də oğlu işləmiş olduğu cinayti boynuna almayıb. Digər bir rəvayətə görə isə Şəms Təbrizi öz istəyi ilə Konyadan birdəfəlik getmişdir.

Mövlana Cəlaləddin Rumi, Şəmsin vəfatından sonra uzun bir zaman tənhalığa çəkilmişdir. Daha sonrakı illərdə isə Səlahəddin Zərqubi və Hüsaməddin Çələbi adlı iki müridi Şəmsin yerini doldurmağa çalışmışlar. Şəmsin vəfatından sonra çox ciddi bir mənəvi zərbə alan Mövlana, özünün sonrakı həyatını şerə, musiqiyə və səma rəqsinə (bu təriqət sahiblərinin dövrə vurararq etdikləri rəqs) həsr etmişdir.

Həyatının sonuna qədər Mövlana, Şəmsin vəfatına inanmaq istəməmişdir. Daim Şəmsin həsrəti ilə yaşayan bu böyük alim, bu həsrətini "Divani-Kəbir" adı daşıyan əsərində dilə gətirmişdir. Sonrakı illərdə Cəlaləddin Rumi, Şəmsdə tapdığı İlahi Eşqi, Səlahəddin Zərqubidə tapmışdır.

Mövlananın Şəmsdən sonra ən böyük sirdaşlarından biri də Hüsaməddin Çələbi olmuşdur. Mövlana məhz onun təsiri altında 25 618 beytdən ibarət olan məşhur altı cildlik "Məsnəvi"sini yazmışdır. İlahi Eşqə aid olan bu şerlərdən ibarət kitabın böyük bir hissəsini də Çələbiyə diqtə etmişdir.

Mövlana Cəlaləddin rumi 1273-cü ildə qəfil şiddətli qızdırma xəstəliyinə tutularaq yatağa düşmüşdür. Zamanın Səlcuqlu sultanı, sarayın ən məşhur həkimi olan Qəzafəri ona baxmaq və sağaltmaq üçün vəzifələndirmişdir. Xəstəliyi zama-

nında daim ətrafında olan ən yaxın insanları durmadan soyuq su ilə əllərini və ayaqlarını yusalar da bu böyük alimin temprat urunu salmaq mümkün olmayıb. Nəhayət 1273-cü il 17 dekabrda Bu Böyük türk vəfat edir. Mövlananın vəfatını eşidən bütün Konya yasa batır. Onun cənazəsi minlərlə insanın müşayəti altında torpağa tapşırılır. Qəbri hazırda Konya şəhərindədir. Onun vəfatından sonra Mövlanaya inananlar, onun dini və fəlsəfi görüşlərinin təsiri altında Mevləvi Təriqətini yaratmışlar. Əsasını musiqi və rəqs təşkil edən bu təriqətin mərkəz şəhəri də Konya oldu. Təriqət dini fərq qoymadan bütün insanlığa xitab etdiyindən dolayı, sözü gedən təriqətdə bütün dinlərə mənsub insanlara rast gəlmək olar.





## OSMAN QAZİ
***1258 - 1326***

600 il yaşaya bilən bir dövlətin qurucusu. Adını yaratmış olduğu dövlətə verən bu insanın qurduğu dövlət həqiqətən də bir möcüzədir. Süqut olmaqdan güclə canını qurtaran bu dövlət, getdikcə gücləndi və dünyanın ən güclü dövlətlərindən birinə çevrilə bildi. Osmanlının ilk olaraq yaranmasından sonrakı dövlət idarəçilərinin demək olar ki, hamısı həddən artıq enerjili və yüksək sərkərdəlik qabiliyyətinə malik insanlar idilər. Osman Qazidən sonra, Orxan Qazi, Murad Xudavəndigar, İldırım Bəyazid, Mehmet Çələbi, İkinci Murad, Fateh Mehmet, Bəyazidi Vəli, Yavuz Səlim və Qanuni Süleyman gəldilər. Məhz bu on insanın gücü və uzaqgörənliyi sayəsində Osmanlı Dövləti 624 il yaşaya bilmişdir. Bu dövlətin varlığı dönəmində türk milləti fəthlərlə yanaşı, dəyərli sənət əsərləri və abidələr də yaratmışdır.

Osman Qazi 1258-ci ildə Sögüt adlanan ərazidə dünyaya gəlmişdir. Anasının adı Haymə, atasının adı Ərtuğrul Qazi, babasının adı Süleyman şahdır. Osmanın əsil adı Otmandır. "Ot" kəlməsi qədim türk dilində "atəş adam" mənasını verməkdədir. Osman Qazi, Oğuzların Bozox qoluna mənsubdur. Oğuzlar toplum halında İslam dinini qəbul etdikdən sonra türkmən adını alıblar.

Orta Asiyadan Anadolu ərazisinə köç edib gələn oğuzlar, türklüyün bütün məziyyətlərini qoruyub saxlaya bilmişdilər. Belə ki, bu millətin daim başında yer alan dünya hökmranlığı fikri, heç bir zaman sönməmişdir. Bu səbəbdəndir ki, daim axınlar təşkil edərək, bötöv qitələri və dövlətləri özlərinə tabe etmişlər.

Osman Qazi, elə dünyaya gəldiyi yerdə böyümüşdür. Burada o, atası ilə birlikdə bir çox döyüşlərdə iştirak etmişdir. O, böyük bir dövlət adamı olması ilə yanaşı, eyni zamanda həm də bir şair olub. Osman Qazi, Əskişəhər yaxınlığında yaşayan Şeyx Ədəbalının Balahun adlı qızı ilə ailə həyatı qurmuşdur. Düzdür, əvvəlcə Şeyx qızını Osmana verməkdən qəti olaraq imtina etmişdir, ancaq sonradan Osman Qazi bir yuxu görmüş, yuxunu yozması üçün şeyxə danışdıqda, şeyx yuxudan heyrətə gəlmiş və qızını Osmana vermişdir. Osman Qazinin yuxusunun yozumuna görə isə ona və onun nəslindən gələnlərin hamısına sultanıq veriləcəkdir ki, bu sultanlığın da ömrü uzun olacaq və böyük əraziləri öz hakimiyyəti altına alacaqdı. Ancaq Osman Qazinin birinci xanımı Türkmən bəylərindən olan Ömər bəyin qızı Malxatundur. Malxatun Osman Qazinin oğlu Orxan Qazinin anasıdır. Osman Qazinin atası Ərtuğrul Qazi vəfat etdikdən sonra Osman onun yerinə keçmişdir.

Bundan sonra o, da atası kimi Bizansla müharibələri davam etdirmişdir. Bu zaman Bizans hökuməti Osman Qazini ortadan götürmək qərarını verirlər və bunu hərb yolu ilə deyil, hiylə yolu ilə etməyi planlaşdırırlar. Belə ki, Osman Qazini bir toy məclisinə dəvət edib orada öldürmək qərarını verirlər. Ancaq, Osman Qazi bu hiylədən xəbər tutur. Toy məclisinə özü ilə bərabər müxtəlif geyimlərdə qırx döyüşçü də aparır. Həlledici an gəldikdə Osmaq Qazi və adamları yunanları öldürərək, gəlini də özləri birlikdə ilə gətirirlər.

Bu qısa və amansız döyüşdə Osman Qazinin oğlu, Orxan Qazi özünü ən yaxşı tərəfdən göstərmişdir. Bunun əvəzində isə atası, əsir götürülmüş gəlin olan Xolofitanı qılınc haqqı olaraq oğluna vermişdir. Bəzi mənbələr sözü gedən xanımın adını Nilufər kimi göstərsələr də, əslində Nilufər bir türkmən qızıdır və Orxan Qazinin birinci xanımıdır. Nilufər Xatun, Süleyman paşa ilə Murad Xudavəndigarın anasıdır. Bu dönəmdə artıq





Səlcuqlu dövləti tamamən sarsılmış və zifləmiş durumda idi. Onların həyatı tatar-monqol Elxanilərin əlində oyuncağa çevrilmişdi. Təbii ki, belə bir vəziyyətdə Anadoludakı türklərin köhnədən var olan birliyi pozulmuşdu.

Osman Qazi isə atasından qalma işləri davam etdirməkdə idi. O, daim Bizansla müharibələr aparır, bəyliyinin ərazisini genişləndirməklə məşğul olurdu. Bunu görən Səlcuqlu sultanı II Qiyasəddin Məsud, ona bir fərman göndərir. Osman Qazi sözü gedən fərmanı bütün silahdaşlarının yanında oxudu və yenidən Bizansla müharibələrə girişərək bəzi bölgələri Bizansın əlindən ala bildi. Onun bütün qələbələri, bacarığı, idarəetmə dühası yaxınlıqda olanların hamısını heyrətə düşürmüşdü. Vəziyyətin belə olduğunu gördükdə Anadolunun bir çox bəyləri və ağsaqqalları bir yerə toplaşaraq Osman Qazini müstəqil xan elan etdilər. Onlar bu sözlərini həm də bəyliyin sahibinin məhz onun nəsli olması ilə əsaslandırdılar. Bundan sonra isə bütün bəylər, ağsaqqallar və böyük din adamları ona sadiq olacaqlarına and içdilər.

Bu hadisədən sonra 1299-cu ildə Osman Qazi müstəqillik elan etdi. Beləliklə də dünyanın ən böyük imperiyalarından olan Osmanlı Dövləti qurulmuş oldu. Dövlətə paytaxt olaraq Qararacahisar uyğun görüldü. Osman Qazi müstəqillik elan etdiyi zaman onun hakimiyyəti altında aşağıdakı ərazilər var idi: Qaracahisar, Qaracadağ, Domaniç, Sögüt, Əskişəhər, Biləcik, İnəgöl, Yarhisar, Çakırpınar, Taraqlı Yenicəsi, İnönü, Köprühisar və Bozöyük. Osman Qazi hakimiyyətinin üçüncü ilndə Yenişəhər və Yurthisarı da öz torpaqlarına qatmışdır. Bundan sonra isə ölkənin paytaxtı Yenişəhərə köçürülmüşdür. Osman Qazi ona tabe olan torpaqları beş hissəyə böldü. Bu beş hissənin idarəetməsini oğulları, qardaşı və qaynatası arasında bölüşdürdü. Osman Qazi öz hakimiyyəti dönəmində daim müharibələr etmiş və ildən-ilə öz torpaqlarını genişləndirmişdir.

O, durmadan Anadolu şəhərlərini Bizansın əlindən almaqda idi. Bu məqsədlə oğlu Orxanı, Bursa şəhərini fəth etmək üçün göndərmişdi. Bursa şəhəri Orxan Qazinin rəhbərlik etdiyi ordu tərəfindən 1326-cı ildə fəth edildi.

Bu illərdə Osman Qazi ağır xəstəlik keçirirdi və yatağından demək olar ki, qalxmırdı. Bursanın fəthindən sonra yaxın dostlarının iştirakı ilə oğlu Orxanı yanına çağırdı və yanındakılara belə dedi: "Daim savaşa davam edin. Cihadın ən yaxşısını edin və bayrağımızı daim ən yüksəkdə tutun". Osman Qazi dövləti onunla çiyin-çiyinə quran insanlara və oğlanlarına son sözünü dedikdən sonra vəfat edincə, Bursada dəfn edilməsini vəsiyyət etmişdir. Türk Dünyasının böyük dövlət qurucularından biri olan Osman Qazi 1326-cı ildə 69 yaşında vəfat etmişdir. O, dövlət başında iyirmi yeddi il keçirmişdir.





## FATEH SULTAN MEHMET
### *1430 - 1481*

***"İmkanın sərhədlərini görmək üçün, mümkünsüzü etməyi yoxlamaq lazımdır"***

**Fateh Sultan Mehmet**

Osmanlı sultanlarından yeddincisi və İstanbul fatehi. Təkcə İstanbul fatehi olması yəqin ki, onu Böyük Türklərin sırasına daxil olması üçün yetərli olardı. Məhz onun sultanlığı zamanında Osmanlı Dövləti böyük bir imperiyaya çevrilmişdir. Fateh Sultan Mehmet 1430-cu ildə dünyaya gəlmişdir. Atası II Murad, babası Şələbi Sultan Mehmetdir. Anasının kimliyi haqda iki müxtəlif fərziyyə vardır. Belə ki, bir mənbə anasının serb qadını, ikinci mənbə isə anasının Zülqədir oğulları nəzlindən olan Alimə Xatun adlı bir türk qadını olmasını söyləməkdədir. Atası hələ sağlığında Mehmedi iki dəfə taxta çıxarmış, özü isə Manisaya istirahətə çəkilmişdi. İlk dəfə taxta çıxması 1444-cü ilətəsadüf edir ki, bu zaman da Fateh Sultan Mehmedin cəmi on dörd yaşı olmuşdur. Osmanlı taxtında bir uşağın oturmasından faydalanmaq istəyən xristian dünyası Osmanlı üzərinə yürüş etdi və bu dövlətin sərhədlərini keçməyə nail oldular. Bundan sonra II Murad yenidən taxta çıxmağa məcbr olmuş və xristian ordusunu Varna müharibəsi adı ilə tarixə düşən döyüşdə məğlub edərək geri oturtmuşdur. Bundan sonra Fateh Sultan Mehmet ikinci dəfə bir il sonra yenidən

sultan elan edildi və yenə də yaşının azlığı ucbatından taxtan endirilərək Manisa valisi təyin edilmişdir.

Atası II Muradın 1451-ci ildə vəfat etməsi üzərinə Manisadan birbaşa Ədirnəyə gələrək taxta çıxmışdır. Deyilənlərə görə Fateh Sultan Mehmedin Manisa valiliyi dönəmində bütün vaxtını oxumaqla keçirmişdir. Onun ərəb, fars, yunan və yəhudi dillərini bilməsi söylənməkdədir. Sultan olduqdan sonra vaxtilə ikinci dəfə sultan olduğu zaman Manisaya göndərilməsinin əsas səbəbkarı olan Sədriəzəm (vəzir) Çandarlı Xəlil paşanı bütün incikliklərə rəğmən vəzifəsində saxlamışdır. Fateh Sultan Mehmet bu arada Qaramanoğlu İbrahimin rəhbərliyi ilə qalxmış üsyanı yatırtdı. Bundan sonra isə İstanbulun fəthi ilə məşğul olmağa başladı. Bunun üçün isə ilk olaraq Boğaz içində, hazırda Rumelihisarı adlanan yerdə Boğazkəsən qalasını inşa etdirdi. Bizansın uzun illər bütün mühasirələrə baxmayaraq davam gətirmiş olduğu qala divarlarını yıxa bilmək üçün böyük toplar düzəltdirməyə başladı.

Bütün hazırlıqlar tamamlanınca İstanbul üzərinə yürüş başlandı. Türk ordusunun qərargahı 1453-cü ilin 6 aprelində Əyriqapı yaxınlığında quruldu. Osmanlı ordusunda irili-xırdalı on dörd top var idi. Bunlardan ən böyük üç top isə indiki Topqapı adlanan ərazidə qurulmuşdu. Dəniz qüvvətlərinə isə Baltaoğlu Süleyman bəy komandanlıq edirdi. Bizans imperatoru, Boğazkəsən qalası inşa edildiyi gündən İstanbulun müdafiəsinə hazırlıqları başlatmışdı. Bu zaman Bizansın əmrində kiçik bir ordu var idi, ancaq onların yardımına genuyalılar, venesiyalılar və almanlar gəlincə, qüvvələri əhəmiyyətli dərəcədə artdı. Xüsusən də topların idarəsini Bizans tərəfindən almanlar yerinə yetirirdilər. Dənizdə indi Qalata körpüsü adlanan ərazi zəncirlərlə bağlanaraq, türk gəmilərinin irəliləməsinin qarşısını alırdı. Fatehin Ədirnədən gətirdiyi böyük toplardan biri işlədildiyi zaman partladı və macar mühəndis Orban həlak oldu.





Baltaoğlunun rəhbərliyi altında olan donanma da bir iş görə bilmədi. 20 apreldə Genuya gəmiləri ilə üz-üzə gələn Osmanlı donanması, küləyin də düşmənə yardım etməsindən dolayı demək olar ki, məğlub oldu. Bu döyüşdə Baltaoğlu böyük fədakarlıqlar və qəhramanlıqlar göstərmişdir. O, hətta bir gözünü də döyüşdə itirmişdir. Bütün bunlara baxmayaraq, donanma rəhbərliyindən alınmış və yerinə Həmzə bəy təyin edilmişdir.

Bu zaman söylənilənlərə görə Xəlil paşa, yunanlardan rüşvət almış və sultandan mühasirəni qaldırmağı istəmişdir. Ancaq Fateh Sultan Mehmet qətiyyən ona qulaq asmamışdır. Uğur qazana bilməməklərinə baxmayaraq, Mehmet dövlətin əsəs fiqurları ilə müzakirələr etdi və sonunda mühasirənin davamına qərar verildi. Bundan sonra isə Fateh Sultan Mehmetin tarixdə analoqu olmayan bir planı işə düşmüşdür ki, bu da sonunda İstanbulun fəthi ilə nəticələnmişdir. Belə ki, sultanın əmri ilə Osmanlı gəmiləri qurudan keçirilərək, Bizans mövqelərinə yaxınlaşdırılmışdır. Nəhayət 53 gün sürən mühasirədən sonra türk əsgərləri 29 may 1453-cü ildə Topqapı və Əyriqapı yaxınlığından İstanbula girə bilmişlər.

Fateh Sultan Mehmet İstanbulu aldıqdan sonra təxminən iyirmi gün müddətində bu şəhərdə qalmışdır. Ədirnəyə döndüyü zaman vəziri Xəlil paşanı öldürtmüş və yerinə yalnız bir ildən sonra Mahmud paşanı təyin etmişdir. 23 yaşında İstanbulu almış olan Fateh, bundan sonra daha 28 il hökmdarlıq etmişdir. Bütün hökmdarlığı dönəmində iki imperiya, on dörd dövlət, iki yüz şəhər alaraq "Fateh" ünvanını almışdır. O, bütün müharibələrdə qələbə qazanmamışdır. Məğlub olduğu döyüşlər də olmuşdur. Belə ki, albaniyalı İsgəndər bəy onu uzun müddət məşğul etmişdir. Fateh Sultan Mehmet 1459-cu ildə Yunanıstan və Serbiyanı, 1462-ci ildə isə Trabzon İmperatorluğunu Osmanlı tərkibinə qatmışdır. Daha iki il sonra isə Bosniya alınmışdır və bu arada Karaman dövlətinin varlığına son qoyuldu. Uzun sürən

müharibələrdən sonra Albaniya da fəth edildi. 1475-ci ildə Əhmədpaşanın rəhbərliyi ilə Krım ələ keçirildi və Osmanlı əyalətlərindən birinə çevrildi. Artiq türk əsgərləri İtaliya və Avstrya ərazisində görünməyə başlamışdılar. Fateh Sultan Mehmet, Rodos adasını da almaq istəsə də buna müvəffəq ola bilmədi və bu kiçik ada, onun nəvəsi Qanuni Süleymana qədər müstəqilliyini qoruya bildi. Mehmet, 1472-ci ildə Otluqbeli adlanan müharibədə Azərbaycan Ağqoyunlu dövlətini də məğlub etmişdir.

1481-ci il 25 apreldə Fateh Sultan Mehmet öz müzəffər ordusu ilə Üsgüdarı keçərək irəliləməyə başladı və Qəbzə yaxınlığında qərargah qurdurdu. İstanbuldan çıxdığı andan bu böyük fatehin səhhətində problemlər başlamışdı ki, səhhəti günü-gündən pisləşməkdə idi. Mehmetin özəl həkimi milliyyətcə yəhudi olan Yaqub paşa (əsil adı Yakob) onu müalicə etmək məqsədilə hər gün bu Böyük Türkə zəhər verirdi. Zəhərin həcmini də günü-gündən artırmaqda idi. Bu sui-qəsd venesiyalıların Fateh Sultan Mehmete qarşı etmiş olduqları on beşinci sui-qəsd idi. Bundan əvvəlki on dörd sui-qəsdin üstü açılmışdı və sultan bu tələdən qurtula bilmişdi. Ancaq sonunda venesiyalılar onun özəl həkimini astronomik qiymətə ələ ala bilmişdilər.

Fateh Sultan Mehmet, 3 may 1481-ci ildə Qəbzədəki qərargahındakı otağında qan qusaraq vəfat etmişdir. Ancaq həkimi Yaqub paşanın hiyləsi dərhal ortaya çıxmış və Venesiyadan alacağı 250 milyonluq sərvəti ala bilmədən Omanlı əsgərləri tərəfindən doğranmışdır.

Böyük Türk olan Fateh Sultan Mehmet öz adına inşa etdirdiyi Fateh məscidinin həyətində dəfn edilmişdir. Bundan başqa, Əyyub və Ayasofya məscidlərini də onun əmri ilə inşa etmişlər. Böyük türk hökmdarı eyni zamanda ədəbiyyatla da məşğul olmuş və Avni təxəllüsü ilə şerlər yazmışdır. Onun 14 qəzəli "Divani-Avni" adı altında 1904-cü ildə Berlin şəhərində nəşr edilmişdir.





## YAVUZ SULTAN SƏLİM
### *1467 - 1520*

Yavuz Sutan Səlim, Osmanlı dövlətinin ən böyük hökmdarlarından biridir. Eyni zamanda o, şair, qüvvətli bir komandan və yüksək səviyyəli dövlət adamı olub. Yavuz Sultan Səlim, II Bəyazidin oğludur. Anasının adı Gülbahar xatundur. Özündən başqa dörd qardaşı da olmuşdur. Bunlar, Qorqud, Əhməd, Mahmud, Aləmşah və Şahənşahdır. Osmanlının bu hökmdarı böyük dövlət adamı kimi türklərdən heç xoşu gəlməyən rusların da bütün ensklopediyalarına salınır.

Yavuz Sultan Səlim 1467-ci ildə Amasiyada anadan olmuşdur. Onun mükəmməl şəkildə yetişməsində anasının böyük xidmətləri olmuşdur. O, dövrünün ən böyük alimlərindən olan Həlim Çələbidən özəl dərslər almışdır. Qardaşların içərisində özünün bacarığı və yüksək qabiliyyəti ilə daim onlardan seçilmişdir. Ədəbiyyata böyük marağı olan Səlimin biri farsca, digəri türkcə olmaqla iki divanı vardır.

Yavuz Sultan Səlim həddən artıq sərt insan olmuşdur. Vəzirlərinin bir qəbahəti olunca heç bir zaman onları bağışlamaz, dərhal boyunlarını vurdururmuş. Xalq ona qəhramanlıqlarından və sərtliyindən dolayı "Yavuz" ləqəbi vermişdir. Xanınmının adı Hafizə Ayşə Sultandır. Süleyman adında bir oğlu da olub. Bütün dünya bu uşağa sonralar Qanuni Sultan Süleyman deyəcəkdi Atası, II Bəyazid, Səlimi Trabzon valisi təyin etmişdi. Oğlu Süleyman da burada dünyaya gəlmişdir. Səlim burada valilik etdiyi zamanlarda, eyni anda dövlətin işlərini də yaxından izləməkdə idi. O zaman Səfəvi dövləti, şiəliyin təbliğatı üçün Osmanlı ərazisinə dərvişlər göndərməkdə idi ki, bu

da Səlim ən şox narahat edən məsələ idi. (Osmanlı qurulduğu andan sünniliyin Hənəfi məzhəbi üzərində qurulmuş və sona qədər də bu məzhəbi qorumuşdur). Bu zamanlar atası çox qocalmışdı və artıq Fateh dövrünün zəfərləri unudulmaqda idi. Bundan başqa dövlətin idarə edilməsində mühüm rol oynayan vəzirlər də yox kimi idi. Bu cür vəziyyətdən narahat olan Səlim, atasına belə bir məktub yazmışdır: "Dövlət işləri ilə məşğul olmaq şübhəsiz ki, çox çətindir. Tanışlıq məqsədilə dövlət vəzifəsinə insan təyin edilməz. Məmləkətimizin hər yerində öz elmi ilə seçilən dəyərli insanlar vardır. Bunlardan bəzilərini Trabzonda vali olarkən sınaqdan keçirdim və gördüm ki, dövlət işlərinə yarayan şəxslərdir. Bunlar özlərini bir az yetişdirsələr hər hansı bir dövlət vəzifəsini onlara tapşırmaq olar. Bu məqsədlə onlardan bəzilərini sizlərə təqdim etməyə cürət edirəm". Fəqət atası artıq dövləti idarə edə bilmirdi. İstanbulda olan bəzi dövlət adamları Şahzadə Əhmədi taxta çıxarmaq istədilər. Bunu eşidən Səlim, dərhal hərəkət keçdi və atasının tərəfdarları ilə döyüşdü.

Sonda rəqiblərinə qalib gələrək 1512-ci ildə Osmanlının doqquzuncu padşahı olaraq taxta çıxmışdır. (Bəzi mənbələr Səlimin, atası Bəyazidi zəhərləməsini və sonra da taxtına rəqib olmasın deyə bütün qardaşlarını öldürtdüyün yazmaqdadırlar). Səlim taxta çıxdığı andan etibarən, siyasətini iki yönə yönəltdi. Birincisi Azərbaycan Səfəvi Dövlətini ortadan qaldıraraq Orta Asiyaya qapı açmaq. İkincisi isə Misiri ələ keçirərək Hind okeanındakı ticarət yollarına sahib olmaq. Onun bir digər məqsədi isə xəlifəliyi ərəblərdən alaraq, o zamanalr sayı üç yüz milyon olan müsəlmanların xəlifəsi olmaq istəyirdi.

Yavuz taxta çıxdığı zaman, Azərbaycan Səfəvi dövlətinin başında başqa Böyük türk olan Şah İsmayıl Səfəvi dururdu. İsmayıl, öz dövlətini şiə məzhəbi üzərində qurmuşdu və şiəliyin yayılması, təbliği üçün əlindən gələn hər şeyi edirdi. Bunun üçün o, bütün müsəlman ölkələrinə dərvişlər göndərirdi,





o cümlədən də Osmanlı ərazsinə. Səlim də ilk olaraq Şah İsmayılla hesablaşmaq niyyətində idi. Çünki onu Osmanlı üçün (ideoloji olaraq) ən böyük təhlükə hesab edirdi.

Yavuzun rəhbərliyi ilə Osmanlı orduları 19 mart 1514-cü ildə hərəkətə başladı. Anadolu bəylər bəyi Sinan paşa dərhal ona qoşuldu. Ordu hərəkətə keçdikdən sonra Səlim, Şah İsmayıla məktub yazmışdır. (Ümumiyyətlə türk dünyasının bu iki böyük hökmdarı arasında çox maraqlı məktublaşma olmuşdur. Ən maraqlısı isə odur ki, Şah İsmayıl məktublarını türkcə, Səlim isə ona farsca cavablar yazmışdır. Eyni zamanda Səlim, Şah İsmayılın hörmət dolu məktublarına daim təhqirlə cavab vermişdir). Yolun uzunluğundan, yorğunluqdan və ərzaq çatışmamaqlığından dolayı Osmanlı əsgərləri arasında getdikcə narazlilqlar artmaqda idi. Get-gedə pisləşən vəziyyətdən sonra bir qrup Osmanlı əsgəri Səlimə qarşı üsyan etdi. Bundan sonra Səlim onların qarşısına çıxaraq atəşli bir çıxış etmiş və yalnız bundan sonra Osmanlı əsgərləri yenidən yollarına davam etmişlər.

Onu da deyək ki, Şərqin bu iki qüdrətli gücünün qarşı-qarşıya gəlməsində Avropanın da rolu az olmayıb. (xüsusən də ingilislərin) Onlar daha çox Səlimə təsir edə biliblər ki, bu da sonunda iki qardaşın bir-birinə qılınc çəkməsi ilə nəticələnmişdir. Təbii ki, qazanan yenə də Avropa olmuşdurg

Şərqin iki qüdrətli ordusu 22 avqust 1514-cü ildə Çaldıran düzündə üz-üzə gəldi. İngilislərdən top ala bilən Səlimin ordusu daha qüvvətli olmuşdu. Və nəticədə Səfəvilər məğlub oldular. Şah İsmayıl yaxınları ilə birlikdə qaça bilsə də, Səlim, Səfəvilərin paytaxtı olan Təbriz şəhərinə daxil oldu və Şah İsmayılın taxtını (hazırda bu taxt, İstanbulda Topqapı muzeyində saxlanılır) özü ilə apara bildi.

Sultan Səlimin ikinci böyük zəfəri, Misirin Osmanlı Dövləti tərəfindən fəthidir. Bu döyüşdə Misir hökmdarı Cansu Qəvri ilə

Toman bəy birlikdə hərəkət edirdilər. Bundan başqa Səlimin admiral təyin etdiyi Barbarosun rəhbərliyi ilə dəniz qüvvətləri də Misirin fəthində əhəmiyyətli rol oynamışdır. İki tərəf 24 avqust 1516-cı ildə Mərcidabık adlanan yerdə qarşılaşmışdır. Osmanlılar, Misir ordusunu məğlub edərək Suriyaya daxil oldular. Daha sonra Səlim, Qəzzanı və Fələstini türk torpaqlarına qatdı. Türklər bundan sonra Sina gölünü keçərək Qahirəyə yaxınlaşdılar. 22 yanvar 1517-ci ildə iki tərəf arasında baş tutan döyüşdə Osmanlı ordusu qalib gəldi. Bu döyüşdə misirlilər, Sultan Səlim hesab etdikləri Sinan paşanı öldürdülər. Bu zəfərlərdən sonra Abbasi xəlifəsi Mütəvəkkil Alallah xəlifəliyi Sultan Səlimə təhvil verdi. Artıq bundan sonra Osmanlı sultanları eyni zamanda bütün müsəlmaların da xəlifəsi hesab ediləcəkdilər. Yavuz Sultan Səlim, Misiri fəth etdikdən sonra Nil çayı sahilində gəzintiyə çıxmışdır ki, bu gəzinti zamanı da zaman çaya düşmüşdür. Ancaq yanında olan əsgərləri dərhal onu boğulmaqdan xilas edə bilmişlər.

Səlim, Misirdə yeddi ay üç gün qaldıqdan sonra, 1000 dəvə qızıl və gümüşlə yenidən İstanbula qayıtdı. Yavuz Sultan Səlim İstanbula qayıtdıqdan sonra Pir Mehmet Paşanı özünə vəzir təyin etmişdir. Orduya bir az istirahət verdikdən sonra Macarıstan üzərinə səfər hazırlıqlara start verildi. Fəqət Çorlu yaxınlığındakı Sirt kəndində Səlim xəstələnmişdir. Getdikcə vəziyyəti ağırlaşan Sultan Səlim elə burada da 1520-ci ildə 53 yaşında olarkən vəfat etmişdir. Onun hökmdarlığı doqquz il sürmüşdür. Öldüyü zaman isə bütün dünya, züsusən də Türk dünyası böyük bir Hökmdarı itirmiş oldu.





## PİRİ RƏİS

***1470 - 1555***

Muhiddin Piri, Türk Dünyası dənizçilik məktəbinin ən görkəmli nümayəndələrindən biri. Piri Rəsisin dəqiq doğum tarixi bilinməməkdədir. Mənbələr, onun 1470-ci il ilə 1555-ci illər arasında anadan olmasını göstərir. Piri Rəis, önəmli türk dənizçilik mərkəzlərindən biri olan Gəliboluda dünyaya gəlmişdir. Atasının adı Hacı Məhəmməddir. Əmisi isə o zamanın önəmli dəniz kapitanlarından olan Kamal Rəisdir. Piri Rəisin, ilk dəfə dənizə çıxması təxminən on bir yaşına təsadüf etmişdir. Bu zamanlar o, əmisi Kamal Rəislə birlikdə dəniz quldurluğu ilə məşğul olmuşlar. Daha sonra dövlət xidmətinə daxil olan Kamal Rəislə birlikdə o, da rəsmi dövlət görəvlisi olmuşdur. Bundan sonra isə əmisi ilə birlikdə 1487-1493-cü illər arasında önəmli dəniz müharibələrində iştirak etmişdir. Ancaq özündən müstəqil bir şəkildə danışılmasının səbəbi 1499-cu və 1502-ci illər arasında baş verən müharibələrdə göstərmiş olduğu qəhramanlıqlar olmuşdur. Bu zamanlar isə Osmanlı Dövləti, Portuqaliya ilə dəniz müharibələri aparırdı. Deyilənlərə görə bu müharibələr zamanı Piri Rəis, Kolumbun xəritəsini də ələ keçirə bilmişdir.

Piri Rəisin böyük bir dəniz kapitanı kimi yetişməsində önəmli rolu olan əmisi Kamal Rəis 1511-ci ildə vəfat etmişdir. Əmisin vəfatından sonra Piri Rəis dənizçilik işindən ayrılaraq anadan olduğu Gəliboluya gəlmiş və xəritəçiliklə məşğul olmuşdur. Bir müddət sonra isə böyük türk dəniz komandanı Barbarosun rəhbərliyi altında çalışmağa başlamışdır. Misirin Osmanlı Dövləti tərəfindən fəth edilməsi zamanı çox önəmli

liman şəhəri olan İsgəndəriyyənin alınmasında böyük fədakarlıqlar və qəhramanlıqlar göstərmişdir. Piri Rəis bu qəhramanlığı sayəsində dönəmin Osmanlı sultanı Səlimlə tanış olmaq fürsəti əldə etmişdir. İki insan arasında olan görüş zamanı, Piri Rəis, sultana çəkmiş olduğu dünya xəritəsini vermişdir.

Misir səfərindən sonra yenidən Gəluboluya dönən Piri Rəis, başlamış olduğu "Kitabi-Bəhriyə" kitabı üzərində çalışmağa başlamışdır. Bu dönəmdə Misirdə iğtişaşlar və narazılıqlar baş qaldırmışdı. Meydana çıxan iğtişaşları yatırtmaq üçün Osmanlı dövləti İbrahim paşanı, Piri Rəisin rəhbərlik etdiyi donanma ilə birlikdə Misirə göndərmişdir. Səfər zamanı Aralıq dənizində fırtına baş vermiş və Osmanlı gəmiləri bir müddət Rodos adasında qalmaq məcburiyyətində olmuşlar. Bu zaman isə Piri Rəis, İbrahim paşa ilə yaxından tanış olmaq fürsəti əldə etmişdir. O, yazmağa başladığı kitab haqda paşaya məlumat vermiş və paşa da kitabı bəyənərək ondan kitabı tezliklə tamamlamasını istəmişdir. Bundan ruhlanan Piri Rəis, kitabı tez bir zamanda bitirərək, İbrahim paşanın vasitəsiylə artıq yeni Osmanlı sultanı olan Süleyman Qanuniyə təqdim etmişdir. "Kitabi-Bəhriyə" Osmanlı sultanının da xoşuna gəlmişdir. Təəssüf ki, günümüzdə kitabın yalnız ilk hissəsi əlimizdə qalmaqdadır ki, burada da Şimali Amerikanın və Piri Rəisin ikinci dünya xəritəsi yer almaqdadır.

Həmin dönəmdə Portuqaliya savaş gəmiləri Ədən körfəzini ələ keçirmişdilər. Osmanlı Dövləti, Piri Rəisi, Hind okeanı komandanı təyin edərək, Ədən körfəzini portuqaliyalılardan geri almaq üçün göndərmişdir. Piri Rəis də ona tapşırılan işin öhdəsindən layiqincə gələ bilmişdir. Belə ki, iki tərəf arasında 1548-ci ildə baş tutan müharibədə Piri Rəis, Portuqaliya gəmilərini darmadağın edərək, Ədən kötfəzini yenidən ala bilmişdir. Bundan sonra o, Hind okenında olan bəzi adaları da fəth edərək Osmanlı torpaqlarına qatmışdır.





Piri Rəisin qısa zaman ərzində əldə etdiyi uğurlar, Osmanlı daxilində onun düşmənlərini narahat etməyə başlamışdı. Belə ki, Bəsrə bəylər bəyi, Piri Rəisin ona tapşırılan donanmanı Bəsrədə qoyaraq qaçma xəbərini dövlətin paytaxtı İstanbula çatdırmışdır. Bu hal isə sultan Süleyman Qanunini hövsələdən çıxartmışdır. Sözü gedən xəbəri Misirin o zamankı valisi Dukaynzadə Məhəmməd paşa da təsdiq edincə, heç bir dərin araşdırma aparılmadan bu Böyük Türk, Misirin paytaxtı Qahirə şəhərində edam edilmişdir. Bu zaman Piri Rəis artıq səksən yaşını haqlamaq üzərə idi.

Piri Rəisin birinci dünya xəritəsi hazırda İstanbul, Topqapı muzeyində saxlanılır. Xəritənin uzunluğu 90, eni isə 60 smdir. Sözü gedən xəritədə cənub-qərbi Avropa, şimal-qərbi Afrika, cənub-qərbi və orta Amerika sahilləri təsvir edilmişdir. Bu xəritə, Piri Rəisin, Sultan Səlimə təqdim etdiyi xəritədən qalan çox kiçik bir hissədir. Bundan başqa Piri Rəisin coğrafiya elminə verdiyi töhfələrdən biri də, Atlantik okeanının şərq sahillərinin xəritəsini tarixdə ilk dəfə çəkməsi olmuşdur. Ümumiyyətlə isə Piri Rəis, 34 xəritədən istifadə etmişdir. Bunlardan 20-nin tarixi bəlli deyildir. Səkkizi müsəlman coğrafiyaçıların Cəfəriyyə dedikləri xəritələrdir. Dördü portuqaliyalıların çəkmiş olduqları xəritə, biri isə Kolumbun xəritəsidir.

Sözü gedən xəritəni Piri Rəis, əmisinin portuqaliyalılarla olan döyüşlərinin birində ələ keçirilən əsirlərdən birindən əldə etmişdir. Bunda başqa Kolumbun dörd səyahətindən üçünə qatılmış olan bu adamın gündəliklərində, Kolumbun Amerika səfərinə dair önəmli bilgilər də olmuşdur. Daha sonralar Kolumbun xəritəsi itdiyindən, günümüzdə əldə olan yeganə mənbə Piri Rəisin xəritəsidir.

Piri Rəis Amerika sahillərini xəritəsini çəkdiyi zaman bir çox yerlərdə Kolumbun xəritəsinin eynisini istifadə etmişdir.

Ancaq Kolubdan fərqli olaraq, Piri Rəis daha çox adanın təsvirini verə bilmişdir. Bundan başqa o, Kolumbdan fərqli düşünərək, Cənubi Amerikanın cənubunu quru sahəsi kimi yox, dəniz kimi təsvir etmişdir ki, bu da sonralar Piri Rəisin haqlı olmasını sübut etmişdir. Bu xəritədən başqa Piri Rəis, 1528-ci ildə ikinci dəfə dünya xəritəsi tərtib etmişdir. Onun bu xəritəsində daha çox coğrafi obyekt təsvir olunmaqla yanaşı, eyni zamanda dəqiqlik də artmışdır. Bu xəritənin kiçik bir hissəsi əldə olsa da, xəritəyə baxdıqda Piri Rəisin, o zamanlar coğrafi kəşflərdən məlumatlı olmasını və bu kəşfləri necə diqqətli izlədiyinin şahidi oluruq. Bundan başqa onu da demək olar ki, o zamankı texniki şərtləri nəzərə aldıqda Piri Rəisin xəritəsinin zamanının ən dəqiq xəritəsi adlandırmaq olar.





## BARBAROS XEYRƏDDİN PAŞA
***1473 - 1546***

Türk dənizçilik tarixinin ən böyük nümayəndələrindən biri və ön şöhrətli kapitanı. Barbaros, 1473-cü ildə Midilli adasında dünyaya gəlib. Atası Eceovalı Yaqub bəydir. Yaqub bəyin Oruc, Xızır, İshaq və İlyas adında dörd oğlu olmuşdur. İshaq və Oruc qardaşlardan böyükləri, Xızır ilə İlyas isə yaşca kiçikləridirlər. Xızır, Xeyrəddin Barbaros adı ilə şöhrətlənmiş və tarixə düşmüşdür.

Qardaşların hamısı yetişmiş hala gəldikdən sonra dənizə çıxaraq ticarətlə məşğul olmağa başlamışlar. Oruc, Misir və Şam ətrafında, Xızır ilə İlyas, Səlanik yaxınlığında ticarətlə məşğul olurdular. Qardaşlardan İshaq isə ata yurdunda otururdu. Xızır ilə İlyas günlərin birində ticarət məqsədilə Rodos adası yaxınlığından keçərkən qarşılarını dəniz quldurları kəsmişlər. Və dəniz quldurları qardaşların mallarını və pullarını almaq istəmişlər. Bundan sonra quldurlarla mübarizə başlayır. Bu döyüşdə İlyas şəhid olmuşdur. Qardaşlardan Xızır isə əsir olaraq quldurların əlinə keçdi və Rodos adasında həbs edilərək saxlanıldı. Xızır, saxlandığı həbsxanadan qısa zaman sonra qaça bilir. Bundan sonra isə bu hadisənin təsiri altında qalaraq, ticarət buraxıb, dəniz quldurluğu etməyə başlamışdır. O zamanlar Antalyada Yavuz Sultan Səlimin qardaşı Şahzadə Qorqud valilik etməkdə idi. Qorqud, Xızırı yanına dəvət edir və onu öz himayəsinə alır. Təklifə qəbul edən Xızıra, vali, 18 kiçik gəmi vermişdir.

Barbaros ətrafına toplaşan silahdaşları ilə birlikdə Aralıq dənizinə çıxır. Bundan öncə isə onlara belə müraciət edir: "Bizi

qovanlardan qaçmayacağıq, bizdən qaçanları da qovmayacağıq". Barbarosun bundan sonrakı ilk işi qardaşı İlyasın intiqamını almaq oldu. Bu məqsədlə o, Rodos adasındakı quldurlarla bir neçə dəfə üz-üzə gələrək döyüşmüşdür. Qardaşının intiqamını alan Barbaros, bundan sonra İtaliya sahillərinə üz tutmuşdur. Qış fəsli gəldiyi zaman isə Barbaros və yoldaşları Afrika sahillərində yerləşən Cərbəyə gedirdilər. Barbaros, Aralıq dənizində dolaşarkən, qardaşı Orucun şöhrəti hər tərəfə yayılmışdı. Oruc, rastına çıxan bütün xristian gəmilərinə hücumlar edir və onları məhv edirdi. Xristianlar da ona qırmızı rəngdə olan saqqalından dolayı kinayə ilə "Barbaros" adını vermişdilər. Oruc, dünyasını dyişdikdən sonra isə onun bu ləqəbi qardaşı Xızıra verilmişdir.

Barbaros daim böyük qardaşı ilə birlikdə, yan-yana, çiyin-çiyinə döyüşmüşdür. Bu iki türk qardaş xüsusən də İspaniya gəmilərinə göz verib, işıq verməyiblər. İspanlarla olan döyüşlərin birində böyük qardaş Oruc, qolunun birini itirmişdir. Bundan sonra Barbaros, Aralıq dənizində tək başına qalmışdır və bütün döyüşləri də tək başına etmişdir.

Yavuz Sultan Səlim Osmanlı sultanı olduqdan sonra, Barbaros onu təbrik etmək məqsədilə ona bir çox qiymətli hədiyyələr göndərmişdir. Sultan Səlim hədiyyələri məmnuniyyətlə qəbul etmiş və o, da qarşılığında Barbarosa at hədiyyə etmişdir. Bu hadisədən sonra Barbaros, Əlcəzairi öz hakimiyyəti altına almışdır. İspan kralı, Barbarosu Aralıq dənizindən uzaqlaşdırmaq istəyirdi. Bu məqsədlə İspaniya hökuməti Afrikanın şimalına quru qoşunları çıxardılar. İki tərəf arasında olan döyüşdə Barbarosun bir qolu olmayan qardaşı Oruc və digər qardaşı olan İshaq şəhid olmuşdur.

O dönəmdə Sultan Səlim, Misiri fəth etdi. Bundan sonra Barbaros, Qurdoğlu Muslihiddini sultanın yanına göndərərək fəth etdiyi torpaqların hamısını dövlətə verdiyini bildirdi. Artıq





türklər bütün Aralıq dənizinə sahib olmuşdular. Bu zaman isə Barbarosun rəhbərliyi altında Turqut Rəis, Sinan Rəis, Saleh Rəis, Aydın Rəis kimi bacarıqlı gəmi kapitanları döyüşürdülər. Barbarosun sayəsində Əlcəzair ərazisi rəsmən Osmanlı torpaqları elan edildi. Sultan Səlim, Barbarosu bütün bu əyalətlərin əmiri kimi tanıdığını bildirdi.

Yavuz Sultan Səlim vəfat etdikdən sonra onun yerinə Osmanlı taxtına Qanuni Süleyman keçmişdi. Sultan Süleyman Qanuni, 1533-cü ildə Barbarosu Osmanlını paytaxtı olan İstanbula dəvət etmişdir. Bir günlük istirahətdən sonra Barbaros və on səkkiz silahdaşı sultanın qəbuluna gəldilər. Yeni sultanla söhbətdən sonra, Süleyman Qanuni ona "sən xeyirli övladsan deyərək" Xeyrəddin adını da vermişdir. Süleyman Qanuni bundan sonra Barbarosu rəsmən Osmanlı su qoşunları admiralı təyin etmişdir və ona paşa (general) rütbəsi vermişdir. Barbaros 84 gəmidən ibarət qoşunla yenidən Aralıq dənizinə çıxdı və İtaliya sahillərindəki bir çox qalaları ala bildi.

Artıq Barbarosun rəhbərliyi altında olan Osmanlı donanması Avropa dövlətləri üçün böyük bir təhlükəyə çevrilmişdi. Bunu yaxşı başa düşən Roma Papası, Venesiya, Genuya, İspaniya və Potuqaliyaya müraciət edərək birləşmiş donanma yaradılmasını istədi. Avropalıların fikrinə görə yaradılmış olan bu xaçlı donanma, Osmanlı donanmasını məhv etməli idi. Xaçlıların hərəkətə keçdiyini eşidən Barbaros, bütün gəmiləri düyüş hazırlığı vəziyyətinə gətirilməsini əmr etdi.

Osmanlı donanması mərkəz, sağ və sol olmaqla üç hissəyə ayrıldı. Sağ qanadda Saleh Rəis, sol qanadda Seydi Əli Rəis, ehtiyat qüvvələrin başında Turqut Rəis, mərkəzdəki qüvvələrin başında isə Barbaros dururdu. Türk donanması aypara şəklində düzülmüşdü. Say baxımından Avropa birləşmiş donanması üstün olsa da, türklərin mənəvi gücü daha böyük idi. Hər iki tərəf üçün çox ağır keçən bu döyüşdə Barbarosun

rəhbərlik etdiyi Osmanlı donanması qalib gəldi. Onlar düşmənin yüz otuz gəmisini batıra bilmişdilər. O zamanlar Aralıq dənizində 1538-ci ildə baş tutan bu ən böyük müharibədən türklər qalib ayrıldılar. Bu savaş, Barbarosun ən böyük qələbəsi oldu.

Artıq Barbaros yaşlanmışdı. Türk dünyasının ən böyük dənizçisi olan Barbaros, 1546-cı ilin 4 iyulunda İstanbulda vəfat etmişdir. Onun məzarı İstanbul şəhərinin Beşiktaş səmtində yerləşməkdədir. Türbəsinin olduğu bu yerdə bu Böyük Türkün heykəli ucaldılmışdır. Barbarosun igidlikləri özündən sonra uzun yaşamış və günümüzdə də yaşamaqdadır. Onun çox böyük dənizçi olması bütün dünya tərəfindən qəbul edilmişdir. Təsadüfi deyil ki, Adolf Hitler də SSRİ-na edəcəyi hücum planının adını bu böyük türk admiralının şərəfinə "Barbaros" planı adlandırmışdır.





## MEMAR SİNAN
### *1490 - 1588*

Türk Dünyasının ən böyük memarlarından biridir. Bu Böyük Türk, 29 may 1490-cı ildə Kayserinin Ağırnas kəndində anadan olub. Sonradan İslamı qəbul etmişlər kimi Yeniçərilərin (Osmanlı dönəmində sonradan İslamı qəbul edənlər Yeniçəri ordusunda Osmanlı vətəndaşı kimi yetişdirilirdi) yanında yetişdi. Memar Sinan əlli yaşına çatdıqdan sonra hərbidən ayrılmışdır. Bundan sonra isə Osmanlı Dövləti memarlarının rəhbəri vəzifəsində çalışmışdır. O, bu vəzifədə tam olaraq qırx səkkiz il çalışmışdır. Baş memar vəzifəsi dönəmində Mermar Sinan səksən bir məscid, əlli beş mədrəsə, iyirmi altı türbə, on yeddi imarət, altı bənd və su kəməri, doqquz körpü, on yeddi karvansara, otuz üç saray, otuz yeddi hamam inşa etmişdir.

İstanbulda yerləşən Ayasofya kilsəsinin açılışı zamanı Bizans imperatoru kilsənin kümbəzi altında duraraq, "Həzrəti Süleyman sənə qalib gəldim" (Bilindiyi kimi Süleyman peyğəmbər də peyğəmbərliyi dönəmində Allahın istəyi ilə bir çox abidələr inşa etdirmişdir) demişdir. Bizans imperatoru Ayasofyanın kümbəzindən daha böyük və daha möhtəşəm bir tikilinin ola bilməyəcəyi inancında olmuşdur.

Fəqət, qoca Sinan, baş memar olduğu zaman Süleymaniyyə məscidini inşa edərək, Ayasofyanın kümbəzini geridə qoyan bir kümbəz inşa etmişdir. Sözü gedən məscid, zamanın Osmanlı Sultanı olan Qanuni Sultan Süleymanın adına inşa edilmişdir. Və bu, elə bir inşaat əsəri olmalı idi ki, Memar Sinandan və Sultan Süleymandan çox-çox sonralar da ayaqda dura bilsin. Yəni tam bir sultana layiq abidə olmalı idi. Sözü

gedən Süleymaniyyə məscidinin inşası tam səkkiz il çəkmişdir. Bu səbəbdən də, yəni inşaat işlərinin bu qədər uzanmasına görə hətta bəzən Sulyan Süleyman, dövlətin baş memarı olan Sinana işi yubatdığından dolayı tez-tez əsəbləşirmiş. Memar Sinan məscidin təməlinin qoyulmasına və təməlin inşaasına altı il vaxt sərf etmişdir.

İstanbulda Ayasofyadan (Atatürkün Cümhuriyyəti elan etməsindən sonra onun tapşırığı ilə Ayasofya məscidi muzey kimi fəaliyyət göstərməyə başlamışdır və bu günümüzdə də davam etməkdədir) daha möhtəşəm bir məscidin inşa edilməsi xəbəri isə bütün İslam Dünyasına yayılmışdı. Bütün müsəlmanlar da Süleymaniyyə məscidinin nə zaman inşa edilib qurtaracağını gözləyirdilər. Necə deyərlər, bütün gözlər İstanbulda idi. İnşaat işlərinin bu qədər uzanması, maliyyə sıxıntısının olması kimi də yozulurdu. Bu səbəbdəndir ki, o zamanlar Səfəvi Dövlətinin hökmdarı olan Şah Təhmasib, səfiri vasitəsilə Sultan Süleymana kiçik bir sandıq dolusu qızıl göndərərək, Sultan Süleymana "məscidin tikintisində bizim də payımız olsun" söyləmişdir. Ancaq təəssüflər olsun ki, Süleyman Qanuni, Şah Təhməsibin bu gözəl niyyətli jestini lazımınca qiymətləndirməmiş və göndərilən qızılların palçığa qatılaraq, inşaat materialı kimi istifadə edilməsini əmr emişdir.

Memar Sinanın bəzi uğurları Osmanlı içində bəzi insanların xoşuna gəlmirdi. Onlar tikilməkdə olan məscidin kümbəzinin uzun müddət duruş gətirə bilməyib, yıxılacağını söyləyirdilər. Bu kimi söz-söhbətlər Sultan Süleymana qədər gəlib çatdıqda isə, Memar Sinan, sultanın qəzəbindən güclə qurtarmışdır.

Beləliklə də səkkiz ildən və uzun dedi-qodulardan sonra Süleymaniyyə məscidi hazır oldu. Bu gözəl məbəd, 16 avqust 1556-cı ildə ibadət üçün insanlara üzünə açımışdır. Məscidin açılışına gələn Süleyman Qanuni, məscidini açmaq üçün açarları Memar Sinana verərək onu şərəfləndirmişdir.





Əslində Memar Sinan, ilk işə başlayarkən dülgər kimi başlamışdır. Yavuz Sultan Səlimin Təbriz səfəri zamanı əsgərlərin Van gölünü keçə bilmələri üçün düzəltmiş olduğu qayıq isə, həm Sinanın ilk işi, həm də Van gölündə üzəcək olan ilk qayıq olmuşdur. Daha sonra isə Memar Sinan, Osmanlı ordusunun müxtəlif ölkələrə yürüşləri zamanı, həmin ölkələrdə həndəsə və memarlıq sənətlərinə yiyələnmişdir. Qanuninin Qarabağ səfəri zamanı isə Memar Sinan ilk körpüsünü inşa etmişdir. Sinan əlli yaşı tamam olduqdan sonra ordudan ayrılmış və sarayda memar başı vəzifəsinə təyin edilmişdir. Bundan sonra isə dünyanın ən böyük dövlətlərindən olan Osmanlının müxtəlif yerlərində dörd yüzə yaxın sənət əsəri yaratmışdır. Memar Sinan öz vəzifəsində qırx səkkiz il çalışmışdır. Türk tarixinin ən möhtəşəm dövrlərindən birində yaşayan Memar Sinan, öz dövrünə inşa etmiş olduğu memarlıq abidələri ilə imzasını vurmuşdur.

Memar Sinan, doxsan yaşını keçdikdən sonra şair Mustafa Saiyə özünün tərcömeyihalını yazdırmışdır. Burada onun keçdiyi bütün ömür yolu qələmə alınmışdır və kitab, "Təzkürətül Büyan" adlanır. Bununla da sonradan İslamı qəbul edən bu insan, yaratdığı dəyərli abidələrlə və keçdiyi parlaq həyat yolu ilə Böyük türk ola bilmişdir. Memar Sinan, 9 aprel 1588-ci ildə İstanbul şəhərində vəfat etmişdir. Bu Böyük Türkün türbəsi özünün inşa etmiş olduğu Süleymaniyyə məscidinin ərazisindədir.

## QANUNİ SULTAN SÜLEYMAN
### *1495 - 1566*

Bütün dünyanın Qanuni adı ilə tanıdığı məşhur Osmanlı sultanı. Süleyman türklər üçün bir qanunnamə hazırlatdığı üçün bu ünvanı almışdır. Süleyman, 27 aprel 1495-ci ildə Yavuz Sultan Səlimin Trabzon valiliyi dönəmində anadan olmuşdur. O, 1520-ci ildə taxta çıxmış və Osmanlı tarixinin ən çox hakimiyyətdə olan sultanı olmuşdur. Belə ki, onun hökmdarlığı tam 45 il çəkmişdir. Onun zamanında Osmanlı zamanın ən böyük dövlətinə çevrildi və Süleymanın təbəələrinin sayı 110 milyona çatdı.

Anasının adı Hafizə Ayşə Sultandır. Anası türkməndir və Süleymanın özündən başqa dörd bacısı da olmuşdur. Onun təhsili zamanının ən böyük alimlərindən olan Kastamonulu Xeyrəddinə tapşırılmışdır. Atasının sultanlığı dönəmində o, Manisada valilik etmişdir. O, da atası kimi şer yazardı və şerlərini Mühibbi təxəllüsü ilə imzalayarmış. Onun yazmış olduğu bütün şerlər divan halında toplanmışdır.

Qanuni Sultan Sleymanın hakimiyyəti dövründə Osmanlı Dövləti öz inkişafının kuliminasiyasına çatmışdır. O, taxta 30 sentyabr 1520-ci ildə 25 yaşında olarkən çıxmışdır. Özündən başqa qardaşı olmadığı üçün taxta çıxdığı zaman heç bir problem və qarşıdurma ilə rastlaşmamışdır. Bu Böyük Türk, 7 sentyabr 1566-cı ildə 71 yaşında vəfat etmişdir. Ona insanların "Qanuni" ləqəbini verməsinin səbəbi təkcə qanunlar hazırlatması deyil, eyni zamana mövcud olan qanunlara həddən artıq dəqiqliklə əməl etməsi olmuşdur. Sultan Süleyman həddən artıq ədalətli hökmdar olmuşdur. Məsələn, hökmdarlığı





dövründə Misir üçün təyin edilmiş vergini artıq hesab edərək, buranın vergilərini azaltmışdır. Atası, Yavuz Sulan vəfat etdikdən və onun yerinə keçdikdən sonra Avropada "aslan öldü, yerinə quzu keçdi" kimi söyləntilər dolaşmaqda idi. Ancaq Süleyman qısa bir zamandan sonra bütün Avropanı xəyal qırıqlığı ilə üz-üzə qoydu.

Qanuni Sultan Süleymanın hökmdarlığının ilk illərində ölkənin bəzi bölgələrində üsyanlar baş qaldırmışdı. Yavuz Sultan Səlimin, Şama vali təyin etmiş olduğu Canbirdi Qəzəlinin qaldırdığı üsyan buna misal ola bilər. Üsyanın məqsədi isə Məmlük dövlətini yenidən qurmaq idi. Canbirdi Qəzəlinin rəhbərlik etdityi üsyançıların ordusu ilə Osmanlı ordusu 1521-ci ilin yanvar ayında üz-üzə gəldi və darmadağın edildi. Canbirdi özü isə ələ keçirilərək edam edildi. Daha sonra isə Süleyman, Baba Zünnünün qaldırdığı üsyanı uğurla yatırtmağa müvəffəq oldu.

Qanuni Sultan Süleyman dönəmində Avropanın ən güclü dövləti Roma-German İmperatorluğu (Almaniya) idi. Almanlar Macarıstana da sahib ola bilmək üçün macar kralı ilə quhumluq əlaqələri qurmuşdular. Macar kralı olan II Lui, almanlara arxalanaraq Osmanlı Dövlətinə verəcəyi vergiləri ödəməkdən imtina edir, hətta ona göndərilən elçiləri edam etdirirdi. Daha öncə isə Fatih Sultan Mehmet zamanında türklər Serbiyanı ələ keçirmişdilər. Ancaq çox böyük strateji əhəmiyyəti olan Macarıstan o zaman alına bilmədi. Bu kimi səbəblərdən dolayı Qanuni Sultan Süleyman, Macarıstanı fəth etmək üçün orduya hərəkət etmək əmri verdi. Macarıstan paytaxtı Budapeşt, qurudan və Dunay çayı vasitəsilə sudan mühasirəyə alındı. Macarıstan paytaxtı Budapeşt mükəmməl şəkildə müdafiə olunmasına baxmayaraq 29 avqust 1521-ci ildə təslim oldu. Balı paşa Macarıstan valisi təyin edildi və Osmanlı ordusu yenidən vətən yolunu tutdu. Budapeştin fəthi Qanuni Sultan Süleymanın ilk fəthidir. Bundan sonrakı illərdə Budapeşt,

türklər üçün daim Avropaya qapı rolunu oynamışdır. Bu səbəbdən də Budapeştə "Darül-cihad" deyilməyə başlandı.

Alman İmperatoru Şarlkenin əsas məqsədi bütün Avropanı ələ küçirmək idi. Ancaq Fransa kralı, Fransua onun bu fikirlərinə qarşı çıxdı. Bundan sonra almanlar, fransızlarla döyüşdə onları məğlub edərək, Fransuanı da əsir götürdülər. Fransız kralının anası Sultan Süleymana məktub yazaraq, ondan kömək istədi. Osmanlı donanması komandanı olan Barbarosun rəhbərlik etdiyi Osmanlı gəmiləri, Fransanın Nits şəhəri yaxınlığında alman donanmasını məğlub edərək, Fransanı və onun kralı olan Fransuanı azad etdi.

Sultan Süleyman, almanların, türklər üçün böyük təhlükə olduğunu görməyə bilməzdi. Bu səbəbdən də almanlarla hesablaşmağa qərar verdi. Osmanlı ordusu yenidən Dunay çayını keçərək Macarıstana daxil oldu və macar ordusunu cəmi iki saata məğlub edərək damadağın etdi. Bu müharibə 29 avqust 1526-cı ildə baş vermiş və tarixə Mohaç müharibəsi adı ilə düşmüşdür. Bu döyüşdən sonra Macarıstan, Osmanlıya bağlı olan bir krallığa çevrildi.

Macarıstanın fəthindən sonra Avstrya ilə də münasibətlər pozuldu. Avstrya kralı Ferdinand, Macarıstanın Osmanlıya bağlı olan hökumətini tanımadı və bu ölkənin paytaxtı Budapeştə yürüş etdi. Bu işdə avstryalılara almanlar da yardım etmişdilər. Bunu eşidən Sultan Süleyman, yenidən ordunu Macarıstan üzərinə hərəkətə keçirdi və yenidən Budapeşti geri aldı. Avstrya və alman kralları isə Avstryanın paytaxtı Vyanaya qaçaraq canlarını qurtara bildilər. Ancaq Süleymanın dayanmaq fikri yox idi və türk ordusu bu dəfə də Vyananı mühasirəyə aldı. Ancaq qarşıdan qış gəldiyi üçün mühasirəyə son verildi və ordu geriyə çəkildi. Vyana alınmasa da, türklər bu səfərdən sonra Avropadakı mövqelərini bir az da gücləndirmiş oldular. Daha sonrakı günlərdə isə Avstrya kralı Ferdinand, Sultan





Süleymana məktub yazaraq, ondan Macarıstanı istəmişdir. Süleyman onun bu istəyinə sərt bir şəkildə rədd cavabı vermişdir ki, bu da Ferdinandın yenidən Budapeşti mühasirəyə almasına səbəb olmuşdur.

Bundan sonra isə Sultan Süleyman, Almaniya üzərinə yürüşə başladı. O, yürüş zamanı Budapeşti yenidən geri aldı və türklər Avropa ərazisində xeyli irəliləyərək, Avstryaya məxsus olan bir çox şəhər, qəsəbə və qalaları fəth etdilər.Bu müharibə, Avstryanı gücdən saldı və Ferdinand sülh istədi. 1533-cü ildə iki tərəf arasında İstanbulda sülh müqaviləsi imzalandı. Bununla da Almaniyanın bütün Avropanı ələ keçirmk planı alt-üst oldu. Ancaq Ferdinand yenə də sakit durmadı. Və o, bir müddət sonra yenidən Budapeşti mühasirəyə aldı. Bundan sonra türk ordusu 1540-cı ildə yenidən Macarıstan səfərinə çıxdı. Budapeşti yenidən alan türklər, bundan sonra Macarıstanı, Osmanlının əyaləti halına gətirdilər və Süleyman paşa, Macarıstana vali təyin edildi.

Bundan sonra Anadoluya qayıdan Sultan Süleyman, burada bəzi üsyanların yatırdılması ilə məşğul olmuşdur. Ancaq o, 1566-cı ildə Macarıstan üzərinə son səfərinə çıxdı. Və orada qalaların birinin mühasirəsi zamanı vəfat etmişdir. Süleymanın vəfatına baxmayaraq, türklər qalanı ala bilmişdilər. (mənbələrin bildirdiyinə görə sultanın vəfat etməsi, orduda çaşqınlıq yaratmasın deyə, onun vəfatını qalanın fəthinə qədər ordudan gizlədiblər. Hətta, Sultan Süleymanın cəsədi oturaq halda atına bağlanmış və Osmanlı əsgərləri orduya və döyüşə yenə sultanın rəhbərlik etdiyini düşünmüşlər)

Sultan Süleymanın əsas fəthlərindən biri də atası Səlimin ala bilmədiyi Rodos adasını Osmanlı torpaqlarına qatmasıdır. Bu hadisə 1522-ci ildə baş vermişdir. Onun hökmdarlığı dönəmində Əlcəzair də rəsmən tük torpağına çervrilmişdir. Rodosun fəthindən sonra oradan qaçan Sen Jan şovelyeləri

qaçaraq Malta adasına sığınmışdılar. Əlcəzairin güvənliyi üşün Malta da fəth edilməli idi. Bundan başqa Sen Jan şovelyeləri hələ də təhlükə olaraq qalmaqda idilər. Buna görə də Osmanlı donanması Maltanı mühasirəyə aldı. Donanmaya Turqut Rəis rəhbərlik etmişdir. İki tərəf arasında 1555-ci ildə baş tutan döyüşdə Turqut Rəis şəhid olsa da, Malta adası fəth olunmadı.

Böyük coğrafi kəşflər dönəmində Portuqaliya və İspaniya kimi dövlətlər, böyük əraziləri ələ keçirə bilmişdilər. Hindistana olan dəniz yolunun 1498-ci ildə Vasko da Qama tərəfindən kəşf edilməsindən sonra, Osmanlı Dövlətinin ticarət gəlirlərinə əhəmiyyətli dərəcədə zərbə vurulmuşdu. Bu kimi səbəblərdən dolayı, Sultan Süleyman dönəmində Osmanlı donanması dörd dəfə Hind okeanı səfərinə çıxmışdır. Ancaq, Osmanlı donanması okean şərtlərinə cavab vermədiyindən bu səfərlərin heç birindən önəmli nəticə alınmamışdır. İkinci Hind okeanı səfərində donanmaya Piri Rəis rəhbərlik etmişdir. Bu səfər zamanı Hind okeanındakı bəzi ərazilər ələ keçirilsə də, Piri Rəis, portuqaliyalıların Bəsrə körfəzini bağlayacaqlarını düşünərək donanmanı Bəsrədə qoyaraq, ələ keçirilmiş qənimətlərlə geri dönmüşdür. Bu da onun haqqında edam əmrinin çıxmasına səbəb olmuşdur. Bundan başqa Sultan Süleyman zamanında Hind okeanında türklərin elə bir önəmli uğuru olmamışdır.

Süleyman Qanuninin Azərbaycan Türkləri üçün maraqlı olan tərəfləri vardır ki, bu da o dönəmdə Osmanlı-Səfəvi münasibətləridir. Sultan Süleymanın da atası, Yavuz Sultan Səlim kimi Səfəvilərlə münasibətləri yaxşı olmamışdır. Belə ki, 1534-cü ildə bu iki böyük Türk dövləti arasında növbəti müharibə olmuş və bunun nəticəsində də Təbriz, Həmədan və Bağdad, Səfəvi Dövlətinin əlindən çıxmışdır. Bu zaman Səfəvi Dövlətinin başında Şah İsmayılın oğlu, Şah Təhmasib dururdu. Bir müddət sonra Şah Təhmasib, qardaşının Osmanlı Dövlətinə sığınmasını bəhanə edərək, Təbirz, Naxçıvan və Vanı ələ





keçirdi. Bundan sonra Süleyman ikinci dəfə Səfəvilər üzərinə yürüşə çıxdı. Təbriz və Van yenidən Osmanlı ərazisinə qatıldı. 1553-cü ildə Səfəvilər yenidən hücuma keçdilər və Muşa qədər irəliləyib, Ərzurumu mühasirəyə aldılar. Bu zaman isə Sulan Süleyman üçüncü Səfəvi yürüşünə çıxdı. Bu yürüş zamanı osmanlılar Rəvan (İrəvan), Naxçıvan və Qarabağı ələ keçirə bildilər. Uzun müharibələr Səfəvi Dövlətini zəifləmişdi və belə bir vəziyyətdə Şah Təhmasib sülh istədi. Və iki tərəf arasında 1555-ci ildə Amasiya müqaviləsi imzalandı. Amasiya müqaviləsi bu iki türk dövləti arasında olan ilk rəsmi müqavilədir.

47 il hakimiyyətdə olan Süleyman Qanuni, atası Sultan Səlimdən hakimiyyəti dövr aldığı zaman Osmanlının ümumi sahəsi 6 557 000 kv km idi. Ancaq onun zamanıda bu rəqəm 14 893 000 kv km-ə çatmışdır. Hökmdarlığı ilə yanaşı sənətə də böyük dəyər verən Sultan Süleymanın zamanında bi mox abidələr ucaldılmışdır. Bunlara misal olaraq Sultan Səlim zamanında başladılan ancaq, yarımçıq qalmış olan İstanbul Sultan Səlim məscidini, Qəbzədə Çoban Mustafa paşa məscidini, Afyonda Sincanlı paşa məscidini, Bozöyük Qasım paşa məscidlərini göstərmək olar.

Türk Dünyasının böyük sultanlarından və fatehlərindən olan Süleyman Qanuni haqda olan yazının sonuna gəldiyimiz zaman onu da qeyd edək ki, ABŞ parlament binasının divarına vurulmuş olan 24 böyük dövlət adamının şəkli arasında Süleyman Qanuninin də portreti vardır. Bu fakt, Böyük Türk olan Süleyman Qanuniniyə qərbdə, xüsusən də ABŞ-da nə qədər böyük dəyər verildiyini və onun sanballı dövlət adamı kimi qəbul edildiyini göstərməkdədir.

## ZİYA GÖYALP
***1876 - 1924***

Böyük fikir adamı, Türkçülük axımının ən böyük təmsilçilərindən biri. Ziya Göyalp, 1876-cı ildə Türkiyənin Diyabəkir şəhərində anadan olub. Onun yazıları və düşüncələri, türk siyasi həyatını dərindən təsirləndirmişdir. Milli ədəbiyyat axımı içərisində yazmış olduğu əsərlər, Türk ədəbiyyatının tərzini və dil yönündən yeniləşməsini təmin etmişdir.

İlk təhsilinə anadan olduğu Diyarbəkirdə başlayan Ziya Göyalp, yenə eyni şəhərdə hərbi məktəbdə oxumuşdur. Bundan sonra mövcud olan rejimin sonunu gətirmək üçün qurulmuş olan "İhtilal Komitəsi"nin üzvü olmuşdur. Məktəbdəki fəaliyyətləri və mütaliə etdiyi inqilabi mövzuda olan Fransız ədəbiyyatı, hökuməti narahat etmiş və buna görə də Ziya Göyalpın həbs edilməsi haqda əmr verilmişdir. Ziya Göyalp o zamanlar Diyarbəkirin valisi olan Xalid bəyə qarşı da mübarizə aparmışdır. Bundan sonra isə yenə də qadağan olunmuş ədəbiyyat oxuduqları üçün yoldaşları ilə birlikdə həbs edilmişdir. 1898-ci ildə İstanbula qayıtdıqdan sonra isə oxuduğu məktəbdən qovulmuşdur.

Ziya Göyalp haqqında çıxmış olan hökümlülük qərarının vaxti bitdikdən sonra yenidən Diyarbəkirə göndərilmişdir. Burada o, tarix, fəlsəfə və siyasət haqqında bəzi araşdırmalar aparmış və yenə də mövcud rejimə qarşı gizli mübarizəyə başlamışdır. O zamanlar bütün Türkiyə ərazisində əsayişin sakitliyini qorumaq üçün müxtəlif alaylar fəaliyyət göstərirdi. O cümlədən Diyarbəkirdə. Burada Həmidiyyə adlanan alay fəaliyyət göstərirdi ki, onun başında tayfa rəisi olan İbrahim





paşa dururdu. Sonradan onun adının bir basqın və soyğunda halllandığından dolayı, Ziya Göyalp, xalqı hökumətə qarşı çıxmağa çağırmışdır. Onun bu çağırışından sonra yerli əhali, müxtəlif aralıqlarla üç gün teleqraf idarəsini ələ keçirə bildi. Sözü edən hadisə 1905-ci ildə baş vermişdir. Teleqrafı ələ keçirdikdən sonra İbrahim paşa və onun adamlarının cəzalandırılması üçün Osmanlı sarayına teleqraflar vurulmuşdur. O zamanlar Diyarbəkir, Avropa ilə Asiya arasında teleqraf mərkəzi hesab edilirdi. Bu səbəbdən də iki qitə arasında xəbərləşmə kəsildiyindən hadisələr bir az da böyümüş və xarici dövlətlər Osmanlı sarayına müxtəlif təzyiqlər etməyə başlamışlar.

Yalnız bundan sonra hadisələri araşdırmaq üçün İstanbuldan Diyarbəkirə xüsusi komissiya göndərilmişdir. Hadisələri yerində araşdıran komissiya, Həmidiyyə alayının bir müddət bitərəf qalmasını və özbaşnalığa son qoymasını istəmişdir. Ancaq xalqın yenidən ayağa qalxmasına səbəb olan hadisələr baş verincə, Ziya Göyalp və onun silahdaşlarının rəhbərliyi altında xalq yenidən teleqraf idarəsini ələ keçirmişdir. İdarə tam olaaq on bir gün üsyançıların əlində qalmış və hadisə xalqın qələbəsi ilə başa çatmışdır. Belə ki, hadisələrin sonunda hökumət İbrahim paşanı və onun rəhbərlik etdiyi Həmidiyyə alayını bölgədən çıxamışdır. Ziya Göyalpın ilk əsəri olan "Şaki (quldur) İbrahim" bu hadisələr haqdadır.

Osmanlıda II Məşrutiyətin elan olunmasından sonra Ziya Göyalp və onun silahdaşlarının qurmuş olduqları gizli cəmiyyətin yerini Osmanlı İttihad və Tərəqqi Cəmiyyətinin Diyarbəkir şöbəsi tutmuşdur. Yaranmış olan yeni partiyanın yerlərdə şöbələri açılmaqda idi. Bu işdə təbii ki, Ziya Göyalp da fəal iştirak etmişdir. Belə ki, o, partiyanın Diyarbəkir, Van və Bitlisdəki şöbələrinin qurulmasından cavabdeh idi. Bu dönəmdə Ziya Göyalp, Diyarbəkir və Peyman qəzetlərinə müxtəlif siyasi

mövzularda yazılar yazırdı. Partiyanın 1909-cu ildə Selanikdə keçirilən konfransında o, bölgə rəhbəri kimi iştirak etmişdir.

Bundan sonra isə bir ərzində İstanbul Darülfününda (fənlər evi) psixologiya ozuduqdan və Diyarbəkirdə təhsil müfəttişi işlədikdən sonra, Ziya Göyalp, yenidən Selanikə qayıtmışdır. Bu zaman partiyanın yeni konfransında o, mərkəzi orqana üzv seçilmişdir. Burada o, "Gənc qələmlər", "Yeni fəlsəfə", "Rumeli" kimi qəzet və jurnallara yazılar yazmış və Türkçülük və türk dilində sadələşmə aparılması hərəkatlarının öncüllərindən birinə çevrilə bilmişdir. Onun bu mövzularda yazmış olduğu yazılar xalq və xüsusən də gənclər arasında geniş maraq doğururdu. Bu da təbii ki, ətrafdıkıların onun təsiri altına düşməsinə yol açırdı. İttihad və Tərəqqi partiyasının əsas mərkəzi 1912-ci ildə Selanikdən İstanbula köçmüşdür. Bunan sonra isə Ziya Göyalp da İstanbulda yaşamağa başlamışdır. Ziya Göyalp, həmin ildə Ərqani mədənindən millət vəkili seçilmişdir.

Onun Türk Ocağı ətrafında olan işləri, Türk Yurdu və özünün çap etdirdiyi "Yeni Məcmua" jurnalındakı yazıları Türkçülük ideologiyasının daha da genişlənməsinə yol açmışdır. Onun əsas şüarlarından biri isə "Türkləşmək, İslamlaşmaq və Müasirləşmək" olmuşdur. Partiya rəhbərliyi üzərində olan təsiri nəticəsində, partiyanın çıxarmış olduğu bütün qərarlara özünün fikirləri ilə zənginlik qazandırmışdır. Bununla da Ziya Göyalp, İstanbulun işğalına qədər olan siyasi dönəmdə özünün siyasi çəkisini qoruya bilmişdir. İstanbul işğal edildikdən sonra isə həbs edilərək Malta adasına göndərilmişdir. Onun Malta adasındakı sürgün həyatı 1919-1921-ci illəri əhatə edir. Sürgündən qayıtdıqdan snra Diyarbəkirə getmiş və orada kiçik bir qəzet çapı ilə məşğul olmuşdur. Daha sonra isə yəni, 1923-cü ildə tərcümə heyyəti rəhbərliyinə gətirilmişdir.

1923-cü ildə Diyarbəkirdən millət vəkili olaraq məclisə qatılmışdır. Bu zamanlarda "Hakimiyyəti milliyə", "Yeni gün",





"Cümhuriyyət" qəzetlərində məqalələri çıxırdı. Yenə də həmin ildə, yəni 1923-cü il içində bir-birinin ardınca "Altun İşık", "Türkçülüyün əsasları", "Türk törəsi" kimi kitabları nəşr edildi. Ziya Göyalp, Cümhuriyyət Xal Partiyasının proqramını araşdırmış və bu araşdırmanın nəticəsi olaraq "Doğru Yol" adlı yazısını yazmışdır. Təxminən həmin illərdə yazmış olduğu "Türk Mədəniyyə Tarixi" əsəri isə ölümündən sonra nəşr edilmişdir. Yenə də ölümündən sonra müxtəlif qəzet və jurnallarda nəşr edilmiş olan yazıları və məktubları bir neçə kitabda toplanaraq nəşr edilmişdir. Bunlara misal olaraq "Çinaraltı", "Fırka nədir", "Ziya Göyalp deyir ki" göstərə bilərik.

Türk Dünyasının böyük insanı, Türkçülük ideologiyasının yaranmasında və formalaşmasında misilsiz xidmətləri olan Böyük Türk, Ziya Göyalp 1924-cü ildə İstanbul şəhərində vəfat etmişdir.

## ƏNVƏR PAŞA
### *1880 - 1922*

Böyük Türk komandanlarından biri. Onun və yaşadığı zaman haqqında günümüzə qədər çoxlu sayda yazılar yazılmış və mülahizələr söylənmişdir. Ənvər paşa 1880-ci ildə İstanbulda hərbçi ailəsində dünyaya gəlib. Belə ki, onun atası karyerası dönəmində podpolkovnik hərbi rütbəsinə qədər yüksələ bilmişdir. Atası Əhməd bəy, anası Ayşə xanımdır. Kiçik yaşlarında həddən artıq istəyinə görə üç yaşı olarkən orta məktəbə verilib. Orta məktəbdən sonra hərbi məktəbə daxil olmuşdur.

Ənvər Paşa üçüncü türk ordusunun süvari və artelleriya hissələrində qulluq etdiyi zamanlarda ciddi siyasi fəaliyyətlə də məşğul olmuşdur. Belə ki, hələ oxuduğu hərbi məktəbdə Osmanlı sultanı II Əbdülhəmidə müxalif olan qüvvələrin arasında yer alır. Məhz bu səbəbdən bir dəfə sorğu-suala tutulsa da həbs edilməmişdir. Bu zaman bir qrup vətənpərvər gənc, Osmanlı Dövlətini tənəzzüldən qurtarmaq məqsədilə "Gənc Türklər" adlı siyasi təşkilat yaratmışdı. Tezliklə Ənvər Paşa bu təşkilatın liderinə çevrilmişdir. Selanikdə isə sözü gedən təşkilat İttihad və Tərəqqi partiyası kimi fəaliyyət göstərirdi. Partiyanın əsas məqsədi isə qorxaq və cəsarətsiz Əbdülhəmid rejimini devirərək güclü və cəsarətli Türkiyə qurmaq idi. Ənvər paşa 1903-1904-cü illərdə Osmanlıya qarşı baş qaldıran alban, bolqar və rumın silahlı dəstələrinə qarşı mübarizədə böyük qəhrəmanlıqlar göstərdi və bütün bunlara görə bir sıra mükafatlara layiq görülmüşdür. Ənvər Paşa 1906-cı ildə minbaşı rütbəsi almışdır. Onun bolqarlara qarşı apardığı mübarizə,





Ənvər Paşada milliyyətçilik hisslərinin oyanmasında mühüm rol oynamışdır. Daha sonra isə İttihad və Tərəqqi partiyasının qurucularına qoşularaq, partiyanın bütün işlərində fəal şəkildə iştirak etmişdir.

Bu elə bir dövr idi ki, artıq Osmanlı Dövlətinin tarix səhnəsindən silinmək zamanı gəlmişdi. Belə ki, 600 il molla və ruhanilərin əlində olan bu dövlət Avropa ölkələrindın fərqli olaraq bütün inkişaf və tərəqqidən geri qalırdı. Bütün kəşflərə ruhanilərin "kafir icadıdır" fətvası bütövlükdə Osmanlı cəmiyyətini inkişafdan saxlamışdı. Ənvər Paşa və onun dostları da vətəndaşı olduqları dövləti daha güclü və daha inkişaf etmiş vəziyyətdə görmək arzusunda idilər. Bütün geri qalmanın səbəbini isə onlar haqlı olaraq Osmanlı sarayında görürdülər. Bu səbəbdən də qurduqları partiya hökumətə və sultana hər cür təzyiq və təsir vasitələrindən istifadə edirdi.

3 iyun 1908-ci ildə Ənvər və Niyazi bəylərin başçılığı ilə bir dəstə gənc zabit meydana çıxıb 1876-cı il konstitusiyasının bərpasının tələb etdilər. İyulun 24-də Osmanlı sultanı parlamentin və konstitusiyanın bərpası haqda olan fərmanı imzaladı. Bir il sonra isə Ənvər Paşa, Almaniya səfriliyinə hərbi attaşe vəzifəsinə təyin olunur.

1911-ci ildə Liviya uğrunda Türkiyə ilə İtaliya arasında müharibə başlayır. Ənvər Paşa qardaşı Nuru Paşa ilə birlikdə bu müharibədə iştirak etmək üçün sözü gedən ölkəyə göndərilirlər. Burada göstərdiyi qəhramanlıqlara görə Ənvər Paşa əvvəlcə briqada generalı, daha sonra isə hərbi nazir vəzifəsinə yüksəldilir. 1914-cü ildə başlayan Birinci Dünya Müharibəsi zamanı Ənvər Paşa, Almaniya ilə müttəfiq olaraq bu müharibəyə girməyin tərəfdarı kimi çıxış etmişdir. Onun hərbi zəkası burada da özünü göstərmşdir. Belə ki, məhz Ənvər Paşanın rəhbərliyi ilə həyata keçirilən Dardanel əməliyyatı zamanı dünyanın ən güclü donanmasına sahib olan İngiltərə, boğazdan geri çəkilmişdir.

Bundan sonra isə rusların Türkiyənin şərqinə hücumu başlamışdır. Yenə də ruslara təbii ki, təbiət özü kömək edir. Belə ki, dəhşətli şaxtalar nəticəsində türk ordusunun böyük bir hissəsi və hərbi texnika məhv olur. Ancaq sonradan ruslar məğlub edilərək geri oturdulur. Almaniya və müttəfiqlərinin Birinci Dünya Müharibəsində məğlub olmasından sonra Ənvər Paşa hərbi nazir vəzifəsindən istefa verməli olmuşdur. Bunda sonra o, Türküstana gedərək burada Turan ordusu yaratmışdır. Burada isə Orta Asiyanın Türk Respublikalarını işğal etmiş bolşeviklərə qarşı döyüşmüşdür. Bu döyüşlər zamanı o, bir neçə böyük və strateji əhəmiyyət daşıyan şəhəri bolşeviklərdən azad edə bilmişdir. Ancaq təəssüflər olsun ki, qorxaq və kölə xislətli taciklər, döyüşlərin birində bu Böyük Türkü döyüş meydanında tək qoaraq qaçmışlar. Ənvər paşa isə qılıncını sıyıraraq rus pulemyotunun üzərinə yürümüş və bu zaman Pamirin ətəklərində şəhid olmuşdur.

Ənvər Paşaya məxsus olan hərbi geyim, durbin, papaq və şəxsi "Qurani-Kərim"i günümüzdə Moskva muzeyində saxlanılmaqdadır. Qəbri uzun illərdən sonra vətəninə gətirilərək, cəsədi anadan olduğu İstanbul şəhərində Tələt Paşanın yanında dəfn edilmişdir. Tacikistanda olan məzarı üzərində isə abidə ucaldılıb. Ənvər paşanın vətənini həddən artıq sevməsi bir faktdır və bunu onun düşmənləri də dana bilməz. Ancaq onun xəyal gücünün də həddən ziyadə geniş olması məlumdur. Bu səbəbdən də zaman-zaman həqiqətlərlə, xəyallarını qarışdırması olmuşdur. Xəyallarında daim türklərin Hindistan, İran, və Qafqaza hakim olmağı keçirən Ənvər paşa bunu həyata keçirə bilməmişdir. Təbii ki, o zamanlar Osmanlının buna gücü çatmazdı. Bu böyük komandan da məhz bunu qəbul etmək istəmirdi.





## ATATÜRK
## *1881- 1938*

> ***"Nə mutlu türküm deyənə"***
> ***"Milli mənliyini tapa bilməyən millətlər, başqa millətlərin qulu olur"***
>
> **Atatürk**

XX əsrdə Anadolu Türkləri arasından çıxmış ən böyük insan. Mustafa Kamal 1881-ci ildə mayın 19-da Selanikidə məmur ailəsində dünyaya gəlmişdir. Atası Əli Rza Əfəndi, anası Zübeydə xanımdır. Atası ilə anası 1871-ci ildə ailə qurmuşdur. Mustafa Kamal, atasını itirdiyi zaman yeddi yaşında olub.

O, əvvəlcə fərdi şəkildə təhsil almışdır. Daha sonra isə hərbi məktəbə daxil olmuşdur. Bir müddət sonra isə ilk türk ali hərbi məktəbini bitirmişdir. Ona "Kamal" adını məktəbdə göstərmiş olduğu böyük zəka və qabiliyyətinə görə müəəlimləri vermişdir. Mustafa 1905-ci ildə qərərgah kapitanı hərbi rütbəsi alaraq Suriyanın Şam şəhərinə təyinat almışdır. Bu, elə bir dövr idi ki, artıq Osmanlı sürətlə zəifləyir və nüfuzdan düşürdü. Bunun qarşılığında isə Avropa və Rusiya yeni silahlanmış orduları ilə Osmanlını öz aralarında bölməyə hazırlaşırdılar. Ümumiyyətlə isə dünya böyük müharibə ərəfəsində idi və müharibənin başlanması an məsələsi idi. Mustafa Kamal, Osmanlı Dövlətinin müxtəlif bölgələrində hərbi xidmət göstər-

məklə yanaşı, eyni zamanda bir an da olsun siyasi fəaliyyətdən qalmırdı. Bu arada isə göstərmiş olduğu xidmətlərə görə hərbi rütbəsi sürətlə qalxmaqda idi. Düzdür, baş qərərgahda bu, müstəqil zabiti bəyənmirdilər. Ona görə də cəzalandırmaq üçün ona daim ağır tapşırıqlar verilmişdir. Ancaq, Mustafa Kamal güclü zəkası və hərbi qabiliyyəti sayəsində bütün tapşırıqların öhdəsindən məharətlə gəlmişdir. 1911-ci ildə o, artıq Liviya uğrunda Türkiyə ilə İtaliyanın apardığı müharibədə iştirak edirdi. Nəhayət, gözlənilən an gəlib çatdı. Belə ki, Almaniyanın 1914-cü il avqustunda özünün əbədi düşməni olan Rusiyaya müharibə elan etməsilə Birinci Dünya Müharibəsi başlanmış oldu.

Hadisələrin gedişi Türkiyəni, Almaniyanın müttəfiqi olaraq müharibəyə soxdu. Bu zaman Mustafa Kamal, Rumelidəki 19-cu diviziyaya komandir təyin edildi. 1915-ci ilin əvvəllərində İngilis donanması Dardanel boğazını keçməyə təşəbbüs etmişdi. Ancaq, Mustafa Kamalın rəhbərlik etdiyi topçu alayının qəharamanlığı buna imkan vermədi. Bu zaman alman generalı Limon fon Sandere ordu komandanı, Mustafa isə onun köməkçisi təyin olunmuşdu. İngilislər böyük itkilər verməsinə baxmayaraq irəliləyə bilmədilər. Sonunda ingilis ordusunun inadı qırıldı və onlar geri çəkilməyə məcbur oldular.

Artıq bu zaman Mustafa Kamal polkovnik rütbəsi almışdı. Çanaqqala döyüşündən sonra o, ümumxalq qəramanına çevrildi. 1916-cı ilin aprelində Mustafa Kamal, Bitlis-Muş cəbhəsində ruslara qarşı döyüşən orduya komandan göndərildi. O, bir ay müddətində rusları bölgədən qova bildi.

Mustafa Kamalın bundan sonrakı fəaliyyəti onun nəinki qüdrətli komandan, eyni zamanda dahi siyasi rəhbər olmasını ortaya qoydu. Düzdür, Birinci Dünya Müharibəsindən sonra Osmanlı İmperiyası dağıldı və bu dövlətin 600 ildən bəri hökmdarlıq etdiyi torpaqlar onun əlindən çıxdı, ancaq türklərin ana





vətəni olan Anadolu, Atatürkün hərbi və siyasi dühası nəticəsində əbədi olaraq Türk Millətinin əlində qaldı. Nəhayət, Atatürk, 1922-ci il avqustun 22-də Sakarya qələbəsi ilə azad, müstəqil və güclü Türkiyənin əsasını qoydu.

Neçə illərdir ki, cəbhədə, güclü və amansız düşmənlə döyüşlərdən sonra hərbi texnika cəhətdən geridə qalan bir xalq, yağı düşmən olan yunanların generalları ilə birlikdə yüz mindən çox ordusunu əsir tutmaqla, azadlıq uğrunda apardığı mübarizənin son nöqtəsini qoymuş oldu. Maraqlıdır ki, Atatürkün dəfnində iştirak etmək üçün Ynunanıstan nümayəndə heyyətinin tərkibində vaxtilə məhz Atatürkə əsir düşmüş olan general Trikupis də var idi.

Tarixçi A. Miller haqlı olaraq Mustafa Kamalın bu qələbəsini "Anadolu epopeyası" adlandırmışdır. Digər bir tarixçi olan Seton Lloyd isə Atatürkü, makedoniyalı İsgənədərə bənzədərək, onların hər ikisinin oxşar olduğunu yazmışdır. Axı Atatürk də əslən makedoniyalıdır. Onun dünyaya gəldiyi zamanda Makedoniya, Osmanlı ərazisi idi.

1923-cü ildə Türkiyə dövlət olaraq parlamentli Respublika elan edildi. Və qısa zaman ərzində bu gənc dövlət, Atatürkün düzgün və ağıllı qərarları ilə müasir, azad, demokratik və güclü dövlətə çevrildi.

Mustafa Kamal Atatürkün, Türk Milləti qarşısında daha bir xidməti isə Türkiyə ərazisində marksizm-kommunizm ideyalarının və buna meylli partiyalarının meydan sulamasına imkan verməməsi olmuşdur. Onun qoymuş olduğu bu ənənə sonradan Adnan Menderes və Cəlal Bayar tərəfindən davam etdirilmişdir. Nəticədə isə Türkiyə Respublikası zamanın ən qorxunc təhlükələrindən və bəlalarından olan kommunist diktaturasından xilas oldu.

Atatük, özəl həyatını da sadəlik içində yaşamışdır. O, 29 yanvar 1923-cü ildə Ətifə xanımla ailə həyatı qurmuşdur.

Onların bu evliliyi 5 avqust 1925-ci ilə qədər davam etmişdir. Tanrının dahilərin əksəriyyətinə bəxş etmiş olduğu övladsızlıq payı təəssüflər olsun ki, bu böyük insana da düşmüşdür. Ancaq bununla belə, Atatürk, uşaqları həddən artıq çox sevmişdir. Belə ki, bir neçə uşağa mənvi atalıq etmişdir.

Fransız və alman dillərini mükəmməl şəkildə bilən Atatürkün, səhhətində 1937-ci ildən etbarən priblemlər yaşanmağa başlamışdır. Həkimlər ona 1938-ci ilin əvvəllərində qara ciyər serrozu diaqnozu qoydular. Türkiyə və Avropanın ən tanınmış həkimlər nə qədər çalışsalar da, etdikləri müalicə bir nəticə verməmişdir. Bu Böyük türk, elə bu xəstəlikdən də 10 noyabr 1938-ci ildə saat 09:05-də İstanbulda Dolmabağça Sarayında ruhunu Tanrıya təslim etmişdir.





## NURU PAŞA
### *1889 - 1949*

Türk Dünyasının XX əsrdə yetişdirmiş olduğu böyük sərkərdələrdən biri. Müasir Azərbaycanın varlığını bizlər məhz bu, türk generalına borcluyuq. Belə ki, onun və qardaşı Ənvər Paşanın vaxtında hərbi müdaxiləsi olmasaydı, kim bilir Azərbaycanın indiki sərhədləri haradan keçəcəkdi. Və ümumiyyətlə bu sərhəd olacaqdımı? Ancaq təssüflər olsun ki, hələ də bu generalın abidəsi əbədiləşdirilməmiş olaraq qalmaqdadır. Ancaq, halbuki belə bir abidə olsaydı, bütün Azərbaycan yeniyetmələrini hələ məktəbli illərindən etibarən dövlətinin xilaskarı olan bu insanı ziyarət etməyə alışdırmaq olardı.

Nuru Paşa 1889-cu ildə İstanbulda hərbçi ailəsində dünyaya gəlmişdir. Mənbələrdə göstərildiyinə görə onun əsli Krım tatarlarındandır. Nuru Paşa 1906-cı ildə quru qoşunları hərbi məktəbinə daxil olaraq, 1909-cu ildə həmin məktəbi leytenant rütbəsi ilə bitirmişdir. Bundan sonra isə Osmanlı ordusunun hərbi hissələrinin birində zabit kimi xidmətə başlayıb. O, 1910-cu ildə Osmanlı sultanınına məxsus piyada bölüyünə keçirilib. Nuru Paça bundan sonra da hərbi təhsilini davam etdirərək 1911-ci ildə ali hərbi akademiyanı bitirmişdir. Bundan sonra ona yüzbaşı (kapitan) rütbəsi verilmişdir. Daha sonra isə bu Böyük Türkün hərbi yüksəlişi başlamışdır. Belə ki, o, 1916-cı ildə minbaşı (mayor), 1918-ci ildə yarbay (podpolkovnik) rütbələrinə layiq görülmüşdür.

Birinci Dünya Müharibəsi başlanan zaman Nuru Paşa, Şimali Afrika cəbhəsinə göndərilmişdir. O, indiki Liviya ərazisində cəbhə komandanı kimi, Türkiyəyə və onun müttəfiqlərinə

qarşı cəbhə yaradan qüvvələrə qarşı hərbi əməliyyatlara rəhbərlik etmişdir. Şimali Afrika cəbhəsində göstərdiyi şücaətlərə görə Nuru Paşa, 1916-cı ildə "Altun ləyaqət" medalına, Almaniya hökumətinin "Dəmir xaç" medalına, habelə o dönəmdə Osmanlının digər müttəfiqi olan Avstrya-Macarıstan hökumətinin üçüncü dərəcəli fərqlənmə nişanına, Türkiyənin "Altun imtiyaz" medallarına layiq görülmüşdür. Onun hərbi rütbəsi sultanın qərarı ilə vaxtından əvvəl yüksəldilir.

1918-ci ilin yazında Osmanlı Türkiyəsi hökumətinin Azərbaycanı və Dağıstanı rus-erməni işğalından azad etmək üçün cəbhə yaratdığı zaman, gənc, ancaq döyüş təcrübəsi kifayət qədər olan Nuru Paşanı bu yaranacaq ordunun komandanı təyin etmişdir. Bu və bu kimi səbəblərdən dolayı, Osmanlı sultanının əmri ilə Nuru Paşaya vaxtından əvvəl general-mayor rütbəsi verilmişdir. Bu zaman isə onun digər qardaşı olan Ənvər Paşa, Türkiyənin müdafiə naziri idi. Nuru Paşa bir hərbçi kimi ən böyük uğurlarından birini də məhz Azərbaycanda əldə etmişdir. Bununla da o, Türkiyə-Azərbaycan əsgəri qardaşlığının təməllərini qoymuş oldu.

Nuru Paşa 1918-ci ildə Azərbaycana gələrək, Qafqaz İslam ordusunun hərbi qüvvələrinin yaradılmasında, türk hərbçilərinin qardaş Azərbaycana vaxtında gətirilməsində, nəhayət, Azərbaycan ərazisinin rus-erməni hərbi qüvvələrindən təmizlənməsində əhəmiyyətli rol oynamışdır. Məhz onun vaxtında və yerində müdaxiləsi nəticəsində erməni-daşnaq ordusunun Bakıda və Azərbaycanın müxtəlif bölgələrində aparmış olduğu soyqırımın qarşısı vaxtında alına bilinmişdir. Belə ki, Nuru Paşanın rəhbərlik etdiyi türk ordusu 1918-ci ilin iyunun 17-dən sentyabrın 14-dək bir-birinin ardınca uğurlu əməliyyatlar apararaq işğal edilmiş Azərbaycan torpaqlarını erməni işğalçılarından azad etmişdir. Həmin ilin senyabrın 15-də isə Nuru Paşa Bakını azad edərək Azərbaycanın paytaxtına daxil





olmuşdur. Bakının azad edilməsindən sonra isə Ənvər Paşa teleqram vuraraq Nuru Paşanı və bütün Azərbaycan türklərini təbrik etmişdir.

Bakı şəhərinin azad edilməsindən sonra, Qafqaz İslam ordusu, Nuru Paşanın rəhbərliyi altında Qarabağa üz tutmuş və Qarabağ ərazisinin erməni daşnaklarından təmizlənməsində iştirak etmişdir. Ermənilərin Qarabağ ərazisində göstərmiş olduğu ciddi müqavimətə baxmayaraq, Türkiyə-Azərbaycan hərbi birləşmələri düşməni məğlub edərək Şuşa şəhərinə daxil olmuş və burada Azərbaycanın üç rəngli bayrağını dalğalandıra bilmişdir.

Lakin, Türkiyə və müttəfiqlərinin Birinci Dünya Müharibəsində məğlub edilməsi nəticəsində Nuru Paşa başlatmış işi yarımçıq qoymalı oldu. Belə ki, 1918-ci il oktyabrın 3-də imzalanmış olan Mondros müqaviləsinin şərtlərinə görə Türkiyə hərbi qüvvələri Azərbaycan ərazisni tərk etmək məcburiyyətində qalmışdır. Nuru Paşa bundan sonra 1920-ci ildə baş vermiş aprel çevrilişindən sonra gizli yollarla bir qrup türk zabiti ilə Dağıstan ərazisindən keçərək, Şuşa şəhərinə gəlmiş və burada bolşeviklərə qarşı aparılan döyüşlərdə iştirak etmişdir. Bundan başqa o, Qarabağın müxtəlif yerlərində və Zaqatalada xalqı bolşeviklərə qarşı üsyana səsləmiş və döyüşlərə rəhbərlik etmişdir. Daha sonra Nuru Paşa, bir süvari alayı və bir batareya ilə Türkiyəyə dönərək Ərzurum şəhərinə gəlmişdir. Ərzurumdan Naxçıvana keçən Nuru Paşa, burada bolşeviklərə qarşı mübarizə aparan silahlı dəstəyə qoşularaq azadlıq mücadiləsində iştirak etmişdir.

Böyük Türk olan Nuru Paşa, 1923-cü ildə təqaüdə çıxmışdır. Təqaüdə çıxdıqdan sonra isə o, iş adamı olaraq fəaliyyət göstərmiş və İstanbul yaxınlığında dəmirtökmə zavodu açmışdır. İkinci Dünya Müharibəsi başlandığı zaman isə bu zavod dövlətin sifarişi ilə hərbi məhsulllar istehsal etməyə

başlamışdır. Belə ki, Nuru Paşanın rəhbərlik etdiyi zavod bu illərdə qumbara, minaatan və digər silahlar istehsal etmişdir. Bu Böyük Türk 1949-cu il martın 2-də sözü gedən zavodda baş verən partlayış zamanı həlak olmuşdur. Nuru Paşanın nəşi İstanbul şəhərində torpağa tapşırılmışdır.

Nuru Paşanın Azərbaycanda və dünyanın müxtəlif bölgələrində göstərmiş olduğu qəhramanlıqlar, şücaətlər, igidliklər onu xilaskar bir komandan kimi bütün Türk Dünyasında tanıtmışdır. Məhz onun keçmiş olduğu həyat yolu müasir gənclərə vətən, bayraq, dövlət, millət sevgisinə nümunə olmalıdır.





## NAZİM HİKMƏT
### *1902 - 1963*

*Mən yanmasam, sən yanmasan,*
*Biz yanmasaq,*
*Necə çıxar qaranlıqlar*
*aydınlığa...*

**Nazim Hikmət**

Böyük türk şairi Nazim Hikmət Ran, 1902-ci ilin 15 yanvarında Səlanikdə anadan olub. Ləqəbi "Gözəl gözlü şair", və ya "Mavi gözlü div"dir. Şerlərinin qadağan olduğu illərdə Orxan Səlim adı altında da şerlər yazdığı məlumdur. Hətta onun yazmış olduğu "İt hürər karvan keçər" adlı kitabı məhz Orxan Səlim adı ilə çap edilmişdir. Nazim Hikmət, Türkiyədə sərbəst vəzndə şer yazan ilk şairdir. O, türk şerinin çox önəmli insanlarındandır. Belə ki, XX əsrin ilk yarısında yaşamış olan şairlər arasında ən məşhurlardan biri də Nazim Hikmətdir. Onun yazmış olduğu əsərlər dünyanın bir çox dillərinə tərcümə edilmişdir. Türkiyədə fəaliyyət göstərən kommunist partiyasının üzvü olmuş və buna görə on bir dəfə məhkəməyə düşmüşdür.

Atası mətbuat müdürlüyü və Türkiyənin Hümburqda konsulu olmş Hikmət bəy, anası isə Ayşə Cəlilə xanımdır. Nazim Hikmətin Samiyə adında bir bacısı da olub. Nazim Hikmətin anası Cəlilə xanım, piano ifa edə bilən, rəssam deyilə biləcək

səviyyədə rəsimlər çəkən və fransız dilini bilən bir qadın olmuşdur. Cəlilə xanım, dilçi olan Həsən Ənvər paşanın qızıdır. Həsən Ənvər paşa, Polşada baş qaldıran üsyanlar zamanı 1848-ci ildə Osmanlı Dövləti ərazisinə gəlmiş və bu dövlətin vətəndaşlığını qəbul etmişdir. Osmanlı vətəndaşı olduqdan sonra onun adı dəyişdirilərək Mustafa Cəlaləddin paşa olmuşdur. Dərhal da Osmanlı ordusunda xidmətə başlamışdır. Cəlilə xanım anası alman əsilli Osmanlı paşası Mehmet Əli paşanın qızı olan Leyla xanımdır.

Atası Hikmət bəy, Səlanikdə dövlət müəssisəində işləyən bir məmurdur. Diyarbəkir, Hələb, Konya və Sivas kimi Osmanlı əyalətlərində valilik etmiş olan Nazim paşanın oğludur. Nazim paşa eyni zamanda Səlanikin son valisidir. Hikmət bəy, hələ Nazim uşaq olarkən, məmurluqdan istefa verərək ailəliklə atasının yanına - Hələbə köçürlər. Burada həyatlarını normal qura bilməyən ailə, yenidən İstanbula dönmək məcburiyyətində qalır. Hikmət bəyin İstanbulda da işləri yaxşı getmir. Belə ki, o, bir neçə dəfə öz şəxsi işini qurmağa cəhd göstərsə də, müvəffəqiyyət əldə edə bilmir. Belə olduğu təqdirdə isə o, heç xoşlamadığı məmurluq işinə yenidən qayıtmalı olur.

Nazim Hikmət, əsərlərinə görə bir çox mükafatlar almışdır. Türkiyədəki həyatının böyük bir hissəsi həbsxana divarları arasında keçmişdir. Daha sonra isə Moskvaya getmiş və bundan dolayı, türk vətəndaşlığından çıxarılmışdır. Böyük şair, 1938-ci ildə həbsxanaya düşdükdən sonra şerləri Türkiyə ərazisində qadağan edilmişdir. Onun əsərləri ölümündən yalnız iki il sonra, yəni, 1965-ci ildə yenidən nəşr edilməyə başlanmışdır.

Nazim, ilk şerlərini heca vəznində yazmışdır. İllər keçdikcə bu vəzn onu qane etməmiş və şer yazmaq üçün yeni vəzn axtarmışdır. Sovet İttifaqına gəldikdən və burada yaşadığı ilk illər olan 1922-1925-ci illərdə onun bu axtarışı özünün kuliminasiyasına çatmışdır. Çünki o, müasirlərindən tam fərqli şair və





insan olub. Bu səbəbdən də heca vəznindən imtina edərək Mayakovskinin təsiri altında sərbəst vəzndə şerlər yazmağa başlamışdır. Onun bir çox şerlərinə musiqilər bəstələnib.

Nazim Hikmət ilk şeri olan "Fəryadi Vətən" şerini on üç yaşında yazmışdır. Eyni ildə də Qalatasaray Sultanisində ibtidai məktəbə getməyə başlamışdır. 1917-ci ildə hərbi məktəbə daxil olmuşdur. Daha sonra isə Qurtuluş savaşı başlandığından Anadoluya göndərilir. Ancaq səhhətində olan problemlərdən dolayı, hərbidən ayrılır.

Hərbidən ayrıldıqdan sonra Nazim Hikmət, müəllim kimi Boluya göndərilir. Bir müddət sonra Batumiyə gələrək, buradan da Moskvaya gedir. 1921-ci ildə gəlmiş olduğu Moskvada siyasi elmlər və iqtisadiyyat fakultəsini oxuyur. Burada olduğu ilk illərdə isə kommunizm ideologiyası ilə tanış olmuşdur. 1924-cü ildə Türkiyəyə qayıdır və burada "Aydınlıq" qəzetində işləməyə başlayır. Nəşr olunan şer və yazılarından dolayı, onun haqqında on beş il həbs cəzası istənir. Bundan sonra isə yenidən Moskvaya qayıtmalı olur. 1928-ci ildə Türkiyədə çıxan bəraətdən sonra yenidən vətənə dönür. Bu dəfə isə "Şəkilli ay" jurnalında işləməyə başlayır.

1938-ci ildə ordunu mövcud hakimiyyətə qarşı qalxmağa səsləməkdə təqsirli bilinərək, iyirmi səkkiz il qörd aylıq həbs cəzasına tuş gəlir. On iki illik həbsxana həyatından sonra 1950-ci ildə çıxan əfv qanunundan sonra azadlığa çıxmışdır. Bundan sonra isə hərbiyə çağırılacağı və orada öldürüləcəyi narahatlığından dolayı 1950-ci ildə "millətlər atası" Stalin rejimində yaşayan Sovet İttifaqına qaçır. 1951-ci ildə Türkiyə nazirlər şurasının qərarı ilə Türkiyə vətəndaşlığından çıxarılır. Bunda sonra Nazim Hikmət, ulu babası Mahmud Cəlaləddin (əsil adı Konstantin Borzeski paşanın) vətəni olan Polşa vətəndaşlığını qəbul edir və Borzeski soyadını götürür. O, Moskvada Vera Tulyakova (Hikmət) adlı bir qadınla ailə həyatı

qurmuşdur. Moskvada yaşadığı illər ərzində Nazim Hikmət, bir çox ölkələrə o cümlədən də Bolqarıstan, Macarısatn, Fransa, Kuba, Misir kimi ölkələrə səfərlər etmiş, burada müxtəlif elmi və bədii simpoziumlara qatılaraq mühazirələr oxumuşdur. Türk Dünyasının böyük şairlərindən olan, həyatı keçməkeşlərlə və həbsxana divarları arasında keçən, ən əsası Böyük Türk olan Nazim Hikmət, 3 iyun 1963-cü ildə səhər saat 06 : 30-da gündəlik qəzetlərini almaq üçün getdiyi qəzet köşkünün yaxınlığında ürəyi qəfil narahat olmuş və elə oradaca vəfat etmişdir. Ölümünün əsl səbəbi isə bir Fransız qəzetinə verdiyi müsahibədir. Müsahibəsində o, şerlərinin təhrif olunmasından dolayı şikayətçi olmuş və Sovet rejiminin onu sıxdığını bildirmişdir. Bundan sonra isə xanımı və eyni zamanda da KQB agenti olan Vera Tulyakova tərəfindən iynə vurularaq zəhərlənmişdir. Qəbri hazırda vəfat etdiyi Moskva şəhərindədir. Nazim Hikmətə Türkiyə nazirlər kobinetinin 5 yanvar 2009-cu il tarixli qərarı ilə əlli səkkiz ildən sonra yenidən Türkiyə vətəndaşlığı verilmişdir. Bu Böyük Türk haqqında olan yazımızın sonundan onun bəzi əsərlərinin adlarını verməyi özümüzə borc bilirik. "Məmləkətimdən insan mənzərələri", "Unudulan adam", "Fərhad və Şirin", "Qız uşağı", "Tahir ilə Zöhra", "Şeyx Bədrəddin dastanı" və "Sevdalı bulud".





## ALP ARSLAN TÜRKEŞ
### *1917 - 1997*

Türk əsgər və siyasət adamı. XX əsrdə Türk Milliyyətçiliyini siyasi müstəviyə gətirərək onu qloballaşdıran insan. Alp Arslan Türkeş, 1917-ci ildə indiki Şimali Kipr Türk Cümhuriyyətinin paytaxtı olan Lefkoşe şəhərində dünyaya gəlmişdir.

Türkiyə ülküçülərin (milliyyətçilər) başbuğu adlandırılan Türkeş, eyni zamanda Türkiyə siyasətini dərindən təsirləndirən siyasət adamlarından biri olmuşdur. Alp Arslan Türkeş, öncə Qüləli Hərbi liseyini, daha sonra isə ali hərbi məktəbdə təhsil almışdır. 1944-cü ildə yüzbaşı rütbəsində olduğu zaman "Turançılıq" ideyalarını müdafiə etdiyi üçün məhkəməyə verilmişdir. Məhkəmənin onun haqqında çıxardığı cəza bir ildən az olduğu üçün yenidən orduya qayıda bilmişdir. 1948-ci ildə ali hərbi məktəbi bitirmişdir. 1959-cu ildə albay (polkovnik) rütbəsinə yüksəlmişdir. Türkiyədə hakimiyyətə qarşı (Adnan Menderes zamanı) 1960-cı il 27 may çevrilişinin baş verməsi xəbərini bütün Türkiyə üçün radiodan rəsmən o, oxumuşdur. Bu dönəmdə Milli Brlik Komitəsinin daxilində siyasi görüş ayrılığı səbəbindən on dörd yoldaşı ilə birlikdə istefa vermiş və təqaüdə çıxmışdr. Bir müddətdən sonra hökumət tərəfindən Hindisatan səfirliyində, səfirin müşaviri vəzifəsinə təyin edilir. Əslində bu, Türkeşi mərkəzdən uzaqlaşdırmaq üçün edilmişdi və bir növ onun üçün sürgün demək idi. 1963-cü ilə qədər hakimiyyət onun vətənə dönməsinə mane olmuşdur və buna icazə verilməmişdir. 1963-cü ildə yenidən vətənə qayıdan Alp Arslan Türkeş, Cümhuriyyətçi Kəndli Millət Partiyası (CKMP) sıralarına daxil olmuşdur.

1965-ci ildə sözü gedən partiyanın sədri vəzifəsinə yüksəldi və eyni zamanda da millət vəkili olaraq məclis üzvünə çevrildi. Bundan sonra isə partiyanın proqramını məşhur kitabı olan "9 işıqdakı görüşlər"dəkinə uyğunlaşdıraraq dəyişdirdi. 1969-cu ildə isə partiyanın adını dəyişdirərək Milliyətçi Hərakat Partiyası (MHP) etdi. 1975-ci ildə Türkiyədə Süleyman Dəmirəlin rəhbərliyi ilə qurulmuş olan koalisyon hökumətdə baş nazirin müavini və dövlət naziri zifəsində çalışmışdır. Türkiyədə baş verən növbəti çevrilişdən sonra isə dörd il yarım həbsxanada qalmışdır. Onun haqqında çıxan siyasətlə məşğul olma qadağası 1987-ci ildə üzərindən götürülmüşdür. Bundan sonra isə Milliyyətçi Çalışma Partiyasına (MÇP) daxil oldu və eyni il içində keçirilən partiyanın konqresində sözü gedən partiyanın başqanı seçilmişdir.

Alp Arslan Türkeşin rəhbərlik etdiyi partiya, 1991-ci ildə Türkiyədə keçirilən parlament seçkilərinə Rifah Partiyası (RP) ilə koalisiya şəklində qatılmışlar. Bu seçkilərdə səs qazanan Türkeş, yenidən millət vəkili seçilmişdir. Bundan sonra partiyasının adını dəyşdirərək yenidən MHP etmişdir. MHP adı ilə növbəti seçkilərə qatılan Türkeş, Türkiyə daxili səs səddini (11%) aşa bilmədi və parlamentdən kənarda qaldı.

Alp Arslan Türkeş, 4 aprel 1997-ci ildə 80 yaşı olarkən Ankarada ürək xəstəliyindən vəfat etmişdir. Onun yazmış olduğu çoxlu sayda əsərlərin bəziləri bunlardır: "Milli doktrin", "Ülküçülük", "1944 Milliyyətçilik Olayı", "Modern Türkiyə", "Qəhramanlıq ruhu", "Türkiyənin məsələləri" və s.

1860-cı ildə Orta Anadoluda, Kayseri şəhərinin Yuxarı Köşkərli kəndində mənskunlaşmış olan Əfşar türklərindən olan Qoyunoğlu ailəsi ortaya çıxmış olan bir torpaq mübahisəsinin sonunda Sultan Əbdüləzizin fərmanı ilə Kiprə sürgün edilir. 1917-ci il 25 noyabrda Lefkoşedə Tuzlalı Həmdi bəy və Fatma Zəhra xanımın Əli Arslan adını erdikləri bir oğulları dünyaya gəlir.





Daha sonra isə bir-birini izləyən məktəb illəri. Əvvəlcə ibtidai, daha sonra Ruştiyə məktəbi. Burada Hüsnü bəy, Sələhəddin bəy, Osman Zəki bəy və Turqut bəy kimi insanlardan türk milliyyətçiliyini və türkçülük şüurunu mənimsəmişdir. Bu kimi insanlardan müstəqil Türkiyə qurulacağı təqdirdə digər əsarətdə olan türk topluluqlarına sahib çıxılacağını və onların müstəqillik əldə etmələrinə yardımçı olmaq lazım olduğunu öyrənir. Daha sonra isə Osman Zəki bəy, Əli Arslanın adını "Alparslan olsun" deyərək dəyişdirmişdir. Ona bu adın verməsinin səbəbi isə Sultan Alp Arslan kimi igid bir türk olmasını istəməsidir.

Bu dönəmdə Kipr Osmanlının əlindən alınmışdı və İngiltərənin işğalı altında idi. Alp Arslan Türkeş də müstəqilliyi itirməyin nə demək olduğunu hələ uşaqlıq illərindən öyrənmişdir. Buna görə də tezliklə böyüyüb Türkiyədə hərbi məktəbi bitirdikdən sonra qayıdıb Kipri azad etmək üçün çırpınır.

Nəhayət 1933-cü ildə Alp Arslan Türkeş atası Əhməd Həmdi bəyi və anası Fatma Zəhra xanımı Türkiyəyə getməyə razı sala bilir. Onlar da əllərində nə varsa hamısını sataraq, qızları Dərvişəni də götürərək Türkiyənin yoluna tutaraq İstanbula gəlirlər. Ailə İstanbula gəldikdən sonra Türkeşin ilk işi Qüləli hərbi məktəbinə daxil olması olmuşdur. Burada o, türk milliyətçiliyi və türk milləti haqda yazılmış olan məşhur romanların müəllifi Hüseyin Nihal Atsızla tanış olmuşdur. Və demk olar ki, onun, türk milləti haqda olan söhbətlərinin təsiri altında yetişmişdir.

1936-cı ildə Qüləli hərbi məktəbini bitirir və Ankara ali hərbi məktəbinə daxil olur. 1938-ci ildə isə buranın məzunu olur. Artıq Türk Millətinə xidmət etmək üçün hazır vəziyyətdə olan Türkeş, dərhal fəaliyyətə başlamaq azusu ilə yaşayır. 1940-cı ildə Müzəffər xanımla ailə həyatı qurur. Bu evlilikdən onların Ayzit, Umay, Selcen, Sevenbige (Çağrı) və İldırım

Toğrul adında uşaqları dünyaya gəlmişdir. Ancaq təəssüflər olsun ki, Müzəffər xanım, 1974-cü ildə vəfat edir. İlk xanımının vəfatından sonra Alp Arslan Türkeş, ikinci dəfə Seval xanımla evlənir və bu izdivacdan da Ayyüzü və Əhməd Qutalmış adlı iki övladları dünyaya gəlmişdir.

Yuxarıda da qeyd etdiyimiz kimi Alp Arslan, 1944cü ildə Turançılıq ideyalarını müdafiə etdiyi üçün həbs cəzası alır. Həbsdən çıxdıqdan sonra isə digər bir məhkəmənin qərarı ilə bəraət alır.

1968-ci ildə Türkiyə daxilində Marksist-Leninçi axınlar güclənir. Bütün ali məktəblərdə təşkilatlar quran kommunist düşüncə sahibləri, "Kommunist çevrilişi" edəcəklərini söyləməyə başlayırlar. Hər yer Leninin, Stalinin və Maonun şəkilləri ilə doldurulur. Bu dönəmdə onlara, yəni, kommunistlərə qoşulmayanlara yaşamaq haqqı tanımayacaq dərəcədə güclənmiş duruma gəlirlər. Bütün bunların Türkiyəni uçuruma aparacağını ilk hiss edənlərdən biri də Alp Arslan Türkeş olmuşdur. Belə bir vəziyyətdə ətrafında olan gənclərə kommunizmin qorxunc bir ideologiya olduğunu başa salır və bu uçurumdan yeganə çıxış yolunun türk milliyyətçiliyi olacağını söyləyir. Və ətrafında olanlar Doqquz İşıq adlanan doqquz prinsip ətrafında birləşirlər.

Vəziyyətin belə olduğunu görən kommunistlər, gördükləri hər yerdə milliyyətçilərlə döyüşürlər. Belə savaşların birində 12 sentyabr 1980-ci ildə beş min türk milliyyətçisi şəhid edilir. Ümumiyyətlə isə 1978-1980-ci illər ərzində Türkiyədə çoxlu sayda milliyyətçi öldürülmüşdür ki, bunların da əksəriyyəti Türkeşin yetişdirdiyi gənclərdir. Nəhayət, 12 sentyabr 1980-ci ildə kommunist meylli güclər Türkiyədə çevriliş edə bilirlər. Onların ilk işi isə Türkeş və ətrafına toplanan insanları həbs etmək olur. Çünki kommunizmə qarşı dayana biləcək ən böyük güc o dönəmdə məhz Türkeş və silahdaşları idi. Çevrilişdən üç gün





sonra Alp Arslan Türkeş təslim olur. O, və onun düşüncələri altında yaşayan daha 218 insan haqqında ölüm hökmü istənir. Dörd il yarımlıq həbsxana həyatından sonra azadlığa çıxan Başbuğ, 1985-ci ildə bəraət almışdır.

1992-ci ilin 27 dekabrında qadağan edilmiş partiyaların fəaliyyətinə yenidən siyasi fəaliyyət göstərmək icazəsi verilir. Bundan sonra MÇP-nın adı dəyişdirilir və MHP adlanmağa başlayır. Bu zaman partiyanın emblemi də dədəyişdirilərək əvvəlki emblemin yerinə üç ay şəkli qoyulmuşdur.

## MEHMET BARIŞ MANÇO
*1943 - 1999*

*"Sənətçi olduğumu iddia etmirəm. Mən öldükdən sonra nəvələrim kitablarda Barış Mançonu "sənətçi olub" kimi oxuyarlarsa, bu zaman sənətçi sayılacam. Əsas olan özünüzdən sonra gələcəyə nə buraxdığınızdır. Yoxsa insan sağlığında özü-özünə "mən sənətçiyəm" deməməlidir"*

**Barış Manço**

Türk bəstəkarı, televiziya aparıcısı və şairi. Türkiyədə rok musiqisinin qurucularından biridir. Musiqi ilə ilk tanışlığı Qalatasaray liseyində olmuşdur. Belçika Kral Akademiyasında ali musiqi təhsili almışdır. Bəstələmiş olduğu iki yüzdən çox mahnı, ona on iki qızıl, bir platin albom mükafatı qazandırmışdır. Onun bəstələmiş olduğu musiqilərin bir çoxu sonralar ərəb, alman, yəhudi, fransız və yunan dillərində ifa edilmişdir.

Atası Haqqı Manço, anası isə dövlət konservatoriyasının türk sənət musiqisi müəlliməsi olan Riqqət xanım Uyanıqdır. Tam adı Mehmet Barış Mançodur. Ailənin ikinci uşağıdır və 2 yanvar 1943-cü ildə anadan olmuşdur. Anadan olduğu zaman ikinci dünya müharibəsi getdiyindən valideynləri ona Mehmet Barış adını verdilər. Özündən başqa Savaş və Oktay adlı qardaşları, İnci adında bacısı da vardır. Ailəsinin əsli Konyadandır. İstanbulun fəthindən sonra Səlanikə köçən ailə, birinci





dünya müharibəsi ərəfəsində İstanbula qayıtmışlar. Barış Mançonun üç yaşı olarkən atası ilə anası ayrılmış və Manço atası ilə qalmalı olmuşdur. Orta məktəbi bitirdikdən sonra ciddi şəkildə musiqi ilə məşğul olmağa başlamışdır.

Manço 1958-ci ildə "Kafadarlar" adlı ilk qrupunu yaradır. Onun ikinci qrupu, "Harmoniler"in tərkibini Qalatasaray liseyindəki yoldaşları təşkil edirdi. Bir müddətdən sonra isə Manço, Belçikaya ali musiqi təhsili almaq üçün gedir. Belçikaya gedərkən yolüstü 1963-cü ildə Fransada olan Manço, burada Fransanın paytaxtı Paris şəhərində məşhur musiqiçi Henri Salvadorla görüşmüşdür. Ancaq burada fransız dilini o qədər də yaxşı bilməməsi və artıq çəkisi ucbatından Manço ilə müqavilə bağlamaqdan imtina edilmişdir. Manço, Belçikada birbaşa qardaşı Savaş Mançonun yanına getmişdir. Akademiyada oxuduğu illərdə ehtiyaclarını ödəmək üçün ofisiant və avtomobil baxıcılığı işlərində çalışmışdır.

Barış Manço, Belçika Kral Universitetini birinciliklə bitirdikdən sonra 1967-ci ildə Mariya Klaudiya adlı bir belçikalı xanımla tanış oldu. İstanbula gələrək onunla burada nişanlandı. Yenə həmin il Hollandiyada keçirmiş olduğu avtomobil qəzası səbəbindən dodağında çat əmələ gəldi ki, bundan sonra bığ saxlamağa başlamışdır.

Manço, 1969-cu ildə qurmuş olduğu "Qayğısızlar" adlı qrupla yollarını ayırdıqdan sonra Fransada yeni bir qrup yaratmışdır. O, 31 yanvar 1970-ci ildə nişanlanmış olduğu Klaudiya ilə Belçikada ailə həyatı qurmuşdur. Ancaq onların bu evliliyi çox qısa sürmüş və onlar 1970-ci ildə ayrılmışlar. Bundan sonra Barış Manço, 1970-ci ildə, bir il öncə Türkiyə gözəli seçilmiş olan Əzra Balkan ilə evlənmişdir. Bu evlilik də uzun sürməmiş və onlar 1972-ci ildə ayrılmağa məcbur olmuşlar.

1970-ci ildə qrupu ilə Anadoluya konsert verməsi üçün çıxan Manço, Kütahya yaxınlığında sui-qəsdlə qarşılaşmışdır.

Belə ki, uzatdığı saçlarından dolayı onun olduğu avtosun yaxınlığında bomba partladılıb. Xoşbəxtlikdən bu böyük sənətkara heç nə olmamışdır. 1972-ci ildə Poladlı Topçu məktəbində altı aylıq təhsil aldıqdan sonra əsgərlik həyatı başlamışdır. Əsgərlikdə səhhətində yaranan problemdən dolayı Ankara Gülhanə Hospitalında müalicəyə göndərilir. Bu arada isə ordu evlərində konsertlər verir. Əsgərlikdən sonra ilk konsertini Ankarada vermişdir.

1979-cu ildə Anadoluya konsert proqramı ilə səyahət edir. Konsertdən gələn bütün gəlirləri isə xəstə uşaqların müalicəsi ayrılmış fonda köçürür.

Barış Mançonu Azərbaycan Türkləri daha çox Türkiyənin dövlət kanalı olan TRT-da yayımlanan "7-dən 77-yə" proqramının aparıcısı kimi tanıyırlar. 1988-ci ilin oktyabir ayından 1998-ci liln iyun ayına qədər yayımlanan bu proqram tam 378 dəfə ekrana çıxmışdır. Bu göstərici eyni zamanda Türk televiziya arixində bir rekorddur. Bu proqramladan sonra Manço uşaqların sevimlisinə çevrilmişdi.

Manço, 1993-cü ildən etibarən "Milliyyət" qəzetində "Oxu baxım" başlığı altında gündəlik həyatdan yazılar yazmışdır. Bu yazıları 1995-ci ilə qədər davam etmişdir.

1999-cu ilin 31 yanvarında Barış Manço İstanbuldakı evində infarkt keçirmişdir. Onu xəstəxanaya çatdırsalar da, bu Böyük Türk, gecə saatlarında vəfat etmişdir. Manço bundan əvvəl də, yəni 1983-cü ildə də eyni diaqnozla xəstəxanaya aparılsa da o zaman Mançonu müqlicə etmək mümkün olmuşdu. Mançonun nəşi, Türkiyə dövlət bayrağına və Qalatasaray futbol klubunun sarı-qırmızı rəngli bayrağına (Barış Manço Türkiyənin Qalatasaray futbol klubunun ən böyük tərəfdarlarından biri olub) sarılaraq torpağa tapşırılmışdır.





## ORXAN PAMUK
### 1952

Orxan Pamuk, 7 iyun 1952-ci ildə Türkiyənin İstanbul şəhərində dünyaya gəlib. 2006-cı ildə ədəbiyyat sahəsində ən böyük mükafat olan Nobel mükafatına layiq görülmüşdür. Postmodern üslubunda yazdığı romanları dünyanın bir çox dillərinə tərcümə edilmişdir. Orxan Pamuk, Nobel mükafatını almış ilk və tək türk yazıçısıdır. Hazırda ABŞ-ın Kolumbiya universitetində müqayisəli ədəbiyyat professoru vəzifəsində çalışır. İyirmidən çox dildə yaradılan, zəngin tarixə və ənənələrə malik olan türk ədəbiyyatlarının Nobel mükafatına layiq görülmüş ilk və yeganə nümayəndəsidir. Orxan Pamuk həm də ədəbiyyat sahəsində XX əsrin ikinci yarısında doğulmuş yeganə Nobel sahibidir.

Yazıçı ciddi yaradıcılıq uğurları nəticəsində 1979-cu ildən etibarən 15-dən çox nüfuzlu ədəbi mükafata layiq görülmüşdür. Bu mükafatlar arasında Türkiyə, İrlandiya, ABŞ, Fransa, Almaniya, İsveç, Böyük Britaniya kimi ölkələrin təsis etdikləri mükafatlar vardır. Onun əsərləri dünyanın 100-dən çox ölkəsində nəşr edilmiş, əsərlərinin tirajı isə bir neçə milyon nüsxəni aşmışdır. Əsərləri isə təxminən 60 dilə tərcümə edilib. "Taym" jurnalının 2006-cı ildə keçirdiyi sorğunun nəticələrinə görə Pamuk dünyanın 100 ən görkəmli şəxsiyyəti sırasına daxil edilmişdir.

Orxan Pamuk İstanbulda, ziyalı ailəsində dünyaya göz açmışdır. İlk təhsilini Robert Kollecində almışdır. İstanbul universiteti yanındakı Jurnalistika institutunu bitirib. Ədəbiyyata olan marağı yeniyetmə yaşlarından başlamış və 22 yaşından

etibarən profesional şəkildə yazmağa başlamışdır. "Cövdət bəy və oğulları" adlı ilk romanı 1982-ci ildə çapdan çıxmış və dərhal ədəbi elitanın diqqətini üzərinə çəkmişdir. Bu romanı sayəsində Yəhya Kamal roman mükafatını qazanmışdır. Tarixi mövzuda yazılmış "Ağ qala" (1985) romanı isə yazıçıya beynəlxalq miqyasda şöhrət qazandırmışdır. Əsərin çapından az sonra "Nyu-York Tayms" qəzeti yazmışdı: "Şərqdə yeni ulduz doğmuşdur. O, türk yazıçısı Orxan Pamukdur".

Şərq və Qərb mədəniyyətlərinin üz-üzə gəldiyi mistik XVI əsr İstanbulunun bitib-tükənmək bilməyən əsrarlarından söz açan "Mənim adım qırmızı" romanı ilə Orxan Pamuk dünya ədəbiyyatının tanınan simalarından birinə çevrildi. Tək bir il ərzində bu əsər 24 dilə tərcümə olundu. "Mənim adım qırmızı" dünya miqyasında postmodern romanın ən yaxşı nümunələrindən biri sayılmaqdadır. Orxan Pamuk "Səssiz ev" (1983), "Qara kitab" (1990), "Yeni həyat" (1994), "Qar" (2002) romanlarının, "İstanbul. Xatirələr və şəhər" (2003) memuarlarının və "Başqa rənglər" (1999) adlı esselər kitabının da müəllifidir. "Qar" romanında müəllif Türkiyənin şərqində İslam təməlçiliyi ilə və qərbləşmə cərəyanlarının necə üz-üzə gəldiyini, insan talelərində necə ağır yaralar açdığını yüksək sənətkarlıq və inandırıcılıqla göstərə bilmişdir. 2005-cü ildə ingilis dilinə çevrilən bu əsər ABŞ-da ilin on ən mühüm bədii nailiyyətləri sırasında özünə yer almışdı.

90-cı illərin ortalarından etibarən Qərbdə yaxşı tanınması və nüfuz qazanması nəticəsində Orxan Pamuk Türkiyədə cərəyan edən ictimai və siyasi proseslərlə bağlı daha sərt açıqlamalar vermişdir. 2005-ci iln fevralında onun İsveçrədə çıxan "Das Maqazin" jurnalına müsahibədə Türkiyəni nəzərdə tutaraq dediyi "Bu torpaqlarda 30 min kürd və bir milyon erməni öldürüldü. Amma məndən başqa kimsə bu haqda danışmağa cəsarət etmir" - sözləri yazıçının vətənində əsl fırtına





yaratmışdı. Mətbuatın fəal iştirakı ilə Orxan Pamuk Türkiyə Cəza Qanununun 301-ci maddəsi ilə "türklüyə həqarət" ittihamı ilə məhkəməyə verilmişdi. Günahkar sayılacağı təqdirdə yazıçını 6 aydan üç ilə qədər həbs cəzası gözləyirdi.

Lakin, Türkiyə Ədliyyə Nazirliyinin müvafiq razılığı olmadığından məhkəmə yarımçıq buraxıldı. Şübhəsiz ki, bu işdə dünyanın tanınmış ədəbiyyatçılarının və sənətkarlarının Pamuka dəstək aksiyasının da mühüm rolu oldu.

2006-cı ilin Nobel seçimində Orxan Pamukun rəqibi suriyalı şair Əli Əhmən Səid (Adonis) idi. İsveç Akademiyasının bəzi üzvlərinin əvvəllər də nominant olmuş ərəb şairinə rəğbət bəslədikləri sirr deyildi. Lakin gizli səsvermə qələbənin Orxan Pamuka qismət olduğunu üzə çıxardı.

Təbiidir ki, türk yazıçısının mükafatlandırılması Türkiyənin siyasi və ədəbi dairələrini laqeyd buraxmadı. Orxan Pamukun uğuruna sevinənlər olduğu kimi onu milli-mənəvi dəyərlərə arxa çevirmək hesabına Nobel mükafatı qazanmaqda günahlandıranlar da oldu. Dönəmin Türkiyə Cümhurbaşkanı Necdet Sezerin yazıçını təbrik etməməsi ehtirasları bir az da alovlandırmışdı.

Orxan Pamuk, 1982-ci ildə tarixçi Aylin Turegenle ailə həyatı qurub. Aylin xanım 1988-ci ildə Nyu-Yorkda dissertasiya müdafiə etmişdir. Onların 1991-ci ildə dünyaya gəlmiş Röya adlı qızları vardır. Pamuk, 2001-ci ildə xanımından ayrılıb.

Türkiyədə onu hər an təhlükə gözlədiyini iddia edən Orxan Pamuk, 2007-ci ildən ABŞ-da yaşamaqdadır. ABŞ telekanallrının verdiyi müsahibələrin birində Türkiyədəki ziyalılar və jurnalistlər üzərində böyük təzyiqlərin olduğunu və bəzi yaxıçı dostlarının həbsxanalarda olmasını bildirmişdir. Orxan Pamukun Türk Dünyasına olan xidmətlərindən biri də ondadır ki, əsərlərinin başqa dillərə tərcüməsi zamanı həmin kitabın girişində "Türk dilindən tərcümə edilmişdir" sözləri yazılmaqdadır.

Bu da Türk dilinin böyük əsərlər yaratmağa imkan veridyinə bir sübutdur. Ancaq təəssüflər olsun ki, günümüzdə bəziləri hələ də rus dilində yazmaqdadırlar.

Bu Böyük Türkün yazmış əsərlərə misal olaraq aşağıdakıları göstərə bilərik. "Cövdət bəy və oğlanları", "Səssiz ev", "Bəyaz qala", "Qara kitab", "Mənim adım çəhrayı", "Qar", "Məsumiyyət muzeyi" və s. Bu əsərlərdən bəziləri Azərbaycan türkcəsinə tərcümə edilmişdir.



# ORTA ASİYA TÜRK BÖYÜKLƏRİ

## OĞUZ XAN (METE)
*ölümü e.ə. 174*

*"Yüzdə yüz türk olduğun zaman cahan sənindir"*

Sağlığında bir millət üçün nə qədər böyük işlər görməli, nə qədər qəhramanlıqlar və fədakarlıqlar etməlisən ki, vəfatından sonra bütöv bir xalqa sənin adını versinlər. Nə qədər böyük insan olmalısan, mənsub olduğun milləti nə qədər sevməli və ona nə qədər böyük bir ürəklə xidmət etməlisən ki, sənin haqqında min illərlə əfsanə və rəvayətlər dildən-dilə dolaşaraq günümüzə qədər gəlib çatsın. Belə bir xöşbəxtlik yəqin tarixdə çox az insana nəsib ola bilərdi ki, bunlardan biri Oğuz Xandır. Günümüzdə təxminən 150 milyon insan məhz onun adı ilə Oğuz Türkü adlanmaqdadır. O cümlədən də Azərbaycan Türkləri...

Böyük dövlət adamı və sərkərdə. Doğum tarixi təsbit edilməyib. Bəzi mənbələrdə (xüsusən də Çin mənbələrində) adı Mete, bəzilərində isə Mode kimi verilməkdədir. Ancaq sözü gedən mənbələrin əksəriyyəti Çin mənbələri olduğundan tələffüz fərqinin nə qədər böyük olduğunu bütün oxucular anlayır. Bu, Türk Böyüyünün adı əslində Oğuzdur. İlk Hun hökmdarı Tümən Xanın oğludur. (Atası daha çox Teoman adı ilə tanınır. Bəzi mənbələrdə isə atasının adı Duman Xan kimi verilir). Atasını çinli bir qadından başqa bir oğlu da olub. Tümən Xanın çinli xanımı yaşca Oğuz Xandan kiçik olan bu





qardaşının taxta çıxmasını istəyirdi. Bu məqsədlə o, Tümən Xanı, oğlu Oğuzu, hunların şimal-qərb qonşuları olan Kuşanlara girov kimi göndərməyə razı sala bilmişdi. O zamanlar bu cür girov sülhün təminatı hesab edilirdi.

Oğuz Xanın ögey anası, bununla da sakitləşməyib doğma oğlunun taxta çıxmasını zəmanət altına almaq üçün Tümən xanı Kuşanlarla müharibəyə sövq edə bildi. İki dövlət arasında olan anlaşma pozulduğundan Oğuz Xan öldürülməli idi. Bunu bilən Oğuz Xan, Kuşanların yanından qaça bilir. Oğlunu sağ-salamat görən atası, çox sevinir və ona 10 min əsgərlik bir vilayətin idarəçiliyini verir. Oğuz Xan əlinə düşən bu fürsətdən gözəl istifadə edir. O, tezliklə Tanrı payı olan təşkilatçılıq və sərkərdəlik bacarığından istifadə edərək, kin duyduğu atasından intiqam almağa hazırlaşır. Əmrində olan kiçik qoşunu işlək bir mexanizm halına gətirən Oğuz Xan, bununla kifayətlənməyib, oxun uçuş trayektoriyasının artması üçün bu döyüş silahında bəzi dəyişikliklər də edir. Bütün hazırlıqlar tamamlandıqdan sonra Oğuz Xan, atasının üzərinə hücum edir və onu məğlub edərək, e.ə. 209-cu ildə Hun taxtına çıxaraq Hun İmperatoru olur.

Hun dövlətinin başına keçən Oğuz Xanın ilk işi, şərqdəki Tunquzları aradan götürərək, Xəzər dənizinə qədər olan bütün ərazilərdə yaşayan çoxlu sayda Türk boylarını vahid hakimiyyət altında toplamaq oldu.

Bütün Türk Boylarını ilk dəfə vahid hakimiyyət altında birləşdirərən Oğuz Xanın dövlətində mövcud olan qanunlara görə boylar daxili işlərində tam sərbəst idilər. Oğuz Xanın qoyduğu bu gələnək, Osmanlı dövləti zamanında da davam etdirilmişdir. Belə ki, hər iki halda boylar dövlətə yalnız vergi verməklə və əsgər hazırlamaqda yükümlü idilər.

Oğuz Xan e.ə. 209-174-cü illər arasında tam olaraq 35 il Böyük Xaqan olmuşdur. Onun 35 illik xaqanlıq dövrünün

hamısı müharibələrdə keçmişdir. Onun hakimiyyəti zamanlarında türk torpaqlarının sahəsi Xəzər dənizindən Hind okeanına qədər, Himalay dağlarından Sibirə qədər genişləndirildi. Hun axınlarının qarşısını almaq üçün inşa edilmiş olan Böyük Çin Səddi də Oğuz Xanın ordularının qarşısını ala bilməmişdi.

Sağlığında Oğuz Xan, Çinə böyük hərbi səfərlər edib. Belə səfərlərin birində o, 320 minlik ordu ilə Çinin daxili rayonlarına qədər irəliləyə bilmiş, sonrada Çin imperatorunu illik vergi verməyə məcbur edərək geri dönmüşdü. Bundan sonra çinlilər 58 il boyunca bu vergini ödəmək məcburiyyətində qaldılar. Oğuz Xan e.ə. 174-cü ildə vəfat edib. Yuxarıda da qeyd etdiyimiz kimi dünya bu Böyük Türkü bir neçə adla tanımaqdadır. Belə ki, türk dilində başqa bir adı Alp Ər Tunqa, eyni adın Çin mənbələrindəki qarşılığı isə Mete kimi göstərilməkdədir.

Oğuz Xanın bir şəxsiyyət olaraq "Oğuz Dastanı"nda aşağıdakı kimi təsvir edilir: "Samur çiyinli, qurd belli bir igid idi. Gözlərinin içi nur, əlinin içi qan idi. Cəmi qırx gün ana südü içib və qırx günün tamamında ana südündən imtina edib. İki-üç yaşında at minməyə başlayıb. Böyüyüb gənclik yaşına çatdığı zaman, gəlib ona deyirlər ki, yaxınlıqdakı meşədə bir canavar peyda olub. Həmin canavar ətrafdakı insanlara və sürülərə aman vermir. Bunu eşidən Oğuz Xan həmin meşəyə gedir və bir ceyran tutaraq ağaca bağlayıb qayıdır. Səhər açılanda gəlib görür ki, canavar ceyranı parçalayıb. Bundan sonra bir ayı tutaraq ağaca bağlayır və evə qayıdır. Ertəsi gün hadisə yerinə gələnlər, ayının yalnız sümüklərinin qaldığını görürlər. Bundan sonra özu ağaca söykənərək gecənin düşməsini gözləməyə başladı. Hazır ova alışan canavar, gecə gəldiyi zaman ilk olaraq Oğuz Xanın qalxanına toxunur. Bundan sonra canavarla döyüşən Oğuz Xan onu məğlub edir və başını kəsib gətirir. Bu hadisədən sonra şəhər xalqı böyük bir bayram keçirir.





Böyüklər bir yerə yığılaraq vəd olunan və onları bir bayraq altında birləşdirəcək olan insanın məhz Oğuz Xan olacağına inandılar. Bütün xalq Oğuzun ətrafında toplandı".

Oğuz Xanın hakimiyyəti illərində Hunlar daha çox Çinlə müharibələr aparıblar. Bu müharibələrdə Hun ordusu sayca az olmasına baxmayaraq, Oğuz Xanın böyük sərkərdəlik istedadını işə salması nəticəsində daim qələbə çala bilmişdir. Zamanının ən böyük və ən qorxmaz sərkərdəsi hesab edilən Oğuz Xan haqda olan maraqlı bir əhvalat yəqin ki, bütün oxucuların diqqətini çəkərdi. Belə ki, növbəti dəfə Çin ordusu ilə üz-üzə gələn Oğuz Xanın ordusu döyüş hazırlıqları ilə məşğul olmaqdadır. Bu zaman isə Oğuz Xan vəziri ilə ətrafa göz gəzdirmək üçün hündür bir təpənin üstünə çıxırlar. Bu zaman isə bəlli olur ki, Hun ordusu rəqibin ordusunun yanında bir ovuc qarışqa kimi görünür. Vəziri, Oğuz Xanın geri çəkiləcəyini düşünərək ondan soruşur: "Xaqanım, nə düşünürsünüz?" Oğuz Xan, vəzirinə dönərək belə vavab verir: "bu qədər çinlini mən haraya basdıracam?" cavabını vermişdir.

## ATTİLA
### 394 - 453

*"Romalılar möhtəşəm şeylər etdilər. Ama hamısı keçmişdə qaldı. Onlar etdilərsə, biz də edə bilərik. Dünyaya hökm etməliyik"*

*"Mən və xalqım Tanrının qırmancıyıq, Tanrı öz yolundan çıxanları cəzalandırmaq üçün bizi göndərir"*

Attila

Eradan əvvəl 220-ci ildə qurulmuş olan Hun İmperatorluğu, Metenin (Oğuz) zamanında özünün ən parlaq dövrlərindən birini yaşadı. İmperiya onun zamanında o qədər qüvvətləndi ki, vəfatından sonra keçən yüz ildə İmperiya bu gücü qoruyub saxlaya bildi. Eramızın I əsrində bu böyük İmperiya Şərqi və Qərbi Hun İmperiyaları olmaqla iki yerə parçalandı. Eramızın III əsrində isə Hunlarla digər bir türk tayfası olan Siembilər arasında çıxan mübarizə və münaqişə nəticəsində Hunların bir hissəsi Dnepr çayı və Aral gölü hövzəsinə köç etdilər. Artıq IV əsrdən etibarən isə Hunlar bir az da qərbə axınlar eməyə başladırlar. Balamirin rəhbərlik etdiyi Hunlar, əvvəlcə Don və Dnepr çayları hövzəsində olan Şərqi Qotlar, daha sonra isə Qərbi Qotlar üzərinə yürüşlər etdilər. Bu, Hun axınları nəticəsində bütün Avropa xalqları köç etməyə başladılar ki, bu köçün bir ucu Dnepr sahilində, digər ucu isə





İspaniya ərazisində idi. Sonradan tarixçilər buna "xalqların böyük köçü" adını verdilər. Köçdən sonra Avropada sakitlik yarananda isə, artıq "köhnə qitənin" etnik durumu qarışmış və əvvəlkindən çox fərqli olmuşdu.

Qərblilər daim Attilaya onları Tanrı tərəfindən cəzalandıracaq bir imperator kimi baxıblar. Hətta onların əsatirlərində də buna işarələr vardır. Bu səbəbdən də Avropada ona "Tanrının Qırmancı" ləqəbini veriblər.

Qərbi Hun İmperatoru Rua 434-cü ildə vəfat etdi. Bundan sonra Hunların başına Muncuqun oğulları olan Attila və Buda (Bleda) keçdilər. Bu iki qardaşın atası olan Muncuq vəfat edəndə qardaşlar hələ xaqan ola biləcək yaşda deyildilər. Bu səbəbdən İmperiyanı əmiləri Rua idarə etmişdir. Digər bir əmiləri olan Aybars, İmperiyanın şərqindən, üçüncü əmiləri Oktar isə qərbindən sorumlu idi. Ancaq hər iki şəxs Ruaya tabe olub. Attila və Buda bu üç əminin təlim və tərbiyəsi altında yetişdilər. Ruanın vəfatından sonra Böyül Xaqan olan Attilanın bu zaman 39-40 yaşı olub. Bundan öncə isə Ruanın sağlığında, Attila onun sağ qolu olub və bütün dövlət işlərində və qərarlarında onunla birlikdə iştirak edib. Rua ilə birlikdə bütün səfərlərdə iştirak edən Attila, İmperiyanın idarəsi altında xalqları yaxından tanıya bilmişdi. Attilanın, Böyük Xaqan olmasından sonra qardaşı Buda onun sağ qolu oldu. Buda, Attiladan fərqli olaraq, eyləncəni və kef məclislərini sevirdi. Buna görə də Xaqanlığı könüllü şəkildə Attilaya buraxmışdı.

Bəzi Avropa müəllifləri bu iki qardaş arasında taxt uğrunda mübarizə getdiyini yazsalar da, bu iddianın heç bir əsası yoxdur. Çünki artıq Attila ilə Buda arasında heç bir problemin olmadığı isbatlanış durumdadır. Bunun sübutu olaraq onu deyə bilərik ki, Buda 11 il ərzində Attilanın köməkçisi olub və aralarında heç bir mübahisə olmayıb. Buda 445-ci ildə öz əcəli ilə vəfat edincəyə qədər də qardaşı və İmperiyanın

Xaqanı Attila tərəfindən daim müdafiə olunub. Attila, Ruanın qəfil ölümü nəticəsində hakimiyyətə gəlmişdi. Rua ilə görüşmək üçün yola çıxan Bizans elçiləri Hun torpaqlarına çatdıqları zaman, artıq yeni İmperator ilə qarşılaşmışdılar.

Elçiləri at üzərində qarşılayan Attila, onlar gələnə qədər artıq qərarını vermişdi. Hunların bu yeni və enerjili Xaqanı, gələn Bizans elçilərinə barışın şərtlərini diqtə etdi. Bizans barış şərtlərini dərhal qəbul etdi və hunlarla Bizans arasında imzalanan bu saziş, tarixə Konstant sazişi kimi düşdü. Attilanın şərtləri aşağıdakılar idi:

**1. Bizans, Hun hakimiyyəti altında olan xalqlarla heç bir danışığa getməyəcək və onlarla hər-hansı bir müqavilə imzalamayacaqdı. (bu tayfaların çoxu isə German tayfaları idi)**

**2. Əsir alınmış bizanslılar da daxil olmaqla Hunlardan qaçan heç bir kimsəyə sığınacaq verilməyəcəkdi.**

**3. Saziş imzalanan günə qədər Hunlardan qaçaraq Bizansa sığınanların hamısı Hunlara qaytarılacaqdı.**

**4. Sığınanlar milliyətçə yunan olsalar, onların verilməməsi qarşılığında Bizans fidyə verə bilərdi.**

**5. Ticarət əlaqələri müəyyən edilmiş qəsəbələrdə baş tuta bilərdi.**

**6. Bizansın, Hunlara hər il ödədiyi 350 kq, qızıl əvəzinə bundan sonra 700 kq. olaraq olaraq veriləcəkdi.**

Bizans tərəfi Attilanın bu şərtlərini dərhal qəbul etdi və icrasına başladı. Bu zaman isə Bizansın, Attilaya qaytardığı bəzi qaçaqları, Attila, hələ o zaman Bizans torpaqları olan indiki Bolqarıstan ərazisində asdırdı. Attilanın bu hərəkəti, Hunlara tabe olan bütün tayfalar arasında, o cümlədən də Bizans və onun paytaxtı olan Romada dəhşətli qorxu yaratdı. Bu hadisədən sonra Attila, dövləti işləri təftiş etmək üçün ölkənin şərqinə səfər etdi ki, onun bu səfəri bir neçə ay çəkdi.





Ümumiyyətlə isə o dövrdə Hun İmperiyasının hakimiyyəti altında olan xalqların ümumi sayı 45-ə qədər olub. Müxtəlif irqlərin, dinlərin nümayəndələri olan bu xalqlar, müxtəlif dillərdə danışır, müxtəlif adət-ənənələrin sahibləri olsalar da, Attila onları bir hakimiyyət altında birləşdirə bilmişdi. Bu xalqlar da, kralları ilə birlikdə Attilanın təbəəsi idilər və onun əmri ilə nəfəs alıb-verirdilər. Bu kralların və ya xalqların hər birinin Attilanın sarayında öz nümayəndələri var idi. Hun İmperatorluğunda əmin-əmanlıq və əsayiş hökm sürərkən, Bizansda qarışıqlıq və baş qaldıran üsyanlar davam etməkdə idi. Üsyanları yatırtmaq və ölkədə əsayişi təmin etmək üçün Bizans, Attiladan kömək istədi.

Əslində isə Attilanın təzyiqlərinə tab gətirməyib, Bizans istiqamətində qaçan xalqların həmin ərazilərdə sakit oturması heç cür Attilaya sərf edə bilməzdi. Bu üsyanlar, həm Bizansın başını qatır, həm də onu gücdən salırdı. Attila isə öz növbəsində Qərbi və Şərqi Bizans İmperiyalarının gec-tez ona tabe olacağı günü səbrlə gözləməkdə idi. Bundan başqa zəifləmiş Qərbi Romanı, güclü Şərqi Roma ələ keçirə bilərdi. Buna görə də Qərbi Romanın varlığı bir müddət Attilaya lazım idi. Ona görə də indiki Belçika ərazisində burqundların çöx güclü üsyançı ordularını yatırtmaq üçün Attila, öz əmisi Oktarı göndərdi. Oktar üsyanı yatırtdı və Burqund kralını öldürdü. Bundan sonra Belçika ərazisi də Hun İmperiyasının tərkibinə qatıldı. Bu döyüşdən sonra Belçika ilə yanaşı, indiki Almaniya bütövlükdə Hun İmperiyası torpaqları içində qaldı. Almanların məşhur "Nubelunqlar" və skandinav dastanı olan "Böyük Edda" məhz bu döyüşlər haqdadır.

Bizans tərəfi 434-cü ildə Hun İmperatoru Attila ilə bağladığı müqavilənin şərtlərini pozmağa başlamışdı. Belə ki, Bizans rəhbərliyi Hun hakimiyyəti altında olan bəzi tayfalarla gizli görüşlər keçirir, onları hunlara qarşı üsyan etməyə səsləyirdi.

Bundan başqa hunlardan qaçıb gizlənənlərin bəzilərini gizlədərək qaytarmaqdan imtina edirdi. Ancaq Attilanı daha çox özündən çıxaran bir Bizans ruhanisinin Hunların böyüklərindən birinin qəbrini açdırması və qəbirdə olan qiymətləri əşyaları oğurlaması oldu. O zamanlar Hunlar vəfat edən böyüklərini qiymətli əşyaları və silahları ilə birlikdə dəfn edirdilər. Bu hadisədən sonra Attila, 440-cı ildə Bizans üzərinə yürüş etməyə qərar verdi. O, 441-ci ildə Belqradı ildırım sürəti ilə keçərək Trakyaya daxil oldu. Yalnız bu zaman Qərbi Roma İmperatorluğu təlaşa düşdü. Onların Attila yanında etibarı olan bir sərkərdəsi araya girdi və müqavilənin şərtlərinə əməl olunacağına zəmanət verdi. Bunun qarşılığında isə öz oğlunu Attilanın sarayında girov olaraq qoydu.

Bundan sonra Attila, Dunay ətrafında olan bəzi qalaları öz hakimiyəti altına aldı, bəzilərini isə ümumiyyətlə yer üzündən sildi. Artıq nə Şərqi, nə də Qərbi Roma İmperatorluqları onunla döyüşəcək gücdə deyildi. İndi dünyanın bir hakimi var idi. Bu da bütün zamanların ən böyük hökmdarı olan ATTİLA idi.

Belə bir zamanda Romalıların inam gətirdikləri müharibə allahının olduğu güman edilən bir qılınc itdi. Bu qılıncı təsadüfən bir çoban taparaq gətirib Attilaya verdi. Bunun da həm dünyada, həm də Romada xüsusi psixoloji təsiri oldu. Çünki inanca görə bu qılınc kimin əlində olsaydı, dünyaya da o adam hökmranlıq edəcəkdi. Deməli, dünyaya hökm etmək Tanrınn istəyi ilə Attilaya verilmişdi.

Bir müddətdən sonra Bizans yenidən sülh şərtlərini pozmağa başladı. İllik vergilər ya verilmir, ya da müxtəlif bahənələrlə gecikdirilirdi. Bunun qarşılığında Attila ikinci Balkan səfərini başlatdı. Dunayı bir neçə yerdən keçərək, Trakya üzərindən sürətlə irəliləməyə başladı. Yolu üzərində olan bütün şəhər və qəsəbələri bir göz qırpımında ələ keçirən Attila,





İstanbul yaxınlağında Böyük Çəkməcə adlanan yerə çatdı. Bizans imperatoru Teodosis bu zaman qorxuya düçdü və yüksək rütbəli elçisi olan Anatolini, Attila ilə danışıqlara yolladı. Əslində bu iki tərəf arasında danışıq yox, Bizansın bundan sonra bütün sülh şərtlərinə təminat verməsi idi. Attilanın əsl hədəfi İstanbulu almamaq idi. O, sadəcə olaraq, Bizansı qorxutmaq istəmişdi ki, bu da öz nəticəsini verdi. Bundan sonra Attila yeni şərtlərini Bizansa diqtə etdi və bu barış tarixə "Anatoli Barışı" kimi düşdü. Attilanın şərtləri isə aşağıdakı kimi idi:

**1. Bizans tərəfi hərb təzminatı olaraq 6000 qızıl ödəyəcəkdi.**

**2. Bizans Dunayın cənubunda və Dunaya olan beş günlük məsafədə əsgər saxlamayacaqdı.**

**3. İki ölkə arasında olan ortaq bazar, artıq Hun şəhəri olan Nişde qurulacaqdı.**

**4. Bizans illik vergini bundan sonra üç qat artıq ödəyəcəkdi.**

**5. Bizans, əvvəlki razılaşmadakı şərtlərə şərtsiz olaraq əməl edəcək. Yəni, qaçaqları himayə etməyəcək, və Hun hakimiyyəti olan xalq və tayfalarla heç bir gizli görüşmələr keçirməyəcəkdi.**

Barışın şərtləri Bizans üçün olduqca ağır idi. Hər il bu qədər qızılın Hunlara verilməsi dövləti çökdürə bilərdi. Ancaq Bizansın başqa çıxış yolu yox idi. Onların yeganə ümidi Attilanın ölümü ola bilərdi ki, onun öz əcəli ilə öləcəyini isə gözləməyə vaxtları yox idi.

448-ci ildə İstanbulda Hun elçi heyyətinə burada Bizans elçiləri də qoşuldu. Buradan isə birlikdə yola çıxdılar. Bu zaman Hun elçi heyyətinin başında Edekon (Edikkün) dururdu. Onun bir köməkçisi və bir tərcüməçisi var idi. Bizans elçi heyyətinə isə Bigila adlı biri rəhbərlik edirdi. Bizans imperatoru ona Attilaya sui-qəsd hazırlamağı tapşırmışdı. Bu məqsədlə ona

sui-qəsdi həyata keçirmək üçün çoxlu miqdarda qıl da verilmişdi. Digər bizanslıların isə bu plandan xəbərləri yox idi. Türk elçi heyyətinin rəhbəri onun bu niyyətini sezdi, ancaq heç nə bildirmədi. Elçilər Hun İmperiyasının indiki Macaristan ərazisində olan paytaxtına qayıtdıqdan sonra Edikon, bütün olanları Attilaya çatdırdı.

Bundan sonra Attila, Bigilanı sorğu-sula tutdu və onun gizli niyyətini etiraf etdirdi. Hadisədən sonra "Dünya Hökmdarı" Bizans İmperatoru Teodosisə ağır bir məktub yazaraq xüsusi bir elçi ilə ona yolladı. Məktubun məğzi isə belə idi: "Teodosis də Attila kimi əsl kişinin oğludur. Ancaq bununla belə Attila öz atası Muncuqdan aldığı əsl kişiliyi qoruya bilib, amma, Teodosis, Attilaya xərac verən bir köləyə çevrilib. Teodosis əslini qoruya bilmədiyi kimi, köləliyini də qoruya bilməyib. Çünki o sahibi Attilaya qarşı sui-qəsd etməyə cəhd edib".

Bizans təlaş içindi idi. Bizans imperatoru hər zaman olduğu kimi yüksək rütbəli sərkərdələrdən ibarət elçi heyyəti hazırladı və onları Attilanın yanına göndərmək qərarına gəldi. Ancaq Attila, artıq Bizansı özündən asılı etmişdi və onların elçi heyyətinə də önəm vermirdi. O, bu illər ərzində Bizansı hərtərəfli sıxışdıra bilmişdi. Artıq əsil hədəfə doğru getmək olardı. Əsil hədəf isə Qərbi Roma idi. Qərbi Roma alındıqdan sonra Şərqi Romanı ram etmək o qədər də çətin olmayacaqdı.

Müharibə hazırlıqlarını tamamlayan Attila, döyüş üçün bahənə də tapmışdı. Belə ki, bir neçə il öncə Roma imperatoru III Valentinin bacısı evlənmək niyyətiylə Attilaya nişan üzüyü göndərmişdi. Bununla o, Bizans sarayında öz mövqeyini gücləndirmək istəmişdi. Bunu əsas tutan Attila, Bizansdan nişanlısını və ona imperiyadan düşən payı istəyirdi. Roma Attilanın bu istəyinə rədd cavabı verdi ki, bu da Attilanın düyüşə girməsi üçün yetərli oldu.





100 mini Türk, 100 mini isə German və Slavyan xalqlarından olan Attilanın ordusu yürüşə başladı. Hun orduları sürətlə Avropanın mərkəzini keçərək, Paris yaxınlığındakı Orleana çatdılar. Ancaq, Attila, Katalon bölgəsini türk döyüş üsuluna daha yaxın olmasını düşünürdü. Döyüş də məhz bu ərazidə oldu. 20 aprel 451-ci ildə o zamanlar dünyanın ən böyük iki ordusu üz-üzə gəldi. Döyüş 24 saat çəkdi və sonda Roma orduları darmadağın edildi. Bizansı dəstəkləyən Qərbi Qot ordusunun kralı da döyüşdə öldürülmüşdü. Attila geri çəkilən Roma ordusunu təqib etmədi. Hunlara istirahət lazım idi.

Avropalı müəlliflər bu döyüş haqda çox yazıblar. Özü də yalnış! Belə ki, bəzi avropalı müəlliflər sözü gedən döyüşdə tərəflərədən heç birinin qalib gəlmədiyini yazırlar. Ancaq son illər aparılan araşdırmalar, Attilanın bu döyüşdə qalib gəldiyini göstərməkdədir.

"Tanrının Qırmancı" bir il sonra, yəni 452-ci ilin baharında ordusu ilə indiki İtaliyanın Po ovalığına gəldi və Roma İmperatorluğunun paytaxtına yaxınlaşdı. Saray əhli və senat Roma İmperatoruna şəhəri tərk etməyi məsləhət gördülər. Çünki müqavimət göstərmək əbəsdi. Attilanın ordusuna qarşı dura biləcək güc yox idi. Bunu bilən romalılar Roma Papasını rica üçün Attilanın hüzuruna göndərdilər. Papa Leo, Türk İmperatorunun hüzurunda ona, bütün Xristian dünyası adına gəldiyini söylədi və xristian dünyasının müqəddəs hesab etdiyi şəhərə dağıtmaması üçün ona yalvardı. Bunun qarşılığında isə Romanın, Türk Başbuğunun bütün şərtlərini qəbul edəcəyini bildirdi. Əslində bu Romanın qeydsiz-şərtsiz təslim olması demək idi. Attila da bundan başqa heç nə istəmirdi. Attila, Roma Papasının yalvarışlarını qəbul etdi və Romanı dağıtmaq fikrindən vaz keçdi. Artıq bütün dünya demək olar ki, Attilanın hökmü altında idi. Ancaq vaxtilə başqa bir Roma imperatoru Yuli Sezar, Misiri ələ keçirdikdən sonra dünyanın ən zəngin ki-

tabxanası olan İsgəndəriyyə kitabxanasını yandırtmışdı. Makedoniyalı İsgəndər də aldığı bütün ölkələri demək olar ki, darmadağın edirdi. Biz Türklərin onlardan əsas fərqimiz də məhz budur. Yırtıcı olmamaq..!

Attila, İtaliya səfərindən sonra rəsmi şəkildə bütün dünyanın sahibi olmaq üçün Şərqə yönəlmək istəyirdi. Bunun üçün isə əsas maneə İranda hakimiyyətdə olan Sasanilər idi. Səfərdən sonra Hun paytaxtında böyük şənliklər düzənləyən Attila, özünə toy etdi. Ancaq tarixin gərdişinə baxın ki, o dövrdəki dünyanın ən böyük sərkərdəsi, "Tanrının Qırmancı", ən nəhayət Böyük Türk elə toy gecəsi daxili qanaxmadan burnundan və qulağından qan gələrək dünyadan köçdü. Bu hadisə 453-cü ildə baş vermişdi. Attilanın cəsədinə baxan Şaman, onun sui-qəsdən yox, öz əcəli öldüyünü söyləmişdir. Belə ki, Şamanın bildirdiyinə görə atası Muncuq və qardaşı Buda da eyni xəstəlikdən vəfat etmişdi. Bu Attila nəslində irsən keçən bir xəstəlikdir. Bundan sonra onun nəşi deyilənlərə görə iç-içə qızıldan, gümüşdən və dəmirdən düzəldilmiş tabuta qoyularaq Dunaydakı adalardan birinə dəfn edildi. Bundan sonra isə qəbrinin tapılaraq eşilməməsi və qarət olunmaması məqsədilə çayın məcrası dəyişdirilərək Attilanın qəbrinin üzərindən axıdıldı. Onu da qeyd edək Attlanın qəbri günümüzədək tapılmamışdır.

Attilanın, Ariqan adlı xanımından üç oğlu dünyaya gəlmişdi. Bunlar yaş sırasına görə İlek, Dengizlik və İrnek idilər. Böyük Xaqanın vəfatından sonra İlek onun yerinə keçdi. Ancaq o, Hunlara qarşı baş qaldıran Germanların üsyanını yatırtmaq getdiyi döyüşdə həlak oldu və yerinə Dengizlik keçdi. Onun vəfat etməsindən sonra yerinə İrnek xaqan oldu. Onun xaqanlığı zamanında, Hunlar, Qara dənizin qərbinə çəkildi. Hunların bir bölümündən Macarlar, başqa bir bölümündən isə Bulqarlar olmaqla iki ayrı dövlət yarandı.





Hunların Attila zamanında Avropaya olan axınları bu qitədə böyük izlər buraxdı. Belə ki, romalılar öz ordularını Hun ordusunda olduğu kimi, onlu sistem üzrə yaratmağa başladılar. Avropalılar kətan köynək giyməyi də ilk dəfə Hunlarda gördülər və təqlid etdilər. Bundan başqa avropalılar şalvar giyməyi və stolda oturub yemək yeməyi də məhz Hunlardan götürdülər. Xəzər şahzadəsi Çiçək, Bizans sarayına gəlin köçdüyü zaman giydiyi Türk üsulu "xaqan xatun paltarı" Bizansda dəb halına gəlmiş, oradan da bütün Avropaya yayılmışdı.

İndiki Macarıstan ərazisində aparılan qazıntılar zamanı bir yerdə 23 əşyadan ibarət olan qızıl əşyalar tapıldı. Bu əşyalar günümüzdə "Attila Xəzinəsi" adı altında Vyana Sənət və Tarix Muzeyində saxlanılmaqdadır.

## ODOAKR
### *431 - 493*

Eramizın V əsri bütün dünyanın olmasa da, Avropanın tarixində mühüm hadisələr və keşməkəşlər dövrüdür. Çünki "köhnə qitə"nin tarixində hələ bu qədər xalq və ya tayfa eyni zamanda hərəkətə gəlməmişdi. Məhz bu əsrdə qüdrətli Roma İmperiyası özünün çöküşünü yaşamaqda idi.

Bütün bu xalqların hərəkətə gəlməsinin və ya köçünün səbəbi isə Orta Asiyanın bozqırlarından axın edib gələn türklər - yəni hunlar idilər. Artıq bir əsrə yaxın idi ki, qorxunun nə olduğunu bilməyən bu xalq, qoca Roma qartalını küncə sıxışdıra bilmişdi. Nəhayət, 448-ci ildə daha cavan və tükənməz enerji sahibi olan hunlarla romalılar Fransanın Katalaun düzündə üz-üzə gəldilər.

Həmin gün hun əsgərləri arasında 13 yaşlı bir döyüşçü də var idi. Bu döyüşdə hunlara, o zamanlar demək olar ki, bütün dünyanı almış, indi də qılıncı ilə Roma qapılarını döyən Attila rəhbərlik edirdi. Və bu uşaq, hunlar üçün yarımtanrı olan Attilanın qələbə çalması üçün Tanrıya dualar edirdi. Sözü gedən döyüşdə həmin yarımtanrı məğlub olmadı və bir ildən sonra yenidən Roma qapılarına yaxınlaşdı və o zamanlar "dünyanın paytaxt"ı hesab edilən Roma, indi onun barmağının işarəsi ilə ya yer üzündən silinəcəkdi, ya da bütün təhqirlərə baxmayaraq yaşamağa davam edəcəkdi. Bu böyük sərkərdə eyni zamanda da böyük ürək sahibi və o, Romanı bağışladı.

Roma üzərindən zəfərlə qayıdan hunlar, qəfil Attilanı itirdilər. Yarımtanrının vəfatı və dəfni də qələbələri kimi bu uşağın gözləri önündə baş verdi. Attilanın vəfatından sonra onun oğlanları böyük imperiyanı ataları kimi idarə edə bilmədilər. Belə ki, qısa bir zaman keçdikdən sonra Attilanın min bir zəhmət hesabına birləşdirmiş olduğu yüzlərlə xalq və krallıq, tədricən imperiyadan qopmağa başladılar. İlk baş qaldırıb ayrılanlardan biri isə germanlar oldular. Artıq 16 yaşı olan bu uşaq, atası Edige və qəbilələri olan türklinqlər və sekirililərlə birlikdə qaldılar. Hunların zəiflədiyini görən ost-qot tayfaları və onların kralı olan Valamir hunlar üzərinə yürüdü. İlk döyüşdə Valamir öldürülsə də, hər iki tərəf müvəqqəti olaraq geri çəkilərək, həlledici döyüşə hazırlaşmağa başladı. Həlledici döyüşdə hunların bəxti gətirmədi onların yeni rəhbəri Edige öldürüldü. Ətraflarına toplaşan tayfaların isə hərəsi bir tərəfə dağılışdı.





469-cu ilin payızında hunlardan qalmış kiçik, ancaq seçmə bir qrup əsgər Romanın yolunu tutdular. Onlar bundan sonrakı həyatlarını Romanın sutunları altında döyüşərək sona vermək istəyirdilər. Bu, igidlər, çöllərdə ac-yalavac dolaşıb ölməkdənsə, döyüşərək ölməyi üstün tutmuşdular. Onların hər biri keçirdikləri döyüşlərdə müxtəlif qəhramanlıqlar göstərək ad-san qazanmışdılar. Belə ki, artıq onların məqsədi Romanın varlığına son qoymaq yox, Romanı yaşatmaq və onu qorumaq idi. Və bu məqsədlə sonu bilinməz yola çıxmışdılar.

Hun döyüşçülərinin arasında Markila adlı birisi, hunların rəhbərinə yolüstü, Alp dağlarındakı mağaralardan birində yaşayan qoca və müdrik Severini ziyarət edib ondan xeyir-dua almaq təklifini irəli sürdü. Bütün dəstə üzvləri onun bu təklifini bəyəndilər və hamı müdrikin mağarasına tərəf yönəldi. Müdrikə hunların onu ziyarət etmək istədiklərini bildikdə, "gəlsinlər" dedi.

Bundan sonra hunlar iki bir, üç bir qoca müdrikin hücrəsinə daxil olmağa başladılar. Ancaq hunların arasında olan bir nəfər, boyunun həddən artıq hündür olmasından dolayı, hücrəyə lap güc-bəla ilə daxil ola bildi. Onun sərt və iti baxışı

Severinin diqqətini özünə cəlb etdi və o, barmağını hun igidinə uzadarq qəfildən dedi:

- Sən ucasan, ancaq daha da ucalacaqsan! Öz yoluna davam edərək İtaliyaya get!...

Qocanın bu qəfil sözləri hücrədə olan hər kəsi diksindirdi. Həmin cavan isə orta əsr türk qəhramanlarından biri olan Odoakr idi. (Hərçənd ki, bəzi tarixçilər, xüsusən də şovinist rus tarixçiləri onu alman kimi qələmə verməkdədirlər). Roma İmperiyasının varlığına son qoyaraq onu dünya xəritəsindən "silən" Odoakr, Attilanın ən yaxın silahdaşı olan Edigenin oğlu idi.

Mənbələrdə göstərilənlərə görə Odoakr, Qərbi Roma İmperiyasının köməkçi ordusunun rəisi Patrisi Rikimerin yanına gələrək özünü ona təqdim edir. Rikimer də öz növbəsində bu hun igidini həvəslə öz ordusuna qəbul edir. Bundan sonrakı hadislər isə başgicəlləndirici sürətlə baş verir. Belə ki, mənşəcə svab olan Rikimer, qaynatası və imperator Anfemiyaya qarşı üsyan qaldırır.

Rikimerin rəhbərlik etdiyi ordu, beş ay Romanı mühasirədə saxladıqdan sonra nəhayət, bu şəhəri ala bilir. Bundan sonra onun ilk işi imperator Anfemiyanı öldürmək olur. Rikimer taxta Olibryanı çıxarır ki, o da iki aydan sonra qan qusmaqdan ölür. Beləlikıə də, Roma taxtı bir müddət boş qalır. Bundan istifadə etməyə çalışan Şərqi Roma imperatoru I Lev, Qərbi imperiyanın da imperatoru olduğunu bəyan edir və qohumu Yuli Nepotu taxta çıxarılmaq üçün Romaya göndərir. Ancaq ordu magistri və vaxtilə Attilanın katibi olan Orest onu Dalmatiyaya qovaraq, öz qohumu Romul Avqustu Roma taxtına çıxarır. Qəribədir ki, Romanın ilk hakiminin adı da Romul imiş.

Belə bir dönəmdə Romada bütün qeyri-romalı döyüşçülər Odoakrın rəhbərliyi altında birləşmişdilər. Bu döyüşçülər də öz növbələrində qılınclarını çəkərək Odoakrı kral elan edirlər. Bundan sonra Odoakr, ordusu ilə Revenna şəhərinə yürüş edir





və Romul Avqustu əsir götürür. Ona bir malikanə verərək yanından uzaqlaşdırır. Ordunun təkidli istəyinə baxmayaraq, Odoakr özünü imperator elan etməkdən imtina edir və Şərqi Roma İmperiyasının paytaxtı Konstantinapola elçi göndərərək sadəcə İtaliyanın hakimi olmaq istədiyini bildirir. Onun bu istəyi Şərqi Roma imperatoru tərəfindən qəbul edilir.

Beləliklə də min ildən bəri davam edən Roma İmperiyasına rəsmi olaraq son qoyulur. Bununla da Avropanın və Yaxın Şərqin onlarla xalqı öz azadlıqlarına qovuşmuş olur. Bu tarixi xidmət isə Hun xalqının igid oğlu və Böyük Türk olan Odoakrın adı ilə tarixə düşür.

# İLTƏRİŞ QUTLUQ XAQAN
*ölümü 692*

*"Ey Türk... Su kimi axıtdığın qana... Layiq ol!"*

**Orhun-Yenisey abidələri**

Göytürklər və ya Göy-Türklər Orta Asiyada və Çində yaşamış olan Türk toplumudur. Göytürklər inanc və düşüncə etibarilə Göytanrı (Tanrı və ya Tenqri) tərəfindən dövlət qurma görəvinin onlara verildiyinə inanır və daim bu inanc istiqamətində hərəkət ediblər. Bu səbəbdən də özlərini Göytürk adlandırıblar və tarixə də bu adla düşüblər. Türk adı da ilk dəfə olaraq Göytürklər zamanına aid olan Orhun-Yenisey Yazılarında keçməkdədir.

Böyük türk xaqanlarından biri olan İltəriş Xaqnın dünyaya gəldiyi il təəssüf ki, mənbələrdə göstərilmir və ya bəlli deyil. Xanımının adı isə İlbilgə Xatundur. Ancaq Türk Tarixində qoyduğu iz, zamanının ən böyük dövlətlərindən birini yenidən bərpa etməsi, onu daim bizlərin qəlbində yaşaması və Böyük Türk hesab edilməsi üçün kifayət edir.

Göytürklər, 630-cu ildə Çin işğalına məruz qaldılar. Bununla da onlar müstəqilliklərini itirərək, tamamilə Çinin nəzarəti altına düşdülər. Mənbələrin bildirdiyinə görə belə bir vəziyyət təxminən əlli il çəkmişdir. Nəhayət, 682-ci ildə İltəriş Xaqan, Göytürk Dövlətinə yenidən müstəqillik qazandırmış, dövlətin adını və nüfuzunu bərpa edə bildi. İki ölkəni bir arada





birləşdirərək, eyni ideologiya ətrafında topladığına görə sonradan Qutluq adına əlavə olaraq ona İltəriş ünvanı verildi.

İltəriş Qutluq Xaqan, türklərin, Çin işğalında olduqları dövrdə dünyaya gəlmişdir. Orada böyüyüb-başa çatmış, bir müddət də dövlət məmuru olaraq işləmişdir. 681-ci ildə onu işi ilə əlaqədar olaraq Orta Asiyaya göndərirlər. Burada çalışdığı dönəmdə o, on yeddi silahdaşı ilə birlikdə Göytürk Dövlətini yenidən qurmaq təşəbbüsündə olublar. Bu işdə ona, bütün zamanların ən ağıllı və ən tədbirli vəziri olan Bilgə Tonyukuk da yardımçı olub. İltəriş Xaqanı dəstəkləyənlərin sayı yeddi yez olunca, o, müstəqillik elan etdi. Bundan sonra isə Orta Asiyadakı bütün türk boyları və Çindəki Türk Xənadan mənsublarının hamısı onun ətrafında birləşdilər. Bu zaman isə böyük bir qüvvət ortaya çıxdı və İltəriş Xaqan, 682-ci ildə Göytürk Dövlətini ikinci dəfə qurduğunu, özünü isə Xaqan elan etdi. Bilgə Tonyukuku isə özünə vəzir təyin edildi. İkinci Göytürk Dövlətinə məhz onun qurucusunun şərəfinə Qutluq Dövləti də deyilir.

Göytürk Dövlətini yenidən qurduqdan dərhal sonra İltəriş Xaqanın ilk işi bütün türk boylarını Türk Milli Şüuru ətrafında birləşmələrini təmin etmək oldu. 682-ci ildə yenidən qurulan Göytürk Dövlətinin orduları dünyanın müxtəlif bölgələrinə on il içində qırx yeddi dəfə yürüş etmişdir. Bunların on yeddisi isə o zamanlar türklərin daimi və əbədi düşmən olan Çinə edilmişdir. Sözü gedən qırx yeddi döyüş yürüşünün iyirmisində İltəriş Qutluq Xaqan özü şəxsən iştirak etmişdir. Bütün bu yürüşləri zaman İltəriş Xaqan heç bir zaman məğlub olmamış, ordusunu geriyə həmişə zəfərlə qaytara bilmişdir. Türk Dünyanın bu böyük insanı 692-ci ildə vəfat etmişdir. Onun Bilgə Xaqan və Kül Tigin adlı iki oğlu olmuşdur.

İltəriş Qutluq Xaqan vəfat etdikdən sonra onun yerinə qardaşı Kapağan Xaqan Göytürk Dövlətinin başına keçmişdir.

## TONYUKUK
### ölümü 726

*"Qaraqurumda dovşan və ceyran yeyərək yaşayırdıq. Millətin qarnı tox, kefi kök idi. Düşmənlərimiz ətrafda ocaq kimi idilər. Biz isə atəş idik".*

Tonyukuk

Tonyukuku bütün zamanların ən ağıllı vəziri hesab etmək olar. Çox gözəl strateq və taktika ustası olmasından dolayı ona özündən sonra "Tüklərin Bismarkı" ləqəbi verilmişdir. Belə yardımçını Tanrı, Türk Millətinə bir də Səlcuqlar zamanında Nizamülmülkü qismət etmişdir. Tonyukuk eyni zamanda yazıçı və tarixçidir. Göytürk Dövlətinin İltəriş Xaqan tərəfindən ikinci dəfə qurulmasından sonra bütün sağlığı boyu bu türk dövlətinin vəziri və divan başqanı olmuşdur. O, əvvəl İltəriş Xaqana, sonra Kapağan Xaqana, daha sonra isə İltəriş Xaqanın oğullarına vəzirlik etmişdir.

Tonyukuku öz adına ucaltdırmış olduğu abidədə (Orhun-Yenisey abidələri) yazıldığına görə o da İltəriş Xaqan kimi türklərin Çin əsirliyində olduqları dönəmdə dünyaya gəlmişdir. Əsarətdən isə İltəriş Xaqanla birlikdə xilas olmuşdur.O, İltəriş Xaqanın oğlu Bilgə Xaqanın da vəziri olmuş, eyni zamanda ona öz qızını verərək bu şərəfli nəsillə qohum olmuşdur.

Tonyukuk haqda olan yazılı abidədə o, özü haqda belə yaşdırmışdır: "Tanrı nəsib etdiyi üçün Türk Torpaqları içində silahlı düşmənin gəzməsinə izin vermədim. Damğalı atı çapmadım. İltəriş Xaqan calışmasaydı, ona tabe olaraq mən də çalışmasaydım, dövlət də millət də məhv olardı. Çalışdığım üçün dövlət də, millət də yenidən var oldu. Mən artıq qocalmışam. İndi Bilgə Xaqan, Türk Soyunu idarə edərək, onun başında durur. O, Oğuzları gözəl idarə edir". Sadə və açıq türk dilində yazılan bu abidədə türklərin Çin əsarəti altında olduqlarından danışılır. Abidədə çinlilərin hiylə və məkrlərindən söz edilir, onlara inanmağın türk millətinə fəlakət gətirəcəyindən söhbət açılır. Abidənin müəyyən bir qismi isə Tonyukukun şəxsi həyatı haqdadır. Sözü gedən abidə 720-725-ci illərdə inşa edilmişdir.

Yuxarıda da qeyd etdik ki, Tonyukuk dövlət adamı olması ilə yanaşı, eyni zamanda bir mənəviyyat insanı idi. O, daim Türk Millətinin birliyini və monotonluğunu qorumaq üçün milli ideologiyaların var olmasına inanmış və bu yöndə siyasət yürüdülməsinə çalışmışdır. Demək olar ki, o, məqsədinə sağlığında çatmışdır. Onun Türk Milləti qarşısında ən böyük xidmətlərindən biri də, türklərin Buddizm dininə girmələrinin qarşısını alması olmuşdur. O, Xaqanın yanına gələn Buddist elçilərin Göytürk Dövləti ərazisində buddist məbədləri inşa etmələrinə şiddətlə qarşı çıxmış və Xaqanın, onları ölkədən çıxmalarını əmr etməsini təmin etmişdir. Tonyukukun bu inanca qarşı çıxmasının bir səbəbi də, buddist inancının ət yeməmək, daim zikr etmək, heyvan kəsməmək kimi əmrləridir. Bütün bu kimi şeylər isə bütün həyatlarını at üstündə keçirən, daim heyvandarlıqla məşğul olan və onların ətini yeyən Türklərin həyat tərzinə tam tərs idi. Vəzir Tonyukuk, türklərin müxtəlif xalqlar tərəfindən yenidən istila edilməsinin qarşısını almaq üçün Türk Millətinin divarlarla əhatə olunmuş şəhərlərdə yaşaması təmin etmişdir. Daim millətinin yol göstərəni olan Tonyukuk, aclıqdan toxluğa, köləlikdən müstəqilliyə çatan türk millətinin yaşayışını

belə anlatmaqdadır: "Qaraqurumda dovşan və ceyran yeyərək yaşayırdıq. Millətin qarnı tox, kefi kök idi. Düşmənlərimiz ətrafda ocaq kimi idilər. Biz isə ateş idik".

Doğum tarixi bilinməyən Tonyukuk 726-cı ildə vəfat etmişdir. Onun vəfatından sonra Göytürk Xaqanı, Bilgə Xaqan xatirəsini indiki Monqolustan ərazisində yerləşən Bayın-Coqto adlı yerdə əbədiləşdirmişdir.





## QAPAĞAN XAQAN
### *665 - 716*

***"Doqquz Oğuz qövmü öz qövmüm idi, göy və yer qarışdığı üçün düşmən oldu".***

**Qapağan Xaqan**

Göytürk Dövlətini, Çin əsarətindən qurtarıb ikinci dəfə yenidən quran İltəriş Xaqanın qardaşıdır. 692-ci ildə İltəriş Xaqanın vəfatından sonra Qapağan Xaqan, Göytürk Dövlətinin başına keçmişdir. 692-ci ildə dünyaya gələn Qapağan Xaqanın hakimiyyət başına gəldiyi zaman 27 yaşı olub.

Bəzi qaynaqlarda (bu qaynaqların əksəriyyəti Çin qaynaqlarıdır) adı Moço

(Türk dilindəki əsli isə Beqçor şəklindədir) kimi keçməkdədir. Türk tarixinin böyük fatehlərindən biridir. Qardaşı İltəriş Xaqanın hakimiyyət illərində mühüm dövlət vəzifələrində çalışmış, onunla birlikdə bütün yürüşlərə qatılmışdır.

Kapağan Xaqanın yürütdüyü dövlət siyasətinin əsaslarını üç hissəyə ayırmaq mümkündür:

**1. Ən təhlükəli qonşu olan Çini daim təzyiq altında saxlamaq. Buradakı əsas məqəsdi isə Göytürk Dövlətində daimi əsayişi bərpa etmək və xalqa kifayət edəcək qədər əkinçilik məhsulları istehsal etmək.**

**2. Çində hələ də dağınıq halda yaşamaqda olan bütün türklərin ana vətənə - Ötükənə gəlmələrini təmin**

**etmək. Kapağan Xaqanın bu məsələdə də iki məqsədi olub. Türkləri əsarətdən qurtarmq və Göytürk Dövlətinin ordusunu əsgərlə təmin etmək, iqtisadiyyatı yüksəltmək.**

**3. Asiya qitəsində nə qədər türk varsa hamısını Göytürk Dövləti hakimiyyəti altında birləşdirmək.**

Qapağan Xaqanın bu siyasi və iqtisadi görüşləri onu seçkin Türk Böyükləri arasında yer almasına səbəb olmuşdur. Gənc, dinamik və enerjili Qapağan Xaqan, səfərlər və zəfərlər seriyasına 693-cü ildə Çinə etdiyi yürüşlə başlamışdır. Bu səfəri zamanı o, Çinin Linq-çu əyalətini böyük bir hissəsini dağıtmişdır. Eyni ildə bu bölgəyə daha yeddi səfər etmişdir. Daha sonra isə onun rəhbərliyi altında türk orduları Ordosa axınlar etmişdir. Qapağan Xaqanın Çinə olan yürüşləri 696-cı ilə qədər davam etmiş və bu il içində türklərin qələbəsi ilə yekunlaşmışdır. Qələbədən sonra Çinin bəzi bölgələri Göytürk Dövləti tərkibinə qatıldı, bundan başqa isə çinlilər böyük miqdarda təzminat və xərac verməli oldular.

Qapağan Xaqan bu zəfərdən sonra Göytürk ordularını, Yenisey bölgəsini işğal etməkdə olan Qırğızlara qarşı yönəltdi. Yürüş 697-698-ci illərdə baş tutmuşdur. Bu yürüşün Göytürklər üçün önəmi böyük idi. Belə ki, son dönəmlər həddən artıq qüvvət toplamış Qırğız Xaqanı, Göytürk Dövlətini ortadan qaldırmaq məqsədilə Çin və On-ox xaqanl ilə anlaşmışdı. Bunu öyrənən Qapağan Xaqan, daha tez hərəkətə keçərək, qırğızları qəfil yaxaladı onların xaqanını öldürdü, xalqını isə tamamilə təslim etdi.

Qapağan Xaqan 697-ci ilim yazında dövlətin mövcud durumunu yenidən dəyərləndirərək ordunu və idarəetməni yenidən düzənə salmaq fikrinə düşür. Bu məqsədlə o, qardaşı To-sifunu sol qanadına, İltəriş Xaqanın 14 yaşındakı oğlu Bilgəni sağ qanada, öz oğlu Bögünü (kitabələrdə İnal, Çin qaynaqalarında isə Fu-ku kimi tanınmaqdadır) "kiçik xaqan" elan etdi.





Qapağan Xaqan yenidən Çinlə döyüşə hazırlaşdığı zaman, İnal Xaqan ilə Bilgə Şad əmrində olan qərb orduları On-oxları, Göytürk Dövlətinə tabe etmək əmrini almışdıar. Əslində isə Qərb ordularını vəzir Tonyukuk idarə edirdi. Bu zaman Xaqanın yanına gələn Çin elçilərinə qarşı çox sərt davrandı ki, bu da Çini təlaşlandırdı.

Ancaq, qizini Çin şahzadəsi Vunun, Tanq sülaləsindən yox, öz ailəsindən olan biri ilə ailə qurmaq istəyi sonra Qapağan Xaqanı özündən çıxartdı. Bundan sonra yanına elçi olaraq gələn, Çin elçi heyyətnin rəhbəri general Çen-çi-veni "Çin xaqanı" elan edərək, onunla birlikdə Çin torpaqlarına soxuldu. Qapağan Xaqan 698-ci ildə yüz minlik ordusu ilə Çinə otuz yürüş etdi və bu yürüşlərdən sonra demək olar ki, Çinin bütün ordusu darmadağın edildi.

Bu arada isə İnal Xaqan ilə Bilgə Şad tərəfindən rəhbərlik edilən Qərb orduları, Tonyukukun ali rəhbərliyi altında Altun (Altay) dağlarını aşıb, Yarış-ovasına doğru irəliləmiş, Bolçuda (indiki Tokoi qəsəbəsi) On-oxlar üzərində qəti qələbə qazanmışdılar.

Beləliklə də vaxtilə Tardunun həyata keçirdiyi birləşmiş Şərqi və Qərbi xaqanlıqları, üzərindən yüz il keçəndən sonra yenidən birləşmiş halda tarixdə peyda oldu. Bu dəhşət verici Türk birliyi bütün dünyana lərzəyə gətirməyə hazır vəziyyətdə idi. Ancaq bunun üçün Qapağan Xaqanın üçüncü planı olan Mavərünnəhrin də Göytürk İmperiyasının tərkibinə qatmaq lazım idi.

Coğrafi mövqeyi, bərəkətli torpaqları seçilən bu bölgədə o dönəmdə sözü gedən bölgədə Göytürklərə qarşı duracaq güc yox idi. Həmin vaxtlarda kiçik şəhər dövlətləri tərəfindən idarə edilən bu bölgənin rəhbərləri, 675-ci ildən bu yana müsəlman-ərəb sərkərdələri olan Abdullah bin Ziyad, Səid bin Osman, Musa və Mühəlləbə qarşı bacarıqla döyüşməkdə idilər.

Qapağan Xaqanın sərtliyi və heç bir məsələdə heç kimə güzəştə getməməsi ona tabe olan bəzi xalqlarda narazılığa səbəb olmuşdu. Belə ki, 711-ci ildə Qara-Türgişlər üsyan etmişdilər. Bu üsyanı Gül-Təkinin rəhbərli etdiyi ordu yatırtsa da, eyni il başlanan, On-oxların və Çinin də dəstəklədiyi Qarluq üsyanı tam üç il davam etmişdir. Çin imperatoru Çunq-tsunqun Qan-su bölgəsində olan ordularını Göytürklərə qarşı səfərbər etdiyi bir dönəmdə Türküstandakı yurdlarını tərk edərək, Ötükənə (Göytürk Dövlətinin paytaxtı) qədər gəlmiş olan Qarluqlar və onların müttəfiqləri, Qapağan, Bilgə və Gül-Təkinin ortaq rəhbərliyi altında olan Göytürk orduları tərəfindən məğlub edilərək dağıdıldı. Ölkə daxilindəki üsyanlar yatırdıldıqdan sonra 714-cü ildə Göytürk orduları Çinin Beş-balıq vilayətinə yönəldi.

Çin qaynaqlarının bildirdiyinə görə, Göytürk ordularına İnal Xaqan ilə Bilgə Şad rəhbərlik etmişdir. Türk ordusu Beş-balığı mühasirə etsə də, şəhəri ələ keçirə bilmədilər. Ancaq, bununla yanaşı mövcud olan Çin təhlükəsi də məhv edildi.

Bütün bunlarla yanaşı, Göytürk İmperiyası qazan kimi qaynamaqda idi. Ölkə içində ard-arda üsyanlar baş qaldırmaqda idi. Belə ki, 715-ci ildə Azlar və İzgilərin üsyanı amansızcasına yatırdıldı. Fəqət, bu iki türk boyu xaqanlığın əsas hissəsini təşkil etdiyi üçün, onların üsyanı xaqanlıqda dərin və sağalmaz izlər buraxdı. Bu üsyanlara Oğuzların baş qaldırmasını da əlavə etsək, onda yaranmış mənzrənin nə qədər acınacaqlı olduğunu görmək çətin olmaz.

Bütün bu üsyanlardan sonra imperiyanın qərb bölgəsində yaşayan Qarluqlar, Türgişlər və Mavərünnəhr xaqanlıqdan qopdu. 715-ci ilin baharında Xaqan, Doqquz-oğuzlara qarşı səfərə çıxmağa məcbur oldu. Bu səfər zamanı Doqquz-oğuzların məğlub olması ilə yanaşı, Oğuzların heyvanları məhv edildi. Bundan bir il sonra, 716-cı ildə Oğuz qəbilələrindən olan Bayırquların üsyanı da Qapağan Xaqan tərəfindən eyni amansızlıqla basdırıldı. Fəqət, bu qələbə, bütün həyatı boyunca dincliyin və istirahətin nə olduğunu bilməyən, daim sərt və güzəştsiz siyasət yürüdən, həyatını Göytürk Dövləti və Türk Millətinin birliyi uğrunda döyüşlərdə keçirən bu Böyük Türkün son qələbəsi oldu.





Döyüşün bitdiyini, üsyanın yatırdıldığını düşünən Xaqan, özünün məğlubedilməz və müzəffər ordusu ilə paytaxt Ötükənə qayıtdığı zaman, Bayırquların qurduğu pusquya düşdü və öldürüldü. Bu hadisə 716-cı ilin 22 iyununda baş verdi. Bu işdə Bayirqlululara çinlilər də yardım etmişdilər. Belə ki, həmin an, onların yanında Çin elçisinin olması dediklərimizi sübut edir. Rəvayətə görə Qapağan Xaqanın kəsilmiş başı həmin bu bu elçi tərəfindən Çinə aparılmışdır. Qapağan Xaqanın vəfatından sonra onun yerinə oğlu İnal keçsə də, İltəriş Xaqanın oğlu Bilgə Xaqan onu devirərək, Göytürk Dövlətinin yeni Xaqanı oldu.

## BİLGƏ XAQAN
*684 - 735*

> *"Türk Millətinin daha uzun illər yaşamasını istəyirsənsə Buddist inanc sisteminin türklər arasında yayılmasına icazə vermə".*
>
> Tonyukuk

Bİlgə Xaqan adı ilə ilə tanınan və öz adına tikilmiş olan yazılı abidədə onun haqqında belə deyilməkdədir: "Bilgə Xaqan, türklərin, Çin əsarətində olduqları zaman, 683-cü ildə dünyaya gəlib. Atası, Göytürk Dövlətini yenidən qurmuş olan İltəriş Qutluq Xaqan, anası İlbilgə Xatundur. Səkkiz yaşında atasını itirən Bilgə Xaqan, 24 il ərzində, yəni xaqan olana qədər əmisi və Göytürk Dövlətinin xaqanı, Qapağan Xaqanın təlim-tərbiyəsi altında böyüdü".

Bilgə Xaqan, əmisi Qapağan Xaqanın vəfatından sonra onun yerinə keçən oğlu İnalı devirərək, 32 yaşında hakimiyyət başına gəlmişdir. Hakimiyyətə gələn kimi ilk işi Göytürk Dövlətinin idarəetməsini özünə sadiq insanlara verməsi oldu. Bu yöndəki ilk təyinatları isə 31 yaşındakı qardaşı Gül Təgini (Təkin) ordunun başına, vəzirlikdən uzaqlaşdırılan Tonyukuku isə vəzir vəzifəsinə gətirməsi oldu.

Bilgə Xaqanın ən böyük istəyi millətini oturaq həyata alışdıraraq, onları şəhərlərdə yaşamağa uyğunlaşdırmaq idi.





Ancaq onun bu istəyinə qarşı ilk çıxan insan isə öz vəziri Tonyukuk olmuşdur. Vəzir Tonyukuk öz fikrini aşağıdakı kimi əsaslandırmışdır: "Türklər, çinlilərin yüzdə biri qədər də deyildir. Türklər daim su və otlaq axtarmaq məcburiyyətindədirlər. Eyni zamanda onlar ovçuluqla da məşğul olurlar. Bu kimi səbəblərdən də Türklərin bəlli bir oturaq yeri yoxdur və onlar daim savaşlarda olurlar. Özlərini güclü hesab etdikləri anda, ordularını hərəkətə keçirirlər. Zəiflədikləri zamanlarda isə ucsuz-bucaqsız çöllərdə məharətlə gizlənirlər. Beləliklə də, çinlilərin böyük say üstünlüklərinə baxmayaraq, türklərə ziyan verə bilmirlər və onları beləcə neytrallaşdırırlar. Türkləri divarlarla əhatə olunmuş şəhərlərdə yaşamağa məcbur etsəniz və bu arada çinlilərə məğlub olsanız, həmişəlik çinlilərin əsiri olacaqsınız".

Bilgə Xaqan, hakimiyyəti dönəmində bir ara Türklər arasında Buddizmin yayılmasına icazə vermək istədi. Bunun üçün hətta buddist monastrlarının tikintisinə də icazə vermək arzusunda idi. Bilgə Xaqanın bu istəyinin də ilk müxalifi vəziri Tonyukuk oldu. Bu dəfə də vəzir öz sözlərini belə əsaslandırırdı: "Buddizm bir inanc sistemi kimi, insanın daxilində olan iqtidar və hökm etmə duyğusunu zəiflədir. Eyni zamanda qüvvət və savaşma kimi hissləri korşaldır. Əgər Türk Millətinin daha uzun illər yaşamasını istəyirsənsə Buddist inanc sisteminin türklər arasında yayılmasına icazə vermə". Bütün məsələlərdə vəziri Tonyukuka inanan və ona etibar edən Bilgə Xaqan, bu dəfə də onun məsləhətinə uyğun olaraq, Buddist inancının türklər arasında yayılmasına icazə verməkdən vaz keçdi.

Bilgə Xaqanın hakimiyyəti dönəmində Göytürk Dövlətinin sərhədləri Çinin Şan-Tunq ovalığından, Orta Asiyadakı Qaraşar bölgəsinə, şimalda Bayırqu ərazisinə və qərbdə Dəmir Qapıya (Ceyhun çayının yaxınlığında yerləşən Səmərqənd-Bəlx yolunun üzəri) qədər uzanırdı.

Bilgə Xaqanın hakimiyyəti 720-ci illərin sonuna doğru zəifləməyə başladı. Bunun əsas səbəblərindən biri də, vəziri və qaynatası Tonyukukun 726-cı ildə vəfat etməsi olmuşdur. Xaqan 731-ci ildə qardaşı Gül Təgini itirmişdir. Bilgə Xaqan özü isə çinlilərlə iş birliyində olan və onların istəyi üzərinə nazirlərindən biri, Buyraq Cor tərəfindən zəhərlənmişdir. Yataqda olduğu zaman öz yardımçısı və naziri Buyraq Coru edam etdirən Böyük Türk Bilgə Xaqan, elə bu zəhərlənmədən 735-ci ildə vəfat etmişdir.





## GÜL TƏGİN (TƏKİN)

### 684 - 731

*"Göstərdiyi qəhramanlıqlardan dolayı, bütün Çin qaynaqlarında onu "Məğlubedilməz Savaşçı" adlandırdılar".*

Gül Təgin 684-cü ildə dünyaya gəlmişdir. Atası İltəriş Xaqan vəfat etdiyi zaman, qardaşı Bilgənin səkkiz, onun özünün isə yeddi yaşı olub. Böyük qardaşı ilə birlikdə əmiləri Qapağan Xaqanın nəzarətində böyüdülər. Qardaşı Bilgə, 32 yaşında Böyük Xaqan olunca onu da ordunun başına rəhbər təyin etmişdir. Onun haqqında ən dəqiq məlumatlar, Orhun-Yenisey abidələrində yazılmaqdadır. Belə ki, sözü gedən yazılı abidələrdə onun haqqında belə yazılmaqdadır: "Gül Təgin, 16 yaşında olarkən ölkə daxilindəki üsyanları yatırdılmasında əmisi ilə birlikdə iştirak edirdi. Gül Təgin 21 yaşında olarkən Çin generalı Caca ilə olan müharibədə iştirak etmiş və bu müharibənin gedişatında üç atını itirmişdir. Çinli əsgərlərin atdığı yüzdən çox oxdan yayınmağı bacarmış və bu savaşın qazanılmasında böyük pay sahibi olmuşdur. Gül Təgin 26 yaşında Göytürk Dövlətinə qarşı başqaldırmış qırğızların üsyanının qarşısının alınmasında da iştirak etmişdir".

Sanqa dağı ətəklərində Göytürk Dövlətinin, Çinlə etdiyi müharibə zamanı, Gül Təginin qəhramanlıqları çinlilərin də diqqətini çəkmiş və onu bu döyüşdən sonra bütün Çin

qaynaqlarında "Məğlubedilməz Savaşçı" adlandırdılar. Gül Təgin 27 fevral 731-ci ildə qırx yeddi yaşında Moqa Kurqandakı qərargahında vəfat etmişdir. Bütün həyatı boyunca Türk Millətinin birlik və bərabərliyi üçün çalışmış və bu yolda qılınc çalmış olan bu Böyük Türkün vaxtsız vəfatı, başda qardaşı Bilgə Xaqab olmaqla bütün Türk Millətini matəmə bürümüşdür. Onun cənazə törənində Çin, Tibet, İran, Soqd, Buxara, Türgiş, Qırğız və digər dövlət boyları da iştirak etmişlər.





## ƏBU NƏSR MƏHƏMMƏD FƏRABİ

***870 - 950***

Orta Asiyalı Türk filosofudur. Dünyanın ən böyük və açılmamış sirlərindən biri də dahinin dünyaya gəlişidir. Bu cür insanların dünyaya təşrif buyurmasının sirri Tanrıdan başqa heç kimə bəlli deyil. Əgət belə olmasaydı kimin ağlına gələ bilərdi ki, antik dünyanın ən böyük zəkalarından biri olan Aristoteldən sonra dünyanın ikinci metafiziki, qədim elmlərin ensiklopedik dühası məhz Amudərya sahilində türk-oğuz ailəsində dünyaya gələcək.

Əbu Nəsr, Şaş şəhərindən (indiki Daşkənd) şimal-qərbdə Fərab adlanan yaşayış məntəqəsində zindan gözətçisi ailəsində dünyaya gəlib. Yaşa dolub boya-başa çatdıqdan sonra Əbu Nəsr elm öyrənmək məqsədilə ailəsi ilə xüdahafizləşərək onlardan ayrılır. Əbu Nəsr əvvəlcə Şaş, daha sonra Səmərqənd və Buxarada yaşayıb. Bu şəhərlərdə qarşısına hansı iş çıxsa işləyir, qalan vaxtını isə məktəb, mədrəsə və kitabxanalarda keçirirdi. Demək olar ki, qarşısına çıxan hər şeyi oxuyurdu.

Fərabi, Şam və Bağdad şəhərlərinə gəlib çıxana qədər artıq İsfahan, Rey və Həmədanda olan bütün kitabları oxuyub hifz etmişdi. Bu zaman artıq X əsrin əvvəlləri idi. İslam dünyası özünün parlaq günlərini yaşamaqda idi. Bu elə bir dövr idi ki, bütün elmlər, o cümlədən xüsusilə də tarix, coğrafiya, riyaziyyat böyük sürətlə inkişaf edirdi. Elmlər arasında demək olar ki, yalnız fəlsəfənin "ulduzu" parlamamış qalırdı. Bağdad, Qahirə, Şam və Bəsrə qoca Şərqin elm, mədəniyyət və idrak mərkəzi çevrilmişdi. Xüsusilə də ərəb-İslam xilafətinin paytaxtı

olan Bağdad şəhəri bütün Asiya qitəsinin mirvarisi hesab edilirdi. İslam aləminin belə günlərinin birində Əbu Nəsr, dövrün "arzular şəhəri" olan Bağdada gəlir. Digər bir rəvayətə görə Əbu Nəsr əvvəlcə Şam şəhərinə gələrək, buradakı bağlardan birində gözətçi vəzifəsində işləyib. Bu dönəmdə o, gündüzlər işləyir, gecələrini isə bütün qazancını verdiyi kitab və əlyazmaları oxumaqla keçirirmiş. Bu illər ərzində Əbu Nəsr, xristian Əbu Bişardan yunan dilini, digər bir xristian olan Yuhanna ibn Xayladan isə məntiq və tibb elmlərini öyrənir.

Günlərin birində Fərabinin kitab alveri ilə məşğul olan tanışlarından biri ona saxlamaq üçün xeyli kitab verir. Həmin dövrdə Əbu Nəsr artıq qazı kimi fəaliyyət göstərirdi. Gecə ona verilən kitabları vərəqləyəndə, təsadüfən Fərabinin əlinə Aristotelin bütün əsərləri düşür. Bundan sonra bütün işini-gücünü atıb gecə-gündüz Aristotelin əsərlərini oxumağa və öyrənməyə başlayır.

Fərabi haqda olan mənbələrdə bildirilir ki, o, Aristotelin məşhur "Ruh haqqında" traktatını düz yüz dəfə, "Təbii harmoniyanı" qırx dəfə, "Ritorika"nı isə iki yüz dəfə oxumuşdur. Yalnız bundan sonra ikinci Aristotel olmaq olardı ki, bu da Fərabiyə nəsib olub.

Fərabi haqda maraqlı bir rəvayət xoşbəxtlikdən günümüzə qədər gəlib çatıb. Belə ki, günlərin birində Farabi, Şam şəhərinin valisi olan Seyfuldövlənin sarayına gəlir. Bu zaman vali ətrafında toplanmış olan alim və əmirlərlə söhbət edirmiş. Əbu Nəsr zala daxil olanda hakim ona oturması üçün işarə edir. Hakimin otur işarəsindən sonra isə Fərabi ondan soruşur:

Necə oturum? Öz mənsəbimə uyğun olsun, ya sizin mənsəbinizə? Hökmdar qarşılığında cavab verir ki, öz mənsəbinə uyğun otur.

Belə olduqda Fərabi əmirlərdən yuxarı başa keçərək taxtın lap yaxınlığında əyləşir. Hökmdar qonağın bu hərəkətindən





sonra möhkəm əsəbləşir və yaxınlığında olan mühafizəçisinə naməlum bir dildə deyir: "bu, türk bütün nəzakət və ədəb qaydalarını pozdu. Məclis dağıldıqdan sonra onu möhkəm cəzalandır". Bunu eşidən Əbu Nəsr üzünü valiyə tutub deyir:

- Ya əmir, mən heç bir cinayət iş görməmişəm. Nəyə görə mən cəza almalıyam? Bu sualı eşidən Seyfuldövlə təəccüblə soruşur:

- Məclisdə iştirak edənlərin heç biri bu dili bilmir. Sən bu dili haradan öyrənmisən? Valinin sualına Fərabi belə cavab verir:

- Mən 70 dil bilirəm. Bunu eşidən Seyfuldövlə alimə üz tutub: - Sən "ikinci müəllim" deyilsən ki? - soruşur. - Elədir - cavabını alır. - Onda məni bağışla. (birinci müəllim - Aristoteldir)

Bundan sonra məclis əhli ilə Fərabi arasında müxtəlif elmlər haqda söhbət və mübahisə başlayır. Sonda isə Fərabi musiqidən danışır və özünün icad etdiyi "qıpçaq" adlı alətdə çalıb-oxumağa başlayır. Bir də ayılıb görürlər ki, məclis iştirakçılarının hamısı yuxulayıb. Seyfuldövlənin ona həmişəlik olaraq onun sarayında qalması haqda yalvarmasına baxmayaraq, Fərabi bir il qalmağa söz verir.

Fərabi insan kimi balaca boy adam olub və ömrünün sonuna kimi sadə türk paltarında gəzib. Olduqca sağlam həyat tərzi keçirən Fərabi, 80 il yaşayıb. Rəvayətə görə bir neçə yaxın adamı ilə birlikdə Əskələn şəhərinə gedərkən çöldə quldurlar tərəfindən öldürülmüşdür. Bunu eşidən vali çox hirslənmiş və Fərabinin qatillərini tapdıraraq edam etdirmişdir.

Bu, Böyük Türk zəkasının əsərləri təkcə məzmununa görə deyil, eyni zamanda sayına görə də yalnız Aristoteldən geri qalır. Onun 160-a qədər əsərinin olması güman edilir. Bu əsərlərin əlyazmaları dünyanın müxtəlif şəhərlərində olan kitabxanalarına aparılıb. Fərabinin əsərlərinin çox cuzi hissəsi

tərcümə edilərək nəşr olunub. Fərabinin əsərlərinə misal olaraq aşağıdakıları göstərə bilərik. "Xoşbəxtliyin əldə edilməsi", "Fəzilətli şəhər əhlinin baxışları", "Əql sözünün mənasına dair", "İlahi Platon və Aristotelin baxışlarındakı ümumilik", "Həcm və say haqda traktat", "Canın mahiyyəti haqqında traktat", "Sübut kitabı", "Musiqi haqqında böyük kitab", ""Metafizika" əsərində Aristotelin məqəsədi" və s.

Fərabiyə görə elmlərin şahı məntiqdir. Onun da mərkəzində də ziddiyyətlər qanunu durur. Eyni zamanda Fərabiyə görə insanın ruhu onun cismi ilə birlikdə ölür.





## SULTAN SƏLCUQ
### *təxminən 909 - 1009*

Səlcuqlular Türk-İslam dövlətlərinin ən böyüklərindən biridirlər. Bir Türk nəsli olaraq, onlar Oğuzların Üçoxlar qolunun Qınıq boyuna mənsubdurlar. Təxminən X əsrin sonlarında İslamı qəbul edərək müsəlman oldular. Səlcuqlular, Çindən, Qərbi Anadolu da daxil olmaqla, bütün Orta Asiya ölkələri, Aralıq dənizi sahilləri, çimal-qərbi Afrika, Yəmən və Rusiyanın içərilərinə doğru olan böyük bir ərazidə hökmdarlıq ediblər. Səlcuqlular, tarixdə təkcə siyasi hakimiyyət təmsilçiləri kimi yox, eyni zamanda, möhtəşəm bir mədəniyyətin qurucuları kimi də qalıblar.

Səlcuqlu Dövlətini quran və adını qurmuş olduğu dövlətə verən Sultan Səlcuq, Aral gölü ilə Xəzər dənizi arasındakı bölgəyə hakim olan Oğuz Dövləti sərkərdələrindən Dukaq Subaşının oğludur. Təxminən X əsrin əvvəllərində dünyaya gələn Sultan Səlcuqun atası vəfat edən zaman 17-18 yaşlarında olub. Bundan sonra o, Yabqunun (dövlət başçısı) yanında vəzifə aldı və onun yanında yetişdi. Daha sonra Yabquya tabe olan Oğuzlara rəhbər təyin edildi. Gənc yaşda olmasına baxmayaraq, Səlcuq bəyin günü-günüdən dövlət daxilində etibarı və hörməti artmaqda idi. Səlcuqun bu durumu Yabqunu və onun xanımını narahat etməyə başladı. Bir müddətdən sonra isə Səlcuq bəylə Yabqunun arası dəydi. Aralarında yaranan inciklikdən sonra Səlcuq, rəhbərlik etdiyi Oğuzları da özü ilə götürərək, Məvarünnəhr bölgəsinə çəkildilər. Bu zaman isə özləri birlikdə çoxlu sayda qoyun, at və dəvə götürdülər.

Bu köçün əsl səbəblərindən biri isə məkan darlığı və otlaq çatışmamazlığı idi. Sultan Səlcuq, 960-cı ildə Seyhun (Sır-

dərya) çayı hövzəsində yerləşən və Oğuz şəhərlərindən olan Cənd şəhərinə gəldi. Onlardan əvvəl isə bu bölgəyə İslam dinini qəbul etmiş və Məvarünnəhrdən köç etmiş müsəlman türklər də yaşamaqda idilər. Səlcuq bəy və ona tabe olan qüvvələrin türklərlə digər İslam bölgələri arasındakı sərhəd bölgəsi olan Cəndə gəlmələri tarixdə çox önəmli bir çağın başlanğıcı sayılır.

Səlcuq bəy, gəlmiş olduqları bu yeni bölgənin siyasi və sosial şərtlərini dəyərləndirərək, özünə tabe olan Oğuzlarla birlikdə İslam dinini qəbul edərək müsəlman oldu. Bundan sonra isə Buxara və Xarəzm bölgələrindən İslam dini böyüklərindən bir neçəsini yanına dəvət etdi. Beləliklə də, Türkmən adı ilə tanınan bu Türk topluluğu, siyasi və sosial yöndən yeni mahiyyət qazanmış oldu. Artıq Səlcuq bəy, İslam uğrunda cihad etmək üçün hazır bir qazi idi.

Bu dönəmdə Oğuz Yabqusu hələ də İslam dinini qəbul etməmiş durumda idi. Sultan Səcuq, İslamı qəbul etdikdən sonra bu dini yaymaq üçün mücadilə etməyə başladı. Bu mücadilələrdə onun iki əsas qazancı oldu. Birincisi o oldu ki, Oğuz Yabqusuna qarşı olan savaşlarda müsəlmanlığı qəbul etmiş olan türklərin hamısı onun ətrafında birləşdilər. İkinci qazancı isə Yabqu ilə döyüşlərdən sonra Cənd şəhəri və ətraf bölgələri öz ətrafında birləşdirərək müstəqillik elan etdi. Bəzi qonşu dövlətlər bundan sonra onun müstəqilliyini tanıdılar. Bununla da Səlcuqlu Dövləti qurulmuş oldu.

Ancaq, hələlik yeni qurulmuş olan bu, müsəlman-türk dövləti tam müstəqil hesab edilə bilməzdi. Bu qarışıq dönəmdə Türk Qaraxanlılar Dövləti, İran Samani dövləti ilə müharibə vəziyyətində idilər. Bu durumda Samani dövləti, Sultan Səlcuqdan yardım istədi. Sultan Səlcuqun həm yeni torpaqlara ehtiyacı var idi, həm də bu türk dövlətində gözü var idi. Bunun üçün də oğlu Arslan bəyin rəhbərliyi altında olan ordusunu Samani dövlətinə





yardım etmək üçün göndərdi. Məhz bu yardımın sayəsində Samanilər, Türk-Qaraxanlı Dövlətinə qalib gəldilər. Bunun qarşılığında isə Buxara və Səmərqənd arasında yerləşən Nür qəsəbəsi ətrafındaki ərazilər Səlcuqlulara verildi.

Artıq Səlcuqlu Dövləti, o dönəmin iki böyük dövləti olan Samanilərlə, Qaraxanlıların tam ortasında yerləşmiş vəziyyətdə idi. Səlcuqlu Dövləti, münasibətləri normal saxlamaq naminə hər iki dövlətə qarşı balanslaşdırılmış siyasət aparırdı. Ancaq Qaraxanlılar, 992-ci ildə Samanilərin paytaxtı olan Buxaranı zəbt etdilər. Samanilər sözü gedən bölgəyə yenidən, yalnız Oğuz Dövlətinin yardımı ilə sahib ola bildilər. Buna baxmayaraq Samani Dövləti daxilində narazılıqlar və münaqişələr baş qaldırmaqda idi. Yaranmış olan bu fürsətdən Qəznədə qurulmuş olan digər bir Türk Dövləti də yararlanmaq istədi. Bunun səbəbi isə Qəznəlilərin, Samani nəzarətindən və ona tabe olmaqdan tam qurtula bilməmələri idi. Onlar da fürsətdən istifadə edib müstəqillik qazanmaq arzusunda idilər. Samani Dövləti, Böyük Xaqanlığı (o zamanlar Böyük Xaqan Qaraxanlılardan seçilirdi) əlində saxlayan qüvvətli Qaraxanlılar, gettikcə qüvvətlənən Səlcuqlular və Qəznə Türk Dövləti arasında məhv olmağa məhkum idi.

Sultan Səlcuqun, Mikayıl, Arslan, İsrafil, Yusif və Musa adında dörd oğlu dünyaya gəlib. Sağlığında Toğrul və Çağrı adında iki nəvəsi də olub. Böyük oğlu olan Mikayıl, hələ atasının sağlığında vəfat etmişdi. Oğulları onun sağlığında, onunla birlikdə apardığı bütün döyüşlərdə onunla birlikdə olmuş və mühüm dövlət vəzifələrində çalışıblar. Sultan Səlcuq 1009-cu ildə, təxminən 100 yaşında vəfat edib. Ancaq vəfat etdiyi zaman, Səlcuqlu Dövləti yaxşı təşkilatlanmış və Səlcuqlu Dövlətinin sağlam təməlləri atılmışdı. Sultan Səlcuqun yerinə taxta, ikinci böyük oğlu olan Arslan Bəy keçdi. Taxta çıxdıqdan sonra o, Yabqu ünvanını aldı və tarixə Səlcuqlu ailəsi kimi düşən ailəsini yenidən təçkilatlandırmağa başladı.

## SULTAN MAHMUD QƏZNƏLİ
*971 - 1030*

*"Türklərin Hindistana ilk yürüşləri onun zamanında oldu".*

Əslində Qəznəvi Dövlətinin ilk qurucusu Alp Təgindir. Onun doğum tarixi dəqiqi bilinmir. Alp Təgin, Samanilər dövlətinə məxsus seçkin bir ordunun sərkərdəsi olub. Samani hökmdarı Əbdülməlik tərəfindən 955-ci ildə Xorasan valisi təyin edilmişdir. Əbdülməlikdən sonra onun yerinə keçən Nuhoğlu Mənsurla, Alp Təginin münasibətəri yaxşı deyildi. Bu səbəbdəb də Nuhoğlunun hakimiyyətə gəldikdən sonra gördüyü ilk iş, Alp Təgini vəzifsindən götürmək olmuşdur.

Bundan sonra isə Alp Təgin dörd min türk əsgəri ilə Mənsura qarşı üsyan etmiş və 962-ci ildə Qəznə şəhərini mühasirəyə alaraq, şəhəri zəbt etmişdir. Daha sonra Mənsurun göndərdiyi başqa ordunu da məğlub edən Alp Təgin, sonda onunla müqavilə imzalamışdır. 963-cü ildə vəfat edən Alp Təginin yerinə oğlu keçmişdir. Oğlu hakimiyyəti dönəmində Samanilərə bağlı qalmışdır. Qəznəlilər dövlətinin ikinci qurcusu isə Səbük Təkindir. O, isə öz növbəsində Alt Təginin köləlrindən olub. Bütün olanlara baxmayaraq Qəznəlilər adlı türk dövlətinin ən qüdrətli dövrü, Sultan Mahmud Qəznəlinin hakimiyyəti illərində olmuşdur.

Qəznəlilər Dövlətinin ən böyük hökmdarı və Hindistana ilk Türk axınlarını başladan Sultan Mahmud, 2 noyabr 971-ci





ildə dünyaya gəlmişdir. Artıq onun zamanında Türk Milləti bir toplum olaraq İslam dinini qəbul etmişdi. Bundan sonra isə Türk qılıncları həm millət üçün, həm də İslam dini üçün qınından çıvacaqdı. O, uşaqlığında mükəmməl bir təhsil almışdır. Belə ki, dövrünün böyük alimlərinin yanında olan Sultan Mahmud, eyni zamanda mərd və cəsur insan olub. Sultan Mahmudun atası olan Səbük Təkin, Samanoğulları Dövlətinin Xorasan valisi vəzifəsində çalışıb. O, gücünə və cəsarətinə arxalanaraq, Samanoğulları Dövlətinə qarşı öz müstəqilliyini elan etmişdir. Qəznəlilər Dövlətinin qurucusu olab Səbük Təkinin oğlu, Sultan Mahmud, gənc yaşlarından etibarən müxtəlif dövlət vəzifələrində çalışmağa başlamışdır. Belə ki, o, atasının sağlığında Xorasan valisi vəzifəsini tutmuşdur. Atasının vəfatından sonra dövlətin başına kiçik qardaşı İsmayıl keçmişdir. Bununla razılaşmayan Mahmud Qəznəli qardaşını öldürərək hakimiyyəti ələ keçirmişdir. İnsafən onu da demək yerinə düşərdi ki, Mahmud, qardaşından daha bacarıqlı və daha istedadlı sərkərdə və dövlət adamı olub.

998-ci ildə taxta çıxan Sultan Mahmud, Buxara, Herat, Bəlx, Bust və Kabili Samanilər Dövlətinin əlindən almışdır. Daha sonra isə indiki Əfqanıstan, Bəlucistan və Xarəzmə qədər olan bütün Məvarünnəhr torpaqlarını ələ keçirdi. Bundan sonra da sakitləşməyən Sultan Mahmud, boş oturmayaraq, Rey, İsfahan, Savə, Qəzvin, və Zəncanı alaraq, İranın böyük bir qismini öz imperiyasının tərkibinə qatmışdır. 1000-ci ilin sentyabr ayında isə Sultan Mahmud, Hindistana ilk yürüşünü etmişdir. Bundan sonrakı 27 il ərzində, yəni 1027-ci ilə qədər o, Hindistana on yeddi böyük yürüş etmişdir.

Bu səfərləri zamanı Sultan Mahmud, Hindistanda bir çox məscid inşa etdirdi və bu məscidlərə İslam dinini öyrətmək və təbliğ etmək üçün alimlər yerləşdirdi. Bunun da nəticəsi olaraq, İslam bir din kimi Hindistan ərazisinə daxil olmuş oldu.

Sərkərdə və dövlət başçısı olmaqla yanaşı, Sultan Mahmud, eyni zamanda elm və sənətə böyük dəyər verən insan idi. Belə ki, o, öz zamanında sarayında zamanının böyük alimlərini bir məclisə toplayar və onlarla müxtəlif mövzularda müzakirələr aparamış. Bütün bunlardan dolayıdır ki, onun sarayı zamanında bir növ akademiya halına gəlmişdi.

İndiki duruma görə ən böyük qəbahəti isə fars mədəniyyətinə və dilinə duyduğu heyranlıqdır. Çünki məhz onun zamanında fars mədəniyyəti və dili öz inkaşafının ən yüksək mərhələsinə çatdı. Ancaq bununla yanaşı, Sultan Mahmudun sarayında dövlət dili türk dili hesab edilirdi və bütün dövlət xadimləri bu dildə danışırdılar. Sultan Mahmud, Əbu Reyhan Biruni kimi böyük türk mütəfəkkirini də öz himayəsinə almışdır. Eyni zamanda fars şovinizminin banilərindən olan Firdovsi də onun zamanında Sultan Mahmuddan himayə görmüşdür. Firdovsinin, fars şovinizmi zəminində yazdığı məşhur "Şahnamə"si də məhz onun zamanında yarandı.

Ancaq o, türk dilinin yayılmasını və inkişafını daha çox və dövlət səviyyəsində dəstəkləsəydi, bütün Türk Dünyası, türk dilində olan ölməz əsərlər qazanmış olacaqdı. Bunun tam tərsinə olaraq Sultan Mahmud, fars dilinin ikişafına və bu dildə böyük yazılı abidələrin yaradılmasına əhəmiyyət vermişdir. Hətta bunu daim dövlət səviyyəsində dəstəkləmişdir. Bir çox hallarda olduğu kimi, yenə də təəssüf etməkdən başqa çarəmiz yoxdur... Heyf ki, Sultan Mahmud da bir çox hökmdarlarımız kimi əlində olan böyük imkanlardan türk dilinin inkişafı yolunda istifadə etməyib.

Ümumiyyətlə isə demək olar ki, Göytürk Dövləti hökmdarlarıdan və Şah İsmayıldan başqa bu yöndə bir iş görmək heç bir dövlət xadiminin ağlına gəlməyib. Az qala dünyanın yarısını alan bu böyük insanlar, ana dilinə gəlincə, elə bil kütləşiblər. Sanki Tanrı, onları bu xidməti görməyə mane olub...





Türk-İslam Dünyasının ən böyük hökmdarlarından biri olan Sultan Mahmud Qəznəli, İslam aləmində yayılmaqda olan, ancaq İslamla heç bir əlaqəsi olmayan batil Rafizi inancına qarşı da mübarizə aparmışdır. Məhz onun sayəsində bu batil məzhəb bütün İslam Dünyasına və torpaqlarına genişlənmək imkanları əldə etməmişdir. Memarlıq sənətinə böyük sevgisi olan Sultan Mahmud, paytaxtı Qəznə ilə yanaşı, Bəlx və Nişapur şəhərlərində də bir çox böyük memarlıq abidələrinin və tikililərinin yaranmasına səbəb olmuşdur. Sözü gedən şəhərlər, onun zamanında dövrünün ən müasir və ən dəbdəbəli şəhərlərinə çevrildi.

33 il hökdalıq edən Sultan Mahmud, 1030-cu ildə paytaxtı Qəznə şəhərində vəfat etmişdir. Bu Böyük Türkün qəbri də bu şəhərdədir.

## BİRUNİ ƏBU REYHAN
### *973 - 1048*

Orta Asiya türkləri arasından çıxmış böyük filosof və mütəfəkkirlərdən biri. Biruni, Xarəzm vilayətinin Kət şəhərində dünyaya gəlib. Fərabu və İbn Sina kimi həyatı boyu bir çox elmləri əxz etmiş və özündən sonra çox qiymətli əsərlər qoyub getmişdir. Onun həyat və fəaliyyətini yazanların bildirdiyinə görə təkcə əsərlərinin siyahısını tutmağa bir neçə səhifə lazım olardı. Əbu Reyhan Biruni, elmlə yanaşı siyasətlə də dərindən maraqlanmış və məşğul olmuşdur. Belə ki, o, faktiki olaraq Xarəzmşahlar dövlətinin xarici işlər naziri olmuşdur.

Yuxarıda da qeyd etdik ki, Biruni həddən artıq çox sahədə əsərlər yaratmışdır. Lakin bunlardan ən maraqlısı və günümüzdə də öz aktuallığını itirməyən əsərləri "Hindistan tarixi", "Qədim xalqların xronologiyası" və "Ötən nəsillərin yadigarları" əsərləridir. Sözü gedən əsərlər Biruninin tarix və coğrafiyaya aid olan əsərləridir.

Biruninin Yer quruluşuna və səma cisimlərinə aid bir çox fikirləri yaşadığı dövr üçün inqilabi mahiyyət daşıyırdı. O, hələ XI əsrdə Yerin Günəş ətrafında dövr etdiyini açıq söyləmişdir. Onu da deyək ki, Biruni dünyanın ilk qlobuslarından birini kəşf etmişdir.

Əbu Reyhan Biruni Allahın varlığını qəbul etsə də, bir filosof kimi materialist dünyagörüş sahibi olub. O, varlığın əsasında materiyanın durduğunu və onun müxtəlif forma və şəkillərdə kainatın hər yerində təzahür etdiyini söyləyib.

Biruni "Məsud cədvəli" əsərində bir çox şəhər və yaşayış məntəqələri ilə yanaşı, Azərbaycanda olan şəhərlərin də adlarını sadalamış, onların coğrafi koordinatlarını göstərmişdir. Bundan başqa o, Azərbaycan haqda maraqlı etnoqrafik məlumatlar da vermişdir.





## ƏBU ƏLİ İBN SİNA
### *980 - 1037*

Orta Asiya türklərinin dünya elminə bəxş etdiyi daha bir mütəfəkkir. İbn Sina Buxara şəhəri yaxınlığında Əfşənak yaşayış məntəqəsində dünyaya gəlib. Atasının adı Abdullah, anasının adı Sitarə Banudur. Atası kiçik məmur vəzifəsində şalışıb. Böyük zəka və yaddaş sahibi olan İbn Sina, 10 yaşına çatanda artıq Qurani-Kərimi əzbər bilirmiş. 16 yaşına çatanda Buxara və onun ətrafında məşhur həkim kimi hamı onu tanıyırdı. Bu yaşda ona Buxara əmirinin kitabxanasından istifadə etmək icazəsi verilir. Deyilənlərə görə İbn Sina aylarla kitabxanadan çıxmayıb və gecə-gündüz burada mütaliə ilə məşğul olub. O, tamamilə müstəqil bir şəkildə məntiq, fizika, riyaziyyat, həndəsə, astranomiya, musiqi və tibb elmlərinin əsaslarını mənimsəmişdir. 18 yaşına çatdıqda isə dövrünün bütün elmlərini əxz etmiş duruma gəlmişdir. Sonralar "Müdriklik xəzinəsi" adlanan həmin kitabxana yandıqda insanlar deyimiş ki, eyb etməz kitabxana İbn Sinanın başındadır.

Əbu Əli bir müddət Samanilər nəslindən olan Nuh ibn Mənsurun sarayında yaşayıb-yaratmışdır. "Xeyirxahlıq və günah", "Yekun və nəticə" adlı əsərlərini məhz bu sarayda yaşadığı dövrdə yaratmışdır. Həmin illərdə İbn Sina Aristotelin "Metafizika" əsəri ilə tanış olur. Əsəri əvvəldən axıra oxuyub əzəbərləsə də, tam mahiyyətini anlaya bilmir. Yalnız Fərabinin sözü gedən əsərinə yazdığı şərhi oxuduqdan sonra əzbər bildiyi "Metafizika"nı tam mənasıyla anlamışdır.

1001-ci ildə sultan Mahmud Qəznəvinin Baxaraya hücum etməsindən sonra, İbn Sina, Buxaranı tərk etmək məcburiy-

yətində qalmışdır. Bu zaman uzun və məşəqqətli yollardan keçərək nəhayət ki, İbn Sina, Xəzər dənizinin cənub-şərqində yerləşən Cürcan şəhərinə gəlir. Burada o, şəhərin hakimi olan ibn Səhlin sarayında sığınacaq tapa bilir. İbn Sina bir neçə il Səhlin sarayında yaşayır və bir çox əsərlərini burada yaradır. Daha sonra isə Rey şəhərinə gəlir və burada əmir Məcəldövlənin vəziri vəzifəsində çalışmağa başlayır. Burada da qərar tuta bilməyən İbn Sina, nəhayət, Həmədan şəhərinə gələrək Şəmsəddövlənin sarayında sığınacaq tapır.

1012-ci ildə Şəmsəddövlə ölür və onun yerinə oğlu keçir. Oğlu, atasının dostlarından olan İbn Sinanı öldürtmək istəyir. Bunu bilən filosof, saraydan qaçsa da, yolda ələ keçir və həbs edilərək zindana atılır. Yeni əmir rəqibi Ələddövlə tərəfindən məğlub edilir. Yalnız bundan sonra İbn Sina zindandan azad edilir. Böyük zəka sahibi olan İbn Sina, ömrünün sonlarına kimi Ələddövlənin himayəsində yaşayıb-yaradır. 1037-ci ildə Həmədan şəhərinə yürüş zamanı İbn Sina yolda xəstələnir. Bu xəstələnmədən sonra yüz illərlə dünya həkimlərinin həkimi hesab edilən İbn Sina həddən artıq dərman qəbul etdiyinə görə 57 yaşında Həmədan şəhərində vəfat edir. Belə ki, vəfatından sonra onun 150-yə qədər əsəri günümüzə qədər gəlib çatıb. İbn Sinanın ən məşhur əsəri tibb sahəsinə aid yazdığı çoxcildli "Qanunlar" kitabıdır. Artıq səkkiz əsrdir ki, dünyanın əksər dillərinə tərcümə edilən bu əsər, əksər həkimlərin masaüstü kitabına çevrilib. İkinci məşhur əsəri "Şəfa kitabı"dır. Bu kitabda o, özünün fəlsəfi dünyagörüşünü açmışdır. Düzdür sonralar yaşamış olan bəzi ərəb filosofları xüsusən də İbn Rüşd, Qazali və İbn Xaldun onun fəlsəfi görüşlrini tənqid etsələr də, yenə də İbn Sina bir elm zirvəsidir. Onlar İbn Sinanı daha şox dinlə fəlsəfəni qarışdırmaqda ittiham ediblər.

Düzdür Qazali özündən əvvəl yaşamış olan Fərabini məhz İbn Sinanın əsərləri hesabına anlamışdır. Ancaq





bununla belə o, İbn Sinanın fəlsəfəsini bəyənməyib. İbn Sinanın əsərləri latın dili vasitəsilə demək olar ki, bütün Avropa dillərinə tərcümə edilib. Avropada onu Avisenna adı ilə tanıyırlar və ona orada "həkimlərin sultanı" ləqəbini veriblər.

İbn Sina tibbi araşdırmalar apararkən bəzi xəstəliklərin yaranmasının və onların sürətlə yayılmasının səbəbi kimi gözlə görünməyən bəzi varlıqları göstərib. Bu varlıqlar haqda o, əsərlərində tez-tez söhbət açır. İbn Sinanın sözünü etdiyi varlıqlar isə günümüzdə mikroblar dediyimiz varlıqlardır. Böyük alimin zamanında mikroskopun olmamasına baxmayaraq belə bir qənaətə gəlməsi insanda həm çaşqınlıq, həm də qürur hissi doğurur.

İbn Sinaya görə kainatın hökmdarı zərurətdir. Bu zərurətin maddi ifadəsi olan varlıq və kainat əbədi və dəyişməzdir. Təbiət və orada baş verən hadisələr səbəblər zənciri ilə bir-birinə bağlıdır və bir-birlərindən doğurlar. İdrak və ağıl isə təbiətin tacıdır və heç bir materiya bağlı olmayıb ölməzdirlər.

## ALP ARSLAN
### *1029 - 1072*

*"Biz türklər təmiz müsəlmanlarıq və bidət bilmirik. Bu səbəbdən Allah xalis türkləri əziz tutdu".*

**Sultan Alp Arslan**

Səlcuqlu İmperiyasının böyük hökmdarlarından biri, ümumiyyətlə isə Böyük Türk hesab etdiyimiz insanlardan biri də Sultan Alp Arslandır. O, 1029-cu ildə dünyaya gəlib. Atasının adı Çağrı Bəydir. Qəznəli Dövlətinin hökmdarı Mövduda qarşı Səlcuqların apardığı döyüşlərdə diqqət mərkəzinə düşmüşdür. 1044-cü ildə baş verən və Səlcuqların qələbəsi ilə başa çatan bu müharibədə Sultan Alp Arslan yaşına görə böyük qəhramanlıqlar göstərmişdir. Atası Çağrı Bəy, 1058-ci ildə Bəlx, Toharıstan, Tirmiz və Vəhş kimi mühüm şəhərlərin idarəçiliyini ona vermişdir. Özü isə dövlətin yenidən qurulması işləri ilə məşğul olmağa başlamışdır. 1059-cu ildə Səlcuqlu Dövləti ilə Qəznəlilər arasında əldə edilən razılaşmadan sonra iki dövlət arasında nisbi sakitlik yarandı. Ancaq çox keçmədi ki, Çağrı Bəy vəfat etdi. Bu hadisə 1060-cı ildə baş verdi.

Eyni ildə, Çağrı Bəyin vəfatından sonra Alp Arslan, Xorasan Səlcuqlu Dövlətinin başına keçdi. 1063-cü ildə isə Səlcuqlu böyüklərindən Toğrul Bəy vəfat etdi. Onun vəsiyyətinə əsasən, vəziri Əbdülməlik Kunduri, Toğrulun ögey oğlu Süleymanı taxta çıxardı. Bu hadisədən sonra Səlcuqlu Bəyləri buna





etiraz etdilər. Belə ki, onlar Alp Arslanın taxta çıxarılmasının tərəfdarı idilər. Belə yerdə atalar deyib ki: "Sən saydığını say, gör fələk nə sayır". Çünki fələk özü hadisələri elə məcraya yönəltdi ki, Alparslan, taxta çıxmaq üçün dəvət aldı.

Hadisənin səbəbkarı isə Kutalmış oldu. Belə ki, o, paytaxt Rey şəhəri üzərinə hücuma keçdi və paytaxtı ələ keçirdi. Bundan sonra isə həmin dönəmdə Xorasan Səlcuqlu Dövlətinin başında olan, Alp Arslanı paytaxtın müdafiəsinə çağırdı və onu rəsmi şəkildə taxtda oturtdu.

Tərəflər arasındakı sonrakı döyüşdə Alparslan, Kutalmışı məğlub edərək, Səlcuqlu paytaxtını geri aldı. Alparslan bir daha 1064-cü ilin 27 aprelində taxta çıxdı və bundan sonra vəzir Kundurini vəzifəsindən azad etdi. O, Kundurinin yerinə Nizamülmülkü təyin etdi. Nizamülmülk isə öz növbəsində, Türk Dünyasına Tonyukukdan sonra Tanrı tərəfindən verilmiş ikinci böyük vəzir idi.

Alp Arslanın hakimiyyətə gəldiyi dövrdə Səlcuqlu bəyləri və boyları dağınıq halda idilər. Bunun səbəbi isə Alp Arslandan öncəki Səlcuqlu sultanlarının iradəsinin zəif olması və dövlət işlərindən daha çox qadınlara vaxt ayırmaları idi. Onları bir araya toplamaq, yenidən, güclü və qüdrətli Səlcuqlu Dövləti qurmaq lazım idi. Sultan Alparslan, dağınıq və başıpozuq halda bütün Səlcuqlu bəylərini güclü yumruq altında birləşdirdi. Bununla da Şərqi və Qərbi Səlcuqlular bir sultanın ətrafında birləşmiş oldular. 11 may 1064-cü ildə Sultan Alparsıan, zamanın xəlifəsinə böyük məscidlərdə məhz onun adına xütbə oxutmasını əmr etdi.

İlk olaraq fəthlərə Gürcüstan və Ermənistandan başlayan Sultan Alp Arslan, daha sonra Bizansın sərhəd şəhərlərindən biri olan Anını mühasirəyə aldı. Bizansın bu şəhəri əvvəlcə Səlcuqlulara müqavimət göstərdilər. Ancaq uzun sürən mühasirədən sonra nəhayət, 1064-cü ildə şəhər fəth edildi.

Alparslan özü şərqdə Tiflisə qədər olan bütün torpaqları aldı. Onun sərkərdələri isə Türk Səlcuqlu ordularını artıq

Anadolu ərazisinə soxulmuşdular. Anadolu ərazisində Bizansa qarşı aparılan döyüşlərdə Səlcuqlu sərkərdələrindən Afşin bəy xüsusilə seçilirdi. O, 1067-1068-ci illərdə Bizans ordusuna qarşı etdiyi döyüşlərin heç birində məğlub olmamışdı. Həmin illərdə Afşin bəyin rəhbərlik etdiyi ordu Malatya yaxınlığında Bizans ordusunu darmadağın etdi və Səlcuqlular Kayseri şəhərinə qədər irəliləyə bildilər.

Olanlardan çox narahat olan Bizans İmperatoru, Diogen, 1068-ci ildə təcili tədbirlər görməyin vaxtının çatdığını anladı. O, özü şəxsən ordunun başına keçdi və Afşin bəy üzərinə yürüşə keçdi. Ancaq onun ordusu Afşin bəyin çevik manevrləri qarşısında əlacsız qaldı və Bizans ordusu heç bir nəticə əldə etmədən paytaxtları İstanbula geri dönməli oldu.

Bəziləri üçün Sultan Alp Arslanı bəlkə də Böyük Türk hesab edilmir. Ancaq bizim Sultan Alp Arslanı Böyük Türklərin siyahısına salmağımızın bir neçə səbəbimiz vardır. Bu səbəblərdən birincisi, o zamanlar dağınıq və pərakəndə olan bütün Səlcuqlu Bəylərini güclü iradəsi və səbri hesabına birləşdirməsidir. Yalnız bu birləşmədən sonra Səlcuqlular, Dövlət olaraq bir növ yenidən dirildilər və yenidən tarix səhnəsinə çıxdılar. Sultan Alp Arslanın ikinci böyük xidməti, Türk Dünyasına, Nizamülmülk kimi ağıllı və tədbirli vəzir təqdim etməsidir. Məhz bu, vəzirin ağlı və məsləhətləri sayəsində Səlcuqlu Dövlətinin ömrü bir az da uzanmışdır. Nəhayət, Alp Arslanın, Türk Dünyası qarşısında üçüncü böyük xidməti, gələcəkdə bir Türk Torpağı olacaq Anadoluya türk axınlarını təşkil etməsi olmuşdur. Məhz bu axınların sonunda Anadoluda Türk Dövləti yarandı və sonda Anadoludakı Səlcuqlu Dövlətinin bazasında Osmanlı Dövləti yarandı.

Bütün bu kimi səbəblərdən dolayı, Sultan Alparslanı Büyük Türklərin siyahısına saldıq və ümid edirik ki, oxucularımız da bizimlə razılaşar.





## MAHMUD QAŞQARLI
## *1025 - 1090*

***"Uca Tanrı: "Mənim bir ordum vardır ki, onlara Türk adı verdim. Onları Şərqdə birləşdirdim. Bir millətə hirsləndiyim zaman, həmin milləti cəzalandırmaq vəzifəsini onlara verirəm..." buyurmuşdur".***

Mahmud Qaşqarlı XI əsrdə yaşamış olan böyük bir türk elm adamıdır. "Divani Lüğəti Türk" əsəri ilə bütün türk və müsəlman aləmində məşhurlaşmışdır. 1072-ci ildə yazmağa başlamış olduğu bu əsərini 1074-cü ildə bitirmişdir. Bundan sonra əsərini Bağdadda Abbasi xəlifəsi olan Əl Müqtədi Billaha təqdim etmişdir. Sözü gedən əsərin tək orijinalı isə 1910-cu ildə Fateh Millət kitabxanasından tapılmışdır. "Divani Lüğəti Türk" əsəri 1915-1917-ci illərdə türkiyəli bir müəllim olan Kilisli Rüfət Əfəndi tərəfindən üç cildlik kitab halında, daha sonra isə Besim Atalayın tərcüməsində beş cildlik kitab halında tərcümə edilərək nəşr olunmuşdur.

Qaraxanlılar Dövləti zamanında yaşamış olan Mahmud Qaşqarlının anadan olma tarixi təəssüf ki, dəqiq bilinmir. Ancaq əksər araşdırmaçılar 1025-ci il üzərində dayanmaqdadırlar. Bu böyük alimin atası Barsaqanlı bir bəy olmuşdur. Mahmuq Qaşqarlı 1071-ci il ilə 1077-ci illər arasında Bağdadda yaşamışdır. Burada yaşadığı zamanlarda o, ərəbləri

türk mədəniyyəti və yazılı abidələri tanış etmiş, onları bu haqda məlumatlandırmışdır. Bu dönəmdə o, İbn Fədlan, Gərdizi, Tahir Mervezi, Məhəmməd Avfi və Beyhaki kimi o zamanın nüfuzlu və böyük türk alimləri ilə birlikdə bütün Türk oymaqlarını gəzmişdir. Mahmud Qaşqarlı, yaşadığı zamanda türk dilini rəsmi dil kimi işlədən və qəbul edən Qaraxanlılar Dövlətinin daimi dəstəyini görmüşdür. Türk dilinin böyük inkişaf yolu keçdiyi o zamanlarda Mahmud Qaşqarlı ilə birlikdə Balasaqunlu Xas Nəcib də türk dilinin inkişaf etdirilməsi yolunda böyük xidmətlərdə bulunmuşdur. Hər iki türk aliminin ortaqlığı ilə yaradılmış olan əsərlər türk dili birliyinin yaranmasında mühüm rol oynamışdır. Eyni zamanda filoloq, etnoqraf və xəritəçi olan Qaşqarlı Mahmud, "Divani Lüğəti Türk" əsərində yaşadığı dövrdəki türk tayfalarının işlətmiş olduqları ləhcələri canlı olaraq yerindəcə araşdırmışdır.

Oğuz Türklərinin 24 boyu ilə ilgili yazdığı əsərində o, türk dilinin zənginliyinə görə ərəb və fars dillərindən heç də geri qalmadığını sübut etməyə çalışmışdır. Ayrıca olaraq da, ərəblərin türk dilini öyrənmələri üçün türk dili qrammatikasına dair "Kitabu Cəvahirun Lüğətit Türk" adlı əsər yazmışdır. Divanında Qaşqarlı Mahmud, türk dilinin qrammatikası ilə yanaşı, türk yer adları və türk tayfaları haqda da geniş məlumat vermişdir. Mahmud Qaşqarlı ömrünün sonlarına yaxın yenidən vətəni Qaşqara qayıtmışdır və burada təxminən 1090-cı ildə vəfat etmişdir. Şərqi Türküstanda yerləşən Qaşqar şəhərindən 35 km. məsafədə yerləşən Azaq kəndindəki qəbri, özündən çox-çox sonralar, yəni 1983-cü ildə tapıldı. Türk ellərini tək-tək gəzən Mahmud Qaşqarlı, türk dil və mədəniyyətinə dair topladığı irsi dərindən tədqiq etmişdir. O, Türk, Türkmən, Oğuz, Çığıl, Yağma və Qırğız boylarının ləhcələrinin qarşılaşdırılması ilə dərindən məşğul olmuş və bunları əsərlərində göstərmişdir. Onun gəldiyi qənaətə görə türk ləhcələri arasında ən asanı





Oğuz ləhcəsi, ən doğru işləngni Yağma ləhcəsi, ən ədəbisi isə Qaşqar ləhcəsidir.

Mahmud Qaşqarlı yazmış olduğu "Divani Lüğəti Türk" əsərinin giriş hissəsində türk dilinin ləhcələrini göstərmiş, bu dilin qanunları haqda məlumat vermiş, və bütün bunları ərəb dili müqayisəli şəkildə göstərmişdir. Ana dilinin ərəb dilindən üstün olduğunu daim söyləyən Qaşqarlı, bunu öz əsərlərində sübut etməyə çalışmışdır. Bu məqsədlə o, əsərində misallar da vermişdir. Eyni zamanda Mahmud Qaşqarlı sözü gedən əsərdə türk dilini araşdırmaq üçün hansı ölkələrə və türk tayfalarının yaşadığı hansı bölgələrə etmiş olduğu səfərlərdən də söz açmaqdadır. Kitabın ikinci hissəsində o, türk sözlərinin ərəb qarşılığını vermişdir. Bu səbəbdən onun yazdığı əsər Türk-Ərəb lüğəti halındadır. Burada təxminən 7500 türk kəlməsinin ərəb dilindəki tərcüməsini vermiş və bu sözlərin kökünün haradan yaranması haqda dəyərli məlumatlar vermişdir.

Bu böyük türk alimi, öz açıqlamalarında sözlərin haralarda və hansı mənalarda işləndiyini də göstərib. Onun zamanına və yazmış olduğu əsərə qədər yazılı ədəbiyyat nümunələrimiz olmadığından, daha öncəki sözlü ədəbiyyatımız haqda bilgiləri də məhz bu kitabdan almaqdayıq. Buna misal olaraq "Alp Ər Tunqa" adlı dastanlaşmış bir qəhraman haqda olan məlumatlara məhz onun əsərində rast gəlinməkdədir. Bu səbəbdən də Mahmud Qaşqarlının "Divani Lüğəti Türk" əsəri, həm ədəbiyyat, həm toplum, həm də sosioloji tariximizin öyrənilməsi üçün çox qiymətli bir əsər hesab edilməlidir.

Ancaq təssüflər olsun ki, türk dilinə dair bu misilsiz xəzinənin varlığından 1910-cu ilə qədər heç kimin xəbəri olmamışdır. Düzdür, Katib Çələbinin (alim) yazmış olduğu "Kəşfüzzünun" adlı biblioqrafiyasında Mahmud Qaşqarlı adlı insandan danışlır, ancaq bu məlumat da çox cüzidir. Bəs sözü

gedən məşhur əsər necə ortaya çıxdı? 1910-cu ildə Vənizadə Nazif Paşanın yaxınlarından olan bir xanım, bu kitabı Səhaflar bazarında gəzdiyi zaman tozun içində bir rəfdə görmüşdür. Bundan sonra xanım, satıcıya bu kitabı almaq istədiyini bildirmiş və qiyməti ilə maraqlanmşdır. Əlində olan kitabın dəyərli bir kitab olduğunu anlayan satıcı, onun qiymətini 25 qızıla qədər qaldırmışdır. Bundan sonra xanım bu qədər baha qiymətə olan kitabı ala bilməmişdir. Ancaq bununla yanaşı, Maarif Nəzarəti idarəsinə bu haqda məlumat vermişdir. Öz növbəsində isə sözü gedən idarə, nə olduğu bəlli olmayan kitaba bir ovuc qızıl vermək istəməməsi səbəbindən kitabın alınması rəsmi idarə tərəfindən rədd edilmişdir.

Bu kitabın varlığı haqda xəbər, bir kitab dəlisi olan Əli Əmiri Əfəndiyə gedib çatmışdır. Kitablarını millətə hədiyyə edərək Fateh Millət kitabxanasını qurmuş olan və kitabxananın müdürlüyünü edən Əli Əmiri Əfəndi, kitab satanı yanına çağırmış, əsərlə tanış olduqdan sonra satıcı ilə bazarlığa girişmişdir. Borc-xərc edərək sonunda kitabı satın alan Əli Əfəndi, əsəri qısqanclığı ucbatından uzun müddət öz kitabxanasında saxlamışdır. Əli Əmiri Əfəndi kitabın nəşrinə yalnız dövrün Osmanlı sarayının Sədriəzəmi (vəzir) Tələt Paşanın xahişindən sonra icazə vermişdir. Hazırda kitabın əldə olan nüsxəsi Qaşqarlının yazmış olduğu orijinal əsər deyildir. Hazırki əsər, Qaşqarlıdan 192 il sonra şamlı Məhəmməd adında ustad bur xəttat tərəfindən yazılmış olan yer üzündə yeganə nüsxədir.

Mahmud Qaşqarlı əsərlərini öz dövrünün ərəblərinə qəbul etdirmək üçün kitabın iki yerində Məhəmməd peyğəmbərin iki hədisini zikr etməkdədir. Bu hədislər isə aşağıdakılardır.

"Uca Tanrı: "Mənim bir ordum vardır ki, onlara Türk adı verdim. Onları Şərqdə birləşdirdim. Bir millətə hirsləndiyim zaman, həmin milləti cəzalandırmaq vəzifəsini onlara verirəm..." buyurmuşdur".





"Uca Tanrı: "Türk dilini öyrənin. Çünki Türkcənin uzun bir səltənəti vardır..." deyə buyurur"

Mahmud Qaşqarlının "Divani Lüğəti Türk" əsəri dünyanın harasında olmasından asılı olmayaraq, bütün türkoloqlar üçün daim çox dəyərli mənbə rolunu oynamış və hazırda da oynamaqdadır. Bir çox türk və qeyri türk araşdırmaçılar əsərin üzərində araşdırmalar aparmış və onu türk dilininin mənşəyini öyrənmək baxımından əvəzsiz mənbə kimi qiymətləndirmişlər.

## ÇİNGİZ XAN
***1155 - 1227***

Çingiz Xanın qurmuş olduğu imperatorluq, dünya tarixinin bitişik sərhədlərə sahib olan ən böyük imperatorluğudur. Çingiz Xan, bütün dünyada əsasən qana susamış və zalım bir hökmdar kimi tanınsa da, Monqolustanda və bütün Türk Dünyasında çox sevilir. O, vətəni Monqolustanda millətin atası kimi sevilir. Məhz onun yürütdüyü sərt və güzəştsiz siyasət nəticəsində "monqol" mlləti formalaşmışdır.

Çingiz Xanın Avropa və Asiya qitələrindəki böyük ərazilərə sahib olması nəticəsində bu bölgələrin demoqrafik və geosiyasi vəziyyətini dəyişmişdir. Çingiz Xanın imperiyası günümüzdə Monqolustan, Çin, Koreya, Rusiya, Ukrayna, İran, Azərbaycan, Ermənistan, Gürcüstan, İraq, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Pakistan, Macarıstan, Polşa, Tacikistan, Əfqanıstan, Türkmənistan, Moldova, Serbiya, Hindistan, Bolqarıstan və Küveyt kimi ölkələrin ərazilərini əhatə etmişdir. Onun orduları Vyana yaxınlığında olarkən, Xan vəfat etmiş və monqol adətinə görə yeni Xan seçilənə qədər ordu geri qayıtmaq məcburiyyətində qalmışdır. Beləliklə, Xanın vəfatı Avropanı yeni türk işğalından (Attiladan sonra ikinci) qurtarmışdır.

Məşhur tarixçi Bertoldun iddiasına görə Çingiz Xan, monqol dili ilə yanaşı, Göytük türkcəsini də bilmişdir. Əsl adı Temuçinin mənası isə monqolca "dəmir" mənasını verən "Temur" (Azərbaycanda Teymur şəklində işlədilir) sözündən törəmişdir. Ona bu adın qoyulması haqda iki iddia vardır: birincisi, atasının Temuçin Uge adında bir monqol liderini öldürdüyün görə, ikincisi, anadan olarkən ovcunun içində





laxtalanmış qan olduğuna görə. Məhz bu qana görə onun gələcəkdə böyük bir sərkərdə olacağı söylənmişdir.

Atası, Monqol bəylərindən olan Bahadur Bəydir (Yesukay Batır adı ilə də tanınır). Atası Börçigin tayfasının lideri olub. Bahadur bəyi tatarlar zəhərləyərək öldürüblər. Bunun səbəbi isə daim onlara qarşı uğurlu müharibələr aparması olub. Temuçin ailənin böyük övladı olmuşdur. Onun, Xəzər Kasar, Kaçuin, Temuge adında üç qardaşı, Temulin adında bir bacısı olub. Bundan başqa Bekter və Belgutey adında iki ögey qardaşının olması bilinməkdədir.

Çingiz Xanın xanımının adı Börte olmuşdur. Onların bu izdivacdan Cuci, Cığatay, Ugeday, Tuluy adında dörd oğlu dünyaya gəlmişdir. Çingiz Xanın başqa arvadlarından övladları dünyaya gəlmişdir. Ancaq onlar bir növ yad sayılmış və onun vəfatından sonra siyasətə qarışmalarına izin verilməmişdir. Çingiz Xanın qızının olub-olmaması haqda bilgi yoxdur.

Çingiz Xanın böyük oğlu olan Cucinin atasının kim olması haqda daim mübahisələr olmuşdur. Belə ki, bu kimi mübahisələr onun imperatorluğu zamanında da daim davam etmişdir. Bəs bu mübahisələrin kökündə nə dururdu? Temuçin ilə Börte evləndikdən sonra Merkit tayfaları Börteni əsir olaraq özləri aparmışlar. Çingiz Xanın onu azad etməsindən təxminən doqquz aya yaxın bir müddət keçdikdən sonra Cuci dünyaya gəlmişdir. Çingiz Xan, uşağın ondan olmasından şübhə etdiyi üçün oğluna monqol dilində "qonaq" mənasında olan Cuci adını vermişdir. Ancaq Çingiz Xan daim Cuciyə doğma övladı kimi münasibət bəsləmişdir. Monqolustanın gizli tarixinə görə Cığatayın, Xərəzmşah üzərinə yürüşündən öncə, Cucinin heç bir zaman atasının yerinə keçməsini qəbul etməyəcəyini söyləmişdir. Taleyin hökmünə baxın ki, hər ikisi Çingiz Xanın yerinə keçə bilməmiş və Ugedey, atasının yerinə yeni Xan olmuşdur. Zatən Cuci çox gənc yaşlarında, hələ atasının sağlığında müəmmalı şəkildə vəfat etmişdi.

1100-cü illərdə monqolların əsas rəqibləri qərbdə Naymanlar, şimalda Merkitlər, cənubda Tanqutlar, şərqdə Çin və Tatarlar idi. 1190-cı ildə Temuçin sadəcə monqolları birləşdirə bildi. Onun ilk işi yaratmış olduğu dövlət üçün qanunlar hazırlatmaq oldu ki, bu qanunlara "Yasa" adı verildi. Xanın oğlu Cığatay, qanunlara riayət edilib-edilməməsini yoxlamaqla vəzifələndirildi. "Yasa" çox ağır idi və demək olar ki, əksər cəzalar ölümlə nəticələnirdi.

Bu insanın bütün həyatı demək olar ki, müharibələrdə keçmişdir. 1202-ci ildə Şərqi və Qərbi Monqolustanı bir mərkəzdə birləşdirdikdən sonra əvvəlcə, Xaqan, daha sonra Çingiz ünvanını almışdır. 25 illik sərkərdəlik və dövlət başçısı olmasından sonra 1127-ci ildə 72 yaşında vəfat emişdir.

Temuçin adı verilən bu uşaq on iki yaşına çatdığı zaman atasını itirir. Anası Ulun Xatun ağıllı qadın idi və bu səbəbdən də oymağını dağılmaqdan xilas etmişdir. Oğlu yaşa dolduqdan sonra isə idarəetməni oğluna vermişdir. Atasının ona miras buraxdığı oymağın nə qüvvətli ordusu, nə də güclü dövləti var idi. Bu səbəbdən də Temuçinin ilk işi güclü və qüvvətli ordu yaratmaq oldu. Bu işə onun illəri getsə də, sonda bu işin öhdəsindən gələ bilmişdir. Bundan sonra isə ətraf əraziləri öz hakimiyyəti altına ala bilmək üçün savaşlara başlamışdır. Onun bütün Monqolustanın hakimi olmaq üçün apardığı müharibələr tam olaraq 1202-ci ildə başa çatmışdır. Belə ki, Temuçin 1202-ci ildə artıq bütün Monqolustanın hökmdarı idi. Bundan sonra Tatar və Monqol xanlarının iştirakı ilə keçirilən qurultayda ona Xaqan ünvanı verildi. Daha sonra isə Qaraqurumda bütün Monqolustanı yeni Xaqanı taxta çıxdı. 1206-cı ildə keçirilən növbəti qurultayda isə bir Şaman ona Çingiz Xan adını vermişdir. Göy üzündən Monqolustana bir nemət olaraq göndərildiyinə inanılan bu insanın yeni, Çingiz adının mənası isə "Başbuğlar başbuğu" idi. Bundan sonra isə Çingiz Xan, bütün Monqolustan üçün bir növ yarımtanrıya çevrildi.





Çingiz Xan, iyirmi illik hökmdarlığı zamanında dünyanın ən böyük dövlətlərindən birini yaratmağı bacarmışdır. O, ilk olaraq Çinə hücum etdi və 1216-cı ildə Çinin paytaxtı Xanbalığı (indiki Pekin) tutdu. Bundan sonra əmrində olan iki yüz minlik ordunu qərbə göndərdi. Onun qərbdəki ilk və ən ciddi rəqibi o zamanlar Xarəzmşahlar idi. Ancaq Çingiz Xanı orduları 1220-ci ildə bu türk dövlətini dünya xəritəsindən "silməyi" bacardı.

Daha sonra Çingiz Xan qərbə yürüşlərini davam etdirmiş, Rusiya daxil olmaqla dağınıq halda bütün türk tayfalarını bir bayraq altında birləşdirə bilmişdir. Bununla tarixin ən böyük Türk Dövləti qurulmuş oldu.

Monqol adətlərinə görə Çingiz Xan hələ həyatda olduğu zaman yaratmış olduğu böyük imperiyanı oğulları arasında böıüşdürmüşdü. Çingiz Xan, Cuci ilə Cığatay arasında olan narazılq səbəbindən onlardan hər-hansı birinin Xaqan olmasını icazə vermədi. Bu səbəbdən də Ugedey Xaqan oldu. Cuci ovçubaşı, Cığatay adət-ənənə və hüququn qoruyucusu, Tuluy isə savaş naziri oldu.

Böyük oğlu Cucinin, Tuluy ilə də münasibətləri pozulmuşdu. Ancaq Cuci qərb ölkələrinin fəth edilməsində önəmli rol oynamışdır. O, Monqolustandan qərbdə yerləşən və monqollara məlum olan bütün ölkələri fəth etdikdən sonra geri dönmədi. Paytaxt ilə Cuci arasında məsafə uzaq olduğundan ondan xəbər tutmaq mümkün olmurdu. Atası Çingiz Xan, bunu Cucinin müstəqil dövlət qurmaq istəyi kimi qəbul etdi. Buna gərə də ordularını hazırlayaraq Cuci üzərinə getmək istədi, ancaq bu zaman Cucinin ölüm xəbəri gəldi.

1223-1224-cü illəri Çingiz Xan, Qulan-Başın və İrtış çayı sahillərində keçirdi. 1225-ci ildə isə Çingiz Xan, Hsia dövləti üzərinə səfər hazirlığına başladı. Ancaq bu onun son səfəri oldu. Belə ki, hələ Hsia dövlətini tam olaraq öz imperiyasının tərkibinə qata bilmədən, 1227-ci ilin 18 avqustunda təxminən Qansu

adlanan ərazidə bu Böyük Türk vəfat etdi. Onun cəsədi vətəni Monqolustana aparılmışdır. Orada Burhan-Xaldun dağları arasında dəfn edildi. Türk-Monqol adətlərinə görə qəbri gizli saxlanıldı. Deyilənlərə görə onu dəfn edən əsgərlərin hamısı dəfn mərasimindən sonra öldürülmüşdür. Rəvayətə görə məzarının gizli tutulması üçün dəfndən sonra qəbri üzərində bir neçə atı gəzdirmişlər. Çingiz Xandan sonra gələnlərin də hamısı bu əraziyə dəfn edildi və heç birinin qəbrinin yeri bəlli olmadı.

Çingiz Xanın zamanında demək olar ki, bütün Asiya qitəsi vahid dövlət tərkibində birləşdirildi. Bu da gömrük postlarının ləğvinə və xalqlararası ticarətin inkişafına müsbət şərait yaratmışdı. Bu, Böyük Türkün vəfatından sonra yerinə keçən oğlu Ugedeyin zamanında imperiyanın sərhədləri bir az genişlənmişdir. O, ölkəsinə Ulus adı verdi və Avropa yürüşlərinə start verdi. Çingiz Xan zamanında xristian və müsəlmanlar arasında olan düşmənçilik bir az səngimişdir. Çünki hər iki din, Çingiz Xana düşmən kimi baxırdı və onların nəzərində o, kafir sayılırdı. (Çingiz Xan Göytanrı dininə sitayiş edib) Bununla yanaşı, Çingiz Xan ordularının Bağdad şəhərin yandırmasından sonra bir çox yazılı sənət əsərləri də məhv olmuşdur. Ugedey Xaqan və ondan sonra gələn Çingiz Xanın bütün nəvələri Çingiz Xanın işini son ana qədər davam etdirmişlər.

1230-cu ildə Cucinin oğlu Batı Xan, Avropaya yürüşlər etmiş və Rusiya (bu işğaldan sonra müti və qorxaq ruslar, kölə kimi özlərindən min kilometrlərlə uzaqda olan monqol xanlarına tam 200 il xərac daşıyıblar) ərazisini bütövlükdə ələ keçirərək Orta Avropaya qədər irəliləyə bilmişdir. Çingiz Xanın ən məşhur sərkərdəsi olan Sabutayın da yardımları ilə Batı Xan, o zaman Avropada ən güclü orduya sahib olan Polşa, Alman və Macar ordularını iki gün içində darmadağın etmişdir.

Tuluyun oğlu olan Hülaki Xan, Orta Şərqdə hazırki Fələstinə qədər gəlmiş və Abbasiləri ağır məğlubiyyətlərə düçar etmişdir. Daha sonra isə öz adı ilə Hülakilər Dövlətini qurmuşdur.





## CƏLALƏDDİN XARƏZMŞAH

*ölümü 1231*

Çingiz Xanın qarşısından qaçmayan və sonuna qədər döyüşən yeganə türk hökmdarı. Orta Asiya türklərindəndir. Konkret olaraq türkməndir. Xarəzmşahlar Dövlətinin son hökmdarı olan Cəlaləddin Xarəzmşah, gənc yaşlarında Qəznə və ətraf ərazilərin valisi təyin edildi. Bundan sonra isə atası Əlaəddin Məhəmmədin bütün səfərlərinə qatılmışdır. Atası və o dövrdə Xarəzmşah dövlətinin şahı olan Əlaəddin Məhəmməd bütün İran və Məvarünnəhr ərazisini öz dövlətinin tərkibinə qata bilmişdi. Onun imperiyası Seyhun (Sırdərya) çayı ilə Dəclə çayı ərazisindki torpaqları əhatə edirdi. Fəqət bu dönəmdə Monqolustan ərazisində ondan güclü və qüdrətli bir hökmdar peyda olmuşdu. Bu, Çingiz Xan idi.

Belə bir dönəmdə qərbi türklərin ən güclü hökmdarı Sultan Məhəmməd idi. Bunu bilən Çingiz Xan, Mahmud Yalvac adlı bir elçini Əlaəddin Məhəmmədin hüzuruna yolladı. Sultan Məhəmmədin hüzuruna çıxan elçi, ona Çingiz Xanın sözlərini çatdırdı: "Tanrı qərbdə yerləşən ölkəni mənə verdi. Səni oğulluğa qəbul edirəm. Əgər mənə tabe olsan, bütün müsəlmanlar rahatlıq içində yaşayacaqlar". Çingiz Xanın elçisinə Sultan Məhəmmədin cavabı belə olub: "Sən haradan bilirsən ki, mənim dövlətim nə qədər güclü və nə qədər genişdir! Sənin Xanın kimdir ki, özünü məndən böyük göstərərək, mənə "oğlum" deyərək xitab edir! Onun nə qədər əsgəri var ki?" Bu suala isə monqol elçisi belə cavab verir: "Onun əsgəri sənin əsgərlərinə nisbəttə günəş işığı ilə ay işığının nisbəti kimidir".

Bir neçə danışıqdan sonra iki böyük türk hökmdarı arasındakı münasibətlər normal mecrasına qoyuldu. Ancaq, Sul-

tan Məhəmməd uzaqgörən və elmli siyasətçi deyildi və yol verdiyi böyük bir səhv onun və dövlətinin sonunu gətirdi. Belə ki, ticarət məqsədilə Bizansa mal aparan monqol tacirlərini qabağını kəsərək, onların mallarını aldırttı, özlərini isə qətl etdirdi. Sultan Məhəmmədin bu ağılsızlığına çox hirslənən Çingiz Xan, qərb türklərinin məhvinə fərman verdi. Sultan Məhəmmədin, Cəlaləddin adında bir oğlu var idi.

Cəlaləddinin anasının adı Ayçiçək Xatun, nənəsinin adı Türkan Xatun olub. Cəlaləddinin atası gözəl əsgər və hərbçi, ancaq zəif siyasətçi idi. Rəqibi Çingiz Xan isə ondan fərqli olaraq, həm böyük sərkərdə, həm də ağıllı siyasətçi idi.

Sözü gedən hadisədən sonra Çingiz Xan, Xarəzmşahlardan etdiklərinin əvəzini ödəmək üçün onlardan təzminat tələb etdi. Bu məqsədlə o, Sultan Məhəmmədin yanına üç nəfərdən ibarət elçi heyyəti göndərdi. Elçilərdən biri Buğra adlı türk, digər ikisi isə monqol idi. Sultan Məhəmməd, Buğranın başını kəsdirdi, qalan iki monqola isə ölkəsini tərk etmə əmrini verdi. Bunu eşidən Çingiz Xan, 1219-cu ildə Məvarünnəhr üzərinə böyük bir ordu yolladı. O zaman gənc olan Cəlaləddin atlı qüvvənin başına keçirildi. Atası döyüş meydanına etmək istəmirdi. Ancaq Cəlaləddin ona: "hər bir əsgər öz komadanını yanında görmək istəyir" sözündən sonra bu fikrindən daşınmışdır.

Monqol qoşununun başında isə Çingiz Xanın böyük oğlu Cuci dururdu. Cucinin rəhbərlik etdiyi ordu, Xarəzmşah ordusu üzərinə şiddətli hücuma keçdi. Xarəzmşah ordusu geriləməyə başlasa da, Cəlaləddinin şəxsi qəhramanlığı sayəsində duruş gətirə bildi. Axşam düşdükdə isə hər iki ordu öz mövqeyinə çəkildi. Fəqət, Cuci gecə boş oturmadı və ətrafda olan ovalığın bütün quru otlarını yandırtdı və ətrafı tüstüyə verdi. Yaranmış toz dumandan faydalanan monqol ordusu, Cucinin rəhbərliyi altında geri çəkildi. Cəlaləddinin





ixtiyarında yetərli qüvvət olmadığından monqol ordusu təqib edilmədi.

Cucinin geri çəkilməsi, Çingiz Xanı bərk əsəbləşdirdi və o, bu dəfə iki yüz minlik ordu hazırlanmasını əmr etdi. Çingiz Xanın yeni və daha güclü ordu hazırlatdığını eşidən Sultan Məhəmməd, Qəznəyə gedərək, Atabəylərlə görüşdü. Bundan sonra isə ordusu üçün əsgər toplamaq üçün ölkəni gəzməyə çıxdı. Oğlu Cəlaləddin isə vəziyyətin təhlükəli olduğnu görüb, rəhbərlik etdiyi Oğuz atlılarını da götürüb çölün dərinliklərinə çəkildi. Çingiz Xanın ordusu 1220-ci ildə heç bir müqavimətə rast gəlmədən Buxara şəhərinə qədər gələ bildilər. Çingiz Xan, Buxarada yerləşən Ulu Məscidə atı ilə bərabər daxil olaraq ətrafa yığılan insanlara belə demişdir: "Bura Sultan Məhəmmədin evidir?" Ətrafa toplaşanalar isə: "Xeyr. Bura Tanrının evidir" cavabını verdilər. Bunan sonra Çingiz Xan atından endi və Buxara camaatına belə xitab etdi: "Ey Buxara əhalisi, sizin günahlarınız böyükdür. Mən isə İlahidən göndərilmiş bir qəzayam. Və Tanrı tərəfindən sizə bəla olaraq göndərildim. Sultanınız Məhəmməd, böyük günahlar işlətmişdir. Bu səbəbdən də ölkənizi zəbt etdim. İndi isə gizlində nə qədər sərvətiniz varsa hamısını gətirib ayaqlarım altına tökün".

Buxara əhalisi Çingiz Xandan dəhşətli dərəcədə qorxmuşdu. Bu səbəbdən də kimin nə qədər qızılı, varı, pulu var idisə hamısını Çingiz Xanın ayaqları altına attılar. Xanın əsgərləri isə Buxara şəhərini tamamilə soydular. Bundan sonra Çingiz Xan, Qərb Türklərini yüksək mədəniyyət mərkəzi olan Səmərqənd şəhərinə doğru hərəkət etməyə başladı. Səmərqənd əhalisi şəhərin müdafiəsinə qalxdı. Bu arada isə Sultan Məhəmməd ümumiyyətlə döyüş meydanından qaçmışdı. Çingiz Xan, onu təqib etməyə göndərdiyi üç sərkərdəsini yanına çağırarq onlara belə dedi: "Dayanmadan onu təqib edin. Sizə tabe olanlara heç nə etməyin. Ancaq müqavimət

edənlərə qarşı amansız olun. Bu işi üç il içində bitirin mən vətənə qayıdıram".

Sultan Məhəmməd, ətrafında olan kiçik bir qüvvə ilə xəzinəsini bir qalada gizlədərək, İraq istiqamətinə yola düşdü. Ancaq yolda qarşılarına monqol qüvvətləri çıxdı. Monqollar onun atını oxla vurub öldürə bilsələr də, Sultan Məhəmmədin özü qaçmağa müvəffəq oldu. Deyilənlərə görə Sultan Məhəmməd, qaçaraq Xəzər dənizindəki adaların birinə sığınıb. Digər tərəfdən monqolbəsgərləri onun vəzirini, kiçik oğlunu və Türkan Xatunu əsir götürərək Çiniz Xana göndərdilər. Çingiz Xan ona göndərilən əsirlərin heçbirinə rəhm etməyərək edam etdirdi. Bu xəbəri eşidən Sultan Məhəmməd dərddən ölmüşdür. Öldüyü zaman o qədər səfil bir vəziyyətdə idi ki, cənazəsini örtməyə kəfən tapa bilmədilər. Yanında olan Mahmud Çavuş adlı bir yaxınının köynəyindən ona kəfən düzəldərək dəfn etdilər. Öldüyü zaman isə son sözləri belə olmuşdur: "Mən bütün bu torpaqların sahibiyəm. Ancaq qəbir üçün iki metrə torpaq tapa bilmirəm".

Sultan Məhəmməd, səfil halda can verdiyi zaman oğlu Cəlaləddin də yanında olub. Bunun intiqamını almaq istəsə də yanında nə ordusu var idi, nə də sərkərdələri. Bu zaman onun yanında təxminən yetmiş atlısı var idi. Cəlaləddin ona sadiq olan bu atlıları da götürərək birbaşa Xarəzmə yola düşdü. Xalq Cəlaləddini göz yaşları içində qarşıladı. Onun ilk işi isə ordunu yenidən toplamaq oldu. Qısa zamanda onun ətrafına yeddi min əsgər toplandı. Bundan sonra isə atasının yerinə taxta çıxdı. Qısa zamandan sonra monqolların üzərinə hücuma keçdi və onları geriləməyə məcbur etdi.

1221-ci ildə Valyan qalasını mühasirəyə aldığı zaman, monqollar hücuma keçdilər. Ancaq yenə də Xarəzm ordusunun yardımına Cəlaləddinin şəxsi qəhramanlığı gəldi. O, qaçmağa hazırlaşan ordusunun başına keçdi və onların





qaçıb-dağılmasına mane ola bildi. Bundan sonra isə Xarəzm ordusu hücuma keçərək, monqol ordusunu dağıtdı. Bu xəbəri eşidən Çingiz Xan bundan sonra birbaşa Cəlaləddinin üzərinə hücum edilməsi əmrini verdi. Üzərinə böyük bir tatar-monqol qoşununun gəldiyini görən Sultan Cəlaləddin, Sind çayına doğru çəkilməyə başladı. Onun məqsədi çayın digər sahilinə keçmək idi. Ancaq tatar-monqol ordusu onu hər tərəfdən müahsirəyə almışdı. Önündə Sind çayının qızğın suları, arxasında isə onu diri tutmaq əmri almış Çingiz Xanın yenilməz ordusu var idi. Belə bir vəziyyətdə Cəlaləddin tək başına düşmən üzərinə atıldı və bir neçə düşməni öldürə bildi. Ancaq heç bir monqol əsgəri ona ox atmırdı. Bunu görən Cəlaləddin yorğun olmayan bir ata mindi əlində türk bayrağını tutaraq özünü atla birlikdə çaya atdı və üzərək qarşı tərəfə keçə bildi.

Sultan Cəlaləddin üç il sonra 1224-cü ildə Girmana qayıtdı və dövlətini yenidən qurmağa başladı. 1225-ci ildə Təbriz şəhərini alaraq qərargahını bu şəhərdə yerləşdirdi. Burada o, Gürcüstan üzərinə də yürüşlər təşkil etdi. Sultan Cəlaləddinin Gürcüstana olan yürüşlərindən sonra oradakı qüvvələr Oğuz atlılarının qəhramanlıqları sayəsində darmadağın edildi. Bundan sonra isə günümüzə qədər gürcülər bir daha dirçəlib güclü dövlət ola bilmədilər. 1228-ci ildə İsfahanda monqol ordusu ilə döyüşdü. Qardaşı Qiyasəddinin xəyanətinə baxmayaraq, Cəlaləddin burada da tatar-monqol ordusunu məğlub edə bilmişdir. Bir yandan da ölkə daxili üsyanların yatırdılması ilə məşğul olan Sultan Cəlaləddin, 1230-cu ildə Əhləti ələ keçirtdi. Ancaq qalanı müdafiə edənlərə və xalqa qarşı sərt davrandığından ətraf müsəlman ölkə rəhbərlərinin onunla düşmən olmasına gətirib çıxartdı. Bu hadisədən sonra Suriya və Anadoluda olan müsəlman orduları Cəlaləddinin üzərinə hücuma keçdilər. Ancaq Sultan Cəlaləddin onları 10 avqust 1230-cu ildə Ərzincan yaxınlığında baş tutan döyüşdə məğlub edə bilmişdir.

Cəlaləddinin zəiflədiyini hiss edən tatar-monqol ordusu yenidən onun üzərinə hücuma keçdilər. Cəlaləddin ətraf bölgələrdə olan bütün müsəlman dövlətlərdən yardım istəsə də, onun bu yardım istəyinə cavab verən olmadı. 1231-ci ilin avqust ayında Dəclə çayı sahilində tatar-monqol ordusu ilə son dəfə döyüşən, Sultan Cəlaləddinin bütün ordusu və yaxınları öldürüldü. Ancaq, özü qaçaraq dağlara çəkilə bilmişdir. Ancaq, Xarəzmşahların bu sonuncu sultanı Böyük Türk, Cəlaləddin Xarəzmşah dağda yaşayan köçəri kürdlər tərəfindən öldürüldü. Sultan Cəlaləddinin ölümündən sonra Çingiz Xanın, qərbə olan yürüşlərinin qarşısında duracaq elə bir ciddi qüvvə qalmadı.





## BATI XAN
## *1208 - 1255*

Qızıl Orda Xanlığının qurucusu, Çingiz Xanın nəvəsi, Cucinin oğlu, rusları daim əsarətdə saxlayan böyük Türk sərkərdəsi və nəhayət Böyük Türk. Çingiz Xanın vəsiyyətinə və qurmuş olduğu böyük imperiyanın 1224-cü ildə bölüşdürülməsindən sonra oğlu Cucinin payına, Qıpçaq çölü, Xivə, Qafqazın bir hissəsi, Krım və Rusiya düşdü. Ancaq Cucinin 1227-ci ildə gözlənilmədən və qəfil vəfatı, ona çatmış olan böyük torpaqlarda hakimiyyət sürməsinə mane oldu.

Çingiz Xanın vəfatından sonra Tatar-monqol İmperiyasının yeni xanı olan oğlu Ugedey Xanın rəhbərliyi ilə 1229-cu ildə keçirilən qurultayda imperiyanın qərb bölgələrinə daha çox ordu dəstələri göndərilməsi qərarı alınır. Sözü gedən ərazilər isə Xəzər dənizinin şimalı və Qara dənizin qərbi idi. Ugedey Xan, yeni ordunun başına Batı Xanı gətirir və tatar-monqol ordusu yeni yürüşə çıxır. Batı ilə birlikdə orduya Çingiz Xanın sınanmış və təcrübəli sərkərdələri olan Sabutay və Bahadur da rəhbərlik edirdi.

Böyük bir insan selindən yaranmış bu ordu qarşısına çıxan bütün qüvvələri məğlub edərək sürətlə hərəkət etməkdə idi. Belə ki, Batı Xan, yolu üzrəində olan bütün Rusiyanı, imperiyasının tərkibinə qataraq, Macarıstana çatdı. Eyni zamanda o, Çexiyanı, Polşanı, Bosniyanı, Serbiyanı, Bolqarıstanı və Xorvatıstanı da zəbt etdi. Volqa üzərindən keçərək Batı Xanın ordusu Bulqarları darmadağın etdi. Bundan sonra şərqə dönərək Ryazanı aldı və Moskvaya çatdı. 1240-cı ilin dekabrında Batı Xan, Kiyev Knyazlığını da Tatar-

monqol İmperiyasının tərkibinə qatdı. Daha sonra isə Batı Xanın ordusu iki yerə ayrıldı. Ordunun bir hissəsi 1241-ci ilin fevralında Polşa ərazisinə daxil olaraq Polşa ordusunu bir hücumla məhv etdi.

Bu zaman Avropa qəfil yaxalanmışdı və Avropada Batı Xanın qarşısına çıxa biləcək güc mövcud deyildi. Qəfil gəlmiş olan "qonaq"lar, qarşılarına heç bir gücün çıxmaması səbəbindən çox qısa bir zaman ərzində demək olar ki, Avropanın yarısını aldılar. Bu dönəmdə Avropa, Orta Asiyanın çöllərindən gəlmiş olan bu qəfil ordunun qarşısına birləşmiş bir ordu çıxara bilmədi ki, bu da Batı Xanın işini bir qədər də asanlaşdırmışdır.

Ordunun ikinci hissəsi Batı Xanın rəhbərliyi altında Macarıstan üzərinə yürüş etdi. Macar ordusu bu döyüşdə məğlub olaraq dağıldı, Macar kralı isə yalnız qaçmaqla canını qurtara bildi. Böyük sürətlə hərəkət edən tatar-monqol ordusu, Macarıstandan sonra Xorvatıstanı da aldı. Yeni xan olan Ugedey 1241-ci ilin dekabrında vəfat etdi. Xanın ölüm xəbəri Batı Xana çatdıqdan sonra o, yeni xan seçkilərində iştirak etmək üçün ordusu ilə birlikdə Monqolustana qayıtmalı oldu ki, bu da Avropanı az da olsa rahatlatmış oldu. Əks təqdirdə yəqin ki, Batı bütün Avropanı istila edəcəkdi. Çünki o dönəmdə Avropada Batı Xanın ordusunun qarşısını ala biləcək elə bir ciddi qüvvə yox idi. Geri qayıdan ordu, yolüstü Bosniya, Bolqarıstan və Serbiyanı da istila etdi. Daha sonralar Batı Xan bir daha Avropaya yeni yürüşlər hazırlamaqda maraqlı olmadı. Belə ki o, ordusu ilə birlikdə Volqa çayının sahilində dayandı və elə burada da özünün məşhur Qızıl Orda dövlətini qurdu.

Batı Xan, 1208-ci ildə dünyaya gəlib. Məhz o, Çingiz Xan ordularını Avropanın şərqinə qədər gətirərək demək olar ki, bütün Şərqi Avropa ərazisini zəbt etmişdir. Atasına çatmayan miras ona qalmış, o, da övz növbəsində Çingiz Xan nəslinin adını doğruldaraq sərkərdəlik məharəti ilə uzun illər Rusiya və





Avropanı qorxu altında saxlaya bilmişdir. Məhz bu Böyük Tükün sayəsində dünyanın ən kölə xalqı olan ruslar iki yüz il ərzində türklərə xərac verməli olmuşlar. Batı Xanın qurmuş olduğu Qızıl Orda Dövlətinin sərhədləri isə İrtış çayı saillərindən Dunay çayına qədər uzanırdı. Batı Xan, 1255-ci ildə çox yaşlanmadan vəfat etmişdir. Ancaq onun qurmuş olduğu Türk dövlət vəfatından sonra övladları və nəvələri tərəfindən hələ uzun müddət yaşadı.

## HÜLAKÜ XAN
### *1217- 1266*

Hülakü Xan, Çingiz Xanın oğlu Tuluyun oğludur. O, 1271-ci ildə anadan olmuşdur. İran ərazisində hökmdarlıq etmiş Elxanilər dövlətinin qurucusudur. Abbasi Xilafətini dünyanın siyasi xəritəsindən məhz onun rəhbərlik etdiyi ordu "silmişdir". Böyük qardaşı olan Məngü Xan atasının yerinə Böyük Xaqan olduqdan sonra onu 1253-cü ildə İrana vali təyin etmişdir. Elxan sözünün manası da "Xaqana bağlı əyalət xanı" deməkdir. Bu səbəbdən də Hülakü Xana Elxan ləqəbi verilmişdir. Ondan sonra, onun soyundan gələn bütün hökmdarlara isə Elxanilər deyilmişdir. Hülakü Xan İran və bütün Qafqazı ələ keçirdikdən sonra, Şərqi İsmailiyyə dövlətini də öz imperiyasının tərkibinə qatmaq qərarını verdi. O zamanlar sözü gedən dövlət, özlərinə təhlükə hesab etdikləri mühüm dövlət adamlarını terror yolu ilə aradan götürürdülər. Bir dahа diqqətinizə çatdırırıq ki, İsmaililər, Səlcuqların və bütün Türk Dünyasının böyük vəzirlərindən olmuş Nizamülmülkü də bu yolla öldürmüşlər. İsmaililərin qərargahı isə Ələmut qalasında idi. O zamana qədər Ələmutu almaq heç bir sərkərdəyə nəsib olmasa da, Hülakü Xan bu qalanı ələ keçirdi və İsmaililəri də tarixin "arxiv"inə göndərdi. Hülakü Xan, İsmaililərin sonuncu hökmdarı olan Rüknəddini 1256-cı ildə öldürtdü. Bununla da terror üzrəində qurulmuş olan İsmaili dövləti təhlükə olmaqdan qurtardı. Bundan sonra isə Hülakü Xan, Ələmutda həbsdə olan Nəsirəddin Tusini həbsdən azad edərək öz sarayına gətirmişdir.

Hülakü Xan, şiə məzhəb olan Nəsirəddin Tusinin və xristian zövcələrinin birinin təsiri ilə Bağdad xəlifəsindən xoşu





gəlməməyə başlamışdı. Bu səbəbdən də son Abbasi xəlifəsi olan Mustasim Billaha ona itaət etməsi üçün xəbər yollamışdı. Xəlifə Mustasim və Abbasilər o dönəmdə qüvvətli deyildilər. Ancaq Mustasimin qüruru hər şeyi korladı. Buna görə də Hülakü Xanla döyüşmək istədi. Mustasimin şiə məzhəb olan vəziri İbn Əlkami, xilafətin zəif durumda olmasını gizlincə Hülakü Xana bildirdi və onu Bağdada yürüş etməyə çağırdı. Bundan sonra Hülakü Xan, 1258-ci ildə Bağdad şəhərini mühasirəyə aldı və xilafətin paytaxtını əlli gün bu vəziyyətdə saxladı.

Əlli günlük mühasirədən sonra əlacsız qalan Xəlifə, oğulları və ən yaxın adamlarını da götürərək əfv istəyi ilə Hülakü Xanın qərargahına gəldi. Hülakü Xan son Abbasi xəlifəsini torbaya qoydurub, atlılarına əzdirdi. Bundan sonra xəlifənin bütün ailəsini öldürtdü, bununla da sakitləşməyən Hülakü Xan, Bağdadı külə döndərdi. Rəvayətə görə Hülakü Xan o zamanlar Bağdadda yaşayan səkkiz yüz min əhalini də qılıncdan keçirilməsi əmrini vermişdir.Bağdaddan sonra Suriya üzərinə hücuma keçən Hülakü Xan, Hələb və Şam şəhərlərini bir hücumla aldı. Onun bu sürətli yürüşlərinin qarşısını Misirdə hakimiyyətdə olan digər türk sultanı Bəybars saxlaya bildi. Belə ki, Sultan Bəybarsın ordusu, Hülakü Xanın ordusunu məğlub edə bilmiş və onu Suriya ərazisindən çıxmağa məcbur edə bilmişdi.

Hülakü Xan Misirdən sonra ölkəsinə qayıdaraq vəfat etmiş qardaşının yerinə Böyük Xaqan olmaq istəyirdi. Ancaq Bəybarsdan aldığı məğlubiyyətdən sonra bu fikrindən vaz keçmiş və qurmuş olduğu dövlətin işləri il məşğul olmağa başlamışdır. Tarixçilər Hülakü Xanı, babası Çingiz Xan kimi çox sərt və çox qan tökən hökmdar kimi tanıtmaqdadırlar. Ancaq nə olursa-olsun, Hülakü Xan böyük bir dövlət olan Elxanilərin qurucusu, elmə və sənətə böyük dəyər verən bir hökmdar idi.

Belə ki, o, daim öz sarayına elm adamlarını toplayar və onları himayə edərdi. Onun özünün elmə böyük marağı olub. Onun hakimiyyət illərində Təbriz şəhəri böyük bir elm mərkəzinə çevrilmişdi. Hülakü Xan, astranomiya elminin inkişafı üçün Marağada böyük bir rəsədxana inşa etdirmişdir. Belə bir dönəmdə hətta Avropadan da onun himayə etdiyi elm mərkəzlərinə müxtəlif elmlərə yiyələnmək üçün tələbələr gəlirdilər. Elxanilər Dövlətinin qurucusu, elm və sənətin müdafiəçisi olan bu Böyük Türk 1266-ci ildə, cəmi qırx doqquz yaşında dünyadan köçmüşdür.





## ƏMİR TEYMUR
### *1336 - 1405*

***"Biz ki, Turanın Məliki, Türküstanın Əmiriyk. Biz ki, Türk oğlu Türkük. Biz ki, millətlərin ən qədimi və ən ulusuyuq, TÜRKÜN BAŞBUĞUYUQ".***

**Əmir Teymur**

Türk dünyasının böyük sərkərdələrindən biri. Əslən Türkmoğoldur. Döyüşlərdə ayağından və qolundan aldığı yaralardan dolayı, ömrünün sonuna kimi axsamışdır. Bütün keçirdiyi döyüşlərdə məğlubiyyətin nə olduğunu bilməmiş, getdiyi hər yerdən qələbə ilə dönmüşdür. "Tüzüqati-Teymur" əsərində isə öz həyatını, dövlət və dövlətçilik haqda olan düşüncələrini yazmışdır.

Onun şəcərəsi Çingiz Xana qədər gedib çıxır. Atası Turaqay (Turqay), Barlas adlı bir tayfanın rəhbəri olmuşdur. Anası, Çingiz Xanın sülaləsindən olan Təkinə Xatundur. Teymur, ulu babası olan Çingiz Xandan 110 il sonra, 1336-cı ildə Səmərqənd yaxınlığında yerləşən Yaşılşəhər qəsəbəsində anadan olub. Ailəsinə Köregen (Gürqan) deyilirdi ki, bunun da mənası gözəl deməkdir. Rəvayətə görə onun ulu babalarından olan, Şahqulu Bahadur günlərin birində bir yuxu görür. Yuxuda öz-özünə çıxan səkkiz ulduz görünür. Bunlardan səkkizinci ulduz daha parlaq olub, bütün dünyanı işığa qərq edir. Yuxu yozanlar, Şahquludan yeddi nəsil sonra bir oğlanın dünayaya gələcəyini və böyük bir dövlət quracağını söyləyirlər. Tarix

həmin səkkizinci ulduzun Əmir Teymur olmasını göstərdi. Anadan olan yeni oğlan uşağına isə "Teymur" adını verdilr ki, bu da qədim türkcədən tərcümədə "dəmir" deməkdir.

Onun uşaqlıq və gənclik illəri haqqında olan məlumatlar qarışıqdır. Ancaq dəliqanlı bir insan olması dəqiq bəllidir. Hər zaman at minər, ox atar, qılınc oynadarmış. Gənc yaşlarında qatıldığı bir döyüşdə ayağından aldığı yaradan dolayı bütün həyatı boyu axsaq olaraq gəzmişdir.

Onun axsaq olması, hakimiyyət əzmindən vaz keçirə bilməmiş və belə bir vəziyyətində qısa zamanda ətrafına insanları toplaya bilmişdi. Teymur, Cığatay Xanlığı valilərindən olan Qaşqan (Qazqan) Xanın əmrində çalışıb. Az sonra xan, Teymuru Cəlairlərdən, Olcay Türkan Xatunla evləndirmişdir. Bir müddət sonra Qaşqan Xan, düşmənləri tərəfindən tələyə düşürülərək öldürülür. Onun yerinə keçən üç xanın da aqibibəti eyni cür olmuşdur. Bundan sonra isə ölkəni qarışıqlıq bürümüşdür. Qısa zamandan sonra Cığatay Xanlığının yeni hökmdarı Qutluq Xan olmuşdur. Və o, Teymuru on minlik bir orduya rəhbər təyin etdi. Beləliklə də Teymur, yaşadığı Məvarünnəhr bölgəsində siyasətlə məşğul olmağa başlamış, həm də sufi şeyxi Pir Qütbül Əqtab Zeynəddin Əbubəkrə müraciət edərək mənəvi yöndən də özünü yetişdirməyə başlamışdır. Bundan başqa Teymur, Mir Seyyid Sərif və Bəhaəddindən də dərslər almışdır. Bu arada isə öz tayfası və Cəlairlər onun ətrafında birləşdilər.

Bir ara Teymurla hökmdarın arası dəydi və Xan onun öldürülməsini istədi. Bundan sonra Teymur yaxın adamları ilə birlikdə qaçıb canını qurtarmışdır. Üç il ərzində Teymur qaçaq həyatı yaşamışdır. Bu zaman ərzində onun ətrafına toplanan insanlar sürətlə artmaqda idi. Bir müddət sonra isə seyidlər də onu dəstəkləməyə başladılar. Güc topladıqdan sonra isə Xorasan və Qəndəharı almışdır. Bu arada Teymur hakimiyyət pillələrini addım-addım çıxmaqda idi. Xeyli güc topladıqdan





sonra qədim türk adətlərinə uyğun olaraq, qurultay toplandı və 1369-cu ildə Teymuru, yeni Xan elan etdilər. Səmərqənd şəhərini özünün paytaxtı elan edən Teymur, Çingiz Xanın, Şamanist qanunnaməsi olan "Yasak"ı ortadan qaldıraraq, onun yerinə "Şəriəti" gətirdi. Xalq yeni qanunlara uyğunlaşınca çox əziyyət çəkmişdir, ancaq bu danılmaz bir faktdır ki, Orta Asiyada İslamın oturaqlaşmasında Teymurun məhz bu yeni qanunlarının əvəzsiz xidmətləri olmuşdur.

Bilindiyi kimi Teymurun ulu babası olan Çingiz Xanın soyundan olan sərkərdələr demək olar ki, bütün Asiya qitəsini ələ keçirmişdilər. Türklər zatən Çinin şimalında əsrlərdir ki, hökm sürməkdə idilər. Kubilay Xan isə Çinin cənubunu da almışdı. Ancaq 1370-ci ildə Çində baş qaldıran bir üsyan nəticəsində türklər bu ölkədən çıxmışdılar. Bu zaman Türküstandan qərbdə Çingiz Xanın oğlu, Cucinin nəsli hakimiyyədə idi. Krımda Toxtamış Xan, Qıpçaq çöllərində isə Şeybani Xan, Ural ətrafında Orus Xanın hakimiyyəti sürməkdə idi. Bu əmiuşaqları rahat oturmur və daim bir-biri ilə mübarizə aparırdılar. Bunun nəticəsində də Orus Xan, Toxtamışı məğlub edərək, onu Teymura sığınmağa məcbur etmişdi. Teymur, Toxtamışa Otrar bölgəsində yer ayırmışdır. Orus Xandan sonra onun yerinə keçən Mamay Xan. 1378-ci ildə Moskva knyazı Dmitri ilə döyüşdə məğlub oldu. Bundan sonra isə sayları çox az olan ruslar, sürətlə çoxalmağa və güclənməyə başladılar. Bu çoxalmada onlara ruslaşmış türklər də "yardımçı" oldular. Bir müddət sonra Toxtamış Xan yenidən gəlib rusları məğlub etsə də, Teymurla arası dəydiyindən ruslar məhv olmaqdan qurtuldular. Belə ki, bundan sonra bu iki türk hökmdarının başı bir-birinə qarışdı. Əmir Teymur, 1389-cu ildə təkrar Qıpçaq düzünə və Toxtamış Xan üzərinə yürüş etdi. Teymur, Toxtamışı Moskvaya qədər qovmuşdur. Daha sonra isə Rusiyanı ələ keçirdi və Macarıstana çatdı.

Teymurun yerinə Çingiz Xan olsaydı, ələ keçirdiyi əraziləri öz ölkəsinə qatardı. Teymur isə bu qədər zəfərdən sonra yenidən Səmərqəndə qayıtmışdır. Bunun əsas səbəbi isə Teymurun əmri altında, Çingiz Xanda olan idarəçi və məmur ordusunun olmaması idi. Bu səbəbdən də Teymur, zəbt etdiyi torpaqlardan geri döndükdən sonra oralardakı hakimiyyəti də sona çatmışdır.

Əmir Teymur, bir hücumla İran, İraq, Əfqanıstan, Azərbaycan və Gürcüstanı da aldı. Şah Mənsur ona qarşı üsyan qaldırdıqda isə on yeddi yaşındakı oğlu Şahruhun da qatıldığı döyüşdə Mənsuru məğlub etdi. Şahruh, Mənsurun başını atasının ayaqları altına atdıqdan sonra, atası onu Xorasan, Sicistan və Mazandaran hakimi təyin etmişdir.

Teymur, 1398-ci ildə Hindisan üzərinə yürüşə çıxdı. Onun məqsədi buradakı kiçik krallıqların hakimiyyətinə son qoymaq və kafirləri müsəlman etmək idi. Teymur, Hindistan səfərindən də zəfərlə dönmüşdür. O, buradakı alim və sənətkaları da özü ilə paytaxtı Səmərqəndə aparmışdır.

Öz ölkəsinin sərhədləri daxilində hakimiyyətini möhkəmləndirdikdən sonra ətraf ölkələrə yürüşlər etməyə başlamışdır. Şərqdə sərhədlərini Çinə qədər uzatdıqdan sonra, qərbə yönələrək, Azərbaycan və İranı əlinə keçirdi.

O dönəmdə Osmanlı taxtında bir serb qızına aludə olub, gününü çaxır içməklə keçirən İldırım Bəyazid otururdu. Anadolu ərazində olan bəylikləri bir hakimiyyət altında birləşdirmək işi ilə məşğul olan Osmanlı Dövləti, eyni zamanda bəzi bəyləri özündən narazı salmışdı. Belə bəylərdən biri də, Qaraqoyunlu hökmdarı Yusif Xan idi. Yusif, Bəyaziddən qaçaraq, Əmir Teymurun yanına gəlmşdi. Bunun üzərinə Bəyazid, Əmir Teymura məktub yazaraq Yusifi istəmişdir. Ümumiyyətlə isə bu iki hökmdar arasında da maraqlı məktiblaşmalar olmuşdur. Əmir Teymur nə qədər mədəni və kübar məktublar yazdırsa da, İldırım Bəyazid, Əmir Teymura o qədər kobud və təhqiramiz





məktublarla cavab vermişdir. Hətta məktublarının birində Bəyazid, Teymuru "topal it" adlandırmişdi. Vəziyyəti belə görən avropalılar da (xüsusən də Roma papası) bu iki Türk Nəhəngini üz-üzə gətirmək üçün əllərindən gələni etməkdə idilər. Çünki hər iki dövlət həddən artıq qüdrətli idi və Avropada hər iki dövlətdən qorxurdular. Xüsusən də Tüymurdan...

Nəhayət, iki böyük hökmdarın ordusu Anlara yaxınlığnda üz-üzə gəlir. Bu döyüşdə Əmir Teymur parlaq qələbə çalmışdır. Bəzi tarixçilərin bildirdiyinə görə Teymurun qələbəsini eşidən Papa, bütün kilsələrdə zəng çaldırmış və Teymurun adına dualar oxutmuşdur. Bunun səbəbi isə Osmanlı ordusunun bir müddət Avropanı rahat buraxacaq sevinci idi.

Teymur bu döyüşdə İldırım Bəyazidi və onun bütün ailəsini əsir olaraq Səmərqəndə aparmışdır. Bütün olanlara baxmayaraq, Teymur öz əsiri ilə çox yaxşı davranmış ona qarşı heç bir kobudluq etməmişdir. (Hərçənd ki, bəzi tarixçilər tam əksini yazmaqdadırlar. Bunu Teymuru istəməyən qüvvələr yazsalar da, yazılanların heç bir əsası yoxdur). Əsirlik həyatına dözə bilməyən İldırım Bəyazid burada zəhər içərək özünü öldürmüşdür. Deyilənlərə görə Bəyazid öldüyü zaman Teymur ağlayırmış. Görünür hər iki hökmdar etdikləri səhvi çox gec də olsa başa düşmüşdülər. Bütün Anadolunu ələ keçirən Tüymur, bu döyüşdən sonra bütün bəylərin torpaqlarını özlərinə qaytararaq paytaxtı Səmərqəndə dönmüşdür.

İldırım Bəyazidin qüruru və kobudluğu, Əmir Teymurun hakimiyyət istəyi iki qardaşı üz-üzə gətirmişdir ki, sonunda yenə qazanan tərəf Şərqdə və Qərbdə olan düşmnlərimiz olmuşdur. Halbuki hər iki hökmdar güclərini birləşdirib Avropa və ya Çin üzərinə yürüş edə bilərdilər ki, bu da Avrasiya kimi bir materikin iki Türk hökmdarının arasında bölüşdürülməsi ilə nəticələnmiş olardı. Düzdür, indi bizlər üçün hökm vermək çox asan görünür, ancaq o dönəmdə görünür ki, başqa çıxış yolu olmayıbmış.

Böyük sərkərdə və qüdrətli dövlət xadimi olmaqla yanaşı, Teymur sənətə və sənətkara böyük dəyər verən hökmdar olmuşdur. Onun zamanında ölkəsində çoxlu sayda mədrəsə, məscid, kitabxana inşa edilmiş və yeni yollar çəkilmişdir. O, Amudərya ilə Sırdərya arasında olan ərazilərdə bir çox kanallar çəkdirmiş və əhalinin rahatlığını təmin etmişdir. Onun zamanında ipəkçilik və kağız istehsalı da sürətlə inkişaf etmişdir. Deyilənlərə görə həddən artıq ədalətli hökmdar olub. O, övladlarının gözəl təhsil alması üçün hər şey etmişdir. Belə ki, özündən sonra da onun nəslindən bir çox böyük hökmdarlar və mütəfəkkirlər çıxmışdır. Bunlara misal olaraq, Şahruhun oğlu Uluğ Bəyi, hansı ki, böyük astranom və riyaziyyatçı olmuşdur, nəvəsi Babur Şahı, onun oğlu Humayunu, onun da oğlu Əkbər Şahı göstrə bilərik, hansı ki, bi insanlar da həm hökmdar, həm də filosof olmuşlar. Onun hakimiyyəti illərində Səmərqəndə toplanmış olduğu alimlər və sənətkarlar, dövləti dağıldıqdan sonra Osmanlıya gəlmişlər ki, bu insanların hamısı Osmanlının inkişafına və qüdrətlənməsinə öz töhfələrini vermişlər. Onun zamanında yazılan əsərlərin əksəriyyəti də Türk dilində yazılmıdır. Teymur buna xüsusi əhəmiyyət verirmiş. Eyni zamanda Türk Mlliyyətçisi olan Əmir Teymur, İranı zəbt etdikdən sonra fars şovinizminin banilərindən olan Firdovsinin qəbri üzərinə gəlmiş və onun qəbrini ayağı ilə vuraraq belə demişdir: "Qalx, həyatın boyu nifrət etdiyin Türk oğluna bax!"

Əmir Teymur, sağlığında öz yerinə Şahruhun keçməsini istəmişdir. Çünki düşünürdü ki, özündə olan bütün keyfiyyətlər məhz bu oğlunda toplanıb. Ancaq Şahruhun döyüşlərin birində vaxtsız vəfat etməsi onu başqa yol axtarmağa məcbut etmişdir. Belə ki, o, 1405-ci ilin mart ayında Çin üzərinə yürüşə çıxan bu Böyük Türk, Otrar alanan ərazidə xəstələnərək vəfat etmişdir. Yürüşə çıxdığı zaman isə yerinə oğlu Pir Məhəmmədi vəliəhd təyin etmişdi.





## Uluğ Bəy
***? - 1449***

Türk milləti dünyaya böyük hökmdarlar, dünya xəritəsini dəyişmiş sərkərdələrlə yanaşı, eyni zamanda, tanınmış elm xadimləri, öz kəşfləri ilə Avropa elmini bir neçə əsr qabaqlayan elm xadimləri və mütəfəkkirlər də vermişdir. Belə mütəfəkkir və eyni zamanda da hökmdarlardan biri dünya çapında tanınmış riyaziyyatçı, astronom və hökmdar olan Uluğ bəydir. O, 22 mart 1393-cü ildə Səmərqənd şəhərində dünyaya gəlmişdir. Uluğ bəy, Əmir Teymurun nəvələrindən olub, Babur şahın oğludur. Əsl adı "Turağan"dır. Ancaq bəzi mənbələr adını səhvən "Tarağay" və "Turğay" kimi göstərməkdədirlər. 13 yaşında olarkən Türküstan və Cənubi Türküstan əyalətlərinin hakimi olmuşdur. 1446-cı ildə Babur şahın vəfat etmsindən sonra hakimiyyətə gəlmişdir. Uluğ bəy, hakimiyyəti illərində riyaziyyat və astronomiya ilə yaxından maraqlanmışdır. Astronomiyaya aid olan əsəri illər keçdikdən sonra İngiltərə və Fransa kimi Avropa ölkələrində də nəşr edilmişdir.

1446-cı ildə taxta çıxdıqdan sonra onun ilk işi dövləti gücləndirmək və onu parçalanmaqdan qurtarmaq oldu. Bununla yanaşı, o, ölkəsində elmin inkişaf etdirilməsi üçün bütün lazımi tədbirləri görmüşdür. Məhz onun istəyi, himayəsi və dəstəyi ilə Smərqənd rəsədxanası inşa edilmişdir. Qısa bir zamandan sonra isə bu rəsədxana böyük bir elm mərkəzinə çevrilmiş və dünyada məşhurlaşmışdır. Rəsədxananın inşası on ildən çox çəkmişdir.

Uluğ bəy, hökmdar olduqdan sonra xarici siyasətdə ilk olaraq, Osmanlı dövləti ilə münasibətləri daha da sıxlaşdır-

mağa və yaxşılaşdırmağa yönəltmişdir. İki böyük türk ölkəsi arasında münasibətlərin əsasında isə elm adamlarının qarşılıqlı səfərləri durmuşdur. Uluğ bəy, öz zamanında dünyanın tanınmış elm adamlarını sarayına dəvət etdi və onları qorudu. Onun inşa etdirmiş olduğu rəsədxanada astronomiya elmi bir az da inkişaf etdirildi və zamanının ən yüksək astronomiya kəşfləri məhz burada oldu.

Uluğ bəy, tarixə adını "Asiyanın Fatehi" kimi yazdıran Əmir Teymurun nəvəsi olsa da, Teymurda olan sərkərdəlik istedadı onda yox idi. Babası Əmir Teymurun əksinə olaraq, onda heç bir ölkənin torpağını fəth etmək və onu öz ölkəsinin tərkibinə qatmaq kimi istək yox idi. Onun bütün marağı elmə, xüsusilə də astronomiyaya idi. Onda elmə ilk maraq oyadan isə atası olmuşdur. Belə ki, onun atası da elmə böyük dəyər vermiş və daim elm adamlarını qorumuşdur.

Onun hökmdarlığı zamanında başda Səmərqənd və Buxara olmaq üzərə bütün ölkə türk memarlıq sənətinin nümunələri ilə bəzədildi. Uluğ bəy Səmərqənddə 38 il hökmdarlıq etdi və bu illər ərzində ölkənin paytaxtını böyük bir elm mərkəzi halına gətirə bildi. Uluğ bəyin zamanında astronomiyaya dair yeni aələtlər kəşf edildi və köhnələri bir az da təkmilləşdirildi. Uluğ bəy, bu illər ərzində ulduzların xəritəsini də hazırlamağı bacarmişdı. Hansı ki, bu xəritə onun vəfatından sonra hələ uzun illər bütün astronomiya alimləri üçün böyük mənbə rolunu oynamışdır. Onun ən önəmli əsərlərindən biri də "Zictəri"dir. Sözü gedən əsər ingilis və fransız dillərinə də tərcümə edilmişdir. Uluğ bəy, astronomiya elmi ilə yanaşı, triqonometriyaya da böyük maraq göstərmişdir. O, özündən əvvəl bu sahədə əldə edilmiş bütün nailiyyətləri kənara qoyaraq, yeni bir araşdırma yolu seçmişdir.

"Zici Uluği" adı ilə tanınan cədvəli isə onun əsərləri arasında ən sonuncusudur. Bu cədvəl, dövrün elmi əsaslarını





özündə ehtiva edən yeganə təqvim hesab edilməkdədir. O, bu əsərində, digər əsərlərində olan yalnışları ortaya çıxarmış və onları düzəltmişdir. Sözü gedən əsər, 1655-ci ildə İngiltərənin Oksford şəhərində, 1853-cü ildə Fransada nəşr edilmişdir. Əsər bundan sonra Avropanın bir çox dillərinə tərcümə edildi. Uluğ bəy, elm dünyası tərəfindən "XV əsrin Astronomu" ünvanına layiq görülmüşdür. Bundan başqa isə Beynəlxalq Astronomiya dərnəyi yerin peyki olan aydakı kraterlərin birinə onun adını vermişdir. Belə ki, aya peyk göndərmiş olan ölkələrin elm adamlarının birlikdə hazırlamış olduğu ay xəritəsində üç böyük türk elm adamının adları yer almaqdadır. Bunlar Uluğ bəy, Əbu Reyhan əl-Biruni və Nəsirəddin Tusidir.

Uluğ bəyin kosmosa dair yazmış olduğu bir əsəri də günümüzə qədər gəlib çatmış və bir çox elmi araşdırımalar üçün mənbə rolunu oynamışdır. Tarixin alim və adil bir hökmdarı olan Uluğ bəy, eyni zamanda pis taleli bir hökmdar olmuşdur. Belə ki, onun oğlu olan Əbdüllətif Mirzə, atasına qarşı üsyan etmiş və məsələni daxili müharibəyə qədər apara bilmişdi. Ata və oğul arasında baş tutan müharibədə Uluğ bəy, oğlunu və onun ətrafında toplanan ordunu məğlub edə bilmişdi. Bu müharibə zamanı Əbdüllətif özü də əsir düşmüşdü. Uluğ bəy, babası Əmir Teymur kimi sərt bir insan deyildi və bu səbəbdən də ona qarşı üsyan etməsinə baxmayaraq, övladını bağışladı.

Fəqət, Əbdüllətif Mirzə sanki Uluğ bəyin deyil, başqasının oğlu idi. Belə ki, onların xarakterləri daban-dabana bir-birinə zidd idi. Əbdüllətif əsirlikdən azad edilən kimi dərhal yeni bir üsyanın hazırlıqlarına başladı. Bu dəfə isə ötən müharibənin heyfini almaq üçün daha böyük və daha güclü ordu hazırlamağa başladı və bunun üçün nə lazımdırsa, hamısını etdi. Müharibə üçün bütün hazırlıqlar tamamlandıqdan sonra, o, atasının üzərinə yürüşə çıxdı.

Tərəflər arasında baş tutan ikinci döyüşdə tale, Uluğ bəyin üzünə gülmədi. Daha doğrusu isə Uluğ bəy, oğlunun bir daha üsyan etməyəcəyini düşünürdü və indiki halda qəfil və hazırlıqsız yaxalanmışdı. Bu səbəbdən də onun tabeçiliyində olan ordu qüvvətləri məğlub oldu. Bu dəfə isə 56 yaşlı hökmdar oğluna əsir düşdü. Uluğ bəy, təəssüf ki, oğluna göstərmiş olduğu mərhəməti ondan görə bilmədi. Belə ki, oğlu Əbdüllətif qalib bir komandan kimi atasını 1449-cu ildə ölümə məhkum etdi. Bu böyük elm adamının, böyük hökmdarın və nəhayət, Böyük Türkün cənazəsi babası Əmir Teymurun yanında torpağa tapşırılmışdır.





## ƏLİŞİR NƏVAİ
### *1441 - 1501*

***İstər bir olsun, istərsə min bir,***
***Bütün türk elləri ancaq mənimdir.***

**Ə.Navai**

Böyük Türk və böyük şair olan Əlişir Nəvai 1441-ci ildə Herat şəhərində dünyaya gəlmişdir. Onun atası Əmir Teymurun məliklərindən olan Sultan Əbu Səidin vəziri Kiçkinə Bəxşidir. Nəvainin ilk təhisili ilə də məhz atası məşğul olmuşdur. Əlişir Nəvai daha sonrakı təhsilini Xorasan və Səmərqənd şəhərlərində davam etdirmişdir. Burada onun ən məşhur tələbə yoldaşı isə Sultan Hüseyn Bəyqara olmuşdur. Tələbəlik illərində onlar bir-birinə, kim dövlət adaml olarsa, digərini unutmamaq sözlərini vermişdilər. Sultan Hüseyn Bəyqara Heratda hakimiyyət başına keçdikdən sonra tələbəlik illərində verdiyi sözünü unutmamış və köhnə tələbə yoldaşını axtarmışdır. Əlişir Nəvainin Səmərqənddə olduğunu öyrənən Bəyqara, Məvarünnəhr hakimi Əhməd Mirzəyə məktub yazaraq, ondan Əlişiri onun yanına göndərməsini istəmişdir. Bu məktubdan sonra Əhməd Mirzənin adamları Əlişir Nəvaini Herata aparmışlar.

İki köhnə tələbə yoldaşı öncədən sözləşdikləri kimi Bəyqaranın sarayında əvvəlcə Əlişir Nəvaini möhürdar, daha

sonra isə özünə vəzir vəzifəsinə təyin etdi. İşinin verdiyi rahatlıqdan dolayı bol-bol kitab oxumaq və elm adamları ilə görüşüb söhbət etmək imkanı əldə edən Əlişir Nəvai, bir müddət sonra işindən bezmişdir. Bundan sonra isə istefa ərizəsi ilə Bəyqaraya müraciət etdi. Ancaq Hüseyn Bəyqara onun istefasını qəbul etməmişdir.

Tam əksinə olaraq Hüseyn Bəyqara onu Astarabada vali təyin etdi. Əlişir Nəvai valilik vəzifəsində çox qalmadı və 1490-cı ildə vəzifəsindən ayrıldı. Dövlət vəzifəsindən ayrıldıqdan sonra Əlişir Nəvai ancaq elm və sənətlə məşğul olmuşdur. Bu Böyük Türk və böyük şair 1501-ci ildə anadan olduğu Herat şəhərində vəfat etmişdir.

Əlişir Nəvai şerlərini türkcə və farsca yazmışdır. Bundan başqa o, ərəb dilini mükəmməl şəkildə bilmişdir. Mahmud Qaşqarlıdan sonra türk dilinə ən böyük xidmət etmiş insan hesab edilən Əlişir Nəvai, "Mühakimatul-Lüğəteyn" əsərində türk dili ilə fars dilini qarşılaşdırmış və türk dilinin üstünlüklərini sübut etmişdir. Nəvai bu əsərini milliyətcə türk olub, ancaq, fars dilində şer yazanlara ithaf etmişdir. Əlişir Nəvai türk dilində yazdığı şerlərində Nəvai (mənası ağlayan), fars dilində yazdığı şerlərində isə Fani təxəllüslərini işlətmişdir. Bu, böyük şairin dördü türkcə, biri farsca olmaqla beş ayrı divanı vardır. Türkcə olan divanlarını ümumi adı isə "Nizamül Maani"dir. Beş məsnəvi əsərindən ibarət olan "Xəmsə"sindən başqa on səkkiz ayrı əsəri də mövcuddur.

Əlişir Nəvainin, Cığatay ədəbiyyatının formalaşmasında böyük rolu vardır. XV əsrdə Cığatay Türkcəsinin klassik bir yazı dili olaraq mövcudiyyətini qorumasında onun misilsiz xidmətləri olmuşdur. Onun yaşadığı zamanda əksər şair və yazarlar öz əsərlərini fars dilində yazmışlar. Ancaq, Nəvai daim belələrinə qarşı çıxmış və daim onlara türk dilinin şer dili kimi fars dilindən üstün olmasını sübut etməyə çalışmışdır.





Bu yöndə yazmış olduğu ""Mühakimatul-Lüğəteyn" əsəri Qaşqarlının "Divani Lüğəti Türk" əsərindən sonra türk dilinin incəliklərini anladan ikinci böyük kitabdır.

Fars dilinin, türk dilindən üstün olduğunu hesb edən o zamanın şairlərindən fərqli olaraq, Əlişir Nəvai, türk dilinin üstünlüklərini öz əsərlərində sübut etmişdir. O, bununla da kifayətlənməyərək, özündən sonra gələn şairlərin hamısına şerlərini türk dilində yazmalarını tövsiyyə etmişdir. Əlişir Nəvai türk və fars dili ilə yanaşı ərəb dilində də şerlər yazmış, ancaq yenə də daim üstünlüyü Cığatay Türkcəsinə vermişdir. Məhz onun sayəsində Cığatay Türkcəsi yazı dili olaraq qorunub saxlanmışdır.

Əlişir Nəvai ilk şer kitabı olan və 842 şeri cəmlənmiş "Bədaiül-Bidayə"ni 1470-ci ildə yazmışdır. Daha sonra, yəni, 1476 və 1483-cü illər arasında yazmış olduğu şerlərini "Nəvadirün-Nəhayə" adlı ikinci divanında tolamışdır. 1492-1494-cü illər arasında isə "Xəmsətül Mütəhəyyirin" adlı əsərini bitirmişdir. "Mühakimatul-Lüğəteyn" əsərini isə 1499-cu ildə tamamlamışdır. Bu kitab onun zamanında olduğu kimi günümüzdə də Türk Dünyası üçün önəmli olan türk dilinin gücünü və yerini göstərən böyük bir mənbə hesab edilir. Astarabad valisi olduğu dönəmdə türk tarixinə dair olan "Tarixi-Mülükü-Əcəm" əsərini yazmışdır. Burada o, əfsanəvi türk sərkərdəsi olan Alp Ər Tunqadan bəhs etməkdədir. Əlişir Nəvai 3500 beyttən ibarət olan "Lisanut-Təyr" əsərində varlıq və ilahi həqiqət mövzusunda olan dünyagörüşünü izah etmiş, insan, təbiət və yaşayış haqda olan görüşlərini açıqlamışdır. "Heyrətül-Əbrar" əsəri onun fəlsəfi əsərlərindən biridir. Əsər 7976 misradan ibarətdir. Əsərdə dünya həyatı, insan qəlbi və cəmiyyət, tarixlər, əfsanələr, zərbməsəllər vasitəsiylə açıqlanır. "Xəmsə"sinin sonuncu kitabı olan "Səddi İsgəndər"də şair, Makedoniyalı İsgəndərlə bağlı olam əfsanəvi tarixi anlatmışdır. Bununla yanaşı o, bu əsərində

mövzunu vasitə edib öz dövrünün mənəvi problemlərini, dövlət, şah, xalqın idarə olunması, ədalət və həqiqət kimi mövzulardan söz açmışdır. Nəvainin "Xəmsə"sinə isə "Fərhad və Şirin", "Leyli və Məcnun", "Səbai-Səyyar", "Səddi İsgəndər" və "Heyrətül Əbrar" kimi əsərləri daxildir.

Əlişir Nəvai yaradıcılığının şərqdə Hindistan, qərbdə Osmanlı dövləti olmaqla çox böyük bir coğrafiya daxilində ədəbiyyata önəmli təsiri olmuşdur. Hindistan fatehi olan Babur Şah da öz şerlərini daim Əlişir Nəvainin təsiri altında yazmış və onu Türk Dünyasının ən böyük şairi adlandırmışdır. Əlişir Nəvai sadəcə Türküstan və Türk dilli dövlətlər üçün deyil, eyni zamanda bütün insanlığa ibrət ola biləcək bir şair və şəxsiyyətdir.





## BABUR ŞAH
### *1483 - 1530*

Osmanlı Dövlətinin Asiya, Afrika və Avropa qitələrindəki torpaqlarının ümumi sahəsi səkkiz mliyon kv. km. olduğu bir dövr, yəni XVI əsr, türk tarixinin çox önəmli zamanlarından biridir. Çünki bu dönəmdə təxminən Osmanlının yarısı boyda olan daha bir türk dövləti də Hindistanda yaranmışdı. Hindistan həm coğrafi mövqeyi baxımdan, həm təbii zənginliyi baxımından hələ qədim dövrlərdən insanların diqqətini cəlb etmişdir. Bu səbəbdəndir ki, dünyanın əksər fatehləri bu ölkəyə yürüşlər etmişlər. Bunlardan ən məşhuru isə şübhəsiz ki, Makedoniyalı İsgəndərdir. Hindistana axın edən fateh və əsgərlər təbii ki, özləri ilə öz xalqlarının mədəniyyətini və adət-ənənələrini də gətirirdilər. Bu dövrdə farslar, arilər, ərəblər, makedoniyalılar və türklər buraya öz mədəniyyətlərini də gətirmişdilər. Bunlardan ən sonuncu gələnlər isə türklər olmuşdur. (hərçənd ki, Cəvahirlər Nehru "Dünya Tarixinə Baxış" əsərində Hindistana hələ eradan çox əvvəl arilər adı ilə gələnlərin türklər olduğunu yazır) Hindistanda olan türk mədəniyyətinin ən böyük qurucusu isə Babur Şah və onun övladları olmuşdur.

Hindistan fatehi Babur Şahın əsli Özbəkistanın Fərqanə bölgəsindəndir. Onun ailəsi Barlas qəbiləsinə mənsubdur ki, bu tayfa da birbaşa Əmir Teymurun mənsub olduğu tayfadır. Babur Şah da rəsmən Əmir Teymurun nəvəsidir. Atası, Fərqanə hökmdarı Ömər Şeyx Mirzədir. Babur Şah, 14 fevral 1483-cü ildə Fərqanənin Əndican qəsəbəsində dünyaya gəlib.

Onun dünyaya gəldiyi zaman, Əmir Teymurun qurmuş olduğu dövlət artıq dağılmışdı və onun nəvələri ayrı-ayrı

müstəqil dövlətlər qurmuşdular. Bunlardan Əbu Səid Məvarünnəhrdə, Hüseyn Bəyqara Xorasanda, Baburun atası Şeyx Mirzə isə Fərqanədə hökmdarlıq etməkdə idi. Son dönəmlərində isə qardaşlar arasında münasibətlər pozulmuşdu qardaşlar arasında mübarizə gedirdi. Qardaşlar arasında gedən mübarizələrin sonunda Şeyx Mirzə 1494-cü ildə dünyasını dəyişdi. Beləliklə də, Babur Şah, on bir yaşında atasının yerinə taxta çıxdı. Bu vaxt isə əmisi, Səmərqənd hökmdarı Sultan Əhməd və dayısı, Daşkənd hakimi Məhəmməd, Fərqanə üzərinə hücum etməkdə idilər.

Ancaq, Babur, atasının sadiq və bacarıqlı sərkərdələrinin sayəsində bu təhlükədən qurtara bilmişdır. Babur, təhlükənin öhdəsindən gəlsə də, sonrakı həyatı həyacanlı və təhlükələrlə zəngin olmuşdur. Belə təhlükələr onun həyat təcrübəsini və döyüş məharətini bir az da artırmışdır. Belə ki, Babur, bir müddət sonra babası Əmir Teymurun dövlət paytaxtı olan Səmərqəndi ala bildi. Fəqət az sonra Şeybani xan ilə döyüşdə məğlub oldu. Bundan sonra isə Fərqanədəki hökmdarlığını itirməklə yanaşı, ətrafındakı insanlar da dağıldılar. Tək başına qalan Babur, bu hadisədən sonra Pamir dağlarına doğru çəkildi. Hər bir hökmdar üçün böyük hesab edilən fəlakətlə qarşılaşmasına baxmayaraq, Babur ümidini kəsmirdi. Ətrafında olan bir neçə ən sadiq insanla birlikdə bir türk qadının evində gizləndi. Bu qadının qardaşı vaxtilə Baburun babası Əmir Teymurla birlikdə Hindistana səfər etmiş əsgər idi. Baburun bu evdə qaldığı müddətdə həmin bu qoca əsgər Teymur və onun Hindistan səfəri haqda Babura məlumatlar verirdi. Əsgər eyni zamanda Hindistanın zənginlikləri və mədəniyyəti haqda da Baburu məlimatlandırırdı. Babur isə öz növbəsində bu gecələrdə səbr və həvəslə qoca döyüşçünü dinləyirdi.

Əvvəldən ədəbiyyata marağı olan Babur, bu dəfə tarixə də maraq göstərməyə başlamışdır. Tarix həvəsi oyandıqdan





sonra isə babası Əmit Teymurun tarixini əldə etdi və oxudu. Bunda sonra ruhunun dərinliklərində dəyişikliklərin olduğunu hiss etdi. Artıq onun ən böyük arzusu, Hindistanı zəbt etmək və orada özünün dövlətini qurmaq idi. Onun istedadı və bacarığı da buna imkan verirdi. Məqsədini həyata keçirə bilmək üçün əsgər toplamaq niyyəti ilə Xorasanda yaşayan türklərə xəbər yolladı. Qısa bir zaman içində Baburun ətrafına təxminən iyirmi min əsgər toplanmış oldu. Bu ordu ilə Hindiquş dağlarını aşaraq, Əfqanısatan ərazisinə daxil oldu və bu ölkənin paytaxtı Kabili tutdu. Artıq Hindistan yolu açıq idi və Babur öz qərargahını Hindistanın girişində qurdurdu.

Saka türkləri, Hun türkləri, Qəznəli türklər və babası Əmir Teymur da məhz buradan keçərək Hindistanı fəth etmişdilər. Babur tarix səhnəsində yeni bir səhifə açmaq ərəfəsində idi və özünü buna hazır hesab edirdi. O, əvvəlcə özünü Kabildə şah elan etdi. Bu arada ən böyük düşməni olan Şeybani də düşmənləri tərəfindən öldürülmüşdü. Beləliklə də Hindistanın fəthi üçün olan ən böyük maneə aradan qalxmış vəziyyətdə idi. O zamanlar Hindistanın Pəncab valisi olan Dövlət Xanın, Hindistan Dehli hökmdarı olan Sultan İbrahimlə münasibətləri yaxşı deyildi. Buna görə də Dövlət Xan, Baburu Şahı durmadan Hindistana yürüşünü dəstəkləyir, hətta onu bu ölkəyə dəvət edirdi.

Belə bir vəziyyətdə Babur Şah, Dehli sultanı İbrahimə məktub yazaraq, Hindistanın, babası, Əmir Teymurdan ona mirası olaraq qaldığını bildirdi. Məktub İbrahimə çatdığı bir vaxtda artıq Babur Şahın ordusu Hindistana yürüş üçün tam hazır vəziyyətdə idi. Baburun ordusunda topçular da var idi. Ordunun ümumi sayı isə on üç min nəfərdən ibarət idi. Sultan İbrahimin ordusunda isə yüz min əsgər xidmət edirdi. Bundan əlavə İbrahimin ordusunda minə qədər fil də döyüşə hazırlaşdırılmışdı. Baburun ordusu Heybər keçidini aşaraq Pəncab

bölgəsinə daxil oldu. Baburun ordusunun Sind çayı sahili ilə irəlilədiyini eşidən Sultan İbrahim, ordusun başına keçdi. İki ordu. Hindistanın Panipad adlanan yerində üz-üzə gəldilər.

Beləliklə, iki ordu 21 aprel 1526-cı ildə döyüşə başladı. Qısa bir zamandan sonra İbrahimin ordusu dağılmağa başladı. Qaçanların gizlənməsinə imkan verməyən Babur ordusu, onları qovaraq Dehli şəhərinə girdilər. Eyni ildə dünyanın başqa bir yerində, tamamilə başqa bir sərkərdənin rəhbərliyi altında başqa bir türk ordusu Mohaç meydan savaşından sonra Macarıstanl fəth etmişdi.

Babur Şah Dehliyə girdiyi zaman Ulu Məscidə gələrək camaatla birlikdə namaz qıldı. Onu Hindistan padşahı elan etdilər. Baburun oğlu Humayun da bir ordu ilə Hindistanın ikinci mühüm şəhəri olan Aqranı zəbt etdi. Humayun burada Sultan İbrahimin bir evə sığınmış olan ailəsini əsir götürdü. Bundan sonra Hindistanın bütün sərvətləri Babur Şahın əlinə keçdi. Ancaq Babur Şah bütün Hindistan xəzinəsini əsgərləri arasında bölüşdürdü. O zamanlar Hindistan müsəlman Racalar tərəfindən idarə edilirdi (bir növ bizim xanlıqlar kimi). Babur Şah bütün racaların hakimiyyətinə son qoydu və ilk dəfə olaraq Himdistanı bir hakimiyyət altında birləşdirə bildi. Hindistanın bir hakimiyyət altında birləşdirilməsinə Babur Şahın beş ili getmişdi. Bundan sonra isə dünyanın siyasi xəritəsində yeni bur dövlət - Türk-Hind imperatorluğu peyda oldu.

Dövlət quruculuğu işində zəngin təcrübəyə malik olan türklər, Hindistanda güclü siyasi sistem qura bilmişdilər. Babur Şahın fərmanı ilə bütün Hindistan əhalisi öz inancını yaşamaqda sərbəst buraxıldı. Onun zamanında bütün mədəniyyət sahələri inkişaf etdirildi və Hindistanda zəngin mədəni irs yarandı. Bu dönəmdə Memar Sinan da Hindistana gələrək, burada bir çox abidələr inşa etdi. Dehli, Aqra kimi şəhərlər elm və mədəniyyət mərkəzlərinə çevrildilər. Babur Şahdan sonra





türk hökmdarları zamanıda inşa edilən Tac Mahal Türbəsi, Humayun Türbəsi, Türk Sultanı adı verilən beş mərtəbəli saray və İnci Məscidi bu kimi memarlıq nümunələrinə misal ola bilər.

Babur Şah eyni zamanda həm də şair idi. O, Hindistan xatirələrinə dair bir kitab da yazmışdır. Onun yazdığı bu kitaba "Baburnamə" deyilməkdədir. Babur Şah bütün şerlərini türk dilində yazmışdır. "Baburnamə" adı ilə Cığatay türkcəsində yazmış olduğu əsər, Əbdürrəhman Xan tərəfindən sonradan fars dilinə də tərcümə edilmişdir. Babur Şahın bu əsəri daha sonralar ingilislər tərəfindən tərcümə edilərək nəşr edilmişdir. Bundan başqa onun bir əruz risaləsi, "Mübin" və ya "Mübəyyən" adlı mənzum bir fiqh əsəri də mıvcuddur.

Hindistanda böyük bir imperatorluq qurmuş olan böyük dövlət adamı və Böyük Türk olan Babur Şah, 26 dekabr 1530-cu ildə Aqra şəhərində vəfat etmişdir. Onun cənazəsi Kabil şəhərinə aparılmış, orada şəhər kənarında inşa edilmiş olan böyük bir türbədə torpağa tapşırılmışdır. Babur Şahın qurmuş olduğu dövlət, 1858-ci ilə qədər, yəni ingilislərin Hindistanı zəbt etməsinə qədər yaşamışdır.

## ƏKBƏR ŞAH
### *1542 - 1605*

Əkbər Şah, Hindistanda qurulmuş olan Türk-Monqol İmperatorluğunun ən böyük və ən güclü hökmdarıdır. Bu Böyük Türk, 1542-ci ildə dünyaya gəlib. Hindistanı fəth edərək, bir türk imperatorluğu quran Babur Şahın nəvəsidir. Atası, Humayun Şahdır və Əkbər Şah on dörd yaşında olarkən atasını itirib. Bundan sonra dövləti uzun bir müddət milliyətcə türk olan vəzir, Bayram Xan idarə etmişdir. Əkbər Şah on dörd yaşında taxta çıxmışdır və hakimiyyəti tam olaraq qırx doqquz il sürmüşdür. İyirmi yaşına qədər dövləti işlərdə daim Bayram Xanla məsləhətləşən Əkbər Şah, iyirmi yaşından sonra onu istefaya göndərərək, həccə yollamışdır. Bundan sonra isə ölkənin tək hökmdarı olmuşdur. Böyük idarəetmə qabiliyyətinə və zəkasına arxalanaraq ölkə içində olan bütün narazılıqları aradan qaldıra bilmişdir. Əkbər Şah bundan sonra güclü dövlət təşkilatı qurdu. 1578-ci ildə Banqal, 1581-ci ildə Kabil, 1587-ci ildə Kəşmir, 1594-cü ildə Qəndəharı ələ keçirərək, bütün Hindistan və Əfqanıstanın tək hakimi olmağı bacardı. İdarəetmə və maliyyə işlərini nizama salaraq dövləti bir az da gücləndirdi.

Əkbər Şah böyük hökmdar olmaqla yanaşı, eyni zamanda dahi mütəfəkir idi. Belə ki, o, buddistlərin dul qadını yandırmaq kimi adətlərini qadağan etmişdir. Bundan sonra isə Hindistanda mövcud olan məzhəblərarası münaqişələri aradan qaldırmaqla məşğul oldu. Onun əsl məqsədi bütün Hindistan əhalisini tək din və məzhəb ətrafında birləşdirmək idi. O, özünün bu düşüncəsinə Tevhidi-İlahi adını vermişdir.





Bu düşüncəsini həyata keçirə bilmək üçün yerli əhalinin də, yəni hindlilərin vətəndaş haqlarını tanıdı və onlara da dövlət məmuru və əsgər olmaq hüququ verdi. Müsəlman türklərlə eyni hüquqlara sahib olduqdan, əsgəri xidmətə alındıqdan sonra, ölkə daxinlindəki bəzi narazılıqlara son qoyula bildi. Əkbər Şah, xalqın dövlət üçün deyil, dövlətin xalq üçün var olma fikrini mənimsədi və onu bütün imperiyası daxilində hər bir vətəndaşa mənimsətdi. Əkbər Şahın apardığı islahatlardan sonra yerli əhali say üstünlüyünə malik olduğundan daha çox əsgər və məmur da onlardan olurdu. Hüquqi bərabərlik dövlət tərəfindən tanındıqdan sonra azlığın çoxluq üzərində hakimiyyəti də ortadan qalxmış oldu.

Böyük Türk olan Əkbər Şah 1603-cü ildə xəstələndi və bir müddət sonra danışa bilmədi. Əkbər Şahın xəstəliyi tam iki il çəkdi və o, 1605-ci ildə vəfat etdi. Ölümündən əvvəl özü üçün türbə inşa etdirirdi, ancaq piramida şəklində olan Əkbər Şahın türbəsinin tikintisini oğlu Cahangir tamamladı. Bundan sonra isə Əkbər Şah öz türbəsinə dəfn edildi. Əkbər Şah əlli ilə yaxın bir müddət ərzində hakimiyyətdə oldu və bu müddət ərzində Hindistanda öz zamanın çox güclü bir dövlətini qura bilmişdi. Onun yürütdüyü siyasət nəticəsində Hindistanda olan qarşıdurmalar dayanmış, ölkə insanları arasında sülh təmin olunmuş və məzhəb müharibələrinə son qoyulmuşdu. Məhz onun yürütdüyü sosial siyasət nəticəsində yerli hindlilərlə türklər arasında olan narazılıqlar ortadan qaldırıldı və o, ilk dəfə olaraq yerli hindlilərin məmur və əsgər olmaq hüquqlarının dövlət tərəfindən tanınmasına nail oldu. Əkbər Şah eyni zamanda elm və sənəti daim qorumuş və himayə etmş bir hökmdar kimi də tarixə düşmüşdür.

## CAHAN ŞAH
***1592 - 1666***

Teymurilər nəslinə mənsub ola böyük hökmdar. Atası, Səlim şah, babası isə məşhur Əkbər şahdır. Hindistan qurulmuş olan Türk İmperiyasının beşinci hökmdarıdır. 1592-ci ildə Lahorda anadan olub. Hərçənd ki, bəzi mənbələr onun 1591-ci ildə, bəziləri isə 1593-cü ildə anadan olduğunu yazmaqdadırlar. O, sarayda gözəl bir təhsil almışdır. Belə ki, zamanının ön böyük alimlərindən dərs alan Cahan Şah, eyni zamanda ədəbiyyat və musiqi təhsili də yüksək səviyyədə olmuşdur.

Gənc yaşlarından etibarən dövlət işləri ilə məşğul olmağa başlamışdır. Belə ki, o, Deqqan və Qucaratda uzun müddət valilik etmişdir. Valiliyi dönəmində hər iki şəhərdə öz zövqünə uyğun binalar inşa etdirərək, hər iki şəhəri gözəlləşdirmişdir. Günümüzdə də bu tikililəri seyr etmək üçün dünyanın hər yerindən turistlər Hindistana gəlməkdədirlər.

Bir ara böyük qardaşı olan Xosrov xana görə atasına qarşı çıxmışdır. Onun hakimiyyət illəri Hindistandakı Türk hakimiyyətinin ən parlaq dövrünü əhatə edir. Əsgərlərinin çoxluğuna və xalqın onun tərəfində olmasına baxmayaraq atası döyüşdə məğlub olmuşdur. Bu zaman isə zamanın böyük alimlərindən olan İmam Rəbbani, ata ilə oğulun arasına girərək onları barışdırmışdır.

1628-ci ildə atası vəfat etdikdən sonra onun yerinə Aqra şəhərində taxta çıxmışdır. Buna qədər isə dövlət işlərində topladığı təcrübə sahəsində qısa zaman ərzində xalq tərəfindən çox sevildi. Bundan sonra imperiyanı gücləndirmək və qonşu dövlətlərin itaətsizliyini aradan qaldırmaq məqsədilə Özbək





Türkləri üzərinə yürüşə keçdi. Özbəkləri Əfqanıstandan çıxardıqdan sonra yenidən ölkəsinə qayıtmış və Hindistanın cənubunda yerləşən Nizam-Şah Dövləti üzərinə getdi. İki tərəf arasında 1631-ci ildə baş verən müharibədə Cahan Şahın ordusu qalib gəldi və Nizam-Şah Dövləti Teymuroğullarının hakimiyyətini tanımağa məcbur oldu. 1633-cü ildə isə Nizam-Şah Dövlətinin ərazilərini tamamilə öz torpaqlarına qatdı. Bununla da ona miras qalmış olan imperiyanın sərhədlərini cənubi Hindistana qədər uzatmış oldu. Cənubi Hindistanda Nizam-Şah Dövlətindən başqa türk krallıqları da var idi. Bunlar şiə məzhəb Qübt-Şah və Adil -Şah dövlətləri idilər. Cahan Şah, Nizam-Şah dövləti ilə işlərini yekunlaşdırdıqdan sonra əvvəlcə Qütb-Şah, daha sonra isə Adil-Şah dövləti üzərinə yürüş etmişdir. Hər iki dövləti məğlub edən Cahan Şah, onları da öz imperiyasının tərkibinə qatmışdır.

1637-ci ildə Tibet üzərinə səfərə çıxan Cahan Şah, buranı da ələ keçirərək, ölkəsinin sərhədlərini şərqə doğru genişləndirdi. Ancaq qərbdə Cahan Şah üçün böyük təhlükə var idi. Bu təhlükənin adı, Azərbaycan Səfəvi Dövləti idi. Bu arada Səfəvilər Qəndəhar üzərinə hücum etmiş və onların olan bu şəhəri yenidən ala bilmişdilər. Bundan sonra Cahan Şah, Səfəvilərlə müharibə etmək məcburiyyətində qalmışdır. Səfəviləri məğlub etməyi bacaran Cahan Şah, Qəndəharı geri qaytarmaqla yanaşı, eyni zamanda qərbdə dövlətinin sarsılmış nüfuzunu yenidən bərpa edə bilmişdir.

1639-cu ildə Cahan Şah, Kabilə gəldi. Onun buraya gəlişinin səbəbi isə heç kimə bəlli deyildi. Çünki səfərə qəfil çıxılmış və heç kim məlumatlandırılmamışdı. Cahan Şah buradan bir hücumla Türküstanda mövcud olan türk bəyliklərinin hamısını məğlub edə bilərdi. Fəqət o, ikinci dəfə eyni soydan olan özbəklər üzərinə getməmiş və gəldiyi kimi də qəfil geri - paytaxtı Aqraya dönmüşdür.

Ancaq 1647-ci ildə Özbəklər, ani bir hücumla Bəlx şəhərini geri aldılar. Bunun ardınca isə Səfəvilər Qəndəhar üzərinə yürüdülər. Bundan sonra Cahan Şah, Kabilə gəldi və buradan yüz on minlik bir ordu ilə 1652-ci ildə Səfəvilərin üzərinə yürüş etdi. O, Səfəvilərlə döyüşdə qalib gəlsə də, Qəndəharı geri ala bilmədi.

Belə bir dönəmdə Hindistanın cənubunda Qütb-Şah dövləti ərazisində yenidən qarışıqlıqlar baş qaldırmışdı. Cahan Şahla bu dövlət arasında müharibə iki il sürdü. Cahan Şah onları məğlub edə bilsə də müstəqilliklərinə toxunmamışdır.

Ümumiyyətlə isə tarix ərzində çoxlu sayda böyük türk dövlətləri olsa da, bu dövlətlər birlikdə Çin, Avropa, İran, Rusiya kimi ortaq düşmənlərlə döyüşməkdənsə bir-birilə mübarizə aparıblar. Halbuki türk türkə qılınc qaldırmsaydı kim bilir dünyanın mənzərəsi indi necə olardı??

Təqvimlər 1657-ci ili göstərirdi. Cahan Şah qrtıq həm qocalmış, həm də xəstələnmişdi. Ordusu ilə burlikdə müharibələrdə iştirak edə bilmir, hətta ordusunn məğlub etdiyi düşmənlərini bağışlayırdı. Belə bir vəziyyətdə onun oğulları arasında hakimiyyət uğrunda mübarizə başlamışdır. 1657-ci ildə taxt uğrunda gedən mübarizələrdə Cahan Şahın, Ələmdar Mirzə adlı oğlu digər qardaşlarına qalib gəldi. O, atası ilə mübarizədən də qalib çıxaraq 1658-ci ildə özünü sultan elan etdi. Cahan Şah isə bundan sonrakı həyatını Aqrada ev həbsində keçirmişdir.

Onun ev dustağı olarkən yaşadığı dönəm çox acınacaqlı keçmişdir. Belə ki, o, burada bütün gününü həddən artıq çox sevdiyi xanımının şərəfinə inşa etdirdiyi Tac Mahala baxaraq keçirirmiş. Yeddi illik ev dustaqlığından sonra Böyük türk olan Cahan Şah, nəhayət 1666-cı ildə vəfat etmişdir. Onun nəşi, sevimli xanımının yanında Tac Mahalda torpağa tapşırılmışdır.

Cahan Şahın hakimiyyət illəri qərbdə daha bir türk dövləti olan Osmanlının da qüdrətli dövrünə təsadüf etməkdədir. Belə





ki, Osmanlı sultanları daim bu türk imperatoru ilə əlaqə saxlamış və daim ona yardımlar etmişlər. Bunun digər səbəbi isə hər iki dövlətin ortaq Səfəvi düşmənçiliyi idi. Belə ki, Cahan Şah, sevimli xanımı olan və Mümtazmahal adı ilə məşhur olan Badişah-Bəyimin şərəfinə inşa etdirdiyi Tac Mahal türbəsinin inşası zamanı Osmanlı dövlətinə müraciət etmiş və ən mükəmməl ustaların ona göndərilməsini istəmişdir. Osmanlı Dövləti də onun xahişinə əmələ edərək zamanın ən yaxşı sənətkalarını Cahan Şahın xidmətinə göndrəmişdir. Deyilənlərə görə Tac Mahal türbəsi əlli milyon qızıla inşa edilib. Günümüzdə də türk sənətkalığının bu şah əsəri, bütün dünyadan insanların diqqətini öz üzərinə çəkməkdədir. Belə ki, hər il minlərlə insan Hindistana gələrək bu sevgi abidəsini ziyarət etməkdədir. Cahan Şah, bu abidə ilə türk sənətkarlığını da ölümsüzləşdirmişdir.

Bundan başqa Cahan Şah, eyni zamanda elmə böyük sevgisi olan hökmdar olmuşdur. Onun zamanında Aqrada çoxlu sayda alim, sənətkar, şair və filosoflar mövcud olmuşdur. Ümumiyyətlə isə onun hakimiyyət illəri Çin sərhəddindən Orta Avropaya qədər olan böyük bir ərazinin Türk Millətinin hakimiyyəti altında olduğu bəxtəvər illərdir.

Bu Böyük Türk haqda olan yazının sonunda onunla bağlı bir maraqlı hadisəni də sizlərin diqqətinə çatdırmaq yerinə düşərdi. Belə ki, Cahan Şahın vəziri milliyyətcə hindli olan Mirbal, onun həm də ailə dostu olmuşdur. Mirbal hətta Cahan Şahla, Mümtazmahalın ailə söhbətlərində də iştirak edirmiş. Belə günlərin birində sözü gedən bu üç nəfər yeni inşa ediləcək olan yolun müzakirəsini edirlər. Bu zaman isə ona dəstək verməsi üçün vəzir Mirbal, Mümtazmahala göz vuraraq işarə edir. Onun Mümtazmahala göz vurduğunu görən Cahan Şahın hirs beyninə vurur. Belə vəziyyətdə bütün kişilərin başından nələrin keçəcəyi isə yəqin ki, hamıya bəllidir. Mirbal bu

hərəkətdən sonra onu edam cəzasının gözlədiyini dərhal anlayır. Sizcə bu zaman o, nə etsə yaxşıdır?

Çoxdan oxduğumuz, təəssüf ki, adını unutduğumuz kitabdan bir cümlə Mirbalın, şahın xanımına göz vurduqdan sonra etdiyi hərəkətinə bəraət qazandırır. Həmin cümlə isə belə idi: "İnsan beni hər şeyə qadirdir". Belə ki, şahın onu gördüyünü bilən Mirbal, bir daha Mümazmahala baxaraq yenə göz vurur. Və bu hərəkəti Cahan Şaha baxaraq da təkrar edir. Bundan sonra Cahan Şah həm vəziri, həm də dostu olan Mirbal haqda edam cəzası düşündüyünə görə özünü ürəyində danlayır. Bu hadisədən sonra Mirbal nə vaxt Cahan Şahın yanında olarmışsa beləcə göz vurarmış. Cahan Şah da ömrünün sonuna qədər sevimli vəziri Mirbalın gözünün qıpıq olduğunu düşünüb.





## MƏXDUMQULU FƏRAQİ
### *1730 - 1780*

Hər bir xalqın düşüncə tərzi, təfəkkür səviyyəsi, tarixi dəyəri onun sözü ilə ölçülür. XVIII əsrdə bütün digər türk xalqları kimi türkmən xalqı da özünün qaranlıq dünyasında yaşamaqda idi. Sözü gedn dövrə qədər zamanın əksər böyük fatehləri də dünyanın məhz bu bölgəsindən çıxmışdı. Bu səbəbdən də bölgə, demək olar ki, tarixin bütün dönəmlərində bir növ savaş meydanını xatırlatmışdır. Bunun üzərinə ölkədaxili çəkişmələri və müharibələri də gəlmiş olsaq, onda yaranmış olan mənzərənin nə qədər acınacaqlı olması bir az da aydınlaşar. Belə ki, belə bir bölgənin sakinləri də dünyanın ən çox əziyyət çəkən sakinlərinə çevrilmiş olurlar. Bəzən illər uzun və acınacaqlı elə uzun çəkir ki, bu dövr, hər hansı bir xalqın etnogenetik fondunda heç bir iz qoymadan keçib gedir.

Adətən böyük insanlar dediyimiz insanlar da həmişə qaranlıq cəmiyyətlərdə ortaya çıxır. XVIII əsrin böyük fikir adamı, bütün Türk Dünyasının fəxri hesab edilən Məxdumqulu Fəraqi də məhz belə bir ağır dönəmdə Türkmənistanda dünyaya gəlmiş və burada yaşayıb-yaratmışdır. Günümüzdə Məxdumqulu, Türkmən ədəbiyyatının banisi və yaradıcısı, bi növ "ata"sı hesab edilməkdədir. Bununla da o, özündən sonrakı bütün türkmən şair və yazarları üçün ədəbi məktəb rolunu oynamışdır.

Təəssüflər olsun ki, bu, böyük türkmən şairinin doğum və ölüm tarixləri tam olaraq dəqiqləşdirilməmişdir. Ancaq, bilinən odur ki, Məxdumqulu 1720-ci illərin axırında, ya da 1730-cu ulların əvvəllərində Türkmənistanın Qara-Qala rayonunda

dünyaya gəlmişdir. Dəyərli alim və professorumuz P.Xəlilov "SSRİ xalqları ədəbiyyatı" əsərində Məxdumqulunun döğum və ölüm tarixlərini 1730-1780 kimi göstərməkdədir. Biz də ona əsaslanaraq bu, Böyük Türkün doğum və ölüm tarixlərini onun göstərdiyi kimi götürdük. Məxdumqulunun atası, Dövlətməmməd Azadidir. Bu şəxs də öz növbəsində şair olmuşdur. Onun "Behiştnamə" və "Vəzi Azadi" adlı poemalarının olması məlumdur. Ancaq Azadinin şair olaraq üslubu və dili ağır və çətin olduğundan o qədər də məşhurlaşa bilməmişdir.

Məxdumqulu ilk təhsilini də məhz atasından alır və şəxsiyyət kimi onun təsiri altında formalaşır. Daha sonrakı təhsilini isə o, bütün Orta Asiya sakinləri kimi mədrəsədə almışdır. Məhz mədrəsə təhsili onun şerlərinə müəyyən mənada öz təsirini göstərmişdir. Belə ki, Məxdumqulunun sufi şerləri mədrəsənin ona təsiri ilə izah oluna bilər. Yüksək istedada malik olan Məxdumqulu, ibtidai sinfi vaxtından tez bitirərək, atasının işlərinə yardım etməyə başlamışdır. Daha sonra isə gümüş düzəltmək sənətinə yiyələnmişdir. Məxdumqulu daha sonrakı təhsilini Kərki və Buxara şəhərlərində davam etdirərək, Xivə şəhərinin Şirqazi mədrəsəsində başa vurmuşdur. Onu da qeyd edək ki, Məxdumqulu əslən, köklən tayfasındandır.

Şairin yaradıcılığına və dünyagörüşünə taleyinin acınacaqlı hadisələri də öz təsirini göstərmişdir. Belə ki, şairin sevdiyi qız olan Mənqlinin atası, qızını Məxdumquluya verməkdən imtina etmiş və qızını daha varli bir insana ərə vermişdir. Mənbələrin bildirdiyinə görə şair bir müddət sonra Ağ-Qız adlı dul bir qadınla ailə həyatı qurmuş və bu izdivacdan onların iki oğlu dünyaya gəlmişdir. Ancaq onun hər iki oğlu hələ uşaq yaşlarında dünyadan köçmüşlər. Bundan başqa Məxdumqulu şerlərində itirdiyi qardaşlarını yad edir və daim onları anır. Tarixi mənbələrdən o da məlum olur ki, Nadir şahın Orta Asiyaya yürüşü zamanı Məxdumqulu da əsir düşmüşdür. Bütün bu kimi





acı, iztirablarla dolu olan olaylar, şairin "Fəraqi" təxəllüsünü götürməsinə səbəb olmuşdur.

Şairin təxəllüsü ilə bağlı prof. Xəlilov, yenə "SSRİ xalqlarının ədəbiyyatı" əsərində doğru olaraq belə deməkdədir: "Dinclik, rahatlıq, birlik istəyən şair müharibələr, çəkişmələr, basqınlar selinə düşüb eldən, qohum-əqrabadan ayrılmış və bu dözülməz dərddən fəraq etmişdir. Atasını, iki qardaşını itirməsi, övladlarının vaxtsız ölümü, sonralar özünün qocalıq əzabı şairi kövrəldib fəraqa salmışdır".

Şairin əsərlərinin bir hissəsi itmişdir. Bunun əsas səbəbi isə onun qohumlarının və yaxın adamlarının qızılbaşlara əsir düşmələridir. Belə ki, şairin əsir düşmüş qohumları çaydan keçərkən qorxudan şairin şerlərinin bir hissəsini çaya atıblar. Bu kimi səbəblərdən dolayıdır ki, şairin dərc olunmuş şerlərinin çoxunun adını Məxdumqulu özü yox, onun şerlərini nəşr etdirən müəlliflər qoymuşdur. Məxdumqulunun külliyatının ümumi həcmi 10000 misradan çoxdur. Buraya onun şerləri, lirik və lirik-epik poemaları daxil edilmişdir.

Məxdumqulunun yazmış olduğu şerlər daim sadə xalq tərəfindən sevilmiş və nəsildən-nəslə ötürülərək günümüzə qədər gəlib çatmışdır. Onun şerlərinin bu qədər sevilməsinin bir səbəbi də öz yaradıcılığında Məxdumqulunun ərəbizm və farsizmdən qətiyyətlə imtina etməsidir. Beləliklə də xalqının danışdığı sadə türkmən dilində yazıb-yaradan Məxdumqulu, bir növ əfsanəyə çevrilmişdir. Onun misralarının bir qismi isə atalar sözləri və hikmətli kəlamlara çevrilmişdir.

Məxdumqulu Fəraqi dövrünün səyyahlarının sonradan yazmış olduğuna görə öz həyatında həddən artıq baş verən bədbəxt hadisələrə dözə bilməmiş və təxminən 1780-ci illərdə vəfat etmişdir. Böyük Türk olan Məxdumqulu, Şimali Xorasanın Ağ Toğay ərazisində atası, Dövlətməmməd Azadinin məzarının yanında dəfn edilmişdir. Günümüzdə bu qoşa qəbir xalq üçün ibadət və ziyarətgah yerinə çevrilmişdir.

Məxdumqulu yaradıcılığı keçmiş SSRİ ərazində olduğu kimi Avropada da məşhurdur. Onun şerləri Almaniya və Macarıstan kimi ölkələrdə nəşr edilmiş və dünyanın bir çox dillərinə tərcümə edilmişdir. Təsadüfi deyildir ki, macar alimi A.Vemberiyə görə Məxdumqulu türkmənlər üçün dünyanın bütün kitablarını oxumuş, bütün elmləri öyrənmiş və əhatəli dünyagörüşünə sahib olan bir sehrbazdır. Onun kitabları hələ uzun müddət türkmənlərdə "Quran"dan sonra birinci yeri tutacaqdır.





## ABAY KUNANBAYEV
***1845 - 1904***

> ***"Pis dost kölgə kimidir. Əgər başına dövlət quşu qonubsa, ondan qaçıb qurtara bilməzsən, yox əgər başına fəlakət gələrsə, axtarıb tapa bilməzsən".***
>
> **Abay Kunanbayev**

Müasir Qazax ədəbiyyatınnın banilərindən və böyük qazax yazıçısı. Abay Kunanbayevin yeri nəinki qazax ədəbiyyatında, eyni zamanda bütün Orta Asiya ədəbiyyatında çox özəldir. Abay ilk təhsilini özəl müəllimlərdən almışdır. Daha sonra isə mədrəsə təhsili almışdır. Eyni zamanda Osmanlı, ərəb, fars və rus ədəbiyyatı ilə yaxından tanış olmuşdur. Mükəmməl təhsilindən və savadından dolayı, tezliklə xalq arasında sevilməyə başlamışdır. O, Qazax Türklərinin həyatından lirik və satirik şerlərlə ədəbiyyat aləminə daxil olur. Abay, daim qazaxları köçəri həyatı buraxıb, oturaq həyata keçməyə və yeni məskənlər salmağa səsləmişdir. Onun yazmış olduğu şerlər bozqır çöllərində sadə əhali tərəfindən də əzbər bilinib. Təsadüfi deyildir ki, Qazax Türklərinin digər böyük yazıçılarından olan Muxtar Auezov, (1897-1961) yazmış olduğu dörd cildlik əsərininin adını "Abay yolu" qoymuşdur. Sözü gedən romanda M.Auezov, Abayın Qazax Türkləri üçün etmək istədiklərini, Qazax türklərinin mədəniyyətə və inkişafa necə çata

biləcəklərini yazmışdır. O, Abayın qazaxlar üçün onların yollarına işıq salan bir rəhbər olduğunu bildirməkdədir. Auezov, Qazax gəncliyinin məhz Abayın yolu ilə getməsini məsləhət görür.

Məşhur qırğız yazıçısı olan Çingiz Aytmatov isə Abayı, Höte və Tolstoyla müqayisə etmişdir. Özəlliklə Qazax ədəbiyyatında yeni bir yol açması ilə yanaşı, Kunanbayev dünya mədəniyyətinə də öz töhfəsini vermişdir. Təsadüfi deyildir ki, 1995-ci il UNESCO tərəfindən "Abay ili" elan edilmişdir.

Abay Kunanbayevin irsini araşdıran araşdırmaçılar onun həm mənzum, həm də nəsr şəklində yazdığı əsərlərində Qazax Mədəniyyətini bütünlüklə ortaya qoya bilməsində həmfikirdirlər. Onun tərbiyə alıb, böyüyüb boya-başa çatdığı ailəyə baxdığımız zaman bunun bir təsadüf olmadığı ortaya çıxmaqdadır. Abayın atası Kunanbay Öskənbayoğlu Qazax Türklərinin Arqun boyundandır. Kunanbayın dörd xanımı olmuşdur. Birinci xanımından Xudaverdi, ikinci xanımı Ulcandan Tanrıverdi, İbrahim (Abay), İshaq və Osman, üçüncü xanımı olan Ayqızdan Xəlilullah və İsmayıl adlı övladları dünyaya gəlmişdir. Kunanbayın dördüncü xanımı olan Nurxanımdan övladı olmamışdır.

Abay, 22 avqust 1845-ci ildə dünyaya gəlmişdir. Onun tərbiyəsi ilə anası Ulcan və nənəsi məşğul olmuşdur. Abayın babası olan Öskenbay ağıllı və ədalətli Qazax bəylərindən olub. Öskenbay orta yaş dövrünə çatdıqdan sonra bəylik səlahiyyətlərini ikinci övladı olan Kunanbaya vermişdir. Babası 1850-ci ildə vəfat etdiyi zaman Abay hələ uşaq olub. İlk təhsilini və dini mədrəsədə təhsil aldığı zamanlarda dair şərqin klassik şairləri olan Sədi, Füzuli, Nizami və Nəvainin əsərləri ilə də tanış olmuşdur. Ancaq onun ədəbiyyatla məşğul olması uzun çəkməmişdir. Belə ki, atası Kunanbay, Abayı öz işlərinə kömək etmək üçün yanına çağırır. Beləliklə də, o, hələ on üç yaşından





etibarən Qazax Türklərinin idarə edilməsində iştirak etməyə başlamışdır.

Bu vəsilə o, qazax ağsaqqalları və ozanları tanış olmaq, onların söhbətlərində iştirak etmək fürsəti əldə etmiş olur. Qazaxıstandan çölə çıxmayan Abay, oxuduğu kitablar vasitəsilə bütün dünyadan xəbərdar ola bilmiş, dünya xalqlarının ədəbiyyatı, tarixi və mədəniyyəti ilə tanış olmuşdur. Dünya mədəniyyəti ilə tanış olan Abay, Çar Rusiyasının Qazax Türklərinə necə zülm etdiyini, onların haqq və hüquqlarını necə tapdağını çox asanlıqla dərk etmişdir. Xalqının məruz qaldığı haqsızlıqları ortadan qaldıra bilmək üçün Abay, yerli seçkilərdə öz namizədliyini vermişdir. Seçkilərdən uğurla çıxan Abay, rayon bələdiyyəsinin rəhbəri seçilir. Bundan sonra isə bələdiyyə məclisinin Qazax adət-ənənələrinə uyğun qərarların verilməsinə çalışmışdır. Bu vəziyyət, bizə Abay Kunanbayevin sadəcə bir fikir adamı və yazıçı deyil, eyni zamanda xalqını sevən, onun adət-ənənəlrini dərindən bilən və hörmət edən bir dövlət adamı olmasını sübut etməkdədir.

Abay Kunanbayev 23 iyul 1904-cü ildə vəfat etmişdir. Məzarı Qazaxıstanda öz adını daşıyan rayondadır.

Abay Kunanbayevin özünün yazmış olduğu şerlər, rus şairlərindən tərcümə etdiyi əsərlər oxuculara üç yolla çardırılmışdır. Birincisi mətbuat vasitəsilə, ikincisi xalq dilindən, üçüncüsü isə bir-birindən üzü köçürülərək. Abayın şerləri cəm halda ilk dəfə ölümündən sonra, yəni 1909-cu ildə nəşr edilmişdir. Bundan sonra onun bu şer kitabı təkrar-təkrar nəşr edilərək günümüzə qədər gəlib çatmışdır. Onun əsərləri hazırda iki cild halında çap edilməkdədir. Burada onun həm öz yazdığı iki yüzdən çox şeri və eyni zamanda tərcümə etdiyi şerlər yer almaqdadır.

Kunanbayev öz şerlərində fəlsəfi düşüncələrini, dünyagörüşünü də sadə və təsirli şəkildə ortaya qoymuşdur. Onun fikirlərindən bəzilərini sizlərlə də bölüşmək istərdik:

"İnsanın insanlığı ağıl, elm, yaxşı ata, yaxşı ana, yaxşı dost və gözəl müəllim sayəsində meydana gəlir".

"Bir insan digərindən yalnız ağıl, elm, namus və xarakteri ilə üstün ola bilər".

"Pis dost kölgə kimidir. Əgər başına dövlət quşu qonubsa, ondan qaçıb qurtara bilməzsən, yox əgər başına fəlakət gələrsə, axtarıb tapa bilməzsən".

"Mal tükənir, sənət tükənməz".

Böyük Türk olan Abay Kunanbayev haqda yazının sonuna gəldikdən sonra onu söyləyə bilərik ki, Abay öz yaradıcığında , xalqını yaxşılığa, gözəlliyə və inkişafa dəvət etmişdir. Bunu edərkən də söz sənətinin incəliklərindən böyük məharətlə istifadə edə bilmişdir. Bununla da Abay Kunanbayev, şifahi hissəsi çox zəngin olan Qazax ədəbiyyatının, yazılı tərəfinin də yaranmasına və inkişafına öz təhfəsini vermişdir.





## YUSİF AKÇURA
### *1876 - 1935*

Yusif Akçura, Türkçülük ideologiyasının yaradıcılarından və öndə gedənlərindən olan Tatar yazıçı və siyasət adamı. Yusif Akçura, 2 dekabr 1876-cı ildə Moskvanın şərqində yerləşən Ulyanovskda (Simbirsk) anadan olmuşdur. Türk Tarix Cəmiyyətinin qurucusu və üzvüdür. Onun 1904-cü ildə nəşr etdirmiş olduğu "Üç tərzli siyasət" adlı silsilə yazıları türkçülüyün ana kitabı hesab edilir. Türkiyə Böyük Millət Məclisinə keçirilən ikinci seçimlərdə 1935-ci ildə Qarsdan millət vəkili seçilmişdir.

Akçuranın Türkçülük ideologiyasındakı yeri, onun müasiri olan Ziya Göyalpın kölgəsi altında qalsa da, Mustafa Kamal Atatürkün yaxın dostu olaraq Akçura, Türkiyə Cümhuriyyəti üçün bir çox mühüm işlər görmüşdür. Bu Böyük Türkün idologiyası, türkçülük, milliyyətçilik düşüncələri Sovet İttifaqının dağılmasından sonra tərkibindəki türk dövlətlərinin müstəqillik qazanmasında mühüm rol oynamışdır.

Akçuranın ailəsi Kazana köç etmiş olan Krım Türklərindən aristokrat bir ailə olmuşdur. Atası, fabrik sahibi Həsən bəy, anası Yunusoğullarından Bibi Qəmər Banu xanımdır. Yusif Akçuranın iki yaşı olarkən atası vəfat etmişdir. Yeddi yaşına çatmamış, anası ilə birlikdə İstanbula köç ediblər. Onun anası İstanbulda dağıstanlı Osman bəylə ikinci dəfə ailə həyatı qurmuşdur. Osman bəy, Yusifin təhsili ilə yaxından maraqlanmış və onun hərbçi olmasını istəmişdir.

Bundan dolayıdır ki, atalığının təsiri altında Yusif Akçura, Quleli hərbi məktəbinə daxil olmuşdur. Buranı bitirdikdən sonra isə ali hərbi məktəbə daxil olmuşdur. Ali hərbi məktəbindəki

təhsil illərində Nəcib Asim Yazıksızın, Vələd Çələbinin, Bursalı Tahir bəyin türkçülüyə dair ola yazılarının təsiri altına düşmüşdür. Bütün bu yazılarla o, İsmayıl Qaspıralının, Baxçasarayda nəşr etdirdiyi və bir müddət də İstanbulda yayımlanan "Tərcüman" qəzetində nəşr edilirdi. 1897-ci ildə çap olunan "Şəhabəddin Həzrət" adlı yazısı "Məlumat" jurnalında işıq üzü görmüşdür. O, bu yazısı ilə Osmanlı türklərinə Rusiyada yaşayan türkləri tanıtmaq istəmişdir.

Hərbi məktəbin ikinci kursinda oxuduğu zaman türkçülərlə olan əlaqəsindən dolayı, qırx beş günlük həbs cəza almışdır. Hərbi məktəbdən ayrıldıqdan sonra isə yenə də hərbi məhkəmə tərəfindən Fizana sürgün edilmişdir. Onunla birlikdə eyni cəza daha 83 insana verilmişdir. Bir müddət sonra isə İttihad və Tərəqqi partiyasının hökumətə etdiyi təzyiqləri nəticəsində azad edilərək sərbəst gəzməsinə icazə verilmişdir. Müvəqqəti də olsa azadlığa çıxdıqdan sonra onunla birlikdə sürgün edilmiş olan Əhməd Fərid bəylə birlikdə Fransaya qaçmağa müvəffəq oldu.

Yusif Akçura Parisdə Siyasi Elmlər məktəbində təhsil almışdır. Türkçülüklə bağlı fikirləri də məhz bu illərdə formalaşmışdır. Burada o, "Osmanlı Dövlət qurumlarının araşdırılması" adlı diplom işini müdafiə etmiş və məktəbi üçüncülüklə bitirmişdir.

İstanbula gəlməsi üçün icazə olmadığından məcburən 1903-cü ildə Kazana, əmisinin yanına getmişdir. Yusif Akçura Kazanda dörd il yaşamışdır. O, Kazanda, tarix, coğrafiya və Osmanlı Türk ədəbiyyatı fənlərindən dərslər vermişdir. Bu arada isə Əhməd Rzanın sahibi olduğu "Şurayi Ümmət" və "Məşvərət" qəzetlərində məqalələrini imza göstərmədən nəşr etdirmişdir.

Kazanda yaşadığı dönəmdə onu bütün Türk Dünyasına məşhurlaşdıran silsilə yazıları olan "Üç tərzli siyasət" 1904-cü





ildə Misirin paytaxtı Qahirə şəhərində çıxan "Türk" qəzetində çap edilmişdir. Yusif Akçura, bu 32 səhifəlik yazısında Osmanlı İmperiyasının yenidən güclənib, böyük dövlətə çevrilə bilməsinin yollarını araşdırmışdır. Bunun üçün o, məhz Türkçülüyün, yəni milliyyətçilik üzərində qurulacaq olan yeni rejimi çıxış yolu kimi göstərmişdir. Digər iki yol isə osmanlıçılıq və İslamçılıqdır. Ancaq Yusif Akçura, türkçülüyə daha böyük önəm vermişdir.

Akçura, İatanbula qayıtmış olduğu 1908-ci ilə qədər Kazanda siyasi və mədəni fəaliyyətlərini davam etdirmişdir. Türkçülük ideologiyasını inkişaf etdirmək məqsədilə Akçura, "Kazan müxbiri" adlı qəzet nəşr etdirmişdir. Yusif Akçura, eyni zamanda, Qaspıralı İsmayı bəy, Əlimərdan bəy kimi türkçülərlə birlikdə 1905-ci ildə "Rusiya Müsəlmaları İttifaqı" adlı böyük bir partiyanın yaranmasında yaxından iştirak etmişdir. Bu böyük insanların yaratmış olduqları məhz bu partiya sayəsində bütün Rusiya türkləri tarixində ilk dəfə Çar Rusiyasının məclisi olan Dumaya təmsilçi göndərə bilmişlər. Dumaya keçirilən seçkilər sona çatana qədər isə Yusif Akçura həbsdə saxlanılmışdır.

Rusiyadakı Dumanın ömrü uzun olmamış və 1907-ci ildə buraxılmışdır. Bu dəfə isə qəbul edilmiş qanunlar, rus olmayanların əleyhinə dönmüşdür. Belə bir vəziyyətdə bir çox insanlar kimi Yusif Akçura haqqında da axtarış əmri verilmişdir. Bundan sonra Akçura, hər şeyi buraxıb 1908-ci ilin oktyabr ayında İstanbula gəlmişdir.

İstanbula gələn Akçura, burada mülkiyə məktəbində müəllimlik edərək tarix dərsləri vermişdir. O, çoxlu sayda insanın israrına baxmayaraq İttihad və Tərəqqi partiyasına daxil olmamışdır. 25 dekabr 1908-ci ildə qurulan Türk Dərnəyinin yaradılmasında yaxından iştirak etmiş və bu dərnəyin üzvü olmuşdur. Sözü gedən dərnək, Türk Milliyyətçiliyi əsasında qurulmuş olan ilk dərnəkdir. Ancaq dərnəyin ömrü qısa olmuşdur

və onun yerinə 18 avqust 1911-ci ildə Türk Yurdu Dərnəyi qurulmuşdur. Yusif Akçura ilə yanaşı, yeni qurulan dərnəkdə Əhməd Ağoğlu və Əli bəy Hüseynzadə kimi insanlar da yer almışdır. Bundan sonra isə dərnəyin nəşr etdirdiyi "Türk Yurdu" jurnalının nəşrinə tam 17 il rəhbərlik etmişdir.

Yusif Akçura 1919-cu ildə Əhməd Fəridin qurmuş olduğu siyasi partiya olan Milli Türk Partiyasına daxil olmuşdur. Akçura, eyni ilin sonunda ingilislər tərəfindən həbsə atılmışdır. 1920-ci ildə həbsxanadan çıxan Yusif Akçura, Əhməd Fərid bəyin həyat yoldaşı Müfidə Fəridin bacısı Səlma xanımla ailə həyatı qurmuşdur. Bundan sonra ilə milli mübarizəyə qatılmaq üçün Anadolu bölgəsinə ketmişdir. 1923-cü ildə isə məclisə seçildi.

1925-ci ildə Ankara hüquq məktəbində siyasi tarix dərsləri keçməklə yanaşı, eyni zamanda, Yusif Akçura, Mustafa Kamal Atatürkün mədəniyyət və siyasət işləri üzrə yardımçısı vəzifəsində çalışmışdır. 1931-ci ildə isə Atatürk tərəfindən yaradılmış olan Türk Tarix Komitəsinin qurulmasında iştirak etmiş, bir il sonra isə komitənin rəhbərli olmuşdur. 1933-cü ildə Türkiyədəki universitet islahatından sonra siyasi tarix proffessoru olmuşdur.

Böyük Türk olan Yusif Akçura, Qars millət vəkili olarkən 11 mart 1935-ci ildə İstanbulda keçirmiş olduğu infarktan sonra vəfat etmişdir. Bu böyük insanın nəşi Ədirnəqapı şəhid qəbristanlığında dəfn edilmişdir.





## MUXTAR AUEZOV

***1897 - 1961***

Muxtar Auezov müasir Qazaxıstan ədəbiyyatının qurucularından və öncüllərindən biridir. Sovet dönəmində aradan götürülən və ya qaralanan Əlixan Dulat, Əhməd Bəytursun, Mustafa Çokay kimi yazarlarla birlikdə Muxtar Auezov da həyatı boyu Türküstandakı Türk ədəbiyyatının Sovet dönəmində də var olmasına böyük xidmətlər etmişdir. Türküstanda Türk ədəbiyyatı və Türk dili XX əsrdə yaşaya bilibdirsə, bu Muxar Auezov və onun kimi qələm ərlərinin sayəsində mümkün olmuşdur. Düzdür, bu ərlərin bir çoxu bu yolda həyatlarını fəda ediblər. Ancaq Muxtar Auezov o dönəmdə çətin olanı seçərək, həm sağ qalmış, həm də Türküstanda Türk ədəbiyyatının varlığını qoruya bilmişdir. Məhz bu kimi qələm bayraqdarlarının varlığı sayəsində XX əsrin sonunda Türküstanda dünya səviyyəli Oljas Süleymanov və Çingiz Aytmatov kimi yazarlar çıxmışdır.

O, 28 sentyabr 1897-ci ildə Qazaxıstanın Çingiz vilayətində dünyaya gəlmişdir. Muxtar, atasını və anasını tez itirmişdir. Belə ki, onun atası, Ömərxan 1900-cü ildə, anası Nurcamal xanım isə 1912-ci ildə vəfat etmişdir. Bundan sonra Muxtar Auezovun təlim-tərbiyəsi və yetişdirilməsi ilə əmisi Qasımbəy məşğul olmuşdur. Muxtar mədrəsə təhsilini bitirdikdən sonra əmisi onu rus dilli sənət məktəbinə qoymuşdur.

Muxtar Auezov ilk əsərini 17 yaşında yazmışdır. Qədim adətlərə görə Muxtar nisbətən tez ailə qurmuşdur. O, 1917-ci ildə Reyhan xanım adlı 15 yaşlı bir gözəllə evlənmişdir. 1918-ci ildə onların Muhamilya adlı qızları dünyaya gəlir. Bir ildən

sonra isə Muxtarın Çokan adlı bir oğlu da dünyaya gəlmişdir, hansı ki, oğlu dünyadan tez köçmüşdür Muxtar Auezovun ailə həyatı uğurlu olmamışdır. Belə ki, o, xanımı Reyhan xanımla 1920-ci ildə ayrılır. Ayrılıqdan sonra qızını özü ilə götürən, Muxtar bütün həyatı boyu onun normal yaşaya bilməsi üçün əlindən gələn hər şeyi etmişdir.

Bolşevik dalğası Orta Asiyanı və bütün Qafqazı öz azğın dalğaları arasına aldığı zaman, Qazaxıstan da bundan kənarda qala bilmədi. Qazaxıstanda Sovet hakimiyyəti qurulduqdan sonra Muxtar Auezov, bolşevik partiyasının üzvü olmuşdur. Ancaq 1922-ci ilin payızında milliyyətçi baxışlarına və partiyadaxili intizamı pozduğuna görə sözü gedən partiyadan uzaqlaşdırılır. Bu vəziyyət üç il davam edir. Keçən əsrin iyirminci illərində yazdığı "Zavallının həyatı", "Günahkar kimdir" hekayələrində o, Qazax cəmiyyətinin acınacaqlı vəziyyətini, bu cəmiyyətin çəkdiyi mənəvi əzabları çox ustalıqla təsvir edə bilmişdir. Yenə həmin illərdə yazmış olduğu "Oxumuş vətəndaş", "Yetim", "Günahkar gənc", "Sönüb yanmaq" kimi hekayələri vasitəsilə adi Qazax insanın və Qazax gəncliyinin durumunu göstərmişdir.

Auezov ədəbi əsərlər yaratmaqla yanaşı, eyni zamanda həm araşdırmaçı, həm də elm adamı idi. Məhz o, ilk dəfə Abay Kunanbayevin yaradıcılığını araşdırmışdır. Həyatı boyu müəllimlik edən Muxtar Auezov, 1925-ci ildə "Qazax ədəbiyyatı tarixi" adlı elmi əsərini yaratmışdır.

Anaq heç şübhəsiz ki, Auezovun ən böyük əsəri "Abay yolu"dur. Sözü gedən roman bir neçə hissədən ibarətdir. Əsərin birinci hissəsi 1938-1940-cı illər arasında yazılmış və "Telqera" adı altında çap edimişdir. Daha sonra isə əsərin "Oxudan Qayıtqanda" və "Qat-Qabatta" adlı hissələri işıq üzü görmüşdür. İkinci dnya müharibəsinin başlanması ilə əlaqədar bütün Sovet İttifaqında yaşayan yazıçılar bir növ "fasilə" elan





etməli oldular. Müharibədən sonra 1950-ci ildə əsərin "Akın ağa" adlı hissəsi çap edilir. Ancaq əsər sovet rejiminin ciddi tənqidlərinə və təzyiqlərinə tuş gəlir və Auezov əsər üzrində bəzi dəyişikliklər etməyə məcbur olur. Əsərə sonradan türkçülüyü pisləyən, rus-qazax dostluğunu tərifləyən hissələr əlavə edilmişdir.

Auezov 1930-cu ildə Qazaxıstanın gənc yazıçılarının gizli təşkilatı ilə əlaqəsi olduğu üçün iki il yarım müddətində həbs olunur. Həbsxanadan çıxdıqdan sonra Muxtar Auezov, Alma-Atı şəhərinin müxtəlif ali məktəblərində müəllimlik edir və öz əsərlərinin yaradılması ilə məşğul olur. 1933-cü ildə o, yazmış olduğu şerlərin hamısını "Abay Yolu" adlı kitabda nəşr etdirir. Artıq 1937- ci ildə Auezov, Qazaxıstan ədəbiyyatının ən öndə gedən şairlərindən birinə çevrilə bilmişdir. 1942-ci ildə onun "Abay Yolu" kitabının ikinci hissəsi də çapdan çıxmışdır.

Muxtar Auezov, 3 iyun 1961-ci ildə müəyinə olunmaq üçün Moskva şəhərinə getmişdir. 27 iyun 1961-ci ildə isə ürəyində aparılan əməlliyyat zamanı vəfat etmişdir.

Bu Böyük Türkün yazmış olduğu digər mühüm əsərlər isə aşağıdakılardır: "Günahkar qız", "Yaşlı gözəl", "Gənc qurd", "Üç gün", "Bilək biləyə", "Dörd yaşındakı qartal, "Gecə küləyi", "Çətin gündə", "Beş dost", "Halva" və s.

## OLJAS SÜLEYMANOV
### *1936*

Müasir dövr Türk Ədəbiyyatının görkəmli nümayəndəsi, şair, yazıçı və siyasi xadim. Azərbaycan türklərinin həqiqi dostu və müdafiəçisi. Oljas 18 may 1936-cı ildə Qazaxıstanın Alma-Ata şəhərində hərbçi ailəsində dünyaya gəlmişdir. Daha sonralar Lev Qumilyov, Oljas Süleymanova onun atası ilə birlikdə Sibirdə sürgündə olduğunu və atasının orada güllələnməsini bildirmişdir. 1954-cü ildə Qazaxıstan Dövlət Universitetinin geoloji kəşfiyyat fakultəsinə daxil olub və 1959-cu ildə universiteti bitirmişdir. 1955-ci ildən etibarən ədəbi yaradıcılıqla məşğul olmağa başlamışdır. 1958-ci ildə isə Moskvada M.Qorki adına ədəbiyyat institutuna daxil olmuş və buranı da müvəffəqiyyətlə bitirmişdir.

Oljas Süleymanov hələ sovet dövründən türkçülüyün və türk həqiqətlərinin carçısı və bayraqdarı olmuşdur. Buna görə də təbii ki, bir çox mənəvi iztirablara və işgəncələrə məruz qalmışdır. O, yeni tipli şerləri ilə yaradıcılığa başlamış olsa da, tezliklə elmi-analitik istedadı özünü biruzə vermişdir. Bunun təbii nəticəsi olaraq keçən əsrin 75-ci ilində yaratmış olduğu "AZiYA" adlı elmi, publisistik, linqvistik əsəri anti-türk mahiyyətli Sovet İmperiyasında bomba partlayışı effekti vermişdir. Böyük sənətkar iradəsi və qətiyyəti ilə Oljas bəy əsasən qədim Şumerlər olmaqla, bir çox türk dilli xalqların, o cümlədən də rus etnogenezisinin formalaşmasında əsas və önəmli rol oynayan türk dilli çöl xalqlarının tarixinə və mədəniyyətinə yeni bir səhifə açmışdır. Bununla da o, sovet milli siyasətini və ideologiyasını şok vəziyyətinə sala bilmişdir. Onun gətirmiş olduğu arqumentlər, dəlil və sübutlar o qədər əsaslı və təkzibedilməz





olmuşdur ki, sovet akademikləri, tarixçiləri, dilçiləri və slavyanşünasları nə edəcəklərini bilmədən sözü gedən "AZiYA" əsərini SSRİ Elmlər Akademiyasının qapalı iclasında müzakirəyə çıxarmış və əsərin nəşrini sovet məfkurə aləmində yabançı bir hadisə kimi qiymətləndirmişdilər. Onların bundan artığını etməyə isə sadəcə olaraq gecləri çatmamışdı. Çünki artıq gec idi... Əsər Avropada və mərhum Natiq Səfərovun tərcüməsində Azərbaycan dilinə tərcüməsi ilə Türkiyədə də nəşr edilmişdir. Əsərin sanbalı və tezliklə əksər Avropa dillərinə tərcüməsi sayəsində Oljas Süleymanov, dünya şöhrətli yazıçıya çevrilmişdir. Əsərin nəşrindən sonra yazıçıya edilən təzyiqlər nəticəsində müəllif demək olar ki, bir neçə il heç nə yazmamışdır. Aradan bir müddət keçdikdən sonra yenidən ədəbi yaradıcılığa başlayan Oljas Süleymanov bir-birinin ardınca dünya səviyyəli əsərlər yarada bilmişdir.

Yeri gəlmişkən onu da deyək ki, 20 yanvar faciəsindən sonra hələ bizlərdən bəzilərinin SSRİ xülyası ilə yaşadığı dövrdə, məhz Oljas Süleymanov ali sovetdə bu hadisəni pisləmiş və Azərbaycan türklərini müdafiə etmişdir.

Qazaxıstan Respublikası müstəqillik əldə etdikdən sonra O.Süleymanov, 1995-ci və 2002-ci illər ərzində Qazaxıstanın italiyada fövqəladə və səlahiyyətli səfiri vəzifəsində işləmişdir.

O.Süleymanov bütün bu illər ərzidə ədəbi fəaliyyətindən geri qalmayaraq daim yazıb-yaratmışdır. Belə ki, o, 1998-ci ildə İtaliyanın paytaxtı Roma şəhərində "Məktub dili" adlı əsərini nəşr etdirmişdir. Sözü gedən kitabda müəllif insan oğlunun dil və yazısının necə yaranması haqda düşüncələrini yazmışdır. Yenə də həmin ildə onun "Allahın təbəssümü" əsəri işıq üzü görmüşdür. Yazıçı bundan sonra türkçülüklə əlaqədar olan "Kəsişən paralellər" və 2002-ci ildə isə yenə də həmin mövzuda olan "Türklər tarixdən öncə" əsərini yazmışdır. Sonuncu əsərində Süleymanov, qədim türk dilinin və yazısının necə

yaranmasından və formalaşmasından danışmaqdadır. Hansı ki, bu əsər ona "Gültəgin" mükafatı qazandırmışdır.

Böyük yazıçı və şair 2002-ci ildən etibarən Qazaxıtanın YUNESKO-dakı səfiri vəzifəsində çalışmaqdadır.

Oljas Süleymanovun şerləri və poemaları dünyanın bir çox dillərinə, o cümlədən də ingilis, fransız, alman, ispan, çex, polyak, bolqar, macar, monqol, türk və azərbaycan dillərinə tərcümə edilmişdir. Yazıçı daha çox Fransada məşhurdur və əsərləri daha çox bu ölkədə nəşr edilməkdədir.

O.Süleymanova şöhrət gətirən əsərlərdən biri də "İqor Polku dastanı"nının məhz türklər tərəfindən yaradılmaısını sübut etmək istəməsi olmuşdur. Sözü gedən əsərdən sonra onu milliyyətçilikdə, pantürkizmdə və panturanizmdə günahkar bilsələr də o, dastandakı türk mənşəli sözləri məharətlə və özünəməxsus tərzdə açıb göstərə bilmişdir.

Oljas Süleymanov yaradıcılığı ərzində bir çox müafatlara layiq görülmüşdür ki, bunların arasında Azərbaycan respublikası prezidentinin ona təqdim etdiyi "Şöhrət" ordeni və "Dostluq" medalı da vardır.

Oljas Süleymanov günümüzdə də dünya intellektual sferasında türk xalqlarının tarixinin bilicisi, Altay və Hind-Avropa dilləri və etnogenezisi məsələlərinin mahir ustadı kimi yaradıcılıq fəaliyyətini sürdürməkdədir. Hazırda bir vaxtlar akademik Marrın irəli sürdüyü bütün dillərin eyni kökdən əmələ gəlməsi haqqında olan nəzəriyyəni yeni, saysız-hesabsız nümunələrlə sübut edən fundamental tədqiqat işləri üzərində çoxillik işi başa çatdıraraq çap etdirmişdir.

Oljas bəy yeganə dünya səviyyəli türk dilli şəxsiyyətdir ki, böyük yığıncaqlarda, elmi simpoziumlarda, beynəlxalq səviyyəli siyasi toplantılarda Azərbaycan-Ermənistan konflikti məsələsində daim Azərbaycanın haqlı mövqeyini müdafiə etməkdən çəkinməməkdədir. Bizlərə isə 75 yaşı yenicə tamam olmuş bu böyük türk oğluna uzun ömür və bol yaradıcılıq illəri arzulamaq qalır.





## MÜNDƏRİCAT

### Azərbaycanın Böyük Türkləri


1. Zərdüşt ........ 10
2. Babək ........ 14
3. Bəhmənyar Əbülhəsən ........ 18
4. Nizami Gəncəvi ........ 20
5. Nəsirəddin Tusi ........ 23
6. İmadəddin Nəsimi ........ 26
7. Məhəmməd Füzuli ........ 28
8. Şah İsmayıl Xətai ........ 32
9. Nadir Şah ........ 39
10. Cavad Xan ........ 48
11. Mirzə Şəfi Vazeh ........ 52
12. Mirzə Fətəli Axundov ........ 56
13. Səməd Bəy Mehmandarov ........ 60
14. Mirzə Ələkbər Sabir ........ 63
15. Əli Bəy Hüseynzadə ........ 67
16. Əlimərdan Bəy Topçubaşov ........ 71
17. Mirzə Cəlil Məmmədquluzadə ........ 77
18. Fətəli Xan Xoyski ........ 82
19. Şeyx Məhəmməd Xiyabani ........ 87
20. Məhəmməd Əmin Rəsulzadə ........ 93
21. Üzeyir Hacıbəyov ........ 96
22. Müslüm Maqomayev ........ 100
23. Seyid Cəfər Pişəvəri ........ 102
24. Mircəfər Bağırov ........ 107
25. Qurban Səid ........ 110
26. Məhəmməd Şəhriyar ........ 116
27. Nəriman Nərimanov ........ 120

8. Rəşid Behbudov ........ 123
9. Heydər Əliyev ........ 126
10. Əlisa Nicat ........ 130

## Anadolunun Böyük Türkləri

1. Yunus Əmrə ........ 139
2. Mövlana Cəlaləddin Rumi ........ 142
3. Osman Qazi ........ 147
4. Fateh Sultan Mehmet ........ 151
5. Yavuz Sultan Səlim ........ 155
6. Piri Rəis ........ 159
7. Xeyrəddin Barbaros ........ 163
8. Memar Sinan ........ 167
9. Qanuni Sultan Süleyman ........ 170
10. Ziya Göyalp ........ 176
11. Ənvər Paşa ........ 180
12. Nuru Paşa ........ 183
13. Mustafa Kamal Atatürk ........ 187
14. Nazim Hikmət ........ 191
15. Alp Arslan Türkeş ........ 195
16. Barış Manço ........ 200
17. Orxan Pamuk ........ 203

## Orta Asiyanın Böyük Türkləri

1. Oğuz Xan ........ 208
2. Attila ........ 212
3. Odoakr ........ 222
4. İltəriş Xaqan ........ 226





5. Tonyukuk ........ 228
6. Qapağan Xaqan ........ 231
7. Bilgə Xaqan ........ 236
8. Gül Təgin ........ 239
9. Əbu Nəsr Məhəmməd Fərabi ........ 241
10. Sultan Səlcuq ........ 245
11. Mahmud Qəznəli ........ 248
12. Əbu Reyhan əl-Biruni ........ 252
13. Əbu Əli ibn Sina ........ 253
14. Alp Arslan ........ 256
15. Mahmud Qaşqarlı ........ 259
16. Çingiz Xan ........ 264
17. Cəlaləddin Xarəzmşah ........ 269
18. Batı Xan ........ 275
19. Hülakü Xan ........ 278
20. Əmir Teymur ........ 281
21. Uluğ Bəy ........ 287
22. Əlişir Nəvai ........ 291
23. Babur Şah ........ 295
24. Əkbər Şah ........ 300
25. Cahan Şah ........ 302
26. Məzdumqulu Fəraqi ........ 307
27. Abay Kunanbayev ........ 311
28. Yusif Akçura ........ 315
29. Muxtar Auezov ........ 319
30. Oljas Süleymanov ........ 322

# Ceyhun Çingizoğlu

## " Böyük Türklər"

Yığılmağa verilmişdir: 25.01.2012
Çapa imzalanıb: 22.02.2012
Formatı 60x84 1/64
Çap vərəqi 20,5
**Tiraj 300 ədəd**